AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
M. FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU

FİLOLOGİYA MƏSƏLƏLƏRİ

№ 7

Toplu Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən rəsmi qeydiyyata alınmışdır (Filologiya elmləri bölməsi, №13).
Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Mətbu nəşrlərin reyestrinə daxil edilmişdir. Reyestr №3222.

«Elm və təhsil»
Bakı – 2019

Jurnalın təsisçiləri: Azərbaycan Milli Elmlər Akademiyası Əlyazmalar İnstitutu və «Elm və təhsil» nəşriyyatı

REDAKSİYA HEYƏTİ: akademik İsa Həbibbəyli, akademik Vasim Məmmədəliyev, akademik Teymur Kərimli, akademik Möhsün Nağısoylu, akademik Nizami Cəfərov, AMEA-nın müxbir üzvü, f.ü.e.d., prof. Əbülfəz Quliyev, f.ü.e.d., prof. Vilayət Əliyev, f.ü.e.d., prof. Fəxrəddin Veysəlli, f.ü.e.d., prof. Qəzənfər Kazımov, f.ü.e.d., prof. Rüfət Rüstəmov, f.ü.e.d., prof. Əsgər Rəsulov, f.ü.e.d., prof. Nadir Məmmədli, f.ü.e.d., prof. Əbülfəz Rəcəbli, f.ü.e.d., prof. İsmayıl Məmmədli, f.ü.e.d., prof. Məsud Mahmudov, f.ü.e.d., prof. Nizami Xudiyev, f.ü.e.d., prof. Həbib Zərbəliyev, f.ü.e.d., prof. İlham Tahirov, f.ü.e.d., prof. Tofiq Hacıyev, f.ü.e.d., prof. Sevil Mehdiyeva, f.ü.e.d., prof. Buludxan Xəlilov, f.ü.e.d., f.ü.e.d., prof. Mübariz Yusifov, f.ü.e.d., prof. Qəzənfər Paşayev, f.ü.e.d., prof. Cəlil Nağıyev, f.ü.e d., prof. Kamilə Vəliyeva, f.ü.e.d., prof. Azadə Musayeva, f.ü.e.d. Paşa Kərimov, f.ü.f.d., dos. Nəzakət Məmmədli

Redaktor: akademik Teymur Kərimli
Buraxılışa məsul: filologiya elmləri doktoru, professor Nadir Məmmədli

Filologiya məsələləri. Bakı, 2019, № 7

ISSN 2224-9257

© ”Elm və təhsil” nəşriyyatı, 2019

www. filologiyameseleleri.net

DİLÇİLİK

ƏSMƏTXANIM MƏMMƏDOVA
BDU
Zahid Xəlilov23
Filologiya üzrə fəlsəfə doktoru, dosent
E-mail: kamillik@mail.ru

FARS DİLİNDƏ [m] SONANTİNİN DİSTRİBUTİV VƏ FONETİK XÜSUSİYYƏTİ

Xülasə

Bu məqalədə fars dilinin sonor samiti [m] araşdırılmışdır. Tədqiqat işləri Sank-Peterburq şəhəri Dövlət Universitetinin Pus dili kafedrasınıın L.V. Şerba adına Eksperi-mental Fonetika laboratoriyasında yerinə yetirilmişdir. Diktorlar dörd iranlı tələbə olmuşdur. Təcrübə işlərində dövrün müasir aparatlarından istifadə olunmuşdur. 3600 söz, tərkiblərdən düzəldilmiş proqramlar diktorlar tərəfindən oxunduqdan sonra maqnit lentləri 102 tipli 8 şleyfli ossiloqraf, spektoqraf СЗЧ, "Görünən nitq" nümunələri vasitəsilə tədqiq edilmişdir.

Sonor, yaxud sonant elə səslərdir ki, tələffüzləri zamanı küy ya heç iştirak etmir, və ya çox az miqdarda iştirak edir. Səslər akustik baxımdan sonorlara (səslilərə) və küylülərə bölünürlər. Sonor səslər rezonator tonu ilə müəyyənləşir. Sonorların ağız sonorları, burun sonorları, dilyanı kimi növləri mövcuddur.

Tədqiqat göstərir ki, hər bir fonemdə olduğu kimi [m] sonorunun da distributuv xüsusiyyəti, variativliyi, bir sözlə akustik və fonoloji təhlili aparıldıqda maraqlı nəticələr əldə edilir. Fars dilində [m[foneminin yuxarıdakı şərtlərdən asılı olaraq 6 allafonu mövcuddur

Açar sözlər : samit, sonant, fonem, heca, artikulyasiya, distribusiya

Giriş: Sonor, yaxud sonantlar elə səslərdir ki, tələffüzləri zamanı küy ya heç iştirak etmir, və ya çox az miqdarda iştirak edir. Səslər akustik baxımdan sonorlara (səslilərə) və küylülərə bölünürlər. Sonor səslər rezonator tonu ilə müəyyənləşir (3, s. 256).

Müqəddimə: Fars dilinin bir samit fonem kimi formalaşan hər bir səsi ayrı - ayrılıqda söz daxilində bir neçə cür tələffüzə malik ola bilir. Bunlar qonşuluq etdikləri səslərin fiziki-akustik xüsusiyyətlərinə, hecaların növünə, söz daxilində yerləşmə şəraitinə, vurğulu və vurğusuz heca tərkibində olmalarına görə bir fonemin müxtəlif variantları kimi təzahür edirlər, lakin bu səslərin hər biri nə qədər fərqli tələffüz variantlarına malik olsalar da idrakda, başa düşülmədə adətən eyni bir səsin müxtəlif allafonları olurlar.(5,s.271)

1. Fars dilinin sonantları

Fars dilinin [m], [n],[l], [r] sonor samitlər hansı rezonatorda əmələ gəlmələrinə görə ağız və burun sonorlarına bölünür. Danışıq səslərinin formalaşmasında 2 əsas rezonator- ağız və burun boşluğunun mühüm rolundan danışmaq lazımdır. Damaq pərdəsi, dilçək aşağı düşərək ağız boşluğunun yolunu kəsdikdə bronxlardan gələn hava ağız boşluğuna deyil, burun boşluğuna gedir və buradan keçib, xaricə çıxır. Nəticədə fars dilinin [m] , [n] burun sonantları formalaşır ki, bunlardan da [m] qoşa dodaq burun sonoru; [n] isə dilönü, burun sonorudur.

Əgər damaq pərdəsi yuxarı qalxıb burun boşluğunun yolunu kəsərsə, nəticədə səs axını ağız rezonatoruna gedər. Bu zaman fars dilinin ağız sonorları [l], [r] və küylü samitlərin hamısı əmələ gəlir. Bu məqalədə biz burun sonoru [m] fonemini fonetik, fonoloji, distributiv xüsusiyyətlərini araşdırmağa çalışacayıq. Tədqiqatda məqalə müəllifinin müxtəlif illərdə Sankpeterburq Dövlət

Universitetinin Rus dili kafedrasının L.R. Şerba adına Eksperimental fonetika laboratoriyasında apardığı təcrübə işlərinin nəticələrindən istifadə olunmuşdur. (4, s.52)

2. [m] samiti

Bu səs kipləşən-partlayışlı sonor, cingiltili, qoşa dodaq samitidir. Tələffüzü zamanı ağız üzvlərinin vəziyyəti /b/-nı tələffüz edərkən aldığı vəziyyətlə eyni olur. Lakin [m] əmələ gələrkən damaq pərdəsi aşağı düşərək, ağız boşluğunun yolunu kəsdiyindən, ciyərlərdən gələn hava axını burun rezonatoruna gedir. Hava axınının təzyiqi ilə dodaqlar açılır. Lakin [b] -da olduğu kimi patıltı olmur, həm də /m/ samitində küy az, ton çox olduğundan bu səs sonor adlanır və hər cür fonetik mövqedə gəlməklə yanaşı fars dilində ən çox işlənən samitlər-dəndir: söz əvvəlində: /madər/, /mən/, /mesvak/, /menval/, /mənučehr/; söz ortasında: /damən/, /məmur/, /əmr/;söz sonunda: /adəm/, /jam/, /dəmbədəm/.

[m] və [b] dilin ağızda tutduğu, dodaqların aldığı vəziyyətə görə eyni yerdə formalaşırlar. Hər ikisinin tələffüzündə dodaqlar bir-birinə kip sıxlaşmış olur. Bunların fərqi hava axınının hansı rezonatora getməsindədir(1, s. 396). Yanaşı gələn [nb] samit birləşməsinin [mb] kimi tələffüzü, məhz, artikulyasiya orqanlarının eyni vəziyyətdə olması nəticəsidir.[n] dil diş samitini tələffüz etdikdən sonra, dil vəziyyətini dəyişməli, üst dişlərin yuvaqlarına sıxılmalıdır ki, bunu etmədən /n/-nın əvəzinə ona oxşar [m] foneminin tələffüzünə keşir. Məsələn, /šənbe/-/šəmbe/, /jonbeš/-/jombeš/, /sonbol/-/sombol/, /ənbar/-/əmbar/, /donbal/-/dombal, /tənbəl/-/təmbəl/

Bəzən /m/ fonemi /n/foneminə çevrilir :/bam/-/ban/, /kəjim/-/kəjin/ və s.

Sonor samitlər üçün dediyimizi buraya da aid edib, deyə bilərik ki, [m] samiti də tələffüzünün asanlığına görə /CC/ birləşməsində fəallıq göstərir.

Cədvəl 1 [m] samiti /CC/ birləşməsində:

CC birləşməsinin birinci tərəfi			CC birləşməsinin ikinci tərəfi		
kipləşən	novlu	sonor	kipləşən	novlu	sonor
hətm	rəsm		səmt	ləms	ʾəmn
hokm	ʾəzm		həmd	rəmz	
soqm	xəšm		ʾomd	šemš	
təʾm	ʾəxm		jəmʾ		
	səhm				
	qovm				

Yuxarıdakı cədvəldən aydın olur ki:

1. [m] sonoru /CC/ birləşməsində 4 dil faktında [t, k, q, ʾ] kipləşən samitlərdən sonra gələ bilmişdir.

2. Cədvəldəki misallardan fars dilində [dm] birləşməsinin olmadığını görürük. Bu da dilin özünün daxili məhdudiyyəti ilə bağlıdır.

3. [m] samiti [p,b,g] kipləşən samitlərini də /CC/ tərkibində izləyə bilmir. [b] ilə eyni tələffüz məxrəcində formalaşdığı; [p] və [g] samitləri isə dildə işlənmə tezliyinə malik deyillər. Qeyd etmək lazımdır ki, son dövrlər Avropa dillərindən alınmış iki /bomb/ və /pomp/ sözlərində [mb, pm] birləşməsinə təsadüf edilsə də fars dili üçün xarakterik olmadığından bunları dildə istisna kimi qəbul edirik.

4. /CC/ birləşməsinin ikinci tərəfində [m] sonorunu kipləşənlərdən [t,d, q, ʾ] izləyir; [p,b, k, g] isə izləyə bilmir. ([b] ilə eyni tələffüz məxrəcində formalaşdığı; [p] və [g] samitlərinin dildə işlənmə tezliyi az olduğundan;[k] ilə artikulyasiya məxrəcinin yaxınlığı səbəbindən.)

5. [m] sonorunu 6 nümunədə novlu samitlərdən əvvəl; 3 nümunədə isə onlardan sonra gəlmişdir.

6. [m] samitini novlulardan[s, z, š] izləyir; qalan novlular isə [f,v,x,h,ž] /CC/ birləşməsində bir hecalı sözlərda izləyə bilmir.

7. Novlu samitlər [m] -dan əvvəl gəldikdə daha fəallıq göstərirlər. Burada 6 nümunəyə uyğun leksemlər formalaşır:[sm,zm, šm, xm, hm,vm]; bu samit novlulardan yalnız [ž və f]- ni izləyərək, /CC /birləşməsi yarada bilmir.

8. [m[samiti müəyyən məhdudiyyətlərlə ağız və burun sonorlarından həm əvvəl, həm də sonra gələ bilir: /helm-həml; kerm- ʾəmr- gərm ; əmn/.

Qeyd etmək lazımdır ki, fars dilində /CVCC / tipli sözlərdə sonor samitlər küylülərə nisbətən daha çox fəallıq göstərirlər. (7, s.140)

Aşağıda [m] sonorunun /CVCC/ tipli heca modulunda başqa samitlərlə distribusiyasını nəzərdən keçirsək (söz sonunda yanaşı gələn iki samit nəzərdə tutulur), sonorların fəallığına baxmayaraq, yenə də dilin bütün samitlərinin bir-birini tam şəkildə izləmədiyini görürük (Ətraflı məlumat almaq üçün bax:4, s. 252-275).

Bildiyimiz kimi fars dili əlifbasında olan 32 hərfdən 31 - i özünəməxsus qrafik nümunəsi olan samitlərdir. Buraya ərəb dilindən alınmış 8 qrafik nümunə də daxildir. Beləliklə, [m] sonorunun dildəki mövcud samit qrafik nümunələrlə, başqa sözlə hərflərlə distributiv vəziyyətri aşağıdakı kimidir: م /m/- samitini /CVCC/ tipli sözlərdə

izləyənlər: ب، ت، ث، ج، ح، د، ر، ز، س، ش، ض، ع، غ، ق، ل، م، ن


izləməyənlər: پ، چ، خ، ذ، ژ، ص، ط، ظ، ف، ک، گ، و، ه، ی

Göründüyü kimi 31 samit hərfdən 17- si onu birhecalı söz daxilində izləyə bilmiş,

14-üisə izləyə bilməmişdir.


م[m] - nı dilin samit hərfləri [bomb,səmt,təms, semc, romh,həmd,`əmr,rəmz, şəms, şemş,həmz,şəm`,somq, hosğ, həml,şəmm,`əmn,] kimi həm ərəb dilindən alınmış, həm də farsların doğma sözlərində izləyə bilirlər.

Distribusiya bir dilçilik termini kimi rus dilində *дистрибуция* (*распределение);* ingilis və fransız dillərində d*istribution* adlanaraq – Müəyyən dilin əlamətlər və ya vahidlər əhatəsinin məcmusudur. "Dilin hər hansı elementinin (fonem, morfem, leksem və s.) distribusiyası onun işlənə bildiyi bütün mövqe və əhatələrin məcmusu olub, adətən bu vahidin işlənmədiyi bütün mövqe və əhatələrə qarşı qoyulur."(2,s.209)



Şəkil 1


Fars dilinin bütün samit fonemlərində olduğu kimi /m/da söz sonunda, vurğylu hecada dayanmasından asılı olmayaraq, bəzi fiziki xüsusiyyətlərini zəiflədir.(müqayisə et: /qə`ləm/ sözündəki [m] və /kək`mək/ leksemindəki vurğulu hecanın başında gələn [m] fonemi.).



Şəkil 2


Osilloqraf lentlərində gördüyümüz fərqləri “Görünən nitq” nümunələrində verilmiş /damad/ və /pərçəm/ sözlərindəki /m/ sonorunu müqayisə etdikdə də aydın müşahidə etmək mümkündür. /damad/ sözündəki distributiv şəraitinə görə iki sait arasında və vurğulu hecanın əvvəlində dayanan /m/ sonoru səsin hər dörd fiziki xüsusiyyətini bütün dolğunluğu ilə özündə əks etdirir. Buraya səsin uzunliğu- t; intensivliyi – İ; tonu- F keyfiyyət göstəricisi daxildir.

Şəkil 3 və şəkil 4-dəki [m] sonorlarının görünən nitq nümunələrindəki fərqlər sözün sonunda



Şəkil 3

gələn samitlə ortasında gələn samitin eyni olmadığını, eləcə də samitlərin tələffüzünə fonetik şəraitin, qonşuluq etdiyi səslərin, hecanın harasında dayanmasının, vurğrlr, vurğusuz hecada dayanmasının böyük və qaçılmaz təsiri olduğunu təsdiqləyir.(4, s.65-70



Şəkil 4

Nəticə: Nəticə olaraq qeyd etmək lazımdır ki, hər bir fonemdə olduğu kimi /m/ sonorunun da distributuv xüsusiyyəti(4, 270), variativliyi, allafonları , bir sözlə akustik və fonoloji təhlili aparıldıqda maraqlı nəticələr əldə edilir. Fars dilində /m/ foneminin yuxarıdakı şərtlərdən asılı olaraq 6 allafonu mövcuddur.

İstifadə olunmuş ədəbiyyat

1. David Cristal, A Dictionery of Linguistics and Fhonetics, Fifth edition,USA, Oxsford: 2003,508
2. Dilçilik Ensiklopediyası, F.Veysəllinin redaktorluğu ilə, I cild, "Mütərcim", Bakı: 2006, səh.514
3. Dilçilik Ensiklopediyası, F.Veysəllinin redaktorluğu ilə, II cild, "Mütərcim", Bakı: 2008, səh.526
4. Məmmədova Ə. B. Fars dilində vurğu, AMEA, Nafta-press nəşriyyatı,; Bakı: 2007 səh. 242
5. Məmmədova Ə.B., Müasir fars dili samit fonemlərinin distribusiyası Az.MEA, akad. Z.M.Bunyadzadə adına Şərqşünaslıq İnstitutunun Elmi tədqiqləri, Şərq filologiyası məsələləri, IY buraxılış, səh. 252-275, Bakı: 2009
6. Мамедова А.Б., Фонемный инвентарь современного персидского языка, «Перспективы науки», Научно-практический журнал,№ 10, октябрь, стр. 125-129, Тамбов: 2013
7. Yədollah S., Avaşenasi-ye zəban-e farsi, virayeş-e dovvom, Mərkəz-e nəşr-e daneşqahi, Tehran: 1392, 195 s.

.

A .Мамедова

Фонетический и дистрибутивный характеристика сонант [m] в персидском языке

Резюме

В данной статье исследуются сонорный консонант персидского языка [m] . Наши исследования были проведены в фонетической лаборатории имени Л.В.Щербы Кафедра русского языка Санкт-Петербургского Государственного Университета. Дикторами были четыре студента иранцы. В исследовании была использована современнейшая аппаратура. После чтения различных программ составленных из 3600 слов и словосочетаний, были анализированы в образцах аппарата восьми шлейфного осциллографа типа 102 и спектрографом СЗЧ и «Видимой речью».

Сонорный или сонант - согласный звук, в образовании которого голос играет главную роль, а шум либо вообще отсутствует, либо участвует в минимальной степени;

противопоставленный шумный. Существует различные виды сонорных звуков: сонорные боковые; сонорные боковые; сонорные дрожащие; сонорные носовые.

Исследование показывает что, как и во всех фонемах также и сонорный фонема [m] в зависимости фонетический позиции, дистрибутивности, вариативности, акустический и фонологический анализ этого сонанта получаем интересные выводы.

В персидском языке сонорный фонема /m/ зависима, от вышеуказанного условия имеет 6 аллофонов.

Ключевые слова: согласный, сонант, слог, фонем , артикуляция, дистрибуция

A .Mammadova

The phonetic and distributives feature of the sonant [m] in Persian language

Sammary

This article deals with sonant consonant's [m] in the Persian language. The investigations were carried out at the phonetics lab of the department of Russian language of Sank-Petersburg's State University of Experiment ales Phonetics named after L.V.Sherba with the participation and pronunciations of four Iranian students using the contemporary apparatus. After reading programmers consisting of 3600 words and structure at oscillograph apparatus with 102 types and 8 chutes, at spectrometry with SZC type "visual speech examples" they were dialyzed and investigated as well.

Resonant term used by some phoneticians to refer to speech sounds produced at the glottis with a relatively wide articulatory channel, so that no subsequent audible friction is produced, e.g. vowels, laterals, nasals, frictionless continuants.

The investigation shows that as in every phoneme the distributive feature of the sonant /m/, its variety with one world if we make their acoustic and phonological analyses we come across with interesting results. Depending on the above mentioned conditions, the phoneme [m] has 6 allophones.

Key words: consonant, sonant , phoneme, syllable, articuletion, distribution

Redaksiyaya daxil olma tarixi: 01.04.2019
Çapa qəbul olunma tarixi: 17.04.2019
Filologiya elmləri doktoru, professor Nigar Musayeva tərəfindən çapa tövsiyə olunmuşdur.

NABAT CƏFƏROVA
Pedaqogika elmləri doktoru
E-mail: Cafarova_nabat@ mail.ru
Azərbaycan Dövlət Pedaqoji Universiteti

AZƏRBAYCAN DİLİNİN TƏDRİSİNDƏ İNNOVATİV TƏLİM METODLARINDAN İSTİFADƏ

Xülasə

Azərbaycan dilinin tədrisində yeni innovativ metodlardan istifadə şagirdlərin kommunikativ bacarıqlarının yüksək səviyyədə inkişafına səbəb olur. Azərbaycan dilinin tədrisi sagirddə dilə mükəmməl yiyələnmək, harada olmasından asılı olmayaraq, vətənini layiqincə təmsil etmək istəyi yaradır. Həmçinin şagirdin aramsız dəyişən şəraitə uyğunlaşması üçün zəruri bacarıqların əldə olunmasına şərait yaradır.

İnnovativ təlim metodları şagirdlərin ümuminkişafını təmin etməklə yanaşı, təlimin, o cümlədən Azərbaycan dili tədrisin keyfiyyətini artırmaq üçün vacib bir vasitədir. İnnovativ təlim metodları dərsin keyfiyyətini artırmaq üçün vacib bir vasitədir. Bu metodlardan istifadə şagirdlər üçün dərsi çox maraqlı və cəlbedici edir. İnnovativ təlim həm təlimin məzmunun öyrənilməsini, həm də bu məzmunun tətbiqini daha səmərəli edir, şagirdlərin dərketmə fəaliyyətini daha da fəallaşdırır.

Fəal dərsdə təfəkkür prosesini işləməyə sövq edən və şagirdlərin idrak fəallığını artıran innovativ metodlar şagirdlərin öz potensial imkanlarından maksimum istifadə etməsinə səbəb olur. Azərbaycan dilinin tədrisində motivasiya qismində ortaya gətirilmiş problemin həlli şagirdin daxili maraq və tələbat kimi çıxış edir.

Açar sözlər: qloballaşma, tədris, innovasiya, fəal təlim, interaktiv metodlar

Qloballaşma prosesinin, Avropaya inteqrasiyanın gücləndiyi indiki dövrdə bir və ya bir neçə dildə ünsiyyət qurmağı bacaran səxsiyyətin formalaşdırılması müasir məktəbin mühüm vəzifələrindən biridir. Həmçinin dil dərslərinin təşkilində müasiir təlim metodlarının tətbiqi aktuallıq kəsb edir.

Azərbaycan dilinin tədrisində innovativ metodlardan istifadə şagirdlərin kommunikativ bacarıqlarının yüksək səviyyədə inkişafına səbəb olur. Azərbaycan dilinin tədrisi şagirdlərin ümumi nitq və dil bacarıqlarını formalaşdırmaqla nitq mədəniyyətinə yiyələnmələrini təmin edir. Belə ki, innovativ təlim metodlarından istifadə Azərbaycan dilində nitq bacarıqlarının formalaşdırılmasında müvəffəqiyyətin əldə olunmasının açarıdır.

İnnovativ təlim metodları şagirdlərin ümuminkişafını təmin etməklə yanaşı, təlimin, o cümlədən Azərbaycan dili tədrisinin keyfiyyətini artırmaq üçün vacib bir vasitədir. Yeni təlim metodları şagirdlərin fəaliyyətini stimullaşdırır, onların linqvistik biliklərini genişləndirir, ünsiyyət mədəniyyətinin formalaşmasında mühüm rol oynayır. Həmçinin onların real həyat şəraitinə uyğunlaşmasını, adaptasiya etməsini təmin edir, nitq bacarıqlarını inkişaf etdirir, həyatı vərdişləri qazanmalarına əlverişli şərait yaradır. Məhz bu yolla şagirdlərə öz fəaliyyətini təşkil etməyi öyrətmək, tədqiqat apara bilmək bacarıq və vərdişlərini inkişaf etdirmək, onların təxəyyülünü, məntiqi və tənqidi təfəkkürünü, yaradıcı potensialını yüksəltmək daha asan və səmərəli olur.

İnnovativ təlim metodları dərsin keyfiyyətini artırmaq üçün vacib bir vasitədir. Bu metodlardan istifadə şagirdlər üçün dərsi çox maraqlı və cəlbedici edir. İnnovativ təlim həm təlimin məzmunun öyrənilməsini, həm də bu məzmunun tətbiqini daha səmərəli edir, şagirdlərin dərketmə fəaliyyətini daha da fəallaşdırır.

Azərbaycan dilinin tədrisi sagirddə dilə mükəmməl yiyələnmək, harada olmasından asılı olmayaraq, vətənini layiqincə təmsil etmək istəyi yaradır. Həmçinin şagirdin aramsız dəyişən

şəraitə uyğunlaşması üçün təsiredici zəruri bacarıqların əldə olunmasına şərait yaradır. Yeni təlim metodları, fəal dərsin quruluşu, motivasiya nəticələrin əldə olunmasında mühüm rol oynayır.

Fəal dərsin quruluşuna nəzər salaq:

I mərhələ: Motivasiya, problemin qoyulması.

II mərhələ: Tədqiqatın aparılması.

III mərhələ: Məlumat mübadiləsi.

IV mərhələ: Məlumatların müzakirəsi və təşkili.

V mərhələ: Nəticlərin çıxarılması, ümumiləşdirmə.

VI mərhələ: Yaradıcı tətbiqetmə.

VII mərhələi: Qiymətləndirmə və ya refleksiya [3, s.30].

Bəs nə üçün dərsin birinci mərhələsi motivasiya adlandırılır? Ona görə ki, psixoloji amil olan motivasiya hər hansı fəaliyyətin mexanizmini işə salan sövqedici qüvvə polunu daşıyır. Azərbaycan dilinin tədrisində isə motivasiyanın rolu əvəzolunmazdır. Təlimin tədqiqi ilə bağlı əsərlərdə daxili (integrative) və xarici (instrumental) motivasiya növləri səciyyələndirilir. Adından məlum olduğu kimi xarici motivasiya xaricdən, daxili motivasiya şagirdin daxili maraq və tələbatlarından doğur. Fəal dərsdə təfəkkür prosesini işləməyə sövq edən və şagirdlərin idrak fəallığını artıran qüvvə motivasiya qismində ortaya gətirilmiş problemdir. Azərbaycan dilinin tədrisində motivasiyanın düzgün qurulması və ya istiqamətləndirilməsi şagirdlərin öz potensial imkanlarından maksimum istifadə etməsinə səbəb olur. Motivasiya müxtəlif, lakin bir-biri ilə sıx əlaqəsi olan faktorlardan asılıdır. Bu prosesin ən mühüm nailiyyətlərindən biri düşünmə qabiliyyətinin sərbəstliyi və müstəqilliyidir: şagird öz fikrini "Zənimcə…", "Mənə belə gəlir ki,…", "Mən belə hesab edirəm ki,…" sözlərindən istifadə etməklə ifadə edir [4, s.26].

Məlum olduğu kimi hər bir tədqiqata-dərsə başlayarkən problemi araşdırmaq lazımdır. Əsl problem həmişə çoxsaylı fərziyyələr, ehtimallar doğurur və bunları yoxlamaq üçün ilk növbədə tədqiqat sualı formalaşdırılır. Tədqiqat sualı yeni bilgilərin kəşfinə aparan, "yolgöstərən" rolunu oynayır. Motivasiyada problemin qoyulması şagirdlərdə idrak fəallığının yaranması üçün mühüm addım hesab olunur.

Fəal təlimin mühüm xüsusiyyətlərindən biri müstəqil təlim, müstəqil inkişaf vərdişlərinə yiyələnmək imkanıdır. Bunun üçün qeyd olunanlar əsasdır: məntiqi düşünmə; ətraf aləmin cisim və hadisələrinə tənqidi yanaşma; müstəqil olaraq qərar çıxarma; ətrafda olanları yaradıcı surətdə dəyişmə; bilikləri müstəqil əldə etmə; praktik problemləri həlletmə; şəxsiyyətin inkişafına dair yeni məqsədlər qarşıya qoyma və s.[6, s.6].

İnnovativ metodlar yaradıcı, tədqiqata əsaslanan təlim prosesini ehtiva edir. Burada müəllim biliklərin əldə edilməsi yolunun bələdçisi, şagird isə tədqiqatçı, bilikləri kəşf edən, təlimin obyektindən subyektinə çevrilən tərəf kimi çıxış edir. İnnovativ təlim metodlarının tətbiq edildiyi dərs təlimdə iki tərəfin (müəllim və şagird) eyni zamanda fəal olması ilə xarakterizə edlir. Bu zaman ən çox işlənən metod "Beyin həmləsi"dir(Brain-storming). Bu metodun bir neçə texnikası vardır: şaxələnmə (klaster), əqli xəritə (mind map), hörümçək toru (web) və s.[2, s.129].

Beyin həmləsi metodunun üstünlüyü ondadır ki, burada az müddətdə ümumi məqsədlə bağlı müxtəlif ideyalar yaranır. Azərbaycan dilinin tədrisində rollu oyun, layihə, esse, inşa yazılar, insert, layihələr, şəkillər, modelləşdirmə, karusel, müzakirə, qrafik cədvəllər, Venn diaqramı, BİBÖ, iki hissəli gündəlik, beşlik(sinkvey) və s. metodların tətbiqi yüksək effekt yaradır. İnnovativ metodların tətbiqinin bir neçə başlıca xüsusiyyəti vardır.Məsələn:

- müəllim tərəfindən dərsin mahiyyətini açmağa atılan ilk addım olan problemli vəziyyətin yaradılması;
- problemli vəziyyətin həlli zamanı şagirdlərin tədqiqatçılıq imkanlarının inkişafı;
- müəllim tərəfindən verilən yeni biliklərin şagirdlər tərəfindən müstəqil dərk olunması;
- yeni biliklərin mənasının açılması və mənimsənilməsi üçün şəraitin yaradılması.

İnnovativ təlim metodları şagirdlərin dərs zamanı aktivliyini təmin etməklə yanaşı, şagirdi düşündürən vəziyyətin yaradılması, müəllim-şagird, şagird-şagird arasındakı ziddiyyətsiz əməkdaşlığa, fikirləri müstəqil yürütməyə, sərbəstliyə, nitq və təfəkkürün inkişafına, şüurlu

dərketməyə, biliklərin müstəqil əldə edilməsinə, biliklərin yaradıcı tətbiqinə və sübuta yetirilməsinə əsaslanır.

Fəal təlim prosesində müəllim bələdçi rolunu oynadığı üçün onun öhdəsinə bir çox vəzifələr düşür. Bu vəzifələrə müəllimin dərs prosesində sinifdə şagirdlərin fəal, müstəqil hərəkət etmələri üçün işgüzar şərait yaratması, sosial bərabərliyin, psixoloji mühitin nəzərə alınması, yaradılması, şagirdlərin narazıçılığına səbəb olmamaq üçün obyektiv qiymətləndirmənin aparılması və s. daxildir.

İnnovativ təlim metodları şagirdləri yeniliyi öyrənməyə həvəsləndirir, onların dərsə marağını artırır ki, bu da təlimin səmərəliliyini təmin edir. Bir dərs nümunəsinə nəzər salaq:

Standart: 1.1.1; 1.1.2; 1.2.2; 2.1.1

Mövzu: Alınma sözlər

Təlim nəticəsi: 1. Alınma sözlər mövzusunda danışanın fikrini verdiyi suallar əsasında aydınlaşdırır

2. Alınma sözlər haqqında dinlədiyi məlumatlardakı əsas faktları seçir.

3. Alınma sözlər mövzusunda fikirlərini konkret fakt və nümunələrlə əsaslandırır.

4. Alınma sözlər mövzusunda lüğətlərdən istifadə etməklə tanış olmadığı sözlərin mənasını müəyyənləşdirir.

İnteqrasiya: Ədəbiyyat, Həyat bilgisi

İş forması: kiçik qruplarla iş

İş üsulları: əqli hücum, Venn diaqramı, BİBÖ, klaster, müzakirə

Resurslar: xəritə, izahlı lüğət, iş vərəqləri, marker, pozan və s.

Motivasiya:Problemin qoyulması



Xəritə lövhədən asılır. Müəllim soruşur:

-Uşaqlar, xəritədə nə görürsünüz? (Fərziyyələr dinlənilir).

- Bəs həmin ölkələrin dillərinə aid sözlər bilirsinizmi? (Fərziyyələr dinlənilir).

- Dilimizdə ərəb, fars dillərinə aid sözlər hansılardır? (Fərziyyələr dinlənilir).

-Rus dilindən alınan sözlər hansılardır? (Fərziyyələr dinlənilir).

-Bəs Avropa dillərindən hansı sözlər dilimizə keçib? (Fərziyyələr dinlənilir).

Tədqiqat sualı: Nəyə görə dilimizə başqa dillərdən sözlər keçir?

Tədqiqatın aparılması: Şagirdlər sözlərlə qruplara bölünür. Hər qrupa iş vərəqi təqdim olunur.

İş vərəqi 1

1.Dilimizə hansı dildən daha çox söz keçib? Nə üçün?

2.Nəyə görə dilimizə çin dilindən keçən söz yoxdur

3.Alınma sölərə aid klaster qurun.

İş vərəqi 2

1.Hazırda dilimizə qonşu dillərdən sözlər keçə bilərmi?

2.Dilimizdən də başqa dillərə söz keçə bilərmi?

3.Alınma sözlər haqqında BİBÖ cədvəli qurun.

İş vərəqi 3

1.Alınma sözlər dilimizin lüğət tərkibini korlaya bilərmi?

2.Müasir türk dilindən keçən sözlər alınmadırmı?

3.Azərbaycan sözləri və alınma sözlərə dair Venn diaqramı qurun.

İş vərəqi 4

1.Dinlə bağlı sözlər, sizcə,hansı dildən keçib?

2.Alınma sözləri dilimizin ahəng qanununa uyğunlaşdırmaq mümkündürmü?

3. Alınma sözlərlə bağlı esse qurun

Məlumat mübadiləsi: Qrup liderləri öz işlərini təqdim edir və alınma sözlərə aid fikirlərini söyləyirlər.

Məlumatın müzakirəsi: Məlumatlar müzakirə olunur, milli və alınma sözlər qarışılıqlı müqayisə edilir, fikirlər əlaqələndirilir.

Nəticə və ümumiləşdirmə: Alınma sözlərə aid bütün fərziyələr müqyisə olunur, bəzi fərziyələrin təsdiq olunub-olunmaması haqqında nəticələr çıxarılır. Əldə olunan bilgilər ümumiləşdirilir, konkret nəticəyə gəlinir.

Qiymətləndirmə və ya refleksiya: Qiymətləndirmə meyarlar əsasında aparılır.

MEYARLAR / **QRUPLAR**	1	2	3	4
Danışanın fikrini verdiyi suallar əsasında aydınlaşdırır	+	+	+	+
Dinlədiyi məlumatlardakı əsas faktları seçir	+	+	+	_
Fikirlərini konkret fakt və nümunələrlə əsaslandırır	+	+	_	+
Lüğətlərdən istifadə etməklə tanış olmadığı sözlərin mənasını məyyənləşdirir	+	+	+	+
Əməkdaşlıq	+	+	+	_

Ədəbiyyat

1. Bədiyev S.R. Yeni təlim texnologiyalarından mühazirə mətnləri. Bakı: Dərələyəz-M, 2009
2. Cəfərova N. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı: Elm və təhsil, 2016, 404 s.
3. Həsənov M., Cəfərova N. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı: Mütərcim, 2013, 410 s.
4. Həsənov M., Cəfərova N. Bəhmənova C.Kurikulumun məzmunu və həyata keçirilməsi yolları. Bakı, 2017, 75 s.
5. Həsənov M., Bəhmənova C. İbtidai siniflərdə fəal və interaktiv metodlardan istifadənin nəzəri və praktik məsələləri. Bakı, 2009, 104 s.
6. Qədimova X. İnteraktiv təlim metodları və onların tətbiqi yol. Bakı, 2003, 32 s.
7. Sue Leather. Step to Success. 2006
8. Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları). // Kurikulum, 2010, № 3, s.117-130.
9. Veysova Z. Fəal(interaktiv) təlim. Müəllim üçün vəsait, UNİSEF, 2009
10.

Н.Джафарова

Использование инновационных методов обучения в преподавании Азербайджанского языка

Резюме

Использование новых инновационных методов в преподавании азербайджанского языка приводит к высокому уровню развития коммуникативных навыков учащихся. Преподавание азербайджанского языка порождает желание в совершенстве овладеть языком на языке ученика, независимо от того, где он находится, достойно представлять свою родину. Это также дает студенту необходимые навыки для адаптации к меняющимся обстоятельствам. Активные/интерактивные методы обучения являются важным инструментом повышения качества преподавания, в том числе преподавания азербайджанского языка, а также предоставления учащимся общего развития. Активные/интерактивные методы обучения являются важным инструментом для повышения качества урока. Использование этих методов делает урок очень интересным и привлекательным для студентов. Активное/интерактивное обучение и его применение делает учебный контент более эффективным, и у студентов активизирует акт восприятия. Инновационные методы, которые стимулируют активное мышление в процессе обучения и повышают познавательную активность студентов, способствует использования студентами своих потенциальных возможностей .. Решение проблемы, вызванной мотивацией в обучении азербайджанскому языку, является внутренним спросом и требованием студента.

Ключевые слова: глобализация, обучение, инновация, активное обучение, интерактивные методы.

N.Jafarova

The use of innovative teaching methods in teaching the Azerbaijani language

Summary

Using new innovative methods in teaching Azerbaijani language leads to a high level of development of communication skills of students. Teaching the Azerbaijani language gives rise to the desire to perfectly master the language in the language of the student, no matter where he is, to represent his homeland with dignity. It also gives the student the necessary skills to adapt to changing circumstances. Active/interactive teaching methods are an important tool for improving the quality of teaching, including teaching the Azerbaijani language, as well as providing students with general development. Active/interactive teaching methods are an important tool for improving the quality of a lesson. The use of these methods makes the lesson very interesting and attractive for students. Active/interactive learning and its application makes learning content more effective, and activates an act of perception in students. Innovative methods that stimulate active thinking in the learning process and increase the cognitive activity of students contribute to the use of their potential by students. Solving the problem caused by motivation in teaching the Azerbaijani language is the internal demand and demand of the student.

Key words: globalization, learning, innovation, active learning, interactive methods.

Redaksiyaya daxil olma tarixi: 01.04.2019
Çapa qəbul olunma tarixi: 01.04.2019
Filologiya elmləri doktoru, professor Fikrət Xəlilov tərəfindən çapa tövsiyə olunmuşdur.

НАРГИЗ СЕИДОВА
Доктор философии по филологии, заведующая кафедрой
Иностранных Языков факультета Международных отношений и управления
Азербайджанского Университета Языков
nigucha@mail.ru

ОСОБЕННОСТИ РЕЧЕВОГО АКТА ПРОКЛЯТИЯ В МИРОВОМ ФОЛЬКЛОРЕ И НАРОДНЫХ ПОВЕРЬЯХ

Резюме

В данной статье речь идет о довольно широко представленых в мировом фольклоре и литературе высказываниях проклятий. В статье представлены примеры речевого акта проклятий в различных языках, таких как французский, русский, шведский, индийский и т.д. В общем значение проклятия может быть выражено конкретно, а также метафорически. Содержание проклятия в фольклоре и народных поверьях — это пожелание смерти, болезней, бедности, неудачи, раздоров в семье и пр. Можно смело утверждать, что проклятия были распространены еще во времена племенного строя. Одним из видов проклятий можно считать народную анафему, которая отличается от церковной. Другой разновидностью проклятия является призывание на голову противника гнева богов. В статье также представлены различные точки зрения, касающиеся теории речевого акта проклятия. Если придерживаться классификации речевых актов, данной Дж. Л. Остином, то формулы проклятий следует отнести к бехабитивам.

В современных исследованиях подчеркивается, что при рассмотрении речевого акта необходимо учитывать особенности партнеров по коммуникации, саму ситуацию общения и цель коммуникации. Речевые акты представляют собой чрезвычайно сложное явление, при описании которого следует принять во внимание семантическй, синтаксическй и прагматическй аспекты их характеристики.

Ключевые слова: проклятия, речевой акт, фольклор, мотив, мифология, эпос.

В мифологическом восприятии и народных поверьях проклятия представлены как словесный ритуал, который имеет целью нанести ущерб определенному адресату (в противовес благопожеланию — аналогичное определение мы находим и в Библейском проклятии).

Высказывания проклятия довольно широко представлены в мировом фольклоре и литературе. Так например, в Италии популярна сказка о рыбаке, погибающем в море из-за того, что перед уходом мать сказала ему: «*Чтоб ты утонул!».* В данном случае не присутствует лексема со значением проклятия,[1] однако исполнимость этого злопожелания позволяет его отнести к проклятиям.

Также можно привести пример шведского поверья о том, что детей, проклятых родителями, «берет черт», а в немецких сказках они превращаются в воронов.

Действенность проклятия в фольклорных источниках и народных поверьях зависит от многих обстоятельств: субъекта, объекта, времени («добрый» и «недобрый» час, будни - праздники) и места произнесения. Наиболее серьезными и злостными считаются родительское проклятия, о которых речь пойдет чуть позже, и которое особенно опасно для малых детей. Полагают, что если мать скажет ребенку «*Чтоб ты пропал от моей головы*», то- он обязательно убьется, утонет или попадет во власть нечистой силы, превратится в русалку, лешего и др. В случае если беременная произносит проклятие, оно переходит на ее ребенка.

Содержание проклятия в фольклоре и народных поверьях — это пожелание смерти, болезней, бедности, неудачи, раздоров в семье и пр.: *«Чтоб он себе шею сломал», «Чтобу него дитя сгинуло»*; *«Чтобы тебя земля не приняла»* (болгарский язык). Осуществить проклятие призваны святые, Бог, Богородица или демоны, персонифицированные болезни, светила, вода, огонь: *«Каб цебя Пярун треснув»* (болгарский язык), «Que Dieu te maudisse» (французский язык) и др.

В общем значение проклятия может быть выражено конкретно, а также метафорически. Проклятия с мотивом гибели может также указывать на ее многочисленные причины: *«Чтобы я у тебя на поминках кутью ел»* (русский язык).

Одним из видов проклятий можно считать народную анафему, которая отличается от церковной : *«Будь проклят Голуб Цецея»; «Будь проклят тот, кто подэ/сег дом»* (сербский язык). Следует также отметить, что некоторые проклятия теряют свои ритуальные свойства и переходят в разряд брани.

В фольклорных текстах нередко встрчаются мотивы сбывшегося проклятия: проклятые заболевают, умирают или превращаются в птиц, зверей, деревья, травы и пр. Этиологические легенды объясняют особенности животных (черепахи, крота и пр.) и растений (осина, бузина и пр.) проклятием, произнесенными человеком, Богородицей, Богом, святыми. Очень часто сказки повествуют о судьбе проклятых, заклятых и их чудесном освобождении. Так, например, в народной литературе, как в русской, так и в зарубежной часто встречается такой персонаж, как русалка. Русалки - людские дочери, «проклятые родителями еще в материнской утробе, умершие некрещеными», а таюке молодые утопленницы. Душа самоубийцы «становится русалкою, поступающей под суровую власть водяника, с которым принуждена вести ненавистную связь» [1, с. 72].

У Тургенева в рассказе «Бежин луг» мы находим следующий эпизод: «Пошел он (плотник Гаврила) раз в лес по орехи да и заблудился, дороги найти не может, а уж ночь на дворе. Вот, и присел он под дерево. Задремал и слышит вдруг: кто-то его зовет. Смотрит - никого. Он опять задремал, - опять зовут. Он опять глядит, глядит: а перед ним на ветке русалка сидит, качается и его к себе зовет, а сама помирает со смеху, смеется. А месяц-то светил сильно, все видно. Вот, зовет она его, и такая сама вся светленькая, беленькая сидит на ветке, словно плотичка какая или пескарь. Гаврила-то плотник так и обмер, а она знай хохочет да его все к себе этак рукой зовет. Уж Гаврила было и встал, послушался .было русалки, да, знать, Господь его надоумил: положил-таки на себя крест. А уж как ему было трудно крест- то класть, рука просто каменная, не ворочается. Как положил он крест, русалочка-то и смеяться перестала, да вдруг как заплачет. Плачет она, глаза волосами утирает, а волоса у нее зеленые, что твоя конопля...»Чего ты, лесное зелье, плачешь?»«Не креститься бы тебе, человече, жить бы тебе со мной на веселии до конца дней; а плачу я, убиваюсь оттого, что ты крестился; да не я одна убиваться буду: убивайся же и ты до конца дней». Тут она пропала, а Гаврила с тех пор все невеселый ходит.» [2, с. 6]. Здесь выражение *убивайся же и ты до конца дней* ... является одной из форм проклятия, а именно пожелание адресату бед и несчастий.

Но не только в славянской мифологии можно встретить подобные элементы. Для героической мифологии Древней Греции характерны мифы о родовом проклятии, которое приводит к гибели несколько поколений подряд. Фиванский царь Лай украл ребенка и был за это проклят отцом этого ребенка. Проклятие лежало на всем роде Лая: сам он погиб от руки собственного сына Эдипа. Покончила с собой Иокаста - жена сначала Лая, злотом Эдипа, узнав, что Эдип - ее сын. Вступив в единоборство, погибли оба сына Эдипа - Этеокл и Полиник, потом погибли и их сыновья. Проклятие легло и народ Пелопа - сына Тантала. Преступления самого Тантала, были умножены его потомством. Пелоп обманул возницу Миртила, пообещав полцарства за помощь в победе над царем Эномаем, и попал под проклятие Миртила, в результате чего сыновья Пелопа Атрей и Фиест находятся во взаимной вражде. Атрей по недоразумению убивает собственного сына, подосланного Фиестом; за это он угощает Фиеста зажаренным мясом детей- Фиеста. Свою жену Аэропу, способствовавшую козням Фиеста, он тоже бросает в море и подсылает сына Фиеста к

самому Фиесту, чтобы его убить, но, понявший козни Атрея, сын Фиеста убивает Атрея. Один из сыновей Атрея Агамемнон погибает от руки собственной жены Клитеместры и своего двоюродного брата Эгисфа. Того же убивает сын Агамемнона Орест, за что его преследуют богини-мстительницы эринии. Характерно, что очищение от своего преступления Орест получает не только в святилище Аполлона в Дельфах, но и в Афинах - решением ареопага под председательством Афины Паллады.

В древнеиндийской мифологии ракшасы это основной класс демонов, они преследуют людей. Во многих мифах Ракшасами, вследствие дурных деяний или по проклятию, становятся смертные люди, гандхарвы и другие полубожественные существа.

Можно смело утверждать, что проклятия были распространены еще во времена племенного строя. Например, представители племен отнюдь не пренебрегали сквернословием. Проклятия, касающиеся болезней (в том числе и в сокращенном виде — вроде простого «Холера!» (русский язык) или «Maudit!», (французский язык), считались самыми опасными; даже отъявленные сквернословы старались воздерживаться от подобных выражений и от пожеланий «*Чтоб ты ослеп»* или *«Чтоб ты распух».*

Другой разновидностью проклятия является призывание на голову противника гнева богов *:«Да сожжет тебя Пламенный*!» или *«Да обратится еда твоя в камень*» (русский язык) , *«Да поразит тебя гнев Кормильца Куриджила»* (один из четырех старших богов в семибожном учении индусов), «Tu seras maudit! L'Éternel enverra contre toi la malédiction!» (французский язык). Такие выражения достаточно распространены, и именно на них основано, прямо или косвенно, умение «крыть по всем двенадцати стихиям» - т.е. призвать на голову собеседника гнев всех богов. Достаточно распространенным, хотя и осуждаемым всеми храмами, является проклятие именем иномирных демонов. В отличие от проклятий именами богов, оно обычно выступает в сокращенном виде и относится к упоминанию своего имени или признака демона *: «Diable!»* (французский язык*).*

В индуистской мифологии, восходящей ещё к поздневедийской литературе, — проклятие отшельника служит причиной несчастий или гибели многих известных эпических персонажей. Часто такие проклятия превращают провинившегося на какой-либо срок в животное или чудовище.

Большой интерес представляет легенда о проклятии Тутанхамона. При проведении археологических раскопок в городе Гиза был обнаружен склеп, надпись над которым гласила: *«Тех, кто потревожит сон фараонов, постигнет смерть», «Смерть покроет своими крьглами всякого, кто потревожит покой фараона»* (русский язык), «*La mort touchera de ses ailes quiconque troublera la paix du pharaon»* (французский язык).

Как видим, в фольклоре и народных поверьях проклятие в своем значении предполагает пожелание зла и следовательно отчуждения.

Если придерживаться классификации речевых актов, данной Дж. Л. Остином, то формулы проклятий следует отнести к бехабитивам, включающим в себя «понятие реакции на поведение других людей, их судьбу и установки и выражение установок по отношению к чьему-то поведению в прошлом или будущем» [3, с. 122-130].

Но, ссылаясь на мнение Анны Вежбицкой, проклятия и благословения рассматриваются Дж. Остином просто как вид пожеланий, а магическое или религиозное мировоззрение, отразившееся в этих понятиях, игнорируется. «Существенная разница между благословением и проклятием, с одной стороны, и пожеланием - с другой, по-видимому, состоит в том, что в первом случае предполагается могущество произносимых слов, а во втором - их бессилие» [4, с. 251-276].

В современных исследованиях подчеркивается, что при рассмотрении речевого акта необходимо учитывать особенности партнеров по коммуникации, саму ситуацию общения, а также тот факт, что цель коммуникации состоит не только в том, чтобы адресат понял адресанта, но и в том, чтобы вызвать у последнего определенную реакцию на услышанное или сделанное, а также оказать воздействие. То есть с прагматической точки зрения важное значение для эффективности коммуникации приобретает интенция адресанта и ее

правильная интерпретация адресатом.

Из сказанного следует, что речевые акты представляют собой чрезвычайно сложное и многоаспектное явление, при описании которого нельзя ограничиться каким-либо одним аспектом изучения. Только единство всех указанных аспектов (семантического, синтаксического и прагматического) позволяет представить объективную характеристику речевых актов проклятия.

Литература

1. Буторов А. «Русальная неделя» Консорциум Прессы, 1994. — 72 с.
2. Тургенев И. Бежин луг, Год издания: 2011 ,Серия: Библиотека младшего школьника.Издательство: Амфора
3. Остин Л. Дж. Слово как действие. Перевод с англ. А.А. Медниковой / / Новое в зарубежной лингвистике. - Вып. 17. Теория речевых актов; Сборник. Пер. с англ. / Сост. и вступ. ст. И.М. Кобозевой и В.З. Демьянкова; Общ. ред. Б.Ю. Городецкого. - М.: Прогресс, 1986. - С. 122-130.
4. Вежбицкая А. Речевые акты. Перевод с англ. С.А. Крылова / / Новое в зарубежной лингвистике Вып. 16 Лингвистическая прагматика; Сборник. Сост. и вступ. ст. Е.В. Падучевой; Общ. ред. Н.Н. Попов. - М.: Прогресс, 1985.-С.251-276.

N.Seyidova

Features of the speech act of curses in the world folklore and folk beliefs

Summary

This article deals with widely spread curse expressions in the world folklore and literature. Samples of speech act curses are given in this article in different languages such as the French, Russian, Swedish, Indian etc. In general the meaning of curse can be defined literally and also figuratively .

The content of curse in folklore and folk believes can be found as a wish for death, illness, poverty, failure, dispute in family. It is possible to confirm that curses were spread even during the tribal period. One of the kinds of curses can be considered popular anathema which differs from church.

The other variety of curse is to wish evil from God to their enemies. The article also presents different view points concerning the theory of curse speech act. Considering the classification of speech acts by Jh. Ostin, then the formulas of curses should be referred to behabitive..

It is necessary to take into account the features of partners while observing the speech acts in communication, the situation of communication and the purpose of conversation. The speech acts involve the most complicated issues while describing it is necessary to take into account semantical, syntactical, and pragmatic aspects of their characteristics.

Key words: curse, speech act; folklore; motive; mythology; epos.

N.Seyidova

Dünya folklorunda və xalq inamlarında lənət nitq aktının xüsusiyyətləri

Xülasə

Məqaləyə dünya ədəbiyyatında və folklorunda geniş yayılmış lənət məzmunlu ifadələrdən bəhs edilir. Tədqiqat işində fransız, rus, isveç, hind və s. kimi müxtəlif dillərdəki lənət məzmunlu nitq aktlarından nümunələr təqdim olunur.

Lənət anlayışının ümumi məzmununda konkret, həmçinin, metaforik mənalar ifadə edilə bilər. Folklorda və xalq inamlarındakı lənət məzmunu ölüm, xəstəlik, yoxsulluq, uğursuzluq, ailədə münaqişə istəyi deməkdir. Cəsarətlə təsdiq etmək olar ki, lənət, hələ qəbilə dövründə belə geniş yayılmışdır. Lənətin bir növü kimi kilsəvilikdən fərqlənən xalq anafemini qeyd etmək olar.

Lənətin başqa bir növü düşmənin başına Tanrıların qəzəbini arzulamaqdır. Məqalədə, həmçinin lənət məzmunlu nitq aktları təliminə aid müxtəlif baxışlar nəzərdən keçirilir.

C.L.Ostin tərəfindən irəli sürülmüş nitq aktları nəzəriyyəsinə əsaslansaq, lənət formulunu nifrət konseptinə aid etmək olar. Müasir tədqiqat işlərində qeyd edilir ki, nitq aktı təhlili zamanı kommunikantların, ünsiyyət situasiyasının özünün və kommunikasiyanın məqsədinin xüsusiyyətlərini nəzərə almaq lazımdır. Nitq aktları həddindən artıq mürəkkəb hadisədir, bu hadisələrin təsviri zamanı onları səciyyələndirən semantik, sintaktik və praqmatik aspektlər ön plana çəkilməlidir.

Açar sözlər: bəddualar, nitq aktı, folklor, motiv, mifologiya, epos.

Redaksiyaya daxil olma tarixi: 01.04.2019
Çapa qəbul olunma tarixi: 30.04.2019
Filologiya elmləri doktoru, professor Gülnarə Sadıxova tərəfindən çapa tövsiyə olunmuşdur

ARİFƏ YUSİFOVA
Azərbaycan Tibb Universiteti
RƏFİQ CƏFƏROV
AzTU,f.e.n. dosent
Hüseyn Cavid kuc 25
arife@mail.ru

MƏDƏNİYYƏTLƏARASI ƏLAQƏDƏ DİLİN İNKİŞAFI VƏ NİTQ MƏDƏNİYYƏTİNİN BƏZİ XÜSYSİYYƏTLƏRİ HAQQINDA

Xülasə

Məlumdur ki, mədəniyyətlərarası əlaqədə həqiqi dil daşıyıcıları ilə həmin azərbaycan dilini istifadə edənlərin işlətdikləri sintaktik strukturların formalarında da dəyişiklik baş verir. Şübhəsiz ki, müxtəlif koqnitiv hazırlığa malik olan ünsiyyət iştirakçılarının danışıq aktında yol verdikləri variativ xüsusiyyətləri eyniləşdirmək düzgün olmaz, çünki ikinci halda baş verən variantlar müqayisə olunan dillərin hər birinin fərqli strukturlara (semantik, sintaktik, fonetik) malik olmasından irəli gəlir. Bu da bəzən variasiyanın invariant səviyyəsinə çatması ilə nəticələnir. Həqiqi dil daşıyıcılarının nitqində isə variasiya yalnız variant səviyyəsində özünü göstərir, yəni bu variasiya ifadə olunanda məna dəyişikliyinə səbəb olmur. Məsələn, *They go to the garden to work* cümləsinin hər üç dil daşıyıcısı konkrer mənanın ifadəsi üçün müəyyən olunan invariant struktur modelə riayət etməklə tələffüz etmişlər. İnformantların ifasında forma ilə bağlı variasiya yaranmışdır ki, bu da informantların hər biri üçün xarakterik olan fərqli danışıq tərzi ilə əlaqədardır. Bu fərqi görmək üçün həmin cümlənin üç diktor akustik göstəricilərini əks etdirən rəqəmlərin müqayisə etmək kifayətdir Mənim inamıma görə AZərbaycan dili min illər ərzində Sovet Azərbaycanını da, Cənubi Azərbaycanı da əhatə edən böyük bir ərazidə baş vermiş mürəkkəb, keşməkeşli proseslər nəticəsində ağır, çətin yollardan keçərək formalaşmış bir ildir.Onun türk dilləri sisteminə daxil olması heç də əsas vermir ki, onu milli xesusiyyətlərindən məhrum edəsən, onun adını dəyişəsən. Azərbaycan sözü gah türk, gah da tatar sözləri ilə əvəz etmişlər. Azərbaycanın əslini, mənşəyini, miliyyətini təhrif etmək, gözdən salmaq halları da az olmayıb. Bəzi şovnistlər heç bir elmi-tarixi əsası olmayan bu cür müddəalar da irəli sürmüşlər.

Açar sözlər: dil, mədəniyyət, təfəkkür, intellektual, fəaliyyət

Dil və mədəniyyət iki sosial fenomen olaraq biri-biri ilə sıx əlaqə və qarşılıqlı təsir şəraitində inkişaf edir. Yəni dilin dinamikliyi mədəniyyətin dinamikliyinin göstəricisi və mədəniyyətin dinamikliyi dilin dinamikliyinin göstəricisidir. Dil və mədəniyyət arasındakı bu əlaqə və qarşılıqlı təsir tarixən bir çox alimləri və filosofları maraqlandırıb. Son yüzillikdə bu əlaqə və təsirin tədqiqi zəminində daha ciddi araşdırmaların və nəzəri təhlillərin müşahidə edilməsi mövzunun nə dərəcədə aktual və əhəmiyyətli olduğunu göstərir. Bu iki fenomenin qarşılıqlı əlaqə və təsiri müxtəlif alimlər tərəfindən fərqli rakurslardan təhlil və tədqiq edilib və hələ də elmi dairələrdə bu tip tədqiqatlara göstərilən maraq azalmayıb. Ümumilikdə, "dil mədəniyyəti, yoxsa mədəniyyət dili şərtləndirir" sualı qeyd edilən tədqiqatın və təhlillərin fundamental sualı olaraq hələ də qəti cavabını tapa bilməyib. Bu və digər buna oxşar suallar, həmçinin dil və mədəniyyətin qarşılıqlı təsir formaları son dövrlərdə daha geniş kontekstdə ciddi müzakirələr və mübahisələrin obyekti olmuşdur.

Bir çox funksiya və cəhətlərinə görə oxşar olan bu iki sosial fenomenin qarşılıqlı təsirini izah etmədən öncə, qısaca olaraq dil və mədəniyyətə dair təriflər, yanaşmalar və baxışlara nəzər yetirmək olduqca vacibdir.

Mədəniyyət insan vasitəsilə yaranan fenomendir. Başqa sözlə, mədəniyyət ikinci dünyadır. Mədəniyyət həm birgə həyatın davamı və inkişafının vasitəsi, həm də nəticəsidir. İnsanın həm fiziki, həm də zehni fəaliyyətinin nəticəsi olan mədəniyyət, cəmiyyətin yaddaşıdır. Yəni cəmiyyət üzvləri mədəniyyətə müraciət etməklə müxtəlif fəaliyyət və davranış normalarını mənimsəyib, həyat təcrübəsinə çevirirlər. Bu sosial fenomenə dair verilən tərif və izahlar olduqca fərqli və bəzən ziddiyyətlidir. Müxtəlif elm sahələrinin mütəxəssisləri fərqli yanaşmalara əsasən mədəniyyəti izah və tərif etməyə cəhd göstəriblər. Məhz elə buna görə də, əlaqədar ədəbiyyatlarda yüzlərlə fərqli tərif və izahla rastlaşmaq olar. Bəzi dünya miqyaslı müəlliflər tədqiqatlarında qeyd edərək göstərirlər ki, elə alimlər var ki, mədəniyyətin maddi cəhətlərinə daha çox əhəmiyyət verirlər, digərləri isə mədəniyyətin qeyrimaddi tərəflərinə toxunurlar. Edvard B. Teylor 1871-ci ildə mədəniyyətin klassik tərifini verərək qeyd edirdi ki, "Mürəkkəb bir tam olan mədəniyyətə bilik, inam, incəsənət, mənəviyyat, qanun, ənənə və cəmiyyət üzvlərinin əldə etdikləri bütün bacarıq və vərdişlər daxildir" [1, 197]. Raymon Viliam isə "Mədəniyyət və cəmiyyət" adlı əsərində (1963) "mədəniyyət bütün həyatın obrazıdır" deyir. Ümumilikdə "incəsənət, ədəbiyyat və həyat tərzini əhatə edən mədəniyyət cəmiyyətin, yaxud sosial qrupun mənəvi, maddi, intellektual və emosional baxımdan fərqləndirici xüsusiyyətlərinin məcmusudur" [1, 198]. Fəlsəfi nöqteyi-nəzərdən mədəniyyət insan və onun fəaliyyəti ilə vəhdətdədir. Yəni mədəniyyət insan fəaliyyətinin məhsulu olan müxtəlif maddi və mənəvi sərvətlərin məcmusu olaraq təhlil edilir. Burada insan fəaliyyəti dedikdə, həm onun fiziki və əmək fəaliyyəti, həm də zehni fəaliyyəti nəzərdə tutulur. Digər canlılardan (heyvanlardan) fərqli olaraq insan öz ətrafına öz istəkləri istiqamətində təsir göstərərək öz fərdi dünyasını özü formalaşdırır və yaratdığı bu mühitdə öz intellektual və kommunikativ qabiliyyətlərini yüksək səviyyədə inkişaf etdirir. Həmin inkişaf zəminində mədəni təcrübələr yaşanılır, sınaqdan keçirilir və mədəniyyətin bir hissəsinə çevrilir. Deməli, mədəni təcrübələr ilk öncə simvolik-təmsili səviyyədə nəzərdən keçirilir və sonra həyat tərzinə çevrilir. Dil insanın intellektual və kommunikativ bacarıqlarından biri olaraq mədəni həyat üçün təməl zərurəti olan nəzəri fəaliyyət və sosiallaşmanın əsas şərti, dayağı və vasitəsidir. Dil hər bir mədəniyyətin prioritet cəhətlərini əks etdirir. Əslində dil mədəniyyətin əsasını təşkil edir. Mədəniyyətin ötürülməsi, qorunması və qavranılması məhz dilin sayəsində mümkün olur. Dil reallığın sadəcə təsvirini yaratmır, o həm də reallığın özünü formalaşdırır. Dil düşünmək və insanın ətrafda olanları dərk etməsi üçün əsas vasitədir. Dil və mədəniyyət sahəsində geniş tədqiqatların və "Qafqazda dil və mə- dəniyyət" kimi sanballı əsərin müəllifi olan Kevin Tuite Spir-Whorf fərziyyəsindən bəhs edərkən belə bir prinsipə diqqəti yönəldir ki, "hər bir insanın dilinin xüsusiyyətləri onun həyatının başqa aspektlərinə də təsir göstərə bilər və biz bu fakta diqqət yetirməliyik" [2, 47]. Kristin Coourdan isə Humboltun 123 dil haqda düşüncələrindən danışarkən ona istinadən qeyd edir ki, "dil düşüncəni (thought) formalaşdıran orqandır... dil və düşüncə ... biri-birindən ayrılmazdır [2, 51].

Spir-Whorf fərziyyəsinə əsasən mədəniyyəti, düşüncəni, insanların dünya görüşünü formalaşdıran, şərtləndirən, rəhbərliyi və kontrolu altında tutan məhz elə dilin quruluşudur. Çünki gerçəklər dünyasının qəbul edilməsində və ümumiyyətlə, şüur sistemimizin yaranmasında dil bir süzgəc funksiyasını yerinə yetirir. Bu süzgəc müəyyən hadisələr və əlamətlərin görülməsini asanlaşdırmaqla yanaşı həm də digərlərinin şərh və qəbul etməsinə mane olur. Bir az yumşaq formada desək, dilin quruluşu müəyyən qəbuletmə qəliblərini və düşüncə yönümlərini asanlaşdırır digərlərini isə çətinləşdirir. Müəyyən bir şeyin danışılmasını və düşünülməsini daha mümkün edərək o birilərini daha da mümkünsüz edir. "Dil insanla ona təsir edən təbiətin arasındadır. Belə ki, insanın qavrayış və fəaliyyəti onun dil vasitəsilə ətraf mühit haqqında təsəvvürlərindən ibarətdir" [3, 117]. Lakin bu məsələyə də diqqət etmək lazımdır ki, dilin quruluşu düşüncə və davranışların determinant amili olmaqdan daha çox müəyyən variant və meylləri özü ilə gətirən amildir.

Deməli, dil və mədəniyyət mövzusu həm də düşüncə tarixi ilə sıx əlaqədardır. Alman filosofu Wilhelm Von Humbolt (1767-1835) XIX əsrin əvvəllərində belə bir tezisi müdafiə edirdi ki, "bir birliyin dili ilə o birlikdə yaşayan fərd(lər)in zehni yönümləri arasında o dərəcədə yaxın bağlar var ki, bunlardan birinə dair məlumat əldə etsəniz o biri ilə bağlı məlumatları da tamamilə əldə etmiş olacaqsınız. Çünki dil və zehni fəaliyyət (intellectuality) birlikdə meydana gəlir və formalaşır. Cəmiyyəti dilində görər, dilində anlarıq. Bir cəmiyyətin dili o cəmiyyətin ruhu, ruhu isə dilidir. Bu

dərəcədə eyni olan başqa bir şeyi düşünmək həqiqətən çətindir [4, 46]. Humbolt dil və mədəniyyəti sadəcə qarşılıqlı əlaqə və təsirdə olan iki fenomen kimi deyil, onları köklü bir eyniliyə malik olan iki sosial fenomen kimi təhlil edir. Əslində dil və mədəniyyət arasındakı əlaqəni və təsiri kimsə inkar etmir. Lakin bu əlaqə müdafiə olunmaqla yanaşı, eyni zamanda, mədəniyyətlərin dillər tərəfindən şərtlənib idarə olunduğu tezisi və təsirlənmənin tək istiqamətli olduğu iddiası mübahisələrə gətirib çıxarır. Edvard Sepir (1884-1939) dil, mədəniyyət və ictimai gerçəklik arasındakı əlaqəyə təkid edir. Onun fikrincə dil ictimai ger- çəkliyi öyrənməkdə müraciət edəcəyimiz rəhbərdir. Çünki insanlar tam obyektiv bir dünyada yaşamırlar. İnsanlar üzv olduqları cəmiyyətin ünsiyyət mühitini meydana gətirən müəyyən bir dilin təsiri və nəzarəti altında həyatlarını davam etdirir və öz dünyalarını yaradırlar. Ən pis hal odur ki, biz bəzən dilə sadəcə bir adi ünsiyyət və yaxud idrak vasitəsi kimi müraciət edirik. Ümumilikdə dil, idrak, təfəkkür, fəaliyyət-davranış, sosial həyat və mə- dəniyyət arasında olduqca ciddi və inkaredilməz əlaqə mövcuddur. Məhz elə buna görə də antropologiya, psixologiya, mədəniyyətşünaslıq, fəlsəfə, sosiologiya və linqvistikanın bir-birini əvəz edən cərəyanları və məktəbləri, demək olar ki, hamısı dil, mədəniyyət və cəmiyyət əlaqələrinə münasibət bildirmişlər. Mədəniyyətin inkişafı və mürəkkəbləşməsi ilə dilin inkişafı və mürəkkəbləşməsi arasında düz mütənasiblik mövcuddur. Yəni mədəniyyətin dinamikliyi, funksionallığı və həmçinin mədəni elementlərin arasındakı münasibətlərin mürəkkəbləşməsi həmişə dilin dinamikliyi və mürəkkəbliyi ilə paralel olub. Həmçinin dilin dinamikliyi və inkişafı mədəni dinamiklik və inkişafla paralel olub (bunun əksini də söyləmək olar, yəni bunlardan birinin passivliyyi digərinin passivliyindən xəbər verir). Buradan belə bir nəticə də çıxarmaq olar ki, dilin mədəniyyətə və cəmiyyətə təsiri ilə yanaşı bəzən cəmiyyət də dil və onun inkişafına şüurlu olaraq təsir edir. Əlbəttə, bu arada mədəniyyətin inkişafı və cəmiyyətin nailiyyətləri onun şüurlu təsirinə daha çox imkan yaratmış olur. Mədəniyyətin və cəmiyyətin inkişafı nəticəsində yazının meydana gəlməsi insanların dilə şüurlu təsir imkanlarını genişləndirdi. Bu təsir "müxtəlif səviyyələrdə və müxtəlif şəkillərdə təzahür edir:

1. Cəmiyyət dilin inkişaf etməsi və ya tədricən işləkdən qalmasına imkan yarada bilər.

2. Cəmiyyət elə bir şərait yarada bilər ki, bu, tədricən dilin ölümünə gətirə bilər və ya dilin fəaliyyət göstərməsi və inkişafını təmin edə bilər.

3. Cəmiyyət yazı yaratmaq yolu ilə, dilin orta və ali məktəblərdə tədrisi, müxtəlif cinsdən olan ədəbiyyat nəşri, radio və televiziya verilişlərinin o dildə aparılması yolu ilə dilin sosial funksiyalarını genişləndirmək imkanı- na malikdir.

4. Cəmiyyət dilin əsas quruluşunu, morfoloji, sintaktik, leksik-semantik və üslubi sistemlərini təkmilləşdirmək və normallaşdırmaq üçün istənilən məqsədyönlü hərəkətləri həyata keçirməyə qabildir. 5. Cəmiyyətin dillərin qarşılıqlı əlaqələri proseslərini tənzimləmək, xüsusən xarici dillərdən alınmaları istiqamətləndirmək hüququ vardır.

6. Dildəki spontan dəyişikliklər də məlum dərəcədə, cəmiyyətin şüurlu təsirinə yol verir" [5, 346]. Mədəniyyətlərarası əlaqə və mədəni zəmində baş verən inkişaf (maddi texniki və mənəvi sahədə) və mədəni mübadilə də dilin inkişafına, onun lüğət bazasının zənginləşməsinə və onun fəaliyyət səviyyəsindəki müxtəlif dəyişikliklərə səbəb olur. Məsələn, mədəniyyətlərarası əlaqə və mübadilə nəticəsində dillərin lüğət tərkibi dəyişir. "Dillərin lüğət tərkibinin dəyişilməsi ilə müşayiət olunan inkişafın təsirini purizm hadisələrində də görmək olar. Məlum olduğu üzrə, purizm alınma sözlərdən təmizləmə hadisəsinə deyilir" [6, 105]. Təbii olaraq həmin təmizləmə prosesi təmizlənən dildə yeni terminlərin, lüğətlərin yaradılması və alınma sözlərlə dəyişilməsi və nəticədə dilin lüğət bazasının zənginləşməsi ilə sona çatır.

Dilin insan təfəkküründə, onun gerçək dünyasının formalaşmasına, mədə- niyyətə təsirini və həmçinin mədəniyyətin, insan fəaliyyətinin və mədəni münasibətlərin dilə təsirinə dair deyilənləri nəzərə alaraq belə bir sual ortaya çıxır ki; əgər biz "dil reallığın sadəcə təsvirini yaratmır, o həm də reallığın özünü formalaşdırır, həmçinin dil düşünmək və insanın ətrafda olanları dərk 125 etməsi üçün əsas vasitədir" tezislərini qəbul etsək, o zaman iki fərqli dildə danışan insanlar və yaxud digər bir dilin ciddi nüfuzuna məruz qalan cəmiyyətin üzvləri hansı dildə düşünürlər, onlar dünyanı öz dilləri, yoxsa nüfuzuna məruz qaldıqları dilin vasitəsilə qavrayırlar? Bu suala cavab vermək olduqca çətin və eyni zamanda maraqlıdır. Bu sahədə müxtəlif fikirlər söylənilmiş və alimlər müxtəlif

rakurslardan bu problemə yanaşıblar. Məsələn, Gustav Le Bon sivilizasiyanın (mədəniyyətin) inkişaf formalarından bəhs edərək onun mədəni zəmində və dil sahəsində könüllü və məcburi mübadilələrin, təsirə məruz qalan tərəfin üzərində effektini izah edərkən yuxarıda qeyd edilən sualları da qismən cavablandırmışdır. Onun fikrincə, tarixən müxtəlif xalqların ən yüksək inkişaf etdikləri sahələri təhlil etdikdə görürük ki, sivilizasiyanın müxtəlif elementlərinin inkişafında paralelizm əsas şərt deyil və bəzən heç yoxdur (məsələn, yunanlarda ədəbiyyat, romalılarda hərbi quruluş və hüquq, finikiyalılarda ticarət digər elementlərə nisbətən daha çox inkişaf etmişdir). Paralelizmin olmaması, xalqların sosial inkişafı, mədəni mübadilələr, savaşlar və istilalarla əlaqədar olaraq "xalqlar öz sivilizasiyasının elementlərini dəyişir, yeni din, dil, təsisatlar qəbul edirlər... bütün bu zahiri dəyişiklikləri yaxından öyrənəndə, dərhal görürsən ki, bu sözlərin arxasındakı mətləblər yaşayır və dəyişikliyə çox yavaş uğrayır... hətta yazı sayəsində dil möhkəmlənəndə də, o bir xalqdan başqasına keçirsə, mütləq dəyişir" [7, 84-90]. Deməli, insanlar sonradan qəbul etdikləri sözləri öz düşüncə tərzi və şüuru sistemi daxilində yenidən təfsir edir və onu olduğundan fərqli şəkildə qəbul edirlər. Yəni baxmayaraq ki alınma sözün zahiri quruluşu qorunur, onun daxili dünyası (ifadə etdiyi anlam, yaratdığı effekt və yaşatdığı hisslər) qəbul edənin intellekt bazası, düşüncə tərzi və məqsədindən asılı olaraq dəyişir. Gustav Le Bonun bu fikri hər bir sözün kollektiv səviyyədə "özünəməxsus yenidən təfsiri" kimi (kollektivin hermenevtik davranışı kimi) anlaşılır. Ümumilikdə belə bir nəticəyə gəlmək olar ki, dil və mədəniyyətin təsiri qarşılıqlıdır və buna görə də, dilin mədəniyyəti, yaxud mədəniyyətin dili şərtləndirdiyini söyləmək olmaz. Bu həm də cəmiyyətin sosial və texnoloji cəhətdən inkişafı nəticəsində dilə təsir imkanları ilə əlaqədardır. Yəni mədəniyyətin məhsulları dilə təsir imkanlarını genişləndirib. Dil, mədəniyyət, təfəkkür, davranış və sosial fəaliyyətin bir-biri ilə ciddi əlaqəsi və bunlar arasındakı təsir üsulları həmişə sosial fəlsəfənin aktual mövzularından biri olub və olacaq. Çünki cəmiyyətin inkişafı qeyd edilən münasibət və təsir üsullarını və nəticəərini daima dəyişdirir. Həmin dəyişiklik isə yeni tədqiqatların aparılmasına zərurət yaratmış olur.

Ədəbiyyat

1. İb Bondebjerg and Peter Madsen, Media, Democracy and Europan Culture, Briston, 2008, İntellect, p. 362.
2. Christine Jourdan and Kevin Tuite, Language, Culture and Society, Cambridge, 2006, Cambridge University Press, p. 310.
3. Afaq Rüstəmova. Sosiolinqvistikanın fəlsəfi problemləri. Bakı: Adiloğlu, 2005, 200 s.
4. Wilhelm Von Humboldt, On language: the diversity of human language – structure and its influence on the mental development of mankind, Translated by Peter Heath, Cambridge, 1988, Cambridge University Press, p. 296.
5. Əbülfəz Rəcəbli. Sosiolinqvistika, Bakı: Nurlan, 2004, 520 s.
6. Ağamusa Axundov. Ümumi dilçilik – dilçiliyin tarixi, nəzəriyyələri və metodları. Bakı: Şərq-Qərb, 2006, 280 s.
7. Gustav Le Bon, Kütlə psixologiyası, Tərcümə; Qardaşxan Əzizxanlı. Bakı: Zəkioğlu, 2006, 327 s.

A.Yusifova
R.Cafarov

The process of the development of intercultural relations in the process of evidences

Summary

The article touches upon the sphere of language units variation in the process of speech act on the materials of English and Azerbaijani languages. Here the author pays a special attention to the acoustic parametres of the adverbial modifier of purpose. According to the experimental analysis the author notes that the acoustic parameters of the adverbial modifiers of purpose in English and

Azerbaijani are different. In Azerbaijani the place of the adverbial modifier of place is not fixed. It may be used in preposition, inner position and post position.

In compared languages in speech act the sentences with adverbial modifier of purpose have got different semantic, syntactic and phonetic structures. They especially depend upon their informational weight.The article's main quality is regarded as educated, polite talk. In this regard a number of speech ethics opinions views are expressed, the facts of life, brought samples.

There are many very work connected with developing of the Azerbaijani and investigating from point of view science of the language in different aspects in detail. People expressions play the important part in becoming rich of the literary language, therefore it is very necessary learning phraseological unique.When we investigated in detail from pint of view science Azerbaijani, we see necessity of the learning of the some important problems. It is very necessary to involve for phraseological units to the investigation.

Key words:language,culture,thinking,intellectual,activity.

А.Юсифова
Р.ДЖафаров

В процессе межкультурных отношениях развитие речевого акта и некоторые отличительные нюансы культура речи

Резюме

Статья посвящена сфере вариативности языковых единиц в процессе речевого акта на материала и азербайджанского языка. Автор уделяет особое внимание на акустические параметры обстоятельства цели. Ссылаясь на экспериментальный анализ, автор отмечает что акустические параметры обстоятельства цели в английском и азербайджанском языках кардинально отличаются. В азербайджанском языке позиции обстоятельства места не фиксирована, она может быть препозициональной, промежуточной или постпозициональной. Предложения с обстоятельством цели, сравниваемых языках обладают различной семантической, синтаксической и фонетической структурой. Они зависит в частности от информативного плана. В статье культурная речь оценивается как основное качество грамотного и благородного человека. С этой точки зрения приводятся примеры связанные с культурными нормами, мыслями, выражениями, жизненными фактами.Азербайджанского языка во многом зависит от проделанной с научной точки зрения всестороннего исследование в различных аспектах. В обогощении литературного языка выражения народного языка имеют особый груз-одним из этих проблем является изучение культура речи в межкультурных отношениях.

Ключевые слова:язык,культура,мышление,интеллектуал,деятельность

Redaksiyaya daxil olma tarixi: 01.03.2019
Çapa qəbul olunma tarixi: 29.04.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Adilə Zeynalova tərəfindən çapa tövsiyə olunmuşdur.

NURİYYƏ ƏLİYEVA
Rəşid Behbudov 60
Filologiya üzrə fəlsəfə doktoru
ADU
nur.mikayil@gmail.com

DİL FAKÜLTƏLƏRİNDƏ ŞİFAHİ NİTQ VƏRDİŞLƏRİNİN İNKİŞAF ETDİRİLMƏSİNDƏ KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN ROLU

Xülasə

İngilis dilini professional məqsədlərlə öyrənən və Azərbaycanın ali və orta məktəblərində Azərbaycan ədəbiyyatını tədris edən və ya tərcüməçi, filoloq kimi fəaliyyət göstərən ali ixtisas məktəblərinin məzunları mətnləri, o cümlədən formal və qeyri-formal xarakter daşıyan mətnləri, müasir və klassik ədəbiyyat nümunələrini dinləyib öz münasibətlərini, mövqeyini, fikir və ideyalarını bildirmək qabiliyyətinə yiyələnməlidirlər. Lakin qeyd etmək lazımdır ki, hal-hazırda klassik ədəbiyyat nümunələrinə təsadüfi hallarda müraciət olunur. Əksər hallarda ixtisası dil olan fakültələrdə dili professional məqsədlərlə öyrənən tələbələr xarici ədəbiyyat nümunələri olan və dünya ədəbiyyatının xəzinəsinə daxil edilmiş əsərlərlə tanış deyillər. Bəzən onlar həmin əsərlər haqqında heç bir məlumata malik deyil. Onu da xüsusilə qeyd etmək lazımdır ki, klassik ədəbiyyat nümunələrində personajların istifadə etdiyi nitq modelləri, bu gün istifadə edilən dildən əhəmiyyətli dərəcədə fərqlənir. Buna görə də KİV materiallarının seçiminə diqqət yetirmək lazımdır. Müasir universitet tələbəsi təkcə bu və ya digər sahədə ixtisaslaşmış kadr kimi formalaşmamalıdır. O, həm də ünsiyyətə hazır olmalı və müxtəlif insanlarla ünsiyyət qurmaq, komanda tərkibində işləyə bilmək, ətrafdakılara motivasiya verə bilmək kimi tamamilə yeni sosial bacarıqlara yiyələnməlidir. Məhz bu baxımdan ədəbi xəzinə əlçatan olmalıdır. Qloballaşma prosesinin labüdlüyünü və bu prosesə inteqrasiyanın qaçılmaz olduğunu nəzərə alaraq, elm və təhsil sahələrinin qloballaşma proseslərinə adaptasiyası dildə onun təmin olunmasını şərtləndirən amillər sırasına daxil olmuşdir. İlk öncə ona görə ki, məhz bu sahələrdə təkcə yeni bilik və texnologiyalar deyil, həm də insanın fikirlərinin ifadəsinin bu və ya digər formalarının yeni mexanizm və üsulları da gündəmi zəbt edir. Bu zaman KİV materialları vasitəsilə şifahi nitqin tədrisi vacib sayılır.

Açar sözlər: səriştə, şifahi nitq, kontekst, KİV, ünsiyyət

Məlum olduğu kimi, kommunikativ səriştə tələbələrdə şifahi nitq vərdişlərinin inkişaf etdirilməsi ilə bağlıdır. Təlim materiallarının məzmunu bir stimul kimi öyrənilən dildə kommunikasiya prosesinin yaradılmasına tələbatın əmələ gəlməsinə səbəb olur və nəticədə dilöyrənənlərin fəal verbal fəaliyyətini şərtləndirir. Burada kütləvi informasiya vasitələrinin rolu vacib sayılır. KİV informasiyanın kütləyə çatdırılmasında müasir sivilizasiyanın ən geniş yayılmış vasitələrindən biridir.

KİV sənayesinə səkkiz vasitə aid edilir. Onlara televiziya, radio, kitab, qəzet, jurnal, səsyazmalar, kino, internet daxildir.Televiziya ilk növbədə informasiya mənbəyidir. TV dili məhz qaydaya salınmış, ədəbi dil normalarını özündə ehtiva edən şifahi dildir.Ekranda səslənən hər şey dilin təbliğinə istiqamətləndirilir. KİV içərisində dilin informasiya, estetik, ideoloji funksiyaları daha çox TV -də qabarıq şəkildə özünü göstərir. Bu zaman aparıcıların nitqi aydın və düzgün olması ilə seçilməlidir, çünki aparıcı TV dilini təmsil edən şəxsdir. Kamera və mikrofon qarşısında aparıcı böyük məsuliyyət hissinə malik olmalıdır. Bu mənada dinləyicilərin böyük həssaslıqla yanaşdıqları diktor və aparıcılardan səsləri, sözləri məharətlə, xüsusi vurğu və intonasiya ilə istifadə etmək tələb olunur. Dilin vəzifəsi ancaq informasiya vermək və ünsiyyət vasitəsi olmaqla bitmir. O, etik mədəniyyətin, milli şüur və təfəkkürün vahid göstəricisi kimi xarakterizə olunur. Dil bir sistem kimi öz ictimai funksiyasını nitqlə həyata keçirir. Kütləvi informasiya vasitələrində nitq yeni

mükəmməl keyfiyyət qazanır. Televiziyada nitq müəyyən olunmuş üç əsas funksiyanı yerinə yetirir:

1. ünsiyyət
2. məlumatlandırma
3. təsiretmə.

Burada nitq bir-birindən fərqlənən müxtəlif üslublarda - danışıq, publisistik, ədəbi-bədii üslubda özünü göstərir. Televiziyada musiqi, əyləncə, şou verilişlərində isə məişət üslubu üstünlük təşkil edir. Bu əsasən müsahibələr, iştirakçıların bir-biri ilə dialoqu formasında əks olunur. TV dilində bütün informasiyalar ədəbi dilin fonetik, leksik, qrammatik səviyyələrini əhatə edir. Bu zaman dil normalarına riayət etmək vacib şərtlərdəndir.

Fonetik norma səviyyəsində vurğu əsas amil hesab edilir. Bu zaman intonasiyanın xüsusi əhəmiyyətə malik olduğunu vurğulamaq olduqca vacibdir [1,s.84]. Leksik normada dilin ən çevik vahidi sözdür. Kütləvi informasiya vasitələrində təkrarlar da böyük rol oynayır. Qrammatik normaya gəlincə isə o dilin qrammatik quruluşunu nitq prosesində nizamlayır.

Qeyd edək ki, felin zaman formaları morfoloji əlamətləri ilə təkamül keçir.TV-nin sintaktik konstruksiyasında yığcam, bəzən də ona yardımçı cümlələr daha çox işlədilir. Kütləvi informasiya vasitələri üçün daha çox inversiya xarakterikdir. Sözlər hər bir dildə yeniliyə söykənməsi ilə seçilir. Hər gün yeni söz yaranır. İngilis dilində isə yeni sözlər sürətlə çoxalır. Buna görə də zaman-zaman dildə sözlərin meydana gəlməsi səbəblərinin təhlili vacib sayılır. Qəzetlər kütləvi informasiya vasitələrindən biridir və onların yeni söz və ifadələrin yaranmasında və yayılmasında böyük rolu vardır. Belə ki, qəzet və məqalələrdə yeni sözlərdən daha çox istifadə olunur. Belə sözlərin yaranma xüsusiyyətlərini öyrənmək vacibdir.

Sözügedən məsələlər bizi aşağıdakı fərziyyələri söyləməyə sövq edir:

-Kütləvi İnformasiya Vasitələri (KİV) sözlərin yaranmasında əsas vasitələrdən hesab olunur. Burada tez-tez yeni sözlərin struktur-semantik növlərindən istifadə edilir.

-Qəzetlərdə rast gəlinən sözlərin semantik-struktur növləri yeni formalı sözlərdir.

-Lüğətlərdə yeni söz və yaxud yeni yaradılmış sözün yeni mənası təqdim edilir.

Dünyada ingilis dilində altyazı ilə yayın edən bir çox TV kanalları vardır. Bir çox insan bu televiziya kanallarını izləyərək ingilis dilində dinləyib-anlama qabiliyyətini inkişaf etdirməyə çalışır.

Qeyd edək ki, bu şifahi nitqin inkişafını tam təmin etmək iqtidarında deyil. Bunun üçün sosial media vasitəsilə dostlar tapmaq, ingilis dilində yazışmaq, səsli ismarıclar göndərmək və s. məqsədəuyğundur.

Bundan əlavə, ingilis dilində olan "You Tube" kanallarına abunə olmaq da faydalı hesab edilir. Burada da müəyyən çətinliklər meydana çıxır. Belə ki, səsləndirilən materialların dialekt və şivələrdə səsləndirilməsi çətinliklər yaradır. Zaman keçdikcə, onları tədricən anlamaq mümkün olur. Sosial mediada paylaşım edən dostlar şifahi nitqin inkişaf etdirilməsində yardımçı ola bilər. Bu paylaşımlara xəbər, jurnal məqalələri, videolar, danışıqlar, bloq yazıları, mahnılar və s. aid ola bilər. İngilis dilində şifahi nitq vərdişlərini KİV ilə inkişaf etdirmək istərkən bloqlar, verbinarlar, veb səhifələr, forumlar yardımçı ola bilər. Bundan əlavə, ingilis dilində sevdiyiniz ulduzun reportajını ingilis dilində dinləmək də faydalıdır. Klassik ədəbiyyat, kitablar, qəzet, internet saytları, e-maillər, ictimai mediadakı xəbər axışı şifahi nitqi inkişaf etdirən intensiv fəaliyyətlərə aid edilir. Multimedia vasitələri, həftəlik radio proqramları, ödənişsiz açıq "online" kurslar (MOOCs) da faydalı hesab olunur. "Online" ingilis dili mərkəzləri layihəsi KİV ilə öyrənmədə xüsusi əhəmiyyət kəsb edir. "The All Ears English Pedcast" pulsuz video epizodlar üçün yararlıdır(www. All Ears English com.). "The Go Natural English" video dərslər söz bazası yaratmaq üçün asan və sürətli yoldur(www. Go Natural English. com.).

Bundan başqa, "Vimeo" You Tube kimi istifadəçilərin qısametrajlı video və filmlərin yüklənərək paylaşılmasını təmin edən saytdır. "Evermale" saytı da bu qəbildəndir (http. masterlab/ org. online kurslar). Yaponiyada getdikcə daha çox Facebook, Twitter, Mixi və s. kimi sosial şəbəkə saytlarının artan məhşurluğu sayəsində xarici dili öyrənmək üçün belə şəbəkələrin istifadəsinin faydalarını təsdiq edən xeyli tədqiqatlar vardır. Müasir metodiki ədəbiyyatlarda sosial

şəbəkə saytlarından istifadənin yüksək motivasiya yaratdığını israrla qeyd edilir[5, s.43]. Bundan əlavə, qeyd edilir ki, "Facebook" istifadəçilərinin şəkillərini, videolarını və dostları ilə paylaşdıqlarını müzakirə etmək üçün sosial şəbəkə saytları nəinki yararlı və rahatdır, hətta tədris prosesində gərginlik və demotivasiyanın aradan qaldırılmasında əhəmiyyətli rola malikdir[4, s.56]. C. Richard isə "Facebook"dan istifadənin ingilis dilində danışmaq üçün daha çox imkanlar təklif etdiyini nəzərə alaraq dilöyrənənlərin rəqəmsal savadlılığını inkişaf etdirmək və xarici dilə yiyələnmək sahəsində "Facebook"un təsirli bir vasutə olduğunu qeyd etmişdir [5,s.200].

Beləliklə, aydın olur ki, kütləvi informasiya materialları vasitəsilə şifahi nitq vərdişlərinin öyrədilməsində sosial şəbəkə saytlarının rolu əvəzsizdir. İngilis dilini öyrənənlərə bu dildə ünsiyyət bacarığını aşılamaq məqsədilə onlara KİV ilə situasiyalar təqdim edilə bilər.

Kütləvi informasiya vasitələri dinləyib-anlama vərdişlərinin formalaşdırılması üçün stimul xarakteri daşıyır. Buraya televiziya, radio və s. aid edilir. Televiziya səlis nitqin inkişafı, orfofonik normaların qorunması baxımından xüsusilə faydalıdr. Bu qurğu səs və görüntünün insanların evində mövcudluğunu reallaşdırır. Bu zaman müxtəlif dillərdə olan məlumatları ingilis dilində evlərə daşımaq mümkün olur. Radio yığcamlılığı ilə diqqət çəkir. Belə ki, onu hər yerə rahat şəkildə daşımaq mümkündür. Burada musiqi, xəbərlər, radio-tamaşalar, radio- tədris kimi yayınlar şifahi nitqin inkişafında əlverişli sayılır. Ən ucuz kütləvi informasiya vasitələri jurnallar hesab olunur. Burada əsasən gündəlik baş verən və tez-tez dəyişən hadisələr işıqlandırılır. Jurnallar uzunmüddətli istifadəyə yararlı olduğu üçün tədris üçün də əlçatan olur. Sənədli film müxtəlif yaş qruplarına uyğun geniş mövzu seçiminə imkan verir. Şagird və tələbələr ailə həyatı, qonşular, sevimli heyvanlar, məktəb həyatı və dostlar barədə real həyat hadisələrini auditoriyaya çatdırmaq və videolaşdırmaq işini planlaşdıra bilərlər.

Onlar bu işləri aşağıdakı ardıcıllıqla həyata keçiə bilərlər:

1) oyun hazırlamaq;
2) müxtəlif komanda tərkibində rollar nümayiş etdirmək;
3) oyun qaydaları haqqında məlumat vermək;
4) oyunun qaydasını nümayiş etdirmək.

Bu məqsədlə onlar 4 hissədən ibarət videomaterial hazırlaya bilərlər. Belə ki, mətni ingilis dilində yazaraq onu məşq etməli və sonda mobil telefonun video yaddaşına köçürməlidirlər.Tapşırıq əsaslı dil təlimi üçün faydalı hesab edilən KİV ilə bağlı tədris materialları vəsaitlər toplusu olaraq metodiki ədəbiyyatda "Realia" adlandırılmış və onu aşağıdakı kimi təsnifləndirirlər:

1. Qəzet və ya jurnallar;
2. Televizor;
3. İnternet;

Qəzet tədris materialı kimi aşağıdakı ardıcıllıqla istifadə olunur :

- dilöyrənənlər qazeti və onun bölmələrini nəzərdən keçirir;
- iştirakçılar qəzetin seçilmiş xüsusi bölməsindən iş elanı hazırlayır;
- dilöyrənənlər qəzetdəki xüsusi bölmələrdən istifadə edib, həftəlik əyləncə proqramı hazırlayır.

Tədris materialı kimi dilöyrənənlər televiziyadan da istifadə edə bilərlər:

- hava proqnozuna baxaraq, dili öyrənən tələbələr hava göstərən simvollardan istifadə edərək, bölgələrə uyğun xəritə qura bilərlər;
- dilöyrənənlər reklamları izləyərək, ifadələrdan siyahı hazırlaya, sözlərin mənalarını araşdırıb, bu ifadələrdən yazılı reklamlar hazırlaya bilərlər;
- dili televizor vasitəsilə mənimsəmək istəyən şəxs hər hansı filmin bir hissəsinə baxıb, lüğət ehtiyatlarını zənginləşdirə bilərlər [2, s.56].

Dram fəliyyəti, texnoloji nailiyyət və kommunikativ öyrənməni özündə ehtiva edən videotapşırıqlar da dilöyrənənlərin dərsə olan həvəs və marağının artmasına səbəb olur. Bu zaman onlar həmyaşıdları ilə fəal əməkdaşlıq edir, bir-birlərini dəstəkləyirlər. Bu isə onların psixoloji inkişafında müsbət məcraya doğru mühüm əhəmiyyət kəsb edir. Kütləvi informasiya materialları vasitəsilə dinləmədən sonra tərtib edilmiş kartların təqdim edilməsi tövsiyə edilə bilər. Şifahi nitq

vərdişlərinin kütləvi informasiya materialları vasitəsilə aşılanmasından bəhs edərkən ilk növbədə kommunikativ sərişdə məfhumunun müəyyənləşdirilməsi zərurəti meydana çıxır.

Onu da nəzərə almaq lazımdır ki, dilöyrənənlərə şifahi nitq vərdişlərinin kütləvi informasiya materialları vasitəsilə aşılanması istiqamətində iş məqsədyönlü, mərhələli xarakter daşımalı və ardıcıl şəkildə həyata keçirilməlidir.

İngilis dilində şifahi nitq vərdişlərinin kütləvi informasiya vasitələri ilə aşılanmasının əsasını təşkil edən linqvodidaktik amillərin müəyyənləşdirilməsi həmin prosesin daha səmərəli şəkildə təşkil edilməsini mümkün edir.

Şifahi nitqin inkişaf etdirilməsinə yönəlidilmiş kütləvi informasiya materialları onun aşağıdakı komponentlərdən ibarət olduğunun nəzərə almaqla tərtib edilməlidir:

- dil materiallarından müxtəlif situasiyalarda istifadə etmək bacarığının inkişaf etdirilməsi;
- ayrı-ayrı kommunikativ məna kəsb edən cümlələri mətn daxilində sintez etmək bacarığı;
- öyrənilən dilin istifadə edildiyi sosio-mədəni kontekstlə tanışlıq;
- başqa insanlarla ünsiyyət qurmaq arzusu və bunun üçün vacib olan özünə əminlik hissinin formalaşdırılması.

Kütləvi informasiya vasitələri fonunda təlim situasiyaları öz növbəsində aşağıdakı növlərə bölünür:

a) audio-vizual vasitələrdən istifadə etməklə dilöyrənənlərin həyati bacarıqları üzərində qurulan situasiyalar;

b) gerçəkliklə bağlı olan şərti kommunikativ situasiyalar;

c) KİV materialları əsasında təşkil edilən situasiyalar;

d) müəllim tərəfindən stimullaşdırılan və təsəvvürlər üzərində təşkil edilən situasiyalar.

Təbii situasiyalardan fərqli olaraq, spontan şəkildə əmələ gələn KİV fonunda təlim situasiyaları müəllim tərəfindən planlaşdırılır və təqdim edilir. Çox vaxt həmin situasiyaları təqdim edərkən müəllim tərəfindən mənimsənilməli olan konkret linqvistik materialların istifadə edilməsi tövsiyə edilir. Əsasən şərti-real situasiyalar əyani-nitq, oxunulan materiallar və audio-vizual vasitələrlə təşkil edilən situasiyalar təsviri-nitq situasiyalarına aid edilə bilər [3, s.45].

Onu da qeyd etmək lazımdır ki, kütləvi informasiya materialları ilə bağlı təlim situasiyaları real və qeyri-real komponentlərin nisbətindən asılı olaraq, səciyyələndirilir.

Beləliklə, ingilis dili dərslərində KİV materiallarından geniş şəkildə istifadə etməkə şifahi nitqin inkişaf etdirilməsi prosesini daha səmərəli şəkildə təşkil etmək və bu istiqamətdə daha yüksək nailiyyətlər əldə etmək mümkündür.

İngilis dilində tələbələrə kütləvi informasiya vasitəsilə təqdim olunan materiallar onları maksimum dərəcədə fəallaşdıraraq, öyrənilən xarici dildə şifahi nitq ünsiyyətinə qoşulmalarına həvəsləndirməlidir.

ƏDƏBİYYAT

1. Allen V.F. Trends in the Teaching of English // TESL, Reporter 6, Summer, 1973. № 4, p.17-21.
2. Alptekin C. Target Language Culture in ELT Materials // ELT Journal, 1993.47, 2, p. 136-143.
3. Bailey K.M. and D. Nunan. Voices from the language classroom. Cambridge: Cambridge University Press, 1996. 451p.
4. Halliday A. The House of TESEP and the Communication Approach: The Special needs of English Language Education // ELT Journal, 1994. v.48 (1), p. 3-11.
5. Jack C. Richards. Communicative Language Teaching Today. Cambridge University Press, 2006, 471 p.

N. Aliyeva

The role of mass media in developing oral speech abilities in language faculties

Summary

The article deals with the problem of working out effective ways of speaking skills.Today the main goal of teaching and learning foreign languages in the global world is developing language learners' ability to use the target language for communication. The process of teaching English should be based on the communicative - functional approach to teaching languages. The whole process of teaching oral speech should be goal-oriented systematic. It will make the process of teaching oral speech more effective. The article is devoted to the mass media in modern methodology. While analyzing great attention was given to the facts taken from the literature. One of the important goals of the article is to detect and find out the reasons of literature. The author emphasizes its role in Linguistics. Since its emergence this notion caught the attention. New researches appeared. It is noted that this gives us more power to understand the process clearly. At that time we use the language more competently. The main aim of State program is to form a unique national education by means of ICT and provide qualitative educative opportunity in order to integrate into worldwide education system. One of the main goals of language learning is to acquire the ability to communicate effectively. It will make the process of teaching oral speech more effective.

Key words: competence, oral speech, context, mass media, communication

H. Алиева

Роль СМИ на формировании навыков устной речи на языковом ВУЗе

Резюме

В данной статье рассматриваются вопросы обучения устной речи на английском языке в условиях языкового вуза. Здесь говорится о необходимости внесения радикальных изменений в существующую систему обучения устной речи на иностранном языке. Процесс обучения английскому языку в целом и процесс обучения устной речи должен базироваться на коммуникативно - функциональном принципе. Обучение устной речи должно носить целенаправленный, системный, поэтапный характер, что будет содействовать повышению эффективности данного процесса. Статья посвящена k СМИ на современном методике. В анализе большое внимание обращено на фактом, полученные из литератур. Автор пытается раскрыть роль СМИ. Ссылаясь на работы ученых исследовавших, а также подчеркивает ее важность. Отмечается, что эта дает воспоминать смысл во время анализа еще более ясно, а также более разнообразном колорите. Основной целью Государственной программы является формирование единой обшенациональной среды образования путём внедрения и использование современных информационно-коммуникативных технологий и обеспечением возможностью качественного образования, а также создания условий для интеграции государственной системы образования в мировую систему образовании. Одной из основных целей изучения языка является обладение умением эффективно общаться на изучаемом языке.

Ключевые слова: компетенция, устная речь, контекст, СМИ, коммуникация

Redaksiyaya daxil olma tarixi: 01.04.2019
Çapa qəbul olunma tarixi: 03.05.2019
Filologiya üzrə fəlsəfə doktoru,dosent Gülər Həsənova tərəfindən çapa tövsiyə olunmuşdur.

ŞƏLALƏ MƏMMƏDOVA
mammadovashalala @gmail.com
OYU
Koroğlu Rehimov 13

FEİLİ LEKSEMLƏRDƏ POLİSEMİYANIN MEYDANA ÇIXMASI ŞƏRAİTİ VƏ SƏBƏBLƏRİ

Xülasə

Bu məqalə feili leksemlərdə polisemiyanın meydana çıxması şəraiti və səbəbləri haqqindadır. Çoxmənalılıqla bağlı problemlərin aradan qalxmasına kömək edəcək üsullardan biri də polisemiyanın mənbəyindən xəbərdar olmaqdır. Bildiyimiz kimi bir sözün müxtəlif məna çalarları ola bilər. Dildə olan sözlərin mənalarını anlamaq üçün lüğəvi mənasını, qrammatik quruluşunu bilmək kifayət etmir. Həmçinin sözlər arasındakı semantik əlaqəni də izah etmək lazımdır. Çoxmənalılıq bəzən səhv anlaşılmaya gətirib çıxarda bilər. Qeyd etdiyimiz kimi sözün mənasının aydınlaşdırılmasında kontekst köməyə gəlir, lakin, bəzən elə hallar olur ki, hətta kontekst belə bu zaman çarəsiz qalır. Bu kimi hallar azlıq təşkil etsə də, yenə də təhlilə ehtiyac duyulur. Çoxmənalı sözlərin tədrisində yarana biləcək linqvistik problemlərdən biri də öyrənənlərin sözün ehtiva etdiyi mənalarını kontekstə uyğunlaşdıra bilməməsidir. Belə ki, o, sözün bir, yaxud iki mənasını bilsə də, kontekstin tələb etdiyi mənanı bilmirsə, çətinlik çəkəcək və problemi həll etməyə meylli olacaq. . Sözlərin çoxmənalılığı kontekstlərlə yanaşı idiomatik ifadələrdə də özünü göstərir. Belə ki, ilkin mənanı xatırladan bu ifadələr məcazi mənada işlənir. Tərkibində polisemantik sözlər olan ifadələr idiomatic polysemy adlanır.Sonda, bele bir nəticəyə gəlmək olar ki,dildə bu kimi problemlər aktual məsələlərdən biri olmuşdur.

Açar sözlər: sözün mənası, dildə olan modifikasiya, polisemiyanın tezliyi

Polisemiyanın mahiyyəti ondan ibarətdir ki, hansısa əşyanın, hadisənin adı başqa bir əşyaya, hadisəyə köçürülür və beləliklə, bir söz eyni zamanda bir neçə əşyanın, hadisənin adlandırılmasına xidmət edir.

Çoxmənalılıqla bağlı problemlərin aradan qalxmasına kömək edəcək üsullardan biri də polisemiyanın mənbəyindən xəbərdar olmaqdır. Bildiyimiz kimi bir sözün müxtəlif məna çalarları ola bilər. Burada təqdim olunan təsnifat bir tərəfdən "mikrokosmos" kimi sözün daxili xüsusiyyət və əlaqələrini, digər tərəfdən isə xarici aləmlə münasibətlərini nəzərə almaq üçün bir addımdır.

I.Tətbiqi keçirilmə çoxmənalılığın əsas mənbəyidir.

Green sifəti "mavi və sarı arasında ortaqlıq təşkil edən rəng", meyvələrə və ya bitkilərə aid olanda isə bəzi əlavə xüsusiyyətlər daşıyır:

1) Kal - The apple is still green.
2) Cavan və zəif - Don't hurt the green blade for you shall have not corn.
3) Çiçəklənən
4) Təbii nəmliyini saxlayan və quru olmayan - green crop (kal vəziyyətdə olarkən ərzaq üçün istifadə olunan məhsul)

Cry feli;

1) Yalvarıb yaxarmaq - The drowing man *cried* for help.
2) Açıq şəkildə elan etmək, kütlə içində bildirmək - The proclamation was cried throughout the country.
3) Göz yaşı tökmək - The child was *crying* for his mother.

Bu iki sözdə məna keçirilməsi əsas anlayışın verilən cəhətini ifadə edir. Bu kimi keçirilmə xarici əlaqələri əks etdirmir. Yaşıl bitki ilk olaraq rəng baxımından yaşıldır, daha sonra isə o digər cəhətləri də əks etdirir. Lakin digər mənalarına baxmayaraq bu sözün ilkin mənası əsas götürülür. Bu *cry* felinə də aiddir.

Bu baximdan daha bir maraqlı misal olaraq wear felini nəzərdən keçirə bilərik: One wears a dress and from long use it wears out.

Aydıındır ki, burada wear sözü iki əks mənalarda işlədilib. Sadəcə kontekstdən bilmək olar ki, söz bu iki yerdə hansı mənanı daşıyır. Bu sözün antonimlik təşkil edən mənalarını göstərən yeganə misal deyil. Qəribəsi odur ki, təcrübədə nadir hallarda anlaşılmazlıq yaranır.

ll**.** *Xüsusiləşmə* çoxmənalılığın digər mənbəyidir. Söz texniki termin kimi işlədildikdə əlavə mənalar kəsb edir.

Action:

1) Fəaliyyət göstərmə şəraiti və ya prosesi;
2) Edilən iş, əməl;
3) Dramda səhnəyə qoyulan iş;
4) Alətin fəaliyyət göstərdiyi üsul və ya buna təsir edən mexanizm.

Texniki termin kimi isə:

1) Hüquqi prosesin qəbul edilməsi;
2) Hüquqi proses;
3) Düşmən və ya döyüş əleyhinə fəal əməliyyat və s.

Cock - ev quşlarının erkəyi.

Texniki termin kimi isə:

1) Kran;
2) Odlu silahda hissələri boşaldan və birləşdirən mexanizm;
3) Balans göstəricisi və s.

Bədənin hissələrini bildirən sözlər tez-tez texniki terminlər kimi istifadə olunur. Belə ki, head, hand, finger, foot bir sıra mexaniki hissələri ifadə etmək üçün istifadə olunur.

Bəzi hallarda əks proses də baş verə bilər, texniki termin bu və ya digər səbəbdən dolayı yolla müxtəlif qeyri-texniki mənalar kəsb edə bilər (Molhova J. Outlines of English lexicology. Sofia, 1967, p.168 s.30).

lll. *Məcazi ifadələr* də çoxmənalılığa gətirib çıxara bilər. Sözün məcazi mənada işlənmə qabiliyyətinə malik olması çoxmənalılığın əlamətlərindən biridir. Məcazi məna sözlərin əsas nominativ mənalarından fərqlənən köçürmə mənasıdır. Məcazilik sözlərin müxtəlif əlaqələrində yaranır. Sözün məcazi mənası obrazlı təfəkkürün məhsuludur.

İdiomlarda məcazi mənalı sözlərin, yəni frazeoloji birləşmələrin fərqi odurki, idiomlar digər dilə tərcümə olunmur və tərkibindəki sözlər leksik vahidliyindən məhrum olur.

Under *weather* - bu idiom *pis əhvalda olmaq* mənasını verir. Halbuki, ayrılıqda *under* - altında, *weather* - hava mənasını daşıyır və bunun da pis əhval sözü ilə heç bir əlaqəsi yoxdur. Lakin məcazi mənalı sözlər birləşmə tərkibində öz funksiyasını saxlayır, leksik vahidliyindən məhrum olmur.

Məcazi mənalı sözlərə aid bəzi misallara baxaq:

- He combed the streets for his old friends, Pilon and Danny and Pablo and could not find them.
- The porters shrieked ferocious things like attention as they elbowed past, walking mountains of baggage.
- If you are going my way l can give you a lift.
- Oh, it’s all Greek I know and l won’t bother you and more with with it.

Bu bir neçə misaldan aydındır ki, hətta xüsusi adlar və saylar da emosional rənglilik daşıyaraq məcazi mənada işlədilə bilər və digər məna çalarları qazana bilər.

IV. *Alınma sözlər*. İngilis dilində xarici mənşəyi olan söz alındığı dildəki mənasından fərqli məna ifadə edə bilər. Bəzi hallarda əvvəlki məna yeni mənaya təsir edə bilər. Bu xüsusilə, hər iki dildə danışan insanların yaxın əlaqədə olmalarının davam etdiyi şəraitdə mövcud olur.

Intrigue sb

1) *Sirli sevgi yaşamaq;*

2) *Layihələrin həyata keçirilməsi üçün sirli təsir daşımaq; intriqa yaratmaq* və s.

Bunlar bu sözün ingilis dilində olduğu mənalarıdır. Son zamanlarda fransız dilinin təsirinə əsasən həmin söz nəyəsə maraq oyatmaq mənasında işlədilə bilər.

Actual sifəti həqiqi, əsl, real mənalarını ifadə edir. Lakin fransız dilinin təsiri nəticəsində o, indiki zamanla bağlı olan hazırki, cari mənalarını ifadə edir ([Molhova J. Outlines of English lexicology. Sofia, 1967,. s.31).

V. *Məna keçirilməsi mexanizmi*. Sözün semantik inkişafı 2 mərhələdə həyata keçirilir: radiasiya (təsiretmə) və ardıcıl keçirilmə (qarşılıqlı əlaqə). Çoxmənalılığı təhlil edərkən deyə bilərik ki, burada əsas, özül proses radiasiyadır (təsiretmə). Radiasiya da elə bir modeldir ki, burada əsas, özül məna mərkəzdə durur və digər əlavə məna çalarları isə radiasiya şüaları kimi birbaşa onunla əlaqədar olur. Radiasiyaya ən gözəl misal foot sözünun çoxsaylı mənaları ola bilər:

Foot

1. a) ayağın ən aşağı hissəsi;

b) çarpayının, məzarın və s. ayaq qoyulan uc hissəsi;

c) corabın ayagı örtən hissəsi;

2. Prosody - biri əsas vurğu daşıyan çoxsaylı hecalardan ibarət beyt bölümü

3. insan ayağının uzunluğuna əsaslanan ölçü vahidi

4. analoji istifadələri

a) baza, təməl

b) zooloji

c) botanik, ləçəyin bir hissəsi

5. a) ən aşağı hissə, alt

b) enişin başlanğıcı və ya sonu

c) dib, ən aşağı hissə

Yuxarıdakı misalları nəzərdən keçirərkən məlum olur ki, əsas, özül mənası birincidir, digər iki məna yer, mövqe eyniliyinə əsaslanır, zooloji və botaniki terminlərin hər ikisi uyğun orqanlar və onların mövqe funksiyalarının eyniliyinə əsasən özül məna ilə mövqe eyniliyinə əsasən sıx birbaşa əlaqəlidir. [Molhova J. Outlines of English lexicology. Sofia, 1967, p.23].

Həmçinin başqa bir misal olaraq *face* sözünü göstərə bilərik. *Face* sözünun ilkin mənası insan başının qabaq, ön, üz hissəsini ifadə edir. Bu məna ilə əlaqədar olaraq *the front part of a building, the front part of a watch, the front of a playing card* mənaları formalaşdı (Дубенец Э.М. Современный английский язык. Лексикология. Москва, 2010, p.1240).

Ardıcıl keçirilmə (qarşılıqlı əlaqə) məna keçirilməsinin digər variantıdır. Söz latın dilindən götürülüb "*əlaqələnən ardıcıl zəncirvari birlik"* deməkdir ki, bu da bu modelin eynilə görünüşüdür. Belə ki, ardıcıl keçirilmə zamanı sözün ikinci dərəcəli, törəmə mənalari zəncirvari inkişaf edir. Məsələn:

Heart – ilk mənası "*bədən orqani*" dır. Qrafik olaraq biz onu mərkəzi məna olaraq qəbul edə bilərik. Sözün məcazi mənası da məhz burdan yaranır: hissiyyat, anlama, fikir ocağı. Bu son mənadan da bir neçə əlavə məna alınır:

1. ümumi mənada ağıl

2. insanın daxili fikirləri və sirli hisslərinin ocağı

3. niyyət

4. emosiya ocağı

5. sevgi ocağı

6. cəsarət ocağı

7. mənəvi hiss, duyğu

Bütün bu mənalar *hisslərin ocağı* mənasıyla əlaqədardır. Öz növbəsində bu sonuncu məna da iki əlavə mənanın mərkəzi olur: *bədən və ruh* (Дубенец Э.М. Современный английский язык. Лексикология. Москва, 2010, .s.33).

Çoxmənalılıq tez-tez incəsənət əsərlərində, poeziya və nəsrdə istifadə olunur. Bir sıra cinas sözlər (kalamburlar) çoxmənalılığa əsaslanır. Məsələnin bu tərəfiylə üslubiyyat məşğul olur.

Çoxmənalılıq bəzən səhv anlaşılmaya gətirib çıxarda bilər. Qeyd etdiyimiz kimi sözün mənasının aydınlaşdırılmasında kontekst köməyə gəlir, lakin, bəzən elə hallar olur ki, hətta kontekst belə bu zaman çarəsiz qalır. Bu kimi hallar azlıq təşkil etsə də, yenə də təhlilə ehtiyac duyulur.

Çoxmənalı sözlərin omonimlərlə səhv salınması, ikimənalılıq hallarının müşahidə edilməsi, bu sözlərin işləndiyi idiomatik ifadələrin düzgün başa düşülməməsi və çoxmənalı sözlərin kontekst daxilində tələb etdiyi mənalar linqivistik problemlər olsa da, mənanın əvvəlcədən izahı və nümunələrlə möhkəmləndirilməsi bu problemlərin aradan qalxmasına kömək edir.

Ədəbiyyat

1. Arnold I.V. The English word M.: High School, 1979, p.180.
2. Дубенец Э.М. Современный английский язык. Лексикология. Москва, 2010, p.124.
3. Hasanov H.A.; The lexicon of modern Azerbaijani language. Baku, 1988, p.176.. Molhova J. Outlines of English lexicology. Sofia, 1967, p.168
4. Soloshenko A.M. Lecture notes on English lexicology. L.: Lviv University Press, 1998, p.98.
5. Polysemy: Flexible Patterns of Meaning in Mind and Language" by Zazie Todd, Vimala Herman, and David D. Clarke. New York: Moutonde Gruyter, 2003. p.102.

Ш.Мамадова

Условия и причины появления полисемии в глагольных лексимах

Резюме

Эта статья об условиях и причинах появления многозначности в лексике. Один из способов, чтобы помочь преодолеть проблему полисемии - это знать ее первопричину. Как известно, одно слово может иметь разные значения. Словарного значения и грамматической структуры слов недостаточно для понимания значений слов. Семантические отношения между словами также должны быть объяснены. Полисемия иногда может привести к допониманию. Как уже упоминалось, контекст помогает нам прояснить значение слова, но иногда случается, что даже контекст беспомощен. Хотя такие случаи являются меньшинством, все еще существует необходимость анализа. Одна из языковых проблем, которая может возникнуть при обучении многоязычных слов, заключается в том, что учащиеся не могут понять значение слова в контексте. Поэтому, даже если он знает одно или два значения, ему будет трудно справиться с проблемой, если он не знает, какое значение требуется в контексте. Многозначность слов наряду с контекстом также выражается в идиоматических выражениях. Таким образом, эти выражения, которые напоминают первоначальное значение употребляются в переносном смысле. Фразы, содержащие многозначные слова, называются идиоматической многозначностью. В итоге можно сделать вывод, что такие проблемы в языке стали одной из актуальных проблем.

Ключевые слова: значение слова, модификация языка, частота полисемии

SH.Mammadova

Conditions and causes of the appearance of polysemy in lipids.

Summary

This article is about the conditions and causes of the appearance of polysemic in the lexis. One of the ways to help overcome the problem of polysemy is to be aware of its source. As it is known, one word may have different meanings. Vocabulary meaning and grammatical structure of the words are not enough for understanding the meanings of words. The semantic relationship between words must be explained too. Polysemy can sometimes lead to misunderstanding. As it was mentioned, context assists us to clarify the meaning of the word, but sometimes it happens that even the context is helpless. Although such cases are minority, there is still a need for analysis. One of the linguistic problems that may arise in the teaching of multilingual words is that learners can not ring into line the meaning of the word into context. Even though he knows one or two meanings of the word, if he does not know what the context requires, then he will be inclined to solve the problem. The polysemy of words is also expressed in idiomatic expressions along with the context. Thus, these expressions, which are reminiscent of the original meaning, are used in a figurative sense. Expressions that contain polysemantic words are called idiomatic polysemy. In the end, it can be concluded that such problems in language have become one of the actual issues.

Key words: meaning of the word, modification in language, frequency of polysemy

Redaksiyaya daxil olma tarixi: 28.03.2019
Çapa qəbul olunma tarixi: 15.04.2019
Filologiya elmləri doktoru, professor İlham Tahirov tərəfindən çapa tövsiyə olunmuşdur.

SONA İSKƏNDƏROVA
Azərbaycan Dillər Universiteti
sonaisgenderova@gmail.com
Reşid Behbudov 2

MÜQAYİSƏ DƏRƏCƏLƏRİ KATEQORİYASI VƏ İSİM

Xülasə

2. Syntactic (grammatical) inversion - the whole system of word positioning in the English sentence. It is opposed to the direct word order dominant in English. In addition, the inversion does not include cases of the free position of certain elements of the sentence (for example, circumstances - determinants).

3. The main functions of inversion are the additional emphasis of the actual division, the emphasis of semi-predicative relations, the binding of a number of statements into a super-phrasal unity. The implementation of these functions is closely related to the fact that in the process of inversion there is a selection of an inverted member (sometimes - along with any other member) logical stress. On the contrary, the free movement of members that does not carry semantic

differentiation functions (permutations of determinants) is not associated with transferring a logical stress to them.

Literature

1. Halperin I.R. Text as an object of linguistic research. - M .: Science,2015
2. M. A. K. Halliday."Notes on transitivity and the theme in the English language". 2013
3. Kudasova O.K. “The role of stylistic reception in the organization of scientific evaluation text”// Language and style of scientific presentation. Lingvo-methodical research. –2014.
4. Halperin. Essays on the style of the English language. - M., 1958.
5. Schwabe, Winkler 2007.

N.Əhmədli

İngilis mətninin informasiya strukturunda inversiyanın rolu

Xülasə

Beləliklə, qeyd etmək lazımdır ki, bu məqalədə göstərilən problemlər tələbə rəhbərlərinin düzgün şəkildə elmi bir şəkildə yönəldilməsinə, məlumatları kifayət qədər qəbul etmələrinə, peşəkar yönümün elmi mətnlərində dərc edilməsinə və ingilis dilində tədqiqat sənədlərinin uğurla yazılmasına kömək edəcəkdir. "İnversiya" termini yalnız feli əsasda dəyişim deyil, həm də cümlənin kiçik şərtlərinin dəyişimi kimi başa düşülməlidir, çünki funksional baxımdan və İngilis dili söz düzəliş sistemində eyni sintaktik xüsusiyyətlərə malikdirlər.

Bu araşdırmaların nəticələrinə görə, müasir İngilis mətninin məlumat strukturunda inversiyanın rolundan bəhs edilir. Üslubi inversiya yazılı ədəbiyyatda çox istifadə olunmur, əsasən ədəbi əsərlərdə istifadə olunur və bununla dilin həssaslığı təmin olunur, dil daha parlaq və ifadəli olur. Əksər hallarda, məqalələrdə qrammatik inversiya istifadə olunur, yəni orada həm inversiya var, həm də sorğunu ifadə etmək üçün istifadə edilən inversiyalar var. İngilis mətninin məlumat strukturunda dil geniş sapmalara yol verməyən bəzi normalara riayət etməlidir, buna görə də həmin mətnlərdə yazılı şəkildə əsasən üslubi inversiya istifadə olunur.

Bu yazıda inversiyaların növləri araşdırılmış, İngilis dilində istifadə edilməsinin səbəblərini izah etmək üçün cəhdlər edilmişdir. Məsələn, ədəbi dildə ifadənin təsiri gec yaradılır, yəni psixolojik cəhətdən qeyri-müəyyənlik yaradan vacib element cümlənin sonunda olur və oxucu mətnin əsas mesajını ilk anda anlamır.

Açar sözlər: inversiya, İngilis dili mətn,müddəti,qrammatika, Ingilis dili

Н.Ахмедли

Роль инверсии в информационной структуре английского текста

Резюме

По результатам данных исследований можно сделать вывод о том, что инверсия в современных периодических изданиях является достаточно распространенным явлением. Стилистическая инверсия не является популярной при написании публицистических работ, так как в основном используется в литературных произведениях, позволяя облагородить язык и сделать его более ярким и выразительным.

В периодических же изданиях язык должен соответствовать определенным нормам, не допускающим больших отклонений, поэтому среди стилистической инверсии, используемой при написании публицистических текстов, можно выделить только инверсию, используемую

при прямой речи. Инверсия также является средством выражения выражения в тех случаях, когда оно порождает представление о тех контекстах, для которых обычное расположение слов является обычным.

Например, в английской поэзии прилагательное может не только предшествовать определению существительного, как обычно для прозы, но и следовать за ним. В языках флективных языков, например, когда отношения между словами реализуются с помощью морфем, коммуникативный принцип размещения слов играет основную роль в определении порядка слов.

Ключевые слова: инверсия, Английский текст, грамматика, Английский язык

Redaksiyaya daxil olma tarixi: 01.03.2019
Çapa qəbul olunma tarixi: 21.04.2019
Filologiya elmləri doktoru, professor Azad Məmmədov tərəfindən çapa tövsiyə olunmuşdur.

BİKƏXANIM QURBANOVA
Bakı Avrasiya Universiteti
Akademik H.Əliyev küçəsi 135A
qurbanovabike1@gmail.com

AZƏRBAYCANDA MULTIKULTURALİZM VƏ DIL SİYASƏTİ

Xülasə

Multikulturalizmin mədəniyyətləri bir araya gətirir.Multikulturalizm adət-ənənələr arasında mədəniyyəti və tolerantlığı formalaşdırır. Dini tolerantlıq- bir dini konfessiyaya mənsub olan din məmurunun başqa dinə mənsub olan din adamlarının düşüncələrinə hörmətlə yanaşmasıdır. Millətlərarası tolerantlıq-başqa milli, etnik və irqi ənənələrə hörmət şəklində ifadə olunur.Tolerant insan hər hansı xalqa və onun hər bir nümayəndəsinə hörmət və məhəbbətlə yanaşan insandır.

Multikulturalizm dedikdə dövlətin sərhədləri içərisində çoxmədəniyyətliliyi qorumaqdır. Həmçinin Azərbaycanda yaşayan milli azlıqlar üçün də maksimum yaradılmışdır. Ölkəmizdə yaşayan azsaylı xalqların dillərinin ümumtəhsil məktəblərində tədrisi ilə bağlı son illərdə talış,saxur,-kürd,tat,udin,xınalıq dilləri üzrə ibtidai siniflər üçün dərs proqramları hazırlanmışdır.Bakı Slavyan Universitetinin nəzdində Ukrayna dili öyrədilən Bazar günü məktəbi,Qafqaz xalqlarının dilləri və mədəniyyəti cəmiyyəti fəaliyyət göstərmişdir.Azərbaycan dövlət olaraq həmişə bütün məsələləri tolerantlıq prinsipləri çərçivəsində həll etməyə çalışır. Mərkəzin yaradılmasında əsas məqsəd, ölkədə əsrlərlə formalaşmış tolerantlığı davam etdirmək, etnik-mədəni və dini müxtəlifliyin qorunmasını və çiçəklənməsini təmin etməkdir. Multikulturalizm mərkəzi dünyada bir çox millətlər tərəfindən tanınır(4). Multikulturalizmin tətbiq edildiyi dil siyasəti modeli demokratik dil siyasəti modelidir.Müstəqil Azərbaycan dövləti və onun yaradıcısı Ulu Öndər Heydər Əliyev və İlham Əliyev ölkəmizdə yaşayan milli azlıqların dilinə,dininə,mədəniyyətlərinə həmişə diqqətlə və hörmətlə yanaşmışdır.

Açar sözlər:multikulturalizm,tolerantlıq,milli azlıq,mədəniyyət,cəmiyyət,hüquq.

Azərbaycan müxtəlif mədəniyyətlərin,dinlərin,adət-ənənələrin bir araya gəldiyi multikulturalizm ölkəsidir.Azərbaycan müxtəlif mədəniyyətlərin,xalqların bir araya gəldiyi məkan olaraq,sülh,əmin-amanlıq ölkəsi kimi tanınmışdır.Multikulturalizm mədəniyyətlərin, sivilizasiyaların dialoqunun əsas alətidir.Digər xalqların mədəniyyətlərinin,xüsusiyyətlərini tarixini öyrənmədən onların nümayəndələri ilə qarşılıqlı şəkildə anlaşma qeyri-mümkündür.(5) Hərfi mənada "multikulturalizm" çoxmədəniyyətlilik deməkdir. Latın dilindən tərcümədə "multi" çox mənasını verir,"kultura" isə tərbiyə,təhsil,din,elm,din,davranış,etiket və s.anlayışlarla ifadə olunur. Hindistan konstitusiyasında cəmiyyətin polietnik olması, müstəqillik ərəfəsində müsəlmanlarla hinduslar arasında ölkənin parçalanması ilə nəticələnən etnik-siyasi hadisələrlə bağlı "multimədəni cəmiyyət" prinsipləri meydana gəlmişdir.Avropa və bəzi ölkələr multikulturalizmi idarə etməyin çox çətin vəzifə olmasını nəzərə alıb,imtina etmişlər.Azərbaycan islam ölkəsidir və biz öz dinimizə hörmətlə,etiqadla yanaşırıq. Multikulturalizmin əsas elementlərindən biri də tolerantlıqdır.-Azərbaycan dövlət olaraq həmişə bütün məsələləri tolerantlıq prinsipləri çərçivəsində həll etməyə çalışır. ."Tolerantlıq" fransız dilindən tərcümədə "dözümlü" deməkdir.Tolerantlıq insanın həyat tərzinə,davranışına,adət-ənənələrinə dözümlə yanaşmaq deməkdir.Tolerantlıq ümumi dəyərlərə qarşı çıxılmaması şərti ilə insanlara öz yaşayış tərzlərinə,düşüncələrinə uyğun yaşamaq haqqı verir.Tolerantlılığın müxtəlif tipləri vardır: **1) Dini tolerantlıq**- bir dini konfessiyaya mənsub olan din məmurunun başqa dinə mənsub olan din adamlarının düşüncələrinə hörmətlə yanaşmasıdır.(1,səh 24)/ **2) Pedaqoji tolerantlıq**- pedaqoqun şagirdlərə və tələbələrə səmimi münasibəti, eləcə də onların hüquq və azadlıqlarına, yaradıcı və tənqidi düşüncələrinə yüksək dözümlü münasibət və hörmətidir.

3) Ekoloji tolerantıq-bütün həyat formalarına səmimi hörmətdə və məhəbbətdə təzahür edir. Hər hansı varlığın təbii qanunauyğunluğun nəticəsi olmasını və onların hər birinin həyat zəncirində xüsusi və vacib rolu olmasını dərk etmək kimi ali prinsiplərə əsaslanır.(1,səh 24)

4) Millətlərarası tolerantlıq-başqa milli, etnik və irqi ənənələrə hörmət şəklində ifadə olunur. Bu baxımdan tolerant insan hər hansı xalqa və onun hər bir nümayəndəsinə hörmət və məhəbbətlə yanaşan insandır.

5)Siyasi tolerantlıq-siyasi baxışlara və siyasi əksliklərə hörmət və dözümlülük deməkdir.

6)Fizioloji tolerantıq-sağlamlıq problemləri olan insanlara məhəbbət, dözümlülük,mərhəmətdir.

7) Cinsi tolerantlıq-əks cinsin bütün nümayəndələrinə, eləcə də cinsi azlıqların mənsublarına münasibətdə dözümlülük şəklində təzahür edir.

8) Administrativ tolerantlıq- aşağı və yüksək rütbəli vəzifəli şəxslərə,məmurlara dözümlülük,-mərhəmət,hörmət deməkdir.Tolerantlığın hər bir tipinin özünəməxsus istiqaməti var və hər bir tolerant insan bu istiqamətlərin hər birinə dözümlülüklə yanaşmalıdır. Prezident İlham Əliyevin multikulturalizm siyasətinin daha effektli şəkildə həyata keçirilməsini təmin etmək istiqamətində atdığı növbəti addım, onun 2015-ci ilin 15 may tarixində imzaladığı Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması haqqında sənəd oldu. Mərkəzin yaradılmasında əsas məqsəd, ölkədə əsrlərlə formalaşmış tolerantlığın, etnik-mədəni və dini müxtəlifliyin qorunmasını və çiçəklənməsini təmin etmək, həmçinin Azərbaycanı dünyada multikulturalizm mərkəzi kimi tanıtmaq və mövcud multikultural modelləri tədqiq və təşviq etmək idi.(1,səh 36) Bu gün multimədəni dəyərləri tərənnüm edən Azərbaycan xalqının sıx və sarsılmaz birliyinin təmin edilməsi işində möhtəşəm tədbirlərin təşkili və həyata keçirilməsi kimi proses uğurla davam edir. Azərbaycan Respublikasının Prezidenti, möhtərəm İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən davamlı multimədəni siyasətin ən başlıca əhəmiyyəti isə ondan ibarətdir ki, geniş və kompleks şəkildə həyata keçirilən mütərəqqi ideyaların külliyyatı Azərbaycan xalqının həyatında çoxəsrlik əxlaqi mədəni və mənəvi dəyərlərin intibahı kimi təzahür etdi və xalqın əsrlərlə formalaşmış, lakin müəyyən obyektiv tarixi səbəblərdən deformasiyaya məruz qalmış əsl tolerant obrazını və müdrik simasını özünə qaytardı. Prezident İlham Əliyevin etnik tolerantlığa, yeni multikulturalizm ideyalarına verdiyi mədəni-siyasi dəyərlərin dünya miqyasında real elmi, mədəni və sosial müstəvilərə çıxarılması işində Heydər Əliyev Fondunun və fondun prezidenti, ölkənin birinci xanımı, Azərbaycan Respublikasının I vitse-prezidenti Mehriban Əliyevanın müstəsna xidmətləri vardır. Multikulturalizm ideyalarının təbliği və təşviqi ilə bağlı baş tutan bütün yerli, regional və beynəlxalq miqyaslı və xarakterli tədbirlər Mehriban Əliyevanın və onun rəhbərlik etdiyi strukturların təşkilatçılığı və iştirakı ilə reallaşdırılır. Multikultural mühitin tətbiq edildiyi dil siyasəti modeli demokratik dil siyasəti modelidir.Azərbaycanda çoxlu azsaylı xalqlar və etnik qruplar yaşayır.Müstəqil Azərbaycan dövləti və onun yaradıcısı Ulu Öndər Heydər Əliyev ölkəmizdə yaşayan milli azlıqların dilinə,dininə,mədəniyyətlərinə həmişə diqqətlə və hörmətlə yanaşmışdır(2,səh 10).Respublikada yaşayan etnik qrupların demək olar ki,əksəriyyəti Azərbaycanın dövlət dillini bilir,bu dildən etniklərarası ünsiyyət vasitəsi kimi də istifadə olunur. Azərbaycan Respublikası Prezidentinin 5 sentyabr 2009-cu il tarixli Fərmanı ilə təsdiq edilmiş "Təhsil haqqında" Qanunun 5-ci maddəsinin ,5.1.- ci bəndinə əsasən, "Dövlət hər bir vətəndaşın təhsil' alması üçün müvafiq şəraitin yaradılmasına təminat verir və təhsilin hər hansı pilləsindən, səviyyəsindən və formasından məhrum edilməsinə yol vermir"; 5.2.-ci bəndində isə göstərilir ki, "Dövlət cinsindən, irqindən, dilindən, dinindən, siyasi əqidəsindən, milliyyətindən, sosial vəziyyətindən, mənşəyindən, sağlamlıq imkanlarından asılı olmayaraq, hər bir vətəndaşa təhsil almaq imkanı yaradılmasına və ayrı-seçkiliyə yol verilməməsinə təminat verir". "Azərbaycan Respublikasında yaşayan milli azlıq, azsaylı xalqların və etnik qrupların hüquq və azadlıqlarının qorunması, dil və mədəniyyətinin inkişafı üçün dövlət yardımı haqqında" Azərbaycan Respublikası Prezidentinin 16 sentyabr 1992- ci il tarixli, 212 saylı Fərmanına uyğun olaraq, ümumtəhsil məktəblərində onların dillərinin tədrisi ilə bağlı lazımi şərait yaradılmışdır. Ölkəmizin ümumtəhsil məktəblərində təlim Azərbaycan, rus, gürcü dillərində aparılır. Buna müvafiq olaraq, təlim 3 dildə olan məktəblər üçün tədris planları təsdiq edilmişdir. Respublikanın təhsil sistemində fəaliyyət göstərən 1.764 məktəbəqədər təhsil müəssisələrindən 248-də 8.347 şagird rus dilində, 7-də isə 300-dən çox uşaq gürcü dilində təhsil

alır. Eyni zamanda, milli azlıqların (avar, kürd, udin, saxur, ivrit, xınalıq və s.) dili ana dili kimi öyrədilən məktəblərin I-IV sinifləri üçün tədris planlarında həmin dillərin tədrisi üçün həftədə 2 saat dərs yükü ayrılmışdır. Ləzgi dili isə həftədə 2 saat olmaqla Qusar rayonunda I-XI, İsmayıllı, Qəbələ, Xaçmaz, Oğuz rayonlarında I-IX, Quba rayonunda isə I-IV siniflərdə tədris olunur. Respublikanın 13 rayonunda (Lənkəran, Astara, Balakən, Oğuz, Quba, Qusar, Qəbələ, Zaqatala, İsmayıllı, Lerik, Masallı, Samux, və Xaçmaz) yaşayan milli azlıqların uşaqlarının öz ana dilini, milli adət və ənənələrini, mədəniyyətini öyrənmələri üçün müvafiq şərait yaradılmışdır. Ölkəmizdə yaşayan azsaylı xalqların dillərinin ümumtəhsil məktəblərində tədrisi ilə bağlı son illərdə talış,saxur,kürd,tat,udin,xınalıq dilləri üzrə ibtidai siniflər üçün dərs proqramları hazırlanmışdır.Bu tip qanunlar nəinki bölgələrdə, hətta Bakıdada tətbiq olunmuşdu.Belə ki Bakı Slavyan Universitetinin nəzdində Ukrayna dili öyrədilən Bazar günü məktəbi,Qafqaz xalqlarının dilləri və mədəniyyəti cəmiyyəti fəaliyyət göstərmişdir.Bakının 46 nömrəli məktəbində 10 ilə yaxındır ki,yəhudi dili tədris olunur(3,səh 100).Avropa Şurası və Təhsil Nazirliyi 2003-cü ildən "Təhsil siyasəti və milli azlıqlar" layihəsini birgə keçirir.Layihənin əsas məqsədi iştirakçı ölkələrə milli azlıqların təhsili ilə bağlı qanunvericilik sənədlərinin hazırlanmasında yardım göstərilməsi və milli azlıqların təhsil siyasəti sahəsində tövsiyələrin təqdim edilməsidir.Bu layihənin səmərəli həyata keçirilməsi məqsədilə Azərbaycan-Avropa Şurası birgə İşçi Qrupu yaradılmışdır. Azərbaycan Respublikasının Prezidenti, möhtərəm İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən davamlı multimədəni siyasətin ən başlıca əhəmiyyəti isə ondan ibarətdir ki, geniş və kompleks şəkildə həyata keçirilən mütərəqqi ideyaların külliyyatı Azərbaycan xalqının həyatında çoxəsrlik əxlaqimədəni və mənəvi dəyərlərin intibahı kimi təzahür etdi və xalqın əsrlərlə formalaşmış, lakin müəyyən obyektiv tarixi səbəblərdən deformasiyaya məruz qalmış əsl tolerant obrazını və müdrik simasını özünə qaytardı. Prezident İlham Əliyevin etnik tolerantlığa, yeni multikulturalizm ideyalarına verdiyi mədəni-siyasi dəyərlərin dünya miqyasında real elmi, mədəni və sosial müstəvilərə çıxarılması işində Heydər Əliyev Fondunun və fondun prezidenti, ölkənin birinci xanımı, Azərbaycan Respublikasının I vitse-prezidenti Mehriban Əliyevanın müstəsna xidmətləri vardır. Multikulturalizm ideyalarının təbliği və təşviqi ilə bağlı baş tutan bütün yerli, regional və beynəlxalq miqyaslı və xarakterli tədbirlər Mehriban Əliyevanın və onun rəhbərlik etdiyi strukturların təşkilatçılığı və iştirakı ilə reallaşdırılır. 2016-cı ildə "Multikulturalizm ili"ilə əlaqədar ölkəmizdə dəyirmi masalar,sərgilər,müsabiqələr,yay-qış multikulturalizm düşərgələrinin yaradılması,"Azərbaycan multikulturalizmi" kitabının hazırlanması,ölkədə multikultural dəyərlərin inkişafından xəbər verir.Multikultural düşərgələrin yaradılması,həm ölkəmiz üçün,həm də bir çox ölkələr üçün çox gözəl hadisədir.Prezidentimizin fərmanı ilə hər il ildə iki dəfə xarici tələbələr multikultural məktəblərə dəvət olunurlar.Bu məktəblərin nəzdnində düşərgələr təşkil olunur,bu düşərgələrə Azərbaycanın müxtəlif bölgələrindən gənclər gəlir,dinindən,irqindən,milliyyətindən asılı olmayaraq gənclərin bir arada olması,dostluq münasibətləriinin qurulması bizim üçün çox sevindiricidir. Nəticə olaraq qeyd edə bilərik ki,Multikulturalizmlə bağlı atılan addımlar Azərbaycanı daha da inkişaf etdirmişdir.Azərbaycanda milli azlıqlar üçün kifayət qədər şərait yaradılıb və hal-hazırda da yaradılır.Biz inanırıq ki, yaxın gələcəkdə müstəqil Azərbaycan inkişaf etdikcə milli azlıqların və etnik qrupların daha da rahat şəraitdə yaşamaları üçün hər cür şərait yaradılacaqdır.

İstifadə olunmuş ədəbiyyat:

1. Azərbaycan Respublikası Təhsil Nazirliyi.Mingəçevir Dövlət Universiteti Multikulturalizmə giriş Bakı Mürtəcim 2018
2.Mədəniyyət və turizm nazirliyi,Azərbaycan Milli Kitabxanası-Azərbaycanda Multikulturalizm Bakı 2016/503 səh.
3.Niyaz Niftiyev-Azərbaycanda Birgəyaşayış və Multikulturalizm./Bakı 2015/407 səh
İnternet qaynaqları:

4.https://www.google.com/search?q=www.preslib.az+multikulturalizm&oq=www.preslib.az
5. Wikipedia.org

Б.Курбанова

Мультикультурализм, толерантность и языковая политика в Азербайджане

Резюме

Мультикультурализм объединяет культуры, мультикультурализм формирует культуру и терпимость между традициями. Религиозная терпимость - религиозный член священства, который уважает религиозные убеждения, принадлежащие к другой религии. Международная терпимость выражается в отношении других национальных, этнических и расовых традиций.Толерантный - это человек, который уважает и уважает каждого человека и каждого человека. Мультикультурализм заключается в защите мультикультурализма в границах государства. Он также был создан для национальных меньшинств, проживающих в Азербайджане. В последние годы в связи с преподаванием языков меньшинств в Азербайджане были разработаны учебные программы для начальных школ на талышском, сахурском, курдском, татском, удинском, ксинасском языках. Одним из основных элементов мультикультурализма является толерантность:

Азербайджан как государство всегда стремится решать все вопросы в рамках толерантности. Основной целью центра является сохранение толерантности в стране на протяжении веков, обеспечение сохранения и процветания этнического, культурного и религиозного разнообразия. Мультикультурализм признан многими народами по всему миру.

Модель языковой политики, осуществляемая мультикультурализмом, является моделью демократической языковой политики: независимое Азербайджанское государство и его создатели, великий лидер Гейдар Алиев и Ильхам Алиев всегда были внимательны и уважительно относятся к языку, религии и культуре национальных меньшинств, проживающих в нашей стране.

Ключевие слова: мультикультурализм,толерантность, национальное меньшинство,культура,общество,закон

B.Gurbanova

Multiculturalism, Tolerance and Language Policy in Azerbaijan

Summary

Multiculturalism brings together cultures. Multiculturalism shapes culture and tolerance among traditions. Religious tolerance - a religious priesthood member who respects religious beliefs belonging to another religion. International tolerance is expressed in the respect of other national, ethnic and racial traditions.

Tolerant is a human being who respects and respects every individual and every individual. Multiculturalism is to protect multiculturalism within the borders of the state. It has also been created for the national minorities living in Azerbaijan. In recent years, training programs for primary schools in Talysh, Sakhur, Kurdi, Tat, Udin, Xinasi languages have been developed in

connection with the teaching of minority languages in Azerbaijan. One of the main elements of multiculturalism is tolerance. Azerbaijan as a state always seeks to solve all issues within the framework of tolerance. The main goal of the center is to maintain tolerance in the country for centuries, to ensure the preservation and prosperity of ethnic, cultural and religious diversity. Multiculturalism is recognized by many nations around the world.

The model of language policy implemented by multiculturalism is a model of democratic language policy. The independent Azerbaijan state and its creator, Great Leader Heydar Aliyev and Ilham Aliyev have always been attentive and respectful to the language, religion and culture of national minorities living in our country.

Keywords:multiculturalism,tolerance,national minority,culture,society,law

Redaksiyaya daxil olma tarixi: 04.04.2019
Çapa qəbul olunma tarixi: 22.04.2019
Filologiya elmləri doktoru, Mayıl Əsgərov tərəfindən çapa tövsiyə olunmuşdur.

TƏRANƏ İSMAYILOVA
ADİU
92 Həsən Əliyev Küçəsi, Bakı
taranatarlan@list.ru

GÜNDƏLİK –MƏİŞƏT (DANIŞIQ) ÜSLUBU

Xülasə

Ümumi yaşayış tərzi,yaşayış həyat yaşantıları ilə bağlı leksika dilimizin lüğət tərkibini zənginləşdirir.İctimai-iqtisadi,siyasi əlaqələrin dəyişməsi,elm,texnika və mədəniyyət sahəsində arası kəsilməyən yeniliklərin yaranması ilə əlaqədar dildə yeni-yeni sözlər meydana gəlir.Dilin lüğət tərkibində daimi bir dəyişmə,artma və zənginləşmə prosesi gedir.Dilin lüğət tərkibində daimi bir dəyişmə,artma və zənginləşmə prossesi gedir.Dilin lüğət tərkibində arası kəsilməyən yeni-yeni sözlər daxil olduğu və bu sözlərin bir qismi əsas lüğət fonduna keçdiyi kimi,bunun əksinə də təsadüf etmək olur. Dilin yazılı və şifahi qola ayrılması nəticəsində lüğət tərkibində bir qism söz və ifadələr əsasən canlı danışıq,başqa bir qism söz və ifadələr isə yazı kitab dilində işlənir.Leksikanın belə şəkildə qruplaşması,şübhəsiz ki, hər üslubun saciyyəsinə uyğun özünü göstərir. Belə ki, şifahi danışıq dili geniş xalq kitləsi və gündəlik maişətlə əlaqədar olduğuna görə burada,əsasəm,hamıya aydın və anlaşıqlı olan leksik vahidlər işlənir.

Danışıq – məişət sözləri adəbi kitab leksikasından fərqli olaraq,təsadüf və gözlənilməz xarakterə malikdir.Bundan əlavə danışıq- məişət sözləri minimal üslubi deqredasiya səviyyəsinə malikdir və böyük bir qisminin lüğət tərkibində əks olunması ilə əlaqədar işlənir. Danışıq sözləri üslubi çalar baxımından etik cəhətdən tamamilə normal qəbul edilən sözlərdir.

Açar sözlər: üslub, ritm, diapazon, supra seqment

Bu üslub gündəlik, təbii şəkildə olan nitqin fərqliliyindən bəhs edir. Bu üslub əksər ingilis dilində danışanlar üçün aydın olduğuna görə buna "tanış" üslubda deyilir. Bu üslub gündəlik ünsiyyət vasitəsi kimi danışanlar arasında təbii qarşılıqlı söhbətdə eşidilir. Buna görə də fonetistlər onu danışıq üslubu adlandırırlar. Bəzi alimlər onu qeyri-rəsmi üslub adlandırırlar, çünki bu üslub dostların, tanış insanların nitqində qeyri-rəsmi daxili və xarici əlaqələrdə əsasən baş verir. Qeyri rəsmi hallarda danışanlar daha çox sərbəst, az diqqətcil olurlar. Gündəlik həyatda ictimai mövqeyindən asılı olaraq danışanlar ədəbi dil normalarına əhəmiyyət vermirlər. Danışıq üslubunda intonasiyasının münasibət funksiyası əsasdır.

Söhbətlər insanların davranışının ən mürəkkəb formalarından biridir. Ümumi anlamda danışanlar arasında mövcud olmalıdır. Ümumi başadüşmə çatışmazlığı ünsiyyətdə uğursuzluğa səbəb olur. Söhbətdə biz təkcə sözlərə qulaq asmırıq, digər ünsiyyət sistemlərindən şüurlu və şüursuz mənanı ayırd edirik. Şübhəsiz,ünsiyyətdə xəbər hissə çox mühüm rol oynayır.

Danışıq, qeyri-rəsmi müəyyən ümumi dil xüsusiyyətlərini göstərirlər.

1. Birincisi, bu cür danışıqlar danışanların qeyri-dil faktorlarına əsaslandıqlarına görə dil qeyri-səlisliklə xarakterizə olunur. Bu da özünün cümlə və ya ifadələrin çoxunun natamam formada göstərir.

Bəzən danışan qəfildən sakit dayanır, lakin dinləyici onu başa düşür, mənanı tuta bilir. Çünki onların ümumi şəxsi keyfiyyətləri var. Bəzən də dinləyicilər hər cür təkrarlara meyl edirlər, əks – səda verən suallar soruşurlar.

1. İkincisi, danışıqlar plan çatışmazlığı ilə xarakterizə olunurlar. Onlar əvvəlcədən planlaşdırılır və ya söylənilmir. Bu da dilin çox dəyişkən rəngarəngliyidir. Gündəlik söhbətlərdə müəyyən semantik hallar təkrar olunur, məsələn, salamlaşma xudahafizləşmə, tanışlıqlar, söhbətə

başlama, diqqət cəlb etmək, əlaqə yaratmaq və s. Artıq hər bir kəs asanlıqla söhbəti davam etmək üçün məlumat soruşmaq, sual vermək üsulları, diqqətin cəlb olunması üçün nəzarət forması, təklif, razılaşma və imtina –rədd etmə, minnətdarlıq ifadə etmə kimi nitq effektləri istifadə edə bilir. Bütün bu ifadələr danışanlara söhbəti yaratmaq üçün kömək edir.

2. Danışıq üslubunun üçüncüsü umumi xüsusiyyəti onun qeyri-səlis olmasıdır.

Qeyri-formal söhbət tərəddüdlü halların olması ilə əlaqədar səhvlərin çox olması dil yanlışları ilə xarakterik olur. Danışıq üslubunda çoxlu sayda səs birləşmələri qeyri-formal siqnal-işarələr mövcuddur.

Məs : mmm,sshh,ah,brr və s.

Danışıq üslubunda pıçıltı səslə, fit, gülmə boğazın udqunma, asqırma, fisiltı eşitmək mümkündür. Cəmiyyətdə söhbət apararkən onu idarə edən xüsusi qaydalar vardır.

"Sakit –səssiz dil" (jest, üz ifadəsi və davranış) danışanlar arasında ünsiyyət zamanı mühüm rol oynayır.

Qrammatik səviyyədə qeyri-rəsmi söhbət cümlə və ifadələrin fərqlənməsinə, ayrılmasını təmin edir.

Cümlələrin uzunluğu digər üslublardan fərqlidir. Modallıqdakı dəyişimlər cümlələrin uzunluğunu fərqli edir.

Kiçik cümlələr cavablarda çox tez-tez işlənir, onların çoxu tamamlanmamış olur.

Qrammatik səviyyədə bir neçə başqa cəhədlər vardır.

1. You see, you know? I mean? I say və.s ara sözlərdən çox istifadə olunur;
2. Sual cümlələrinin daha çox, əmr cümlələrnin daha az içlənməsi;
3. Ara sözlərin, xüsusilə cümlənin əvvəlində işlənməsi;
4. Şəxs əvəzliklərinin mübtəda kimi az istifadəsi, qeyri-formal "you" qeyri –şəxssiz funksiyada tamamilə ümumi bir hal kimi işlənməsi;
5. Ayrıcı sualların üstünlük təşkil etməsi;
6. Təkrarların çox işlənməsi; qüvvətləndirici zərflərin, xüsusilə "very" sözünün bir neçə dəfə təkrarlanaraq işlənməsi;
7. Köməkçi fellərin qısaldılması formalarının daha çox istifadəsi; məs : he`s, I`m, I`ve.

İngilis dilinin formal yazılı və qeyri-formal üslubu bütünlükdə dil vahidlərnin fərqli formalarıdır. Və qəbul olunmuş istifadə meyarları qarışdırılmamalıdır.

Gündəlik danışığın ən çox çarpan aspekti onun lüğətidir. Danışıq dili idiomalarla, quruluşuna görə sadə sözlərin istifadəsi, fizioloji birləşmələrin üstünlük təşkil etməsi ilə xarakterikdir. Bundan başqa,mətnin qeyri-formallığına belə söhbətlər üçün spesifik olan söz və frazaların istifadəsi ilə nail olunur.

Məs: Yeah. Right. O.K. I see. Oh, yes.Yes, yes. Oh, lovely. Oh, dear. All right. Sure. Good heavens! Thanks! Jolly good! Really? Come off it! Oh,no! Hey! və.s.

Prosodik səviyyədə isə bu sahədə olan tədqiqatlar bizə aşağıdakı nəticələrə gəlməyə kömək edir:

1. Danışıqlar fasilələrin uzunluğu, sürət, ritm, səs diapazonları, səs tonal səviyyəsi və ucalıq daxl olmaqla dəyişilmələrin əlaqəsi ilə supraseqment və intonasiya birliklərindən ibarət olan tabeli cümlələrə və ya bliklara ayrılır;
2. Nitqdə səviyyədən aslı asılı olaarq daha geniş prosodik effektlərdən istifadə olunması;
3. Bu intonasiya üslubunun prosodik xüsusiyyətlərindən danışarkən deyə bilərik ki, intonasiya qrupları olduqca qısa ton birlikləri ilə tez-tez pozulur.
4. Şkalalar yüksək səviyyəli,bəzən də enən olur.Düşən şkalalar bir neçə verğulu hecalardan ibarət olan intonasiya qruplarında baş verir.
5. sadə enən və sadə qalxan tonlar ümumidir. Emfatik tonlar yüksək emosional kontestlərdə baş verir. Yüksək taktönü çox tez-tez işlənir.
6. Danışıq nitqinin tempi çox fərqli olur. Təbii nitqin sürəti çox olur, lakin tərəddüdlər olarkən "yavaşlılıq" təəssüratı yaradır. Danışanlar tez-tez bir-birinin sözünə müdaxilə edirlər.

Danışıq üslubunda temp çox qarışıq olur.

Rəsmi və qeyri –rəsmi dialoqların fonoloji oppozisiyası göstərir ki, onlar arasında ümumi xüsusiyyətlər çoxdur, lakin qeyri-tonal dialoqlar dildən kənar xüsusiyyətlərində daha böyük rəngarəngliklə xarakterizə olunurlar.

Telefon söhbətlərində jestlərdən digər canlı vasitələrdən istifadə etmək olmur. Danışanlar fasilələr etmədən uzun cümlələrdən çox da istifadə etmirlər. Fasilələr uzun olmur,suallar cavablar və əmr cümlələri çox səciyyəvidir.

Lüğət, idiomlar, danışıq ifadələri, ara sözləri ilə xarakterizə olunur. Telefon söhbətlərinin açılması və qurtarması eyni modelli sözlərdən istifadə olunur.

Danışanların nitqi bərabər olmur. Biri fəal danışan,digəri isə fəal dinləyəndir. Danışanın nitqi məlumatlı monoloq təəssüratını xatırladır, yalnız formallıq dərəcəsində fərqli olur.

Əlbəttə ki, tərəddüdlüyün ifadələrdən istifadəyə təkrarlarla, ara sözlərinə və.s çox yer verilir.

Cümlələrin sürəti söylənilən söhbətin semantik dəyərindən asılı olaraq fərqli olur. Şəxsi maraq bildirən ifadələrdən çox istifadə olunur.

Məs: What then? So what? And? Well? və s.

Beləliklə “dil” və “insanlar” oxşar adlardır və oxşar şeyləri göstərirlər. Lakin onlar arasındakı “və” geniş mürəkkəb əlaqəni göstərir.

Bu əlaqəyə onların mədəniyyəti, sivilizasiya fərdi xüsusiyyətləri, onların əhatə dairələri, dəyərləri daxildir.

Dildə çox işlənən funksional danışıq üslubu digər üslublardan fərqlənir. Bu üslub qeyri-rəsmi ünsiyyət prosesini həyata keçirməyə xidmət edir. Bu ünsiyyət üslubu zamanı danışan şəxs onunla həmsöhbət olanlarla öz təəssüratlarını, fikirlərini bölüşdürür və rəsmi olmayan situasiyada məişətdə, ətrafda baş verən problemlər barədə fikir mübadiləsi aparır. Bu danışıq üslubu dinləyicilərə özlərini sərbəst hiss etməyə və dediklərini maraqla dinləməyə kömək edir. Bu üslubun işlədilməsi gündəlik həyat tələbatıdır. Bu üslub həm ailə-məişət, həm də qeyri-rəsmi münasibət ifadə edən danışıq situasiyalarında işlədilir. Başqa sözlə desək,həmin üslub dostlar, yaxın tanışlar, bir-birlərini yaxşı tanıyan insanlar arasında işlədilən bir üslubdur. Bu üslub sünilikdən uzaq olan və hamı tərəfindən işlədilən,başa düşülən bir üslubdur. Bu baxımdan onun gündəlik dil tələbatı kimi öyrədilməsi məqsədəuyğundur. Biz adətən dostlarla söhbət edəndə ğzümüzü sərbəst hiss edir, demək istədiyimiz sözlər bədahətən gəlir. Kimlərsə coşqun, kimlərsə təmkinlidir. Burada olan təbiilik nitqi xoşagələn edir. Bu danışıq üslubunda çıxış etmək ücün mürəkkəb cümlələrdən qaçmaq, fikirləri öz sözlərinlə demək lazımdır. Hətta nitq hazırlıqları olsa belə, fikir yazıldığı kimi ifadə olunsa, yaxud hazır plandan oxunsa, söhbət danışıq üslübunda olmaz. Həddən artıq sərbastlikdə görünüşün dəyərini və söhbətin ciddiliyini azaldır. Danışarkən, çıxış edərkən həddən artıq rəsmi olmaq lazım gəlməsə də,danışığımızda hörmət hiss olun olunmalıdır. Nitqin həddən artıq rəsmi və ya quru olmasına bir necə amil səbəb olur. Onlardan biri cümlə quruluşu, yaxud ifadə tərzidir. Danışan şəxs sözləri vərəqdə yazıldığı kimi təkrar etməyə çalışanda problem yaranır. Çünki yazı dili danışıq dilindən tamamilə fərqlidir. Digər bir amil tempdir. Sözləri bərabər fasilələrlə ifadə etdikdə və tempi dəyişmədikdə nitq rəsmi, quru və darıxdırıcı olur. Adi danışıqda temp tez-tez dəyişir və tez-tez müxtəlif uzunluqda fasilələr edilir. Əlbəttə, böyük auditoriya müraciət edərkən, dinləyicilərin diqqəti yayılmasın deyə, danışıq üslubundan əlavə səsi, intensivliyini artırmaq və daha cox enosiya ilə (şövqlə) danışmaq lazımdır. Nitq verbal danışıq üslubunda, işlədilən söz və ifadələr qeyri –rəsmi olsa belə, qəbul olunmuş nitq normalarına riayet olunur və sıhbət zamanı həmin normalar pozulmur, kobud və bayağı ifadələr işlədilmir. Müxtəlif fikirləri eyni sözlərlə ifadə etmək, lazım olan yerdə təkrarlara yol vermək, sadə, aydın cümlələrlə danışmaq söhbəti daha maraqlı edir. Bu ötürülən informasıyanın daha yaxşı yadda qalmasına şərait yaradır. Danışıq üslubunu intonasiya cəhətdən araşdırdıqda aşağıda adları çəkilən fonetik vasitələrin ifadəsində diqqət yetirmək lazımdır. Danışıq üslubuna xas olan fonetik vasitələri aşağıdakı kimi sıralamaq olar: Danışıq zamanı səslərin sait və samit səslərin kombinator modifikasiyası, sözdə pozisiyon (mövqeyindən asılı olan) fonemik əvəzləmə (söz əvvəli,söz ortası və söz sonu mövqelərdə) vurğulu və vurğusuz vəziyyətlərdə və s. baş verən dəyişikliklər, o cümlədən reduksiya (yəni vurğulu və vurğusuz vəziyyətlərdə və s. baş verən dəyişikliklər, o cümlədən reduksiya (yəni vurğusuz vəziyyətdə saitlərin zəifləməsi), sözün fasdilə qarşısında samitlərin qismən karlaşması, tam

reduksiya (apokopa) söz sonunda samitlərin düşməsi və ya söz sonunun atılması, synkopa-sözdə sait və samitin ixtisarı Məsələn: İ”m, I”ve, it isn”t. Ümumiyyətlə, digər üslubdan fərqli olaraq, danışıq üslubu ingilis dilində mövcud olan intonasıya modellərinin istifadəsi ücün şərait yaradan bir üslubdur. Bu üslub ücün əsasən pilləvari şkala, sadə tonlar, alçaq enən və qalxan tonlar xarektikdir. Cavab tipli qısa söyləmələr isə dar diapazonlu intonasiya modelləri ilə müşayiət olunur. Gərginlik dərəcəsinin artması səs tonunun artması (yüksəlməsi) ilə əlaqədardır. Həyəcanın artması ilə müşayiət olunan situasiyalarda yüksəkdən düşən tonla birlikdə işlədilən geniş diapazonlu enən tonlu söyləmələr daha xarektirikdir. Bu üslubda hətta Mürəkkəb tonların realizasiyası ilə ifadə edilən söyləmlər də mümkündür. Ədəbi dildə mövcud olan məişət üslubu və ya danışıq dili kimi istifadə olunan bu üslub əsasən nitqin sərbəstliyi və təbiiliyi ilə səciyyəvidir. Danışıq üslubunun realizasiyası formalarında ən geniş yayılan dialoqdur. Dialoq zamanı əvvəlcədən hazırlanmış dil materiallarından istifadə olunur. Şəraitdən (situasiyadan) asılı olaraq dil faktorları olmayan mimika, jest və mühit də söhbətin baş tutmasında vədavam etdirilməsində rol oynayır.

Ədəbiyyat

1. Axundov A. Azərbaycan dilinin fonetikasi. Bakı,1984.
2. Dəmirçizadə Ə.Azərbaycan dilinin üslubiyyatı. Bakı,1962.
3. Палевина Н.Ф.Стилистический анализ художественного текста. М.,1980.
4. Дубовский Ю.А.,Карневская Е.В.Нормативные основы английскойречевой интонации. Мирск,1979.
5. Bolinger D/Contrastive accent and Contrastive stress/Language, 1961, v.37, №1
6. Томахин Г.Д. Across the United States of America. Moscow, 1980
7. Томахин Г.Д. Америка через американизмы. «ВШ». М., 1982

T.Ismayılova

Daily Average Talking Style

Sammary

He article studies that how to use everyday words, and keep your language simple. That is often very sound advice, and helps keep communication simple and effective.

In some contexts, though, you may wish to use or less common, more elevated word a large native vocabulary is a gift that doesn’t stop giving. It improves our powers of expression and comprehension, and opens the imagination. Words define the shape and scope of our understanding. Dialogue is the most widespread dialogue in the forms of realizing the style of speech. Pre-made language materials are used during the dialogue. Gestures, gestures and the environment, which do not have language factors, play a role in communicating and communicating, regardless of circumstances.

The article also shows that functional style is a system of linguistic means peculiar of certain sphere of communicatіon. Functional style of speech is a special social differentiation of speech, corresponding to a definite sphere of activity, having a special stylistic coloring, determined by the aims and a corresponding sphere of communication. Functional style can be divided into formal informal style.

Formal styles are: Publicist, Oratory scientific, Official, Newspaper.

Informal styles are: literary colloquial, familiar colloquial, low colloquial.

Key words: style, rhythm, diapason, supra segment

Т.Исмаилова

Нелитературный (разговорный) стиль в английском языке

Резюме

Нелитературный стиль (разговорный) в английском языке делится на несколько групп, которые активно существуют рядом друг с другом: вульгаризмы, диалектизмы, слэнг и профессионализмы. Вульгаризмами называют отдельную группу слов и фразеологизмов, которые граничат с грубостью и непристойностью. Диалектизмами принято называть слова и выражения, которые не входят в состав литературного языка. Слэнг - это маркированный слой разговорной речи, который отличается ярко-выраженной эмоциональной окраской. Профессионализмами принято называть слова и обороты, которые используются в небольших социальных и профессиональных группах и по сути понятны только членам этой группы.

Специфическую и весьма важную роль играют в этом стиле контактоустанавливающая и эмотивная функции. Они осознаются обществом в виде принятых в коллективе норм и формул вежливости и должны изучаться в социолингвистике. Речь должна быть тактичной, не слишком уверенной, не слишком категоричной и жесткой и вместе с тем небезразличной к собеседнику. Отсюда многообразие форм вежливой модальности, которая может быть выражена интонационно, лексически, морфологически и синтаксически.

Эмотивная функция служит причиной обилия в разговорной речи разного рода усилителей, которые могут выступать в различных сочетаниях и различны для литературно-разговорного и фамильярно разговорного стилей.

Ключавые слова: стил, ритм, диапазон, супра сегмент

Redaksiyaya daxil olma tarixi: 18.04.2019
Çapa qəbul olunma tarixi: 23.04.2019
Filologiya üzrə fəlsəfə doktoru Sevinc Bagırova tərəfindən çapa tövsiyə olunmuşdur.

NƏRGİZ ƏLƏKBƏROVA
Azərbaycan Milli Elmlər Akademiyası
Nəsimi Dilçilik İnstitutunun
Hüseyn Cavid Prospekti,31 5 mertebe
narguizli@gmail.com

MÜXTƏLİF SİSTEMLİ DİLLƏRDƏ TEZLİK LÜĞƏTLƏRİNİN STRUKTUR XÜSUSİYYƏTLƏRİ

Xülasə

Son dövrdə müxtəlif sistemli dillərin tədrisi informasiya texnologiyalarının inkşafı ilə əlaqədar çox yüksək səviyyədə və innovativ üsullarla həyata keçirilir. Yüzlərlə elektron və kitab şəklində hazırlanan lüğətlər dillərin tədrisində çox mühüm və xüsusi rol oynayır. Bu kimi yararlı missiyanın həyata keçirilməsində sözsüz ki, tezlik lüğətlərinin oynadığı başlıca rolu qeyd etmək lazımdır.Tezlik lüğəti tədqiq olunan leksik vahidlərin dildə yayılma tezliyini göstərən həmin vahidlərin siyahısıdır.Bu lüğətlər sözlərin düzülmə sırası və yerləşdirilməsindən asılı olaraq mextəlif növlərə bölünürlər.Həmin faktorları nəzərə alaraq tezlik lüğətləri tezlik ,əlifba-tezlik və əks-əlifba tezlik lüğətlərinə bölünürlər.

Müxtəlif sistemli dillərin quruluşu fərqli olduğu, üçün tezlik lüğətlərinin tərtibində də müəyyən fərqlər meydana çıxır. Bununla yanaşı, bəzi indekslər bütün lüğətlər üçün eynilik təşkil edir. Bunlara leksik vahid, onun ranqı, tezliyi və mətnlərdə rastlanma sayını nümunə gətirmək olar.

Bəzi digər göstəricilər dilin mənsub olduğu ailədəki dil strukturuna görə dəyişə bilir. Tezlik lüğətləri lüğət minumumların hazırlanması, aktiv və passiv leksikanın, hər bir üsluba məxsus sözlərin kəmiyyət statistikasının müəyyənləşdirilməsində, dillərin tədrisi prosesində əvəzsiz mənbə rolunu oynayır. Hazırda Qlobal dünyanın ayrılmaz hissəsi olan maşın tərcüməsi tezlik lüğətlərinin bazası əsasında fəaliyyət göstərir.

Məqalədə Azərbaycanda və ölkə xaricində işlənmiş fərqli tezlik lüğətləri tədqiq olunmuşdur. Burada Azərbaycan lüğətçilik sahəsində dəyərli mənbə olan "Azərbaycan dilinin tezlik lüğəti" və "Azərbaycan qəzet dilinin tezlik lüğəti" nin tərtib üsulları, leksik vahidlərin tezliyi araşdırılmışdır.Yerli lüğətlərdən əlavə, məqalədə türk dilçiliyinə böyük töhfə olan Qazax dilinin tezlik lüğəti və ikinci beynəlxalq dil status almış İspan dilinin tezlik lüğəti də ətraflı araşdırılmışdır.

Bütün bu araşdırmalardan bir daha belə nəticəyə gələ bilərik ki, tezlik lüğətləri bir informasiya axtarış sistemində ən yararlı mənbə olmaqla yanaşı, həm də dillərin tədrisində əvəzsiz mənbə rolunu oynayır.

Açar sözlər: tezlik, lüğət, söz-forma, ranq, leksik vahid, üslub, registr

Müəyyən dil hadisələrini öyrənmək üçün həmin dilə tətbiq olunan riyazi metodlar lingvostatistika termini və ya statistik lüğətçilik adı altında birləşir. Dilçilikdə bu statistik metodların tətbiqi bizə nitqdə və ya mətnlərdə tez-tez və ya az işlənən dil vahidlərini aşkarlamaq üçün çox böyük imkanlar verir. Bu vahidlərin işlənmə tezliyinin tədqiqi müəyyən nitq ifadələrinin əmələgəlmə qanunauyğunluğunu müyyənləşdirməyə yardım edir. Dil vahidlərinin tezliyini müəyyənləşdirmək üçün ilk təcrübələr tezlik lüğətlərinin tərtibi ilə başlamışdır. Son dövrdə bu cür lüğətlərin tərtibi çox böyük maraq doğurur. Bu cür lüğətlər, leksikanın statistik modeli rolunu oynayıb dilin lüğət tərkibinin özülünü, aktiv və passiv lüğət fondunu müəyyənləşdirməyə imkan verir.

Tezlik lüğətləri elə lüğət növləridir ki, burada sözlərin, söz formaların və söz birləşmələrinin dildə işlənmə tezliyi rəqəmlərlə göstərilir. Növündən asılı olaraq, bəzi tezlik lüğətlərində söz forma (məs: ayaqdan, ayağa, ayağın), bəzi lüğətlərdə yalnız şəkilçisiz sadə söz (ayaq), bəzilərində isə mürəkkəb söz və ya söz birləşməsi (ayağüstü) lüğət vahidi kimi əsas götürülür. Hazırda şəkilçilərin təmsil olunduğu tezlik lüğətlərinə də rast gəlmək mümkündür.

Bu lüğətlər sözlərin düzülüş üsulundan, tezliyin çoxalma və ya azalma sırasından asılı olaraq müxtəlif növlərə bölünür. Belə ki, əlifba sırasına əsasən tərtib olunmuş bu kimi lüğətlərdə istənilən sözün tezlik dərəcəsini həmin sözün əlifbadakı yerinə əsasən dərhal əldə etmək olar.

Bununla yanaşı, qeyd etmək lazımdır ki, tezlik lüğətlərinin ərsəyə gəlməsi uzun və mürəkkəb prosesdir. Bu prosesin ən çətin mərhələsi lüğətin bazasını təşkil edən sözlərin tədqiqat obyekti kimi çıxış edən və tezliklərin araşdırılması üçün istifadə olunan, ədəbi dili əks etdirən mətnlərin seçimindədir. Belə ki, tezlik lüğətləri bədii əsərlər, qəzet materialları, elmi əsərlər, tədris materialları və s. əsasında hazırlanır. Əgər həmin seçilmiş mətnlər kiçik olarsa, bu zaman onlar dili tam təmsil edə bilmədiyi üçün müəyyən sözün obyektiv olaraq tezliyini hesablamaq mümkün olmayacaq. Məhz bu vəziyyətlə qarşılaşmamaq üçün və dilin lüğət tərkibini tamamilə əhatə etmək üçün seçmələr iri həcmli mətnlər olmalıdır.

Təcrübə göstərir ki, tezlik lüğətləri ən çox elmi-texniki mətnlər və qəzet materiallarından götürülmüş seçmələr əsasında tərtib olunur.

Bundan əlavə, tezlik lüğətləri tərtib olunma üsullarına görə də əllə tərtib olunan , maşınla və ya qarışıq üsulla tərtib olunan lüğətlərə bölünür.

"Tezlik lüğətlərinin tərtibi prosesi ümumi şəkildə aşağıdakı mərhələlərdən ibarətdir:

- mətndən bütün müxtəlif sözlər (söz formalar) götürülür;
- hər bir sözün tezliyi hesablanır;
- sözlərin əldə edilmiş məcmusu tezlik sırası ilə düzülür.

Tədqiqatın məqsədindən asılı olaraq müxtəlif siyahılar və statistik göstəricilər alına bilər. Məsələn, çox vaxt tezlik siyahısında əlavə sözlərin əlifba tezlik siyahısı da verilir. Lazım gəldikdə lüğətdə hər bir sözün sıra nömrəsi, mütləq tezliyi və s. göstərilir."(4, s. 4)

Əl üsulu ilə tərtib olunan tezlik lüğətlərində mətnlərdə vahidlərin seçilməsindən tezliklərin hesablanmasına bütün proseslər insan tərəfindən həyata keçirilir. Maşınlar vasitəsi ilə tərtib olunan tezlik lüğətlərində isə yalnız yuxarıdakı əməliyyatın birinci hissəsi, yəni mətnlərdən lüğət vahidlərinin seçilməsi prosesi insan tərəfindən həyata keçirilir. Onların maşınlara daxil edilməsi də əvvəllər çap qurğusu vasitəsilə həyata keçirilirdisə , elm və texnologiyanın inkşafı sayəsində indi bu proses 2-3 saniyə ərzində həyata keçirilə bilər. Məsələn, bu sahədə xüsusi ixtisaslaşmış proqramlardan birinə "Textgrabber" adlanan yeni programı misal gətirmək olar. Belə ki, onun köməyi ilə lüğət tərtibçiləri çox böyük vaxt və zəhmət itkisindən azad olunublar. Məsələn, əvvəlki üsulla 300 min sözdən ibarət lüğəti ərsəyə gətirmək üçün tədqiqatçı 3 il vaxt sərf edirdisə, sonradan bu rəqəm texnologiyanın inkşafı sayəsində maşınların köməyi 3 ay yarıma, indi isə ilə yeni mütəşəkkil programların köməyi ilə 3 günə həyata keçirilə bilər. İndiki texnologiyanın sayəsində maşınlar nəinki verilənləri təhlil edir, əməliyyat nəticəsində vahidlərin tezliyini müəyyənləşdirib əlifba sırasına əsasən nizamlaya bilirlər.

Tezlik lüğətlərinin dilçilikdə oynadığı rolu və əhəmiyyəti, o cümlədən tətbiq dairəsi çox geniş sahəni əhatə edir.

Linqvistik statistikanın tətbiq olunduğu ən yararlı sahələrdən biri müqayisəli tarixi dilçilik olub dilin tarixi inkşafı ilə bağlı baş verən dəyişiklikləri izləməyə imkan verir. Əsas leksik bazanın nə kimi dəyişikliyə uğradığı statistik lüğətlərin təhlili aparılan zaman açıq-aşkar meydana çıxır. " Qlottoxronologiya bu statistik metodlardan biri olub qohum dillərin lüğət bazasının tarix boyu nə kimi dəyişikliyə uğradığını araşdırır. Bu sahədə araşdırma aparan dilçi alim Morris Svodeşin hipotezasına görə qohum dillərin baza lüğətinin tarix boyu dəyişikliyə uğraması demək olar ki, eyni surətlə gedir."2

Tezlik lüğətləri tədris prosesində və dillərin öyrədilməsində müəllim və tələbələr üçün əvəzsiz mənbədir. Xüsusilə, xarici dillərin tədrisi zamanı müəllimlər tezlik lüğətlərində vahidlərin çıxarılmış tezlik sırasına əsasən aktiv leksikanı -yəni dildə daha çox işlənən və sabit -sözləri müəyyən edib ilk növbədə həmin sözlərin tədrisindən başlamalıdır. Məsələn, bu hər hansı əcnəbi şəxsə dili daha tez qavrayıb , yerli xalqla qaynayıb qarışmağa, cəmiyyətə daha tez inteqrasiya olmağa yardımçı olur.

Müasir Azərbaycan dilinin ilk tezlik lüğəti qəzet leksikası əsasında yaranmışdır ki, bu da 1970-ci illərə təsadüf edir.Həmin illərdə bu cür lüğətlərin hazırlanması çox ağır və mürəkkəb proses idi.

Belə ki, elektron hesablama maşınlarının yalnız dəqiq elmlərlə bağlı araşdırmalarda istifadə olunduğu bir dövrdə onların dilçilik sahəsində də istifadəsinin mümükünlüyü ağılasığmaz gəlirdi. Belə yanaşma "Azərbaycan qəzet dilinin tezlik lüğəti" və "Əks əlifba lüğəti"nin hazırlanmasında uzun müddət maneə olmuşdur. Psixoloji faktor olaraq, qısa desək kibernetika elmi də hələ həmin illərdə dilçiliyin həmin sahəyə nüfuz etməsinə hazır deyildi.Bundan əlavə digər bir faktoru da qeyd etmək lazımdır ki, maşın texnologiyası o illərdə indiki kimi yüksək inkişaf səviyyəsinə qədəm qoymamış və dilçilər hər hansı bir mətni maşınlara daxil etmək üçün perfolent və ya perfokartlar adlanan qurğulardan istifadə edirdilər.Bunlar, üzərində xüsusi dəlikləri olan kağızdan hazırlanmış xüsusi informasiya daşıyıcıları idilər. Mətnlərin bu cür qurğular vasitəsi ilə maşınlara daxil edilməsi çox böyük zaman alırdı.

Tezlik lüğətləri dildə normanın sabitləşməsində, nitq fəaliyyəti ilə bağlı araşdırmalarda çox böyük əhəmiyyət kəsb edir. Bu lüğətlər, həmçinin, danışıq kitabçalarının və minimumların hazırlanmasında da əvəzsiz mənbə rolunu oynayır. O cümlədən, bu lüğətlər nəzəri və tətbiqi dilçiliyin, ümumi leksikologiyanın qarşılaşdığı problemləri həll edir. Dilin tezlik lüğətinin hazırlanmasında əsas rolu mətnlərin seçilməsi, yəni seçmə oynayır və bu da çox vaxt qəzet materialına əsaslanır. Qəzet böyük bir kütlə tərəfindən oxunduğu kimi, kütlə tərəfindən yazıldığından dildə müəyyən sabit normanın yaranmasında çox böyük rol oynayır.Bundan əlavə, qəzet materialı, həmçinin, gündəlik danışıq dilində meydana gələn yeni vahidləri izləməyə, nitqdə qeyri-normativ halları aşkarlamağa və yeni istifadə formalarını izləməyə imkan verən ən yaxşı tədqiqat materialıdır. Aydındır ki, bu cür lüğətlərin tərtibi zamanı seçmənin həcmi nə qədər böyük olarsa oradan əldə edilən məlumat da bir o qədər dolğun olar.

Belə zəngin qəzet materialları əsasında yaradılan azərbaycan dilinin ilk tezlik lüğəti AMEA Dilçilik İnstitutunun Elmi Şurasının qərarı ilə akademik Əli Abbasov, akademik Ağamusa Axundovun təşəbbüsü ilə ərsəyə gəlmişdir. "Lüğətin Azərbaycan dilçiliyində ilk təcrübə olması, texniki imkanların məhdudluğu və qısa müddətdə bu sahədə müəyyən elmi nəticə olmaq zərurəti ilə əlaqədar olaraq seçmənin həcmi 10000 söz-forma qəbul edilmişdir." (1, s.129) Amma indiyə kimi tədqiqat zamanı tərkibi 20000 dən tutmuş 20 milyona qədər sözü əhatə edən tezlik lüğətləri ilə rastlaşdıq. Sözügedən lüğətin tərtibi üçün istifadə olunan seçmələr Respublikamızda 1976 ci ildə çap olunmuş " Kommunist", "Bakı", "Azərbaycan gəncləri" kimi qəzetlərdən götürülmüş materiallara əsaslanır. Bu lüğətin thazırlanması üçün həmin ilə aid olan, yuxarıda adları çəkilən qəzetlərin hər səhifəsindən 800 söz götürülüb işlənilmişdir. Qəzet materialları ifadə etdiyi məzmundan asılı olaraq təbii şəkildə müxtəlif janrlara bölünür. Bunlara əsasən qəzetdə baş məqalə, daxili xəbərlər (bunlar xüsusilə, ölkədaxilində baş verən elm və texnologiya, sənaye, kənd təsərrüfatı, biznes, ölkənin daxili siyasəti ilə bağlı yenilikləri, əhatə edir.), xarici xəbərlər , şou və idman sahəsini əhatə edir.

"Azərbaycan Qəzet dilinin Tezlik Lüğəti"

2004-cü ildə işıq üzü görmüş müasir "Azərbaycan qəzet dilinin tezlik lüğəti" Kamilə Vəliyeva, Məsud Mahmudov və Valeri Pinesin gərgin səyi nəticəsində meydana gəlmiş və hal-hazırda lüğət sahəsində çox böyük əhəmiyyət daşıyır.

Bu lüğət iki hissəyə bölünüb seçmələrdən əldə edilən sözləri əliba sırası ilə nizamlanmasını əks etdirən əlifba-tezlik sözlüyündən və tezlik sözlüyündən ibarətdir. Hər iki hissədə sözlərin mətndə işlənmə tezliyini əks etdirən vahidlər və həmin sözün işləndiyi mətnlərin sayını əks etdirən vahidlər əks olunub.

Əlifba-tezlik sözlüyü işlənilmiş 81778 seçmədən qeydə alınmış 6532 müxtəlif sözü əks etdirir.(3,s.4)

Burada tezliyi müəyyən olunan leksik vahidlər əlifba sırasına əsasən düzülmüşdür. Sözlərin bu cür sıralanması bizə istədiyimiz sözün əlifba sırası ilə tez bir zamanda tapılmasına yardım edir.

Tezlik sözlüyü isə eyni leksik vahidlərin yüksək tezlikdən aşağı tezliyə doğu sıralanmasına əsasən tərtib olunmuşdur.Buradakı leksik vahidlərin iki kəmiyyət göstəricisi qeyd olunmuşdur. Belə ki, bunlara sözlərin mətndə işlənmə tezliyini əks etdirən vahidlər və həmin sözün işləndiyi mətnlərin sayını əks etdirən vahidlərə bölünür. Lüğətdə ən yüksək tezliyi ilə fərqlənən sözlər

bunlardır: və (tezlik -2535 yayılma 100), etmək (tezlik- 1256 yayılma-100), bu (tezlik-1040 yayılma-100), bir (tezlik-770 , yayılma 100) o (tezlik 719- yayılma 100).

Qəzet dilinin tezlik lüğətini araşdırarkən maraqlı məqamla üzləşirik. Belə ki, kitabdakı sözləri nəzərdən keçirərkən belə qənaətə gəlirik ki, bəzi leksik vahidlərin işlənmə tezliyi ilə işləndiyi mətnlərin sayini göstərən tezlik bəzən eyni, bəzən isə fərqli ola bilir. Məsələn, "davamlı" və "çəkiliş" sözlərində bu göstəricilər üst-üstə düşür və müvafiq olaraq birinci sözdə tezlik və yayılma vahidi 1-1 olduğu halda, ikinci sözdə bu göstərici 3-3 kimi təzahür edir. Bir çox hallarda isə, leksik vahidlərin tezliyi ilə rast gəlindiyi mətnlərin sayı uzlaşmır. Məsələn, "buraxılan" və "çempionat " sözləri- hər ikisi eyni tezliyə malikdir və lüğətdə tezlik göstəriciləri 14 dür. Lakin birinci söz 9 mətndə ,ikinci söz isə 4 mətndə müşahidə olunur. Onu da qeyd etmək lazımdır ki, hər hansı sözün hələ yüksək tezliyə malik olması oun ümumişlək olmasına dəlalət etmir. Ümumişlək leksik vahidin həm də rast gəlindiyi mətnlərin say göstəricisi də yüksək olmalıdır. Belə ki, yuxarıda göstərilən nümunədə "buraxılan" sözü ümumişlək sayıla bildiyi halda , bunu " çempionat " sözünə şamil etmək olmaz.

"**Azərbaycan dilinin tezlik lüğəti"**

Son dövrdə azərbaycan dili lüğətçilik sahəsində ən zəngin xəzinə "Azərbaycan dilinin tezlik lüğəti" hesab oluna bilər. Leksik-statistik model olaraq bu lüğət nəzəri və tətbiqi dilçilikdə, dilin öyrənilməsi ilə bağlı bir sıra problemlərin həllində əvəzsiz mənbə rolunu oynayır.

Bu lüğət, həmçinin, dilin aktiv və passiv lüğət bazasının araşdırılmasıda, dilin lüğət tərkibinin tarix boyu uğradığı dəyişikliyin müşahidə edilməsində, fərdi üslüb da daxil olmaqla elmi, işguzar, məişət, publisitik və s. kimi üslubların kəmiyyət nöqteyi-nəzərindən araşdırılmasında çox böyük elmi əhəmiyyətə malikdir.

Digər tezlik lüğətləri kimi, bu lüğət də xarici dillərin və ana dilinin tədrisi prosesində oxucular üçün çox yararlı mənbədir. Bu lüğətin köməyi ilə lüğət minimumlar və ya danışıq kitabçaları hazırlayıb dilin tədrisi prosesində faydalanmaq olar.

Leksik statistik model kimi tezlik lüğəti dilin sözəmələgətirmə və sözdəyişmə imkanlarının izləməyə və tədqiq etməyə imkan verir.

"Azərbaycan Qəzet dilinin Tezlik Lüğəti " qəzet üslübünü özündə əks etdirirdisə, Azərbaycan dilinin tezlik lüğəti özündə elmi, bədii, işguzar, publisist, məişət və s. üslubları cəmləşdirir. Bundan əlavə, bu lüğətin tərtibi üçün çox zəngin leksik bazadan -50 milyona yaxın söz-formadan təşkil olunmuş mətnlərdən istifadə olunmuşdur. "Həmin bu söz formalar komputerlər vasitəsi ilə lingvostatistik baxımdan təhlil olunduqdan sonra istifadə edilmişdir. Gələcəkdə həmin baza əsasında müxtəlif tipli tezlik lüğətlərinin (əsasların, söz formaların , söz köklərinin tezlik, əlifba-tezlik və əks əlifba-tezlik siyahıları, qrammatik və leksik şəkilçilərin , qrafem və qrafem birləşmələrinin, durğu işarələrinin tezlik səciyyələrinin əks etdirən siyahılar və s.) hazırlanması nəzərədə tutulur." (4,s.3)

Yuxarıda adı çəkilən baza əsasında yaradılan "Azərbaycan dilinin tezlik lüğəti " 1-ci cildi 2010 cu ildə tərtibçilər M.Mahmudov, Ə.Fətullayev, S.Məmmədova ,R.Fətullayev, R.Hüseynli, B.Talıbov, G.Əzimova ,N.Abdullayevin gərgin səyi və İnformasiya və texnologiya Nazirliyinin dəstəyi ilə ərsəyə gəlmişdir.

Bu lüğətin üç cilddə hazırlanması nəzərdə tutulmuşdur. Birinci cild söz-köklərinin tezliyi əsasında hazırlanmışdır.

"Lüğətdə sözün kökü dedikdə, sözün şəkilçiləri ayrıldıqdan sonra qalan və müəyyən əşyavi məna bildirən hissəsi başa düşülür. Burada söz kökləri müasir inkişaf vəziyyəti baxımından araşdırılır, tarixi, etimoloji aspekt nəzərə alınmır. Ünsiyyət prosesində müəyəyən morfonoloji dəyişmələrə məruz qalmış söz kökləri ilkin qrammatik formaya gətirilmir. Məsələn : "gedir" söz-formasında şəkilçi atıldıqdan sonra qalan hissə "ged" kök hesab olunur, əslində, sözün kökü ilkin formada "getmək" hesab olunur." (4,s.4)

Lüğətdə cəmlənən söz köklərinin tezliyi üç kateqoriyaya əsasən qruplaşdırılmışdır : Tezlik siyahısı, əlifba -tezlik siyahısı və əks əlifba tezlik siyahısı .

Tezlik siyahısında dilin müxtəlif üslublarında işlənən sözlər yüksək tezlikdən azalan tezliyə doğru sıralanmışdır.

Əlifba -tezlik siyahısında həmin leksik vahidlər tezliyə görə deyil ,əliba sırasına əsasən düzülmüşdür.

Əks -əlifba tezliyində isə statistik hesablamaya cəlb olunan söz-kökləri sözün sonundakı hərfə görə əlifba sırası ilə yer almışdır.

Lüğətdə "Azərbaycan Qəzet dilinin Tezlik Lüğəti" ndə olduğu kimi ən yüksək tezlik göstəricisini "və", "ol", "bu", "o" kimi söz kökləri nümayiş etdirir. Lakin həmin lüğətdən fərqli olaraq burda cəmlənən sözlər bütün üslubları əhatə etdiyindən həcmcə daha böyükdür, belə ki, ən yüksək tezlik 1388871 "və" qoşmasına məxsus olmuş, ən alcaq tezlik isə -6 dır. Azərbaycan Qəzet dilinin Tezlik Lüğəti" ndə isə bu göstərici müvafiq olaraq 2500-1 aralığında dəyişir.

Qazax dilinin tezlik lüğəti

Tezlik lüğətlərindən söz açarkən müasir türk dilçiliyində bu günə qədər işlənmiş ən zəngin və irihəcmli lüğət sayılan "Qazax dilinin tezlik lüğəti"ni xüsusi vurğulamaq lazımdır. Belə ki, lüğət 61 cilddən ibarət olub məzmun və formasına görə XXI əsrin ən nadir tezlik lüğəti hesab olunmaqdadır. Lüğətin bütün cildləri bir DVD diskinə yerləşdirilib və iki lüğət böyük bir kitab şəklində dərc edilmişdir.

Bu iri həcmli, zəngin söz ehtiyatına malik olan lüğətin ərsəyə gəlməsində Qazaxıstan Respublikasının Elm və Təhsil Nazirliyinin, Əhməd Baitursinuly adına Dilçilik İnstitutunun 30-dan çox tədqiqatçısı iştirak etmişdir.

Lüğətin hazırlanmasında ümumi redaksiya heyətinə professor Erden Hacıbek və filologiya elmləri namizədi Anar Fazılcanova rəhbərlik etmişdir.

Sözügedən tezlik lüğəti 7 milyondan artıq sözün istifadəsi əsasında yaradılmışdır ki, bu da öz növbəsində, qazax dilinin 30 milyon ümumişlək söz bazasından seçilmişdir. Qeyd edək ki, bu 61 cilddən ibarət tezlik lüğəti "Qazax dilinin Milli Korpusu" adlı elmi proqramın bir hissəsidir və növbəti iki il ərzində bu bazanı təşkil edən sözlərin 100 (yüz) milyona qədər artırılması nəzərdə tutulur.

"Qazax dilinin tezlik lüğətləri" aşağıdakı üç növə bölünür:

- Əlifba tezliyi lüğəti;
- Tezlik lüğəti;
- Əks əlifba tezlik lüğəti.

Lüğətə daxil olan söz bazası ayrı-ayrı üslublar şəklində əks olunmuşdur. Bunlara: elmi üslub; rəsmi-işguzar üslubu; bədii üslub; publisistik üslub; məişət üslubu və s. daxildir ki, hər bir üslub da öz növbəsində tezliyin ifadə olunma növünə görə 3 cilddə hazırlanmışdır.

Yuxarıda adları çəkilən üslublara əlavə olaraq, lüğətdə həm də ümumi baza yer almışdır.

Bundan əlavə bəzi lüğətlər qazax dilinin əsas nitq hissələrinin və köməkçi nitq hissələrinin tezliyini özündə əks etdirir. Bunlara: isim; sifət; say; əvəzlik, feil, zərf; ara sözlər, qoşma, modal sözlər; köməkçi fe'llər daxildir.

Lüğətlə bağlı digər maraqlı bir məqam orada dilin fəal lüğətinin bir hissəsi olan omonimlərin də yer almasıdır.

"Qazax dilinin tezlik lüğəti"nin tərtibi zamanı dil vahidi olaraq söz-forma əsas götürülmüşdür. Bu dil vahidinin əsas götürülməsi qazax tədqiqatçılarına qrafik sistemin öyrənilməsi və sözdəyişdirmə prosesini izləməyə geniş imkanlar verəcək.

Ümumi lüğət - 36 265 leksik vahidi ehtiva etmişdir və 3 hissəyə bölünmüşdür. 1-ci lüğətdə söz-formaların tezliyi əlifba sırasına əsasən düzülmüş, onların ranqı, mütləq tezliyi və rast gəlindiyi mətnlərin sayı göstərilmişdir.

Ümumi tezlik-əlifba lüğətində isə leksik vahidlər yüksək tezlikdən alçaq tezliyə doğru sıralanmışdır. Yuxarıda adı çəkilən bölgülər bu lüğətdə də aparılmışdır. Bundan əlavə, leksik vahidlərin əlifba-tezlik lüğətindəki sıraları da qeyd olunmuşdur.

Ümumi əks-əlifba tezlik lüğətində isə leksik vahidlərin ranqı, mütləq tezliyi, hansı nitq hissəsinə məxsusluğu və rast gəlindiyi mətnlərin sayı göstərilmişdir. Ümümi tezlik lüğətində tezliyi ən yüksək olan sözlər siyahısında : бол (olmaq) -108133, ол (o) - 62796, мен (və) – 58406 kimi sözlər qeydə alınmışdır ki, bunlar da "Azərbaycan dilinin tezlik lüğəti" və "Azərbaycan qəzet dilinin tezlik lüğəti" siyahısında yüksək tezlikli vahidlər sırasına daxil edilmişdir.

1. Ümumi əlifba-tezlik lüğəti;
2. Ümumi tezlik-əlifba lüğəti;
3. Ümumi əks-əlifba tezlik lüğəti.

Çox zəngin söz ehtiyatına malik olan bu lüğətdə üslubların distributiv tezliyi yer almışdır ki, o da öz novbəsində fərdi olaraq hər bir üsluba daxil olan leksik vahidlərin tezliyini göstərir və müvafiq olaraq elmi, rəsmi-işguzar, ədəbi üslub, publisistik üslub, məişət üslubu, üslublar cəmi, ortaq baza, ümumi tezlik adlı başlıqlara bölünmüşdür. Həmin yarımbaşlıqlarda leksik vahidlərin həmin üslublardakı tezlik vahidi yazılmışdır.

4. Üslublara görə distribütiv əlifba-tezlik lüğəti;
5. Üslublara görə distribütiv tezlik- əlifba lüğəti;
6. Üslublara görə distribütiv əks əlifba -tezlik lüğəti;
7. Elmi üslubun əlifba-tezlik lüğəti; (22159 leksik vahidi ehtiva etmişdir. Bu tezlik lüğətində leksik vahidin ranqı, özü, mütləq tezliyi və yazılma dərəcəsi göstərilmişdir. Burada ən yüksək tezlik göstəricisinə malik vahidlər "və" (tezlik–2535, yayılma-100), "etmək" (tezlik- 1256, yayılma-100), "bu" (tezlik-1040, yayılma-100), "bir" (tezlik-770, yayılma 100), o (tezlik 719 - yayılma 100) və s.
8. Elmi üslubun tezlik-əlifba lüğəti;
9. Elmi üslubun əks-tezlik lüğəti;
10. Rəsmi-işgüzar üslubun əlifba-tezlik lüğəti (7488 leksik vahidi ehtiva etmişdir. Burada leksik vahid, onun ranqı, mütləq tezliyi və yayılma dərəcəsi göstərilmişdir. Ən yüksək tezlik göstəricisinə malik vahidlər: жыл (il) - 14582, республика (respublika) - 5674, ол (o) – 5271;
11. Rəsmi-işguzar üslubun tezlik-əlifba lüğəti;
12. Rəsmi-işguzar üslubun əks-əlifba tezlik lüğəti;
13. Ədəbi üslubun əlifba-tezlik lüğəti; (12289 leksik vahidi ehtiva etmişdir. Burada həmin vahidlər,onların ranqı, mütləq tezliyi və yayılma dərəcəsi qeyd olunmuşdur);
14. Ədəbi üslubunun tezlik-əlifba lüğəti;
15. Ədəbi üslubunun əks-əlifba tezlik lüğəti;
16. Publisistik üslubun əlifba-tezlik lüğəti (15079 leksik vahidi ehtiva etmişdir. Ən yüksək tezlik göstəricisinə malik vahidlər: бол (olmaq) - 9549, ол (o) - 7039, бер (vermək) - 5708 və s.;
17. Publisistik üslubun tezlik-əlifba lüğəti ;
18. Publisistik üslubun əks-əlifba tezlik lüğəti;
19. Şifahi üslubun əlifba-tezlik lüğəti ;(9370 leksik vahidi ehtiva etmişdir. Ən yüksək tezlik göstəricisinə malik vahidlər: бол (olmaq) - 7380, ол (o) - 4358, ал (odur) - 4321, айт (deyirəm) – 3896;
20. Şifahi üslubun tezlik-əlifba lüğəti;
21. Şifahi üslubun əks-əlifba tezlik lüğəti;
22. Ümumi mətn verilənlər bazasının əlifba-tezlik lüğəti; (24365 leksik vahidi ehtiva edir. Həmin vahidlərin ranqı, özü mütləq tezliyi, yayılma dərəcəsi verilmişdir. Ən yüksək tezlik göstəricisinə malik vahidlər: бол (olmaq) 47880, ол (o) 30274, мен (və) 23411, да (çox) 21256;
23. Ümumi mətn verilənlər bazasının tezlik -əlifba lüğəti;
24. Ümumi mətn bazasının əks-əlifba tezlik lüğəti;
25. İsmin əlifba-tezlik lüğəti;
26. İsmin tezlik-əlifba lüğəti;
27. İsmin əks-əlifba tezlik lüğəti
28. Sifətin əlifba-tezlik lüğəti;
29. Sifətin tezlik- əlifba lüğəti;
30. Sifətin əks-əlifba-tezlik lüğəti;
31. Sayın əlifba-tezlik lüğəti;
32. Sayın əks-əlifba tezlik lüğəti;
33. Sayın tezlik əlifba lüğəti;
34. Əvəzliklərin əlifba-tezlik lüğəti;

35. Əvəzliklərin tezlik-əlifba lüğəti; (176 leksik vahid ehtiva etmişdir. Ən yüksək tezlik dərəcəsinə malik sözlər : ол (o) -62796, бұл (budur) -32850 , бір (bir)-30288 və s.
36. Əvəzliklərin əks-əlifba tezlik lüğəti;
37. Feillərin əlifba-tezlik lüğəti;
38. Feillərin tezlik-əlifba lüğəti;
39. Feillərin əks-əlifba lüğəti;
40. Zərflərin əlifba-tezlik lüğəti;
41. Zərflərin tezlik-əlifba lüğəti;
42. Zərflərin əks-əlifba tezlik lüğəti;
43. Köməkçi nitq hissələrinin əlifba-tezlik lüğəti;
44. Köməkçi nitq hissələrinin tezlik əlifba lüğəti;
45. Köməkçi nitq hissələrinin əks-əlifba tezlik lüğəti;
46. Xitabların əlifba-tezlik lüğəti;
47. Xitabların tezlik -əlifba lüğəti;
48. Xitabların əks-əlifba tezlik lüğəti;
49. Təqlidi sözlərin əlifba-tezlik lüğəti;
50. Təqlidi sözlərin tezlik-əlifba lüğəti;
51. Təqlidi sözlərin əks-əlifba tezlik lüğəti;
52. Modal sözlərin əlifba-tezlik lüğəti;
53. Modal sözlərin tezlik-əlifba lüğəti;
54. Modal sözlərin əks-əlifba tezlik lüğəti;
55. Köməkçi feillərin əlifba-tezliyi lüğəti;
56. Köməkçi feillərin tezlik-əlifba lüğəti;;
57. Köməkçi fe'llərin əks-əlifba tezlik lüğəti;
58. Omonimlərin üsluba distributiv tezlikli lüğəti;
59. Söz formaların əlifba-tezlik lüğəti;
60. Söz formaların tezlik-əlifba lüğəti;
61. Söz formaların əks-əlifba tezlik lüğəti;

"Qazax dilinin tezlik lüğəti" dilin tədrisi, yeni lüğətlər yaradılması, kompüter hesablama dilçiliyi sahəsində, dilin linqvistik tipoloji sahəsində tədqiqatlar üçün istifadə olunması nəzərdə tutulur.

Hazırda Qazaxıstan Elm və Təhsil Nazirliyinin əmri ilə yaradılmış bu lüğətdən rusdilli şagirdlərin məktəbdə qazax dilinin mənimsəmələri üçün istifadə olunması nəzərdə tutulmuşdur. Belə ki, dilin bu üsulla öyrədilməsi Paretto prinsipinə əsaslanıb dil tədrisində olduqca effektiv nəticə verir. Belə ki, qazax dilinin tədrisində şagirdlər üçün leksik baza minimumu yazılı nitqin 85 %-ni təşkil edir . Bu minimumu mənimsəmək üçün məktəbli şagirdə 1 tədris ili ərzində hər gün 8 söz öyrənmək kifayət edir.

Ümumiyyətlə, lüğət bir çox ünsürlərə görə Azərbaycan dilinin tezlik lüğəti ilə çox böyük oxşar cəhətlərə malikdir. Bunlara lüğətin tərtib sistemini (əlifba -tezlik, tezlik lüğəti, əks-əlifba tezlik lüğəti), lüğət vahidi olaraq söz-formanın əsas götürülməsini, ən yüksək tezlikli vahidlərin eynilik təşkil etməsi kimi məqamları misal göstərmək olar.

İspan dilinin tezlik lüğəti

Apardığımız tezlik lüğətləri ilə bağlı araşdırmalarda diqqətimizi ispan dilinin tezlik lüğəti çəkdi. Belə ki, lüğət hazırlanma tərzinə görə yuxarıda sadalanan lüğətlərdən nisbətən fərqli olub , özünəməxsus xüsusiyyətləri ilə maraq doğurur.

İspan dilinin tezlik lüğəti, İspan dilini öyrənənlər üçün əvəzolunmaz vasitə olmaqla bu dildə ən çox istifadə olunan 5000 sözün siyahısını özündə əks etdirir və 20 milyonluq söz bazasından istifadə əsasında meydana gəlmişdir. Həmin söz bazası-korpus ispan və latın Amerika mətnlərindən götürülmüş şifahi, bədii və gündəlik mətnlər əsasında formalaşmışdır. Nəzərə alsaq ki, ispan dili istifadəçilərinin sayı 470 milyon olmaqla Çin dilindən sonra dünyada ikinci beynəlxalq dil statusu almışdır, bu lüğətin hazırlanması ilə Brigham Young Universitetinin Linqvistika Şöbəsinin dil tədqiqatçıları bu dildən yararlanmaq istəyən çox böyük oxucu kütləsinə töhfə vermişdir. Bunu da

qeyd etmək olar ki, ispan dili əsasən İspaniya və bir sıra Latın Amerikası ölkələrində istifadə olunur. Lüğətin yaranmasında böyük zəhməti keçən Brigham Young Universitetinin Linqvistika Şöbəsinin dosenti Mark Davies lüğətlə bağlı düşüncələrinin belə ifadə edir :

"Bir tezlik lüğətinin müəllimlər və dil öyrənənlər üçün dəyəri nədir? Niyə ancaq hər bir dərslikdə olan lüğət siyahısından yararlanmayaq? Bu sualın ən qısa cavabı bundan ibarətdir ki, ənənəvi dərslik kitabı hər fəsildə müəyyən mövzu ilə bağlı lüğəti təqdim edir (məs:qida, xəstəlik, nəqliyyat, geyim və s.), lakin həmin siyahıda şagirdin danışıq zamanı və gündəlik mətnlərdə bu sözlərdən ən çox hansı ilə qarşılaşacağı barədə heç bir göstərici olmur. Əslində, bəzi sözlər o qədər nadir hallarda işlənir ki, şagird onlarla həmin fəslə aid testdən kənarda, "real həyatda" heç bir yerdə bir daha qarşılaşmır."(5,s.1)

Sözlük, həmçinin, ayrıca müxtəlif mövzular üzrə ən çox işlənən leksik vahidlərin 30 tematik siyahısını özündə əks etdirir. İspaniyanın tezlik lüğəti, bütün səviyyələrdə olan tələbələrə, ispan lüğətlərinin öyrənilməsini effektiv və cəlbedici bir şəkildə, maksimum dərəcədə sadələşdirilmiş üsulla mənimsəməyə yardım edir.

"Bəzən xarici dil öyrənən tələbələr qəzet və ya bədii ədəbiyyatdan onlara tanış olmayan sözləri seçib onları öyrənməyə çox böyük zaman ayırırlar. Bu tezlik lüğəti bəzən çox böyük yararı olmayan sözlərin öyrənilməsina sərf olunan zaman israfının qarşısını almağa yardım edəcək."(5,s.2)

Bəzən müəllimlər də orta dil səviyyəsi qruplarına (intermediate groups) tələbələrin dil bazasının həmin səviyyə üçün kifayət qədər dolğun olmadığını sezdikdə bu lüğətlərdən tələbənin lüğət ehtiyatındakı boşluqları doldurmaq üçün istifadə edə bilərlər.

Sözügedən lüğətdə leksik vahidlərin ranqı, leksik vahidin özü, onun ingilis dilində ekvivalenti, nümunə olaraq işləndiyi cümlə , mətnlərdə yayılma dərəcəsi, tezliyi və hər hansı leksik laya məxsusluğu ifadə olunmuşdur. Hind-avropa dil ailəsinə məxsus ispan və ingilis dillərində azərbaycan dilindən fərqli olaraq 3 registr (dilin lüğət tərkibinin üslubi leksik layları) mövcuddur. Bunlara spoken-şifahi, fiction- bədii, non-fiction -ədəbi registrlar daxildir.Birinci və ikinci registrlar azərbaycan dilində şifahi və bədii üslublara uyğun gəlsə də, sonuncu, yəni "non-fiction"ədəbi registra azərbaycan dilindəki publisitik, elmi, rəsmi-işguzar üslubun sözləri daxildir.

Bunu lüğətdən götürülmüş konkret nümunə əsasında daha aydın izah etmək olar. Lüğətdə yer alan söz "bruja" (cadugər) sözünü nəzərdən keçirək :

4305 bruja nf witch, hag
• había una leyenda de una bruja que se montaba en una escoba
61-251 +f -nf

Yuxarıdakı göstəricilərə nəzər salsaq, ilk rəqəm **4305** leksik vahidin ranqını -yəni həmin tezlik lüğətində sırasını, **bruja** -leksik vahidin özünü , **nf**- (noun -isim ,femine-qadın cinsi)-hansı nitq hissəsi və cinsə məxsusluğunu , **witch, hag**-isə həmin leksik vahidin ingilis dilində ekvivalentini ifadə edir. Sözün kontekstə daha yaxşı anlaşılması üçün **bruja** -cadugər cümlədə də işlədilir. Belə ki, "**había una leyenda de una bruja que se montaba en una escoba**" –"Süpürgə üstündə uçan bir cadugar var idi."- kimi tərcümə olunur.

Növbəti rəqəmlərə gəldikdə isə 61 -bruja sözünün mətndəki yayılma dərəcəsini, 251 isə həmin sözün tezliyinin göstərir. Nəhayət, +f isə sözün daha çox bədii ədəbiyyatda işləndiyinə, -nf isə rəsmi üslubda rast gəlinmə ehtimalının çox aşağı olduğuna dəlalət edir.İndi isə, fikrimizə aydınlıq gətirmək üşün bu indeksləri bir-bir nəzərdən keçirək.

Nitq hissələri

Qeyd etmək lazımdır ki, azərbaycan dilindəki kimi ispan dilində də bəzi kateqoriyalar ikili xarakter daşıyır. Məsələn, isimlər , xüsusilə , dini mənsubiyyət və milliyəti ifadə edən sözlərdə (católico-katolik, americano-amerikan) sifətləşir, və ya sifətlər (todos-hamısı) əvəzlikləşir. Xüsusilə, bu dildə isimlər müxtəlif cins kateqoriyaları qəbul etdiyindən bunu da lüğətdə qeyd etmək

zəruri olur. Əksər isimlər ya kişi cinsinə məxsus olub lüğətdə "nm" (noun masculine; año- il,, libro- kitab), ya da qadın cinsinə məxsus olub "nf" kimi (noun feminine; tierra-torpaq, situación-vəziyyət) qeyd olunmuşdur. Bir çox hallarda peşə bildirən isimlər lüğətdə nm/f kimi (autor-müəllif, director- rejissor) qeyd olunur , ancaq lüğətdə kişi cinsi kateqoriyasıəks olunmuş , lakin həmin vahidin qadın cinsinə məxsus forması da (autora, directora) tezlik lüğətinin statistikasında həmin forma ilə bir yerdə nəzərə alınmışdır. Bir neçə sözün isə həm qadın , həm kişi cinsi forması vardır, lakin belə sözlər də bir neçə məna ifadə edir. (cometa = comet (m)- kometa (k) ; kite (f)- çərpələng (q)).

İngilis dilində ekvivalentlik

İspan dilinin tezlik lüğəti hər bir sözün bütün mümkün mənalarını ifadə edən ikidilli lüğət olmadığından burada hər bir sözün ingilis dilindəki yalnız ən sadə və ən çox işlək olan ekvivalenti yer almışdır. Həmçinin, lüğətdə elə birləşmələrə rast gəlinir ki, eyni mənanı ifadə edib cüzi yazılış tərzləri ilə fərqlənir. Bunlar üçün də ümumi tezlik hesablanmış və belə vahidlər lüğətdə əllə sayılacaq qədər azdır :180 embargo nm sin embargo: nevertheless (baxmayaraq ki), 333 medida nf measure; a medida que: to the extent

Kontekts daxili birləşmələr

Butun bu cümlə və birləşmələr İspan dili korpusundan (Corpus del Español (www.corpus-delespanol.org) götürülmüşdür və əsas məqsəd tədqiqat obyekti olan leksik vahidləri daha dolğun ifadə edən minumim sözlərdən təşkil olunmuş söz birləşmələri və cümlələri tapmaq idi.Yeni "uydurulmuş" qısa cümlələrlə sözsüz ki, leksik vahidlərin əsas mənasını daha aydın ifadə etmək olardı, lakin bu orijinaldan kənar olardı. Son olaraq, orijinaldan yoxluğu ilə cümlələrin mənasına heç bir xələl verməyəcək sözləri ixtisar etməklə bəzi uzun cümlələr qısaldılmış və anlaşıqlı olmaq üçün sadələşdirilmişdir.

Registr müxtəlifliyi

Hər bir leksik vahidin tezliyindən əlavə leksik lay göstəricisinin yanında simvollar [+ o -o + f -f + nf-nf] qeyd olunur və buradakı (+) və ya (-) işarələr həmin laylarda leksik vahidin çox və ya nadir hallarda işləndiyinə dəlalət edir.

Buradakı

[+ o ;-o] -oral-şifahi registrı, (leksik lay)

[+ f ;-f] -fiction -bədii registrı, (leksik lay)

[+ nf ;-nf] non-fiction -ədəbi (leksik lay) registrı ifadə edir.

Bu göstərici yalnız sözün tezliyi digər iki registrlardan 8-9% yüksək və ya 8-9% aşağı göstəriciyə malik olduğu zaman qoyulur. Onu da qeyd etmək lazımdır ki, [+o] işarələnən bəzi sözlər-dilin şifahi korpusunda çox rastlansa da, gündəlik danışıqda çox rastlanmaya da bilər. Bu ona əsaslanır ki, dilin şifahi korpusu özündə hər gün keçirilən mətbuat konfranslarını, siyasi çıxışları, siyasətçilərdən alınan intervyuları özündə birləşdirir.

Tematik lüğət

Yuxarıda bəhs etdiyimiz tezlik lüğətində, həmçinin, 30 fərqli mövzu üzrə leksik vahidlərin tezliyi qeydə alınmışdır. Bu siyahıya bədən üzvləri, qida, ailə, hava, sənət-peşə, milliyyət, rənglər, hisslər, hərəkət və ünsiyyət fe'lləri və digər mövzularla bağlı leksik vahidlər aiddir. Bundan əlavə, tezlik lüğətini ərsəyə gətirən dilçilər ispan dilini yeni öyrənən və orta dil biliklərinə malik tələbələrilin qrammatikada ən çox üzləşdikləri çətinlikləri də nəzərə almışlar. Məsələn, lüğətdə ən çox işlənən sifətin kiçiltmə "ito" (gato/gatito; cat/kitty; pişik /balaca pişik) və böyütmə "isimo" (alto/altísimo; tall/really tall; hündür/çox hündür) bildirən şəkilçiləri , isim düzəldən şəkilçilər, və ən çox işlənən fellər yer almışdır. Nəhəyət, lüğətdə ən maraqlısı isim, sifət , fel və zərflərin hər 3 leksik layda -registrda (şifahi, bədii, ədəbi) yeri əks olunmuşdur. Buna əsasən, son 100-200 ildə dilə daxil olan ən yüksək tezlikli leksik vahidləri müəyyən etmək olar.

Yaxın gələcəkdə zəngin baza əsasında yaradılcaq yeni azərbaycan dili tezlik lüğətlərində leksik vahidlərin ingilis dilində uyğun ekvivalentlərini qeyd etmək, və onları nümunə olaraq sadə cümlələrdə işlətmək zənnimcə , çox faydalı iş olardı. Belə ki, bu son dövrdə ölkəmizə səyahət edən əcnəbi turist və tələbələr üçün bu dili tez bir zamanda mənimsəmək üçün əvəzedilməz mənbə rolunu oynaya bilər.

Ədəbiyyat siyahısı

1.M.Mahmudov “Komp dilçiliyi” Bakı,”Elm və təhsil”, 2013, s.121

2.https://ru.wikipedia.org/wiki/%D0%93%D0%BB%D0%BE%D1%82%D1%82%D0%BE%D1%85%D1%80%D0%BE%D0%BD%D0%BE%D0%BB%D0%BE%D0%B3%D0%B8%D1%8F

3.K.Vəliyeva, M.Mahmudov, V.Pines, “Azərbaycan qəzet dilinin tezlik lüğəti”, Bakı, Nurlan, 2004- 3 s .

4.Azərbaycan dilinin tezlik lüğəti (tərtibçilər:M.Ə.Mahmudov ,Ə.Fətullayev və b.), Bakı , Elm, 2010,-464 s

5. Mark Davies “A Frequency Dictionary of Spanish” , first published 2006 by Routledge 270 Madison Ave, New York, NY 10016 2006

6.Жалпы білім берудегі қазақ тілінің жиілік сөздігі / Жалпы редак. басқарғандар: Қажыбек Е.З., Фазылжанова А.М. – Алматы: Дәуір, 2016. – 1472 б.

7. Ляшевская О. Н., Шаров С. А. Частотный словарь современного русского языка (на материалах Национального корпуса русского языка). — М.: Азбуковник, 2009. — 1087 с. — ISBN 978-5-91172-024-7.

8.Adam Kilgarriff. “Putting Frequencies in the Dictionary” // International Journal of Lexicography. — 1997. — № 10(2). — P. 135—155

N.Alakbarova

Structural features of frequency dictionaries in various systemic languages

Sammary

Recently, the teaching process of languages of various systems has been carried out in a very high and innovative way, with the advent of information technology. Hundreds of electronic and book dictionaries play a very important and special role in teaching languages. It is important to note the key role played by frequency dictionaries in realizing such a useful mission. These dictionaries consist of a list of lexical units that show the frequency of those lexical units in a language. Frequency dictionaries are divided into different types depending on the sequence and the frequency of words. According to these factors, they are divided into frequency, alphabetical and reverse-alphabetical frequency dictionaries.

There are also differences in the structure of various system languages, which affects the creation of frequency dictionaries. However, some indexes remain the same for all dictionaries. These include lexical unit, its rank, frequency, and number of entries in the texts.

Some other indicators may vary depending on the language structure, to which language family the language belongs. Frequency dictionaries are an indispensable source of language teaching, preparation of minimum dictionaries, defining the number of active and passive vocabulary, determining quantitative statistics for each style of the word. Currently, machine translation, which is an integral part of the global world, works on the bases of frequency dictionaries.

This article has been studied various frequency dictionaries in Azerbaijan and abroad. The article also discusses compiled methods for creating the “Frequency dictionary of the Azerbaijani language” which is a valuable source in the field of the Azerbaijani dictionary and “The frequency dictionary of the Azerbaijani newspaper language” and the frequency of lexical units in both of them. In addition to local dictionaries, the dictionary of the Kazakh language, which made a great contribution to Turkish linguistics, the Spanish dictionary was also carefully studied.In all of these studies, we can conclude that frequency dictionaries are the most useful source in an information retrieval system, but also play an indispensable role in learning a language.

Keywords: frequency, dictionary, word-form, rank, lexical unit, register

Н.Алекперова

Структурные особенности частотных словарей на разных языках

Резюме

В последнее время обучение языков различных системам было проведено очень высоко и инновационно , с появлением информационных технологий. Сотни электронных и книжных словарей играют очень важную и особую роль в обучении языкам. Важно отметить ключевую роль, которую играют частотные словари в реализации такой полезной миссии. Эти словари представляет собой список тех единиц, которые показывают частоту изучения лексических единиц в языке. Частотные словари делятся на различные типы в зависимости от последовательности и расположения слов. Учитывая эти факторы они разделены на частотные, алфавитные и обратно-алфавитные частотные словари.Существуют также различия в структуре различных системных языков, которое влияет на создание частотных словарей. Однако некоторые индексы одинаковы для всех словарей. К ним относятся лексическая единица, ее ранг, частота и количество вхождений в текстах.Некоторые другие показатели могут различаться в зависимости от языковой структуры, к кокой языковой семье принадлежит язык. Частотные словари служат незаменимым источником преподавания языка, сводя к минимуму минимальное количество активной и пассивной лексики, определяя количественную статистику для каждого стиля слова. В настоящее время машинный перевод, являющийся неотъемлемой частью глобального мира, работает на основе словаря частотных словарей.

В этой статье было изучена различные частотные словари в Азербайджане и за рубежом. В статье, так же рассматриваются скомпилированные методы создания «Частотный словарь азербайджанского языка» и «Частотный словарь азербайджанского газетного языка» и частота лексических единиц, которая является ценным источником в области азербайджанского словаря. Помимо местных словарей, словарь казахского языка, который внес большой вклад в турецкую лингвистику, Испанский словарь также был тщательно исследован.Во всех этих исследованиях мы можем заключить, что частотные словари являются наиболее полезным источником в информационной поисковой системе, но также играют незаменимую роль в обучении языку.

Ключевые слова: частота, словарь, словоформа, ранг, лексическая единица, стиль, регистр

Redaksiyaya daxil olma tarixi: 18.04.2019
Çapa qəbul olunma tarixi: 23.04.2019
Filologiya elmləri doktoru, professor Məsud Mahmudov tərəfindən çapa tövsiyə olunmuşdur.

İRADƏ BƏYLƏROVA
ADU
Rəşid Behbudov134
irada@mail.ru

İNGILİS DİLİNDƏ OLAN BƏZİ MÜRƏKKƏB İSIMLƏRİN STRUKTUR-SEMANTİK XÜSUSİYYƏTLƏRİ

Xülasə

Məqalədə məzmundan asılı olaraq mürəkkəb isimlərin mənasına həm bütövlükdə, həm də ayrı-ayrılıqda müəyən edilməsinə çalışmışıq.

Bundan əlavə, ingilis dilində olan mürəkkəb sözlərin quruluş və tədqiqatından, həmçinin onların yaranma üsullarından söz aşılmışdır. Qeyd olunmuşdur ki, başqa dillərdə olduğu kimi ingilis dilində də söz yaranması inkişaf prosesi olaraq bir tarixi quruluşdan digərinə keçid zamanı yeni sözlərin yaranması ehtiyacını təmin edir.

Məqalədə istifadə olunan mürəkkəb isimlərin nümunələri T.Drayzerin əsərlərindən götürülmüşdür. Mürəkkəb isimlərin komponentlərinin bitişik, bəzən düfislə, bəzən də ayrı yazıldığı misallarla qeyd olunmuşdur. Belə ki, semantik qrup və eyni zamanda sənət, peşə, vəzifəmənası ifadə edən sözlər qrupuna aid olduğundan bəhs edilir. Qeyd olunur ki, elm və texnologiyada baş verən dəyişikliklərlə əlaqədar olaraq mürəkkəb isimlərin işlənmə tezliyi artmadır. Həmçinin yeni anlayış, əşya və hadisələrin yaranması ilə əlaqədar dilin söz fondunda baş verən müəyyən diferensiallaşma ilə əlaqədar olması bu səbəb olaraq göstərilmişdir. Müəllif qeyd edir ki, bəzi mürəkkəb isimlərin mənası onları təşkil edən komponentlərin mənasının məzmununa uyğun gəlmir. Məqalədə deyilir ki, bəzi mürəkkəb isimlərin mənası mücərrədləşərək onun komponentlərinin konkret mənasından uzaqlaşır. məs: tallboy, longhead. Mürəkkəb sözlərin komponentlərinin yerinin dəyişməsi nəticəsində onların mənası da dəyişir. İngilis dilində olan mürəkkəb sözlərin digər dillərdə mövcud olan mürəkkəb sözlərdən iki fərqli xüsusiyyəti var:1) Onlar öz mənaları ilə müxtəlif şəkildə işlənə bilər; 2) İngilis dilində ən çox iki kökdən ibarət olan mürəkkəb sözlər üstünlük təşkil edir.

Mürəkkəb sözlərin mürəkkəbliyi onların quruluşuna görə bölgüsündədir. Quruluş sözünün hər iki mənası bu məsələdə bizi maraqlandırır, mürəkkəb isimlərin konkret formalrının öyrənilməsi bu cəhətə əsaslanır. Məsələn, babysitter (dayə), toothache (diş ağrısı), good dressed (yaxşı geyinmiş) və s. birləşmələrdə tamam başqa birləşmə növü təqdim edilir, çünki quruluşdakı bu fərq onların mahiyyətinə təsir edir və hər birinin bir neçə xüsusiyyətlərlə çıxış etməsinə səbəb olur. Göründüyü kimi burada söz birləşmələrinin sadə və mürəkkəb olaraq iki yerə təsnifinə ciddi əhəmiyyət verildiyi kimi, mürəkkəb sözlərin də sadə sözlərlə birlikdə öyrənilməsi də vacib sayılır.Sintaktik üsulla yaranan sözlər-mürəkkəb isimlər iki vəya daha artıq sözün birləşərək bir məna ifadə etməsinə deyilir. Məsələn, mankind (bəşəriyyət), blackboard (lövhə), waste-paper basket (zibil qabı) , fellow-countryman (yerli) və s.

Birinci elementin isim (n), ikinci elementin isə fel tərkibli isim olan bir neçə qruplar var. Məs: sunset, timeserver, houskeeping və s. ekzosentrikmürəkkəblərdə isə elementlər öz mənalarına uyğun hərəkətə ya şəxs və ya əşyanı bir sözlə bildirir. Burada şəxsi isimlər təsəvvür edilə bilir. Məs: pick-pocket, V+n Quruluşca mürəkkəb sözlər əsrlər boyu ingilis dilini zənginləşdirən, ona yeni məna dəyərləri qatan məhsuldar vasitələrdən biri olmuşdur. Həmçinin o dilçilikdə bəzi çətin sual və problemlərin araşdırılmasında da əsaslı rol oynamışdır. Sözün mürəkkəbliyi özündə bir sıra linqivistik və qeyri-linqivistik; sintaqmatik və paradiqmatik; və linqivistik paradiqmatik bilikləri əks etdirir.(9,1) Bəzi alimlər sözün mürəkkəbləşməsini ingilis dilinə olan məhsuldar qatğısıyla əlaqədar qrammatik yox, leksik hadisə adlandırır.

Açar sözlər: mürəkkəb söz, quruluş, söz yaranması, tədqiqat, məzmun

Bir çox dillərdə olduğu kimi ingilis dilinin qrammatik quruluşunda da mürəkkəb isimlər özünəməxsus yer tutur və dəyərli əhəmiyyətə malikdir. Müxtəlif dillərdə mövcud olan vahidlər sistemini təhlil etdikdə mürəkkəb isimlər bölməsi də xüsusi bir bölmə kimi qarşıya çıxmışdır. İngilis dilində mürəkkəb sözlərin digər dillərdə mövcud olan mürəkkəb sözlərdən iki fərqli mühüm xüsusiyyəti vardır. Onlar öz mənaları ilə müxtəlif şəkildə işlənə bilərlər. İkinci xüsusiyyət isə ingilis dilində ən çox iki kökdən ibarət olan mürəkkəb sözlərin üstünlük təşkil etməsidir. Məhz bu səbəbdən lap qədim zamanlardan hazırki günümüzə qədər bu bölməyə qarşı maraq yüksək səviyyədə olmuş və müxtəlif tədqiqatlarda aktual mövzular arasında öz yerini almışdır.

Qeyd etməliyik ki, mürəkkəb sözlərdən, o cümlədən mürəkkəb isimlərdən bəhs edən dilçilər ilk növbədə onların semantik struktur bütövlüyünü qeyd edirlər.

Son vaxtlar ingilis dili istifadəçiləri arasında mürəkkəb isimlərin işlənmə tezliyi artmış və bu barədə bir sıra alimlər də dəyişikliyi müşahidə etdiklərini öz tədqiqatlarında təsdiq etmişdirlər. Bu tendensiya ilk növbədə elm-texnologiyada baş verən dəyişikliklər, yeni anlayış, əşya və hadisələrin yaranması ilə əlaqədar dilin söz fondunda baş verən müəyyən diferensiallaşma ilə əlaqədardır. Bu dəyişikliklərdə bir-birinə yanaşı sözlər yenidən sintaktik yolu üstün tutması olduqca aşkardır.

Mürəkkəb isimlərin digər dillərin sözlərində olduğu kimi işlənməsinə təkan verən amillərdən biri kimi dil qənaəti misal çəkilə bilər. Onları müxtəlif qəzet, jurnallarda məqalə başlıqlarında, şəkilaltı yazılarda, digər izahat və şərhlərdə və bir sıra mətbuat növlərində görmək olar. Bu növə aid olan mürəkkəb isimlərin əksəriyyəti birinci növ təyin söz birləşməsi əsasında yaranmışdır.

Birinci komponentləri isimlərdən ibarət 1-ci növ təyin söz birləşmələri əsasında formalaşan mürəkkəb sözlərdə də təyin və təyin olunan semantik baxımdan daha sıx birləşmə əmələ gətirir və bu yeni söz birləşməsindən vahid quruluşa malik olması ilə fərqlənir. Məsələn, silver spoon (gümüş qaşıq), hot-bed (istixana), mountain air (dağ havası) (13)

Yanaşma yolu ilə yaranan mürəkkəb isimlərin gold ring (qızıl üzük), fir tree (şam ağacı), key hole (açar deşiyi) və s. Kimi birinci komponenti yerində təyin edilən söz kimi isim gəlir. Bu nümunəyə aid misalların sayını artırmaq olar. Lakin onların əsas göstəricisi qənaət prinsipidir ki, dil istifadəçiləri az vaxtda daha dolğun və eyni zamanda təsirli danışmaq niyəti bu tipli sözlərin meydana gəlməsinə güclü təkan bir dil üçün mənşəcə mürəkkəb söz hesab edilən hər hansı bir söz müasir dildə belə qəbul edilməyə bilər, və yaxud da bir dildə mürəkkəb hesab edilən söz fərqli bir dildə sadə söz kimi qəbul edilə bilər. Belə hallarda o vaxt rast gəlinir ki, bəhsi gedən sözün komponentləri yeni şəraitdə işlənmir, belə bir sözün olması haqda təsvvür olmur. Məsələn, beynəlmiləl səciyyəli linqivistik terminlərdən "homograph, homonym, antonym, synonym" və s. Kimi onlarca terminlərin tərkibinin mənşəcə iki sözdən ibarət olduğu hamıya məlumdur. Lakin misal gətirilmiş sözləri təşkil edən sözlər ingilis dilində işlənmədiyi halda, əmələ gətirdikləri sözlərin tərkibində qalmış və dilə sözün daxilində onun bir hissəsi kimi gəlmişdir. Deməli, sözün lüğət tərkibində fəaliyyəti və inkişaf nəticəsi ilə onu təşkil edən komponentlərin inkişafı ilə üst-üstə düşmür.

Bundan əlavə, N. Nəbiyevanın fikrincə, mürəkkəb sözləri, o cümlədən mürəkkəb isimləri müəyyənləşdirmək işində istifadə edilən başlıca cəhət mürəkkəb isimlərin bütövləşməsidir. Onların komponentləri sabitdir, məs: **blackboard, armchair, eggplant etc.** Bu sözlərdə birinci komponenti dəyişərək başqa bir sözlə əvəz etmək mümkün deyil, yəni black əvəzinə greenboard demək mümkün deyil. (3,55)

İ.V.Arnold ingilis dilinə xas olan mürəkkəb sözlərin 2 qrupu haqqında 1) endosentrik ; 2) ekrosentrik danışarkən qeyd etmişdir ki, əgər mürəkkəb sözün baş üzvünün ifadə etdiyi məna həmin mürəkkəb sözün ifadə etdiyi məna ilə funksiya daşıyırsa, belə mürəkkəb söz, eləcədə mürəkkəb isim endosentrik mürəkkəb sözz adlanır. Endosentrik isimlərdə elementlərdən biri o bir elementlə xarakterizə olunur.məs: sunshine, növü isim+isim. Bu ən məhsuldar növdür. Bu cür nümunələrin sayı çoxdur. maidservant növlü mürəkkəb söz həmçinin isim+isim tərkiblidir, lakin elementlər arasındakı əlaqə müxtəlifdir. 2-ci element dominaatdır. Looking-glass tip V+n Bəzən brinci və ikinci element arasında məna yaxınlığı müxtəlifdir. Məs: a green-grocer heç də satıcı yaşıl deyil, tərəvəz satan şəxs mənasını verir. O.Musayevin fikrincə, mürəkkəb isimlərə xas olan spesifik xüsusiyyətlərdən biri də ondan ibarətdir ki, əksər hallarda mürəkkəb isimlərin mənası onları təşkil

edən komponentlərin mənasının məzmununa uyğun gəlmir.(1,15) O zaman lüğətə müraciət olunur. İngilis dilinin mürəkkəb isimləri Azərbaycan dilinə bəzən sadə (1), bəzən düzəltmə (2), bəzən mürəkkəb isimlərlə (3), bəzən də sərbəst söz birləşməsi(4) ilə tərcümə edilir. (1,16) Məs: bluebell (blue-mavi; bell-zəng, birlikdə mənası isə zəngçiçəyi deməkdir).

Meşkovun fikrincə, N+N tipli mürəkkəb sözlər leksik vahidlərin böyük əksəriyyətini təşkil edir. Bu sözlər bir çox xüsusiyyətlərinə görə müxdtəlif olduğu üçün onların mənasının təhlili də müxtəlif yollarla öyrənilməlidir. (2,103)

İngilis dilində olan N+N tipli mürəkkəb sözlərin müşahidəsi bu sözlərin komponentləri arasındakı münasibətlərin yaranmasının müxtəlif faktorlara əsaslanması barəsində fikir yürütməyə imkan verir. Aşağıda verilmiş 3 mürəkkəb sözün mənalarına nəzər salaq. *Handbag* sözündəki 1-ci komponent *hand* öz əsl mənasında (əl) deyil, *bag* sözünə köməkçi bir söz kimi birləşərək tam başqa - *agent* mənasını verir. *Hand-towel* sözündə isə komponentlərin heç birisi üstünlük təşkil etmir, yəni *hand* öz (əl) mənasında *towel* (dəsmal) mənasında işlənərək *əl dəsmalı* mənasını verir. Beləliklə, 1-ci və 2-ci misallardan fərqli olaraq 3-cü mürəkkəb sözün strukturu motivasiyalı deyil.*Hand-gallop* sözü isə 1-ci və 2-ci mürəkkəb sözlərdən fərqli olaraq bu sözlərin komponentləri *"hand"* və *"gallop"* ayrılıqdakı mənaları birləşərkən verdiyi mənadan fərqli olur. Belə ki, tərcümədə (atın yüyənini saxlamaq) olan "*at*" sözü ilə bağlı olsa da, *"at"* sözü aradan çıxır.Bədii ədəbiyyat söz yaradıcılığına aid nümunələrin cəmləndiyi ən böyük mənbədir. Tədqiqat obyektiv olan mürəkkəb sözlər də bu dildə yazan bir çox yazıçıların əsərlərində öz əksini tapmışdır. Dünya ədəbiyyatını öz əsərləri ilə zənginləşdirən yazıçılar nümunəsinə Teodor Drayzer də aiddir. Hesab edilir ki, Drayzerin əsərləri mürəkkəb sözlərin bütün növlərinə aid nümunələrin toplandığı olduqca zəngin mənbələrdir.

The old gentleman was wondering how much Cowperwood has prepared to spend. (4, 56)

Nümunəsində göstərilən mürəkkəb isim A+N modelinə uyğundur. Yəni onun birinci tərəfi sifət, digər tərəfi isə isimlə ifadə olunmuşdur. "Gentle" sifəti "mülayim, həlim, xəfif, mədəni", ikinci tərəfdəki "man" sözü isə "insan, adam, kişi, nəfər" kimi mənaları verir. Mürəkkəb sözün cümlədəki funksiyası mübtədadır.

Chicago River came into view with its mess of sputtering tugs its black coal-pockets.

Bu cümlədəki mürəkkəb söz N+N modelidir. "Coal" kömür, "pocket" isə cib mənasındadır, amma burada ümumilikdə "kömür satılan yer" kimi tərcümə olunur. Komponentlərin ayrılıqda mənası fərqli olsa da, birlikdə "mağazalara mal paylayan insan" mənasını verir.Mürəkkəb sözlərin komponentlərinin yerinin dəyişməsi nəticəsində onların mənası da dəyişir. Məsələn: *boat-life – dənizdə keçən ömür, life-boat isə xilasedici* mənasını verir.Mürəkkəb sözlərin mənası heç də həmişə komponentlərin ayrı-ayrılıqdakı məna ilə uzlaşmır. O zaman lüğətə müraciət edilir. Məsələn: *butter – milk – ayran; butter-woman – yağ satan qadın; lady-bird – parabüzən.* (4, 6)

Perhaps, as it would be for some of the rest of us, supposing we wanted to go into the street-railway business.

Bu cümlədəki mürəkkəb söz N+N modelinə əsasən yaranıb "dəmiryolu" mənasını verir. Sözü təşkil edən birinci tərəf "rail" dəmir, rels, sürahi" mənasında, ikinci tərəf isə road, yəni "yol" mənasını verən sözlərdən ibarətdir. Söz cümlədə təyin vəzifəsində çıxış etmişdir. Mürəkkəb isim yer zərfliyi funksiyasındadır. (4, 190)

These two clubs to which you and I belong are filled with two-faced, double-breasted hypocrites. Double-cüt, breast isə sinə mənasını versə də, birlikdə "qeyri-səmimi insan" deməkdir.

At the mention of great beef-packer, who was one of the bank's heaviest depositors, Addison stirred slightly with approval. (4, 13)

But now, no champagne, in fact, no liquor of any kind, for a while at least, and no food wish the exception of a cream soup, perhaps and plenty of buttermilk.

Bu nümunədə göründüyü kimi "buttermilk" mürəkkəb sözü işlənib ki, bu da N+N modeli əsasında yaranıb. Burada işlənən "butter" sözü "yağ, milk" sözü isə süd mənasını verir. Birlikdə mürəkkəb söz kimi isə bu söz "ayran" mənasını verir. Cümləsində tamamlıq funksiyasını daşıyır.

It was filled with slips of paper, some mileage books, a roll of greenbacks.

Are you a stenographer or typewriter?

Bu cümlədə mürəkkəb isim N+N modelinə əsasən yaranmışdır. Mürəkkəb söz kimi bu söz "yazı makinası" mənasını verir. Bu sözün tərkibində "type" sözü "tip, növ, nümunə, rəmz, simvol, nabor" mənalarını verir. "Writer" sözü isə "yazıçı, müəllif" mənalarını ifadə etmək üçün istifadə olunur. Mürəkkəb isim kimi tərcüməsi isə yeni mənadadır.

*The thoroughfare, in this part, was like a walled canon of brown stone and dark red brick.*Bu cümlədə thoroughfare mürəkkəb sözü işlənib ki, bu "keçid, keçid yeri" mənasını verir. Bu söz A+N modelinə əsasən yaranmışdır.

Beləliklə, mürəkkəb sözlərin bu cür təsnifatı bu birləşmələrin struktur-semantik quruluşunun ətraflı təhlili üçün prinsipial əhəmiyyət kəsb edir.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1.Arnold .İ.V. The English Word, 1986.

2.Musayev.O.İ. İngilis dilinin qrammatikası. Bakı: Qismət, 2007

3.Nəbiyeva. N.Ə. Müasir İngilis və Azərbaycan dillərində mürəkkəb isimlər, Bakı, 2005.

4.T.Drayzerin "The Titan" və "Sister Carrie" əsərlərindən mürəkkəb sifətlərin struktur-semantik xüsusiyyətlərinin kontekst daxilində təhlili. Dis...2005

5. Мешков О.Д. Словосложение в современном английском языке. Москва 1985.

I.Baylarova

Structural – semantic pecularities of some compound nouns in the English language

Summary

In the article we tried to determine the meaning of the components of compound words in whole and separately according to the context.

Besides, it is mentioned about the investigation and structure of compound words in the English language, as well as about the ways how they are formed.

It is also said that word formation as in other languages also in the English language is a process of development which provides the need of new word-formation according to the historical changes from one stage for another one.

Examples with compound nouns used in the article have been taken from the works of Th. Dreiser.

In the article it is said that compound words are written either together, or through dash and separately. Also it was mentioned that according development of science and technology, compound words are frequently used. As new ideas, new things and new events have appeared definite differences happened lexical fond of language.

The author mentions that the meaning of some compound nouns become abstract and in the result, the meaning of-their components loses its meaning. Example: tall-boy, long-head

Compound words change their meaning if their components change their place.

life-boat (boat, which rescues the life of people)

boat-life (life, spent in boat)

It is mentioned that compound words in English differ from the compound words in other languages with 2 pecularities. First, they can be used with their meaning in different forms. Second, there are more compound words consisting of two roots.

Key words: compound-word, structure, word-formation, investigation, context

И,Бейлерова

Структурно-семантические особенности некоторых сложных слов на английском языке.

Резюме

В статье мы постарались определить в зависимости от контекста значения сложных существительных, как в целом так и в отдельности.

Также, изложено структура и исследования сложных слов на Английском языке и пути их образования.

Отмечено что слово образование в Английском языке так и в других языках является процессом развития, обеспечивает нужды новых словообразовании при переходе с одной исторической структуры в другой.

Использование в статье образцы сложных существительных были взяты из произведений Теодора Драйзера.

В статье отмечено, что компоненты сложных существительных пишутся или отдельно, или вместе, или через дефис, или раздельно. Также в статье говорится, что в связи с развитием науки и технологи и, сложные существительные стали часто употребляться. С появлением новых понятий, вешей и событий в лексическом фонде языка произошли определенные изменения. Автор отмечает, что значение некоторых сложных существительных не соответствует значению их компонентов. В статье говорится, что значение некоторых сложных существительных абстрагируется и в результате значение их компонентов теряет свое конкретное значение. К примеру: tallboy, lonqhead. Сложные слова меняют свое значение в случае переставления местами их компонентов. Life- boat, boat-life. Автор отмечает, что сложные слова в английском языке делятся на 2 группы : endocentric, exocentric.

Отмечено,что сложные слова на английском языке отличаются от сложных слов других языков двумя особенностями. Во-первых, они могут употребляться своими значениями в разных формах. Во-вторых, на английском языке преобладают сложные слова, состоящие из двух корней.

Ключевые слова: сложное слово, структура, слово-образование, исследование, контекст

Redaksiyaya daxil olma tarixi: 18.03.2019
Çapa qəbul olunma tarixi: 23.04.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Vəfa Babayeva tərəfindən çapa tövsiyə olunmuşdur.

ВАФА ТАГИЗАДЕ
Азербайджанский университет языков
(г. Баку, ул.Р. Бейбутова, 60)
Email : 6500_95@mail.ru

КЛАССИФИКАЦИЯ ТИПИЧНЫХ ПРОИЗНОСИТЕЛЬНЫХ ОШИБОК В РУССКОЙ РЕЧИ СТУДЕНТОВ - АЗЕРБАЙДЖАНЦЕВ

Резюме

В статье **«Классификация типичных произносительных ошибок в русской речи студентов - азербайджанцев»** автор указывает на то, что обучение навыкам и умениям правильного русского произношения основывается на серьезной систематической работе по преодолению и предупреждению ошибок. Эти ошибки являются следствием межъязыковой интерференции. В ходе контактирования фонетических систем неродного (русского) и родного (азербайджанского) языков возникает так называемая интерферированная речь. Она охватывает все уровни усваиваемого языка и обладает большим количеством признаков, которые отличают ее от речи нормативной. Далее автор статьи, ссылаясь на труды У. Вайнрайха, приводит следующую классификацию звуковой интерференции: ***1) недодифференциация, 2) сверхдифференциация, 3) реинтерпретация, 4) субституция***.

1. Недодифференциация звуков речи - это результат того, что студенты - азербайджанцы не различают или смешивают различные звуки русского языка, которые не имеют аналогов в азербайджанском языке или не являются в нем смыслоразличительными единицами.

2. Сверхдифференциация звуков - это следствие того, что говорящий переносит фонетические различия родного, азербайджанского, языка в русский. Говорящий фонологизирует те признаки азербайджанского языка, которые в изучаемом языке или отсутствуют, или же являются позиционными.

3. Реинтерпретацией звуков называют разновидность фонетико - фонологической интерференции, которая обусловлена тем, что дифференциальные признаки фонетических единиц неродного (русского) языка реализуются в соответствии с правилами родного (азербайджанского) языка.

4. Субституция - разновидность межъязыковой звуковой интерференции, в результате которого происходит отождествление звуков русского и азербайджанского языков, сходных, но не являющихся тождественными.

Исходя из такой классификации звуковой интерференции, можно определить наиболее типичные ошибки в русском произношении учащихся –азербайджанцев. Неспособность различать твердые и мягкие, звонкие - глухие согласные в зависимости от фонетических позиций. Смешивание студентами - азербайджанцами звуков [ш] - [ш’:], [ы] - [и], [с] - [ц], [ц] - [ч’]. Нарушение законов сочетаемости согласных; выпадение одного или нескольких звуков в конце слова - апокопа; добавление в сочетание согласных гласного звука. Добавление в конце слова безударного гласного звука; перестановка звуков.

Наиболее типичными являются нарушения произносительных норм, вызванных неспособностью различать твердые и мягкие согласные.

Таким образом, как считает автор, главная причина нарушений правил русского произношения заключается в том, что студенты с азербайджанским языком обучения тяжело усваивают различия, существующие в системе гласных и согласных звуков русского языка.

Ключевые слова: орфоэпические ошибки, анализ, устная речь, правила, принципы, методы, приемы, формы.

Dilçilik ədəbiyyatında sintaktik üsulla söz yaradıcılığından bəhs edən tədqiqatçıların əksəriyyəti, əsasən, mürəkkəb sözlərin yaranması haqqında məlumat verir, bu zaman iki və daha artıq sözün birləşərək bir dil vahidi kimi formalaşmasından və bir vurğu altında tələffüz olunmasından danışırlar [2,31]. Lakin bir çox sahə terminologiyasında anlayışları ifadə edən terminlərin böyük bir qismi söz birləşmələri şəklində özünü göstərir ki, bu da onların yeni formalaşmaqda olduğunu göstərir. Sözlərin birləşərək söz birləşməsi-mürəkkəb söz istiqamətində inkişafını və bir çox söz birləşmələrinin nominativ xarakter daşıyaraq bir məna ifadə etdiyini nəzərə aldıqda sintaktik yolla yaranan sözlərin eyni zamanda söz birləşmələrinin bir çox növlərini də əhatə etdiyini söyləmək mümkündür.Sintaktik üsulla termin yaradıcılığı problemlərini araşdıran tədqiqatçıların bəziləri bu xüsusiyyəti nəzərə almadıqları üçün sintaktik üsulun məhdud sahədə özünü göstərdiyini qeyd edirlər. Azərbaycan dilində terminologiya məsələlərini ətraflı şəkildə tədqiq etmiş və bu sahədə dəyərli araşdırmalar aparmış prof.M.Qasımov yazır: «İndiyədək bu üsulla Azərbaycan dilində çoxlu miqdarda termin yaranmışdır. Lakin nisbət etibarı ilə götürdükdə termin yaradıcılığında məhdud sahəni əhatə edir» [4, 130]. Doğrudur, əgər sintaktik üsulla söz yaradıcılığı dedikdə ancaq mürəkkəb sözlər nəzərə alınsa, professorun bu fıkrinə etiraz etmək mümkün deyildir. Lakin bir çox

yeni formalaşan terminoloji sahələrdə, o cümlədən rabitə, kommunikasiya, kompüter, hərbi terminologiya sahəsində bu üsulla yaranan terminoloji vahidlərin hələ mürəkkəb söz şəklində tam formalaşmadığını və söz birləşməsi şəklində fəaliyyət göstərdiyini nəzərə alsaq, sintaktik yolla söz yaradıcılığı prosesinin söz birləşmələrinə də aid edilməsi vacibliyi meydana çıxır. Çünki, «...istər sadə termin, istər mürəkkəb strukturlu dil vahidi, istərsə də söz birləşməsindən ibarət olan hərbi termin işarəvilik baxımından eyni funksiyanı yerinə yetirir» [3, 75]. Buna görə də müasir Azərbaycan dilinin bir çox terminoloji sahələrində terminlərin söz birləşmələri şəklində formalaşmasını və bu strukturlu dil vahidlərinin, xüsusilə son dövrlərdə sabitləşməyə başlayan bir çox sahə terminologiyalarında daha çox özünü göstərdiyini nıüşahidə etmək mümkündür. Bir çox anlayışların məhz söz birləşmələri şəklində formalaşan terminlərlə ifadə olunduğunu müşahidə edən bəzi araşdırıcılar, çox doğru olaraq, sintaktik üsulla yaranan terminlərin mürəkkəb termin və termin-söz birləşmələri şəklində qruplaşdırılmasının vacibliyini önə çəkir və onlar arasındakı fərqləri və oxşar cəhətləri müəyyənləşdirməyə çalışırlar. Tədqiqatçı S. Sadıqova araşdırdığı terminoloji sahənin dil materiallarını təhlil edərək bu nəticəyə gəlir ki, «Fizika-riyaziyyat teminlərinin mühüm bir hissəsini sintaktik üsulla əmələ gələn terminlər təşkil edir. Bu isə mürəkəb proseslərin, hadisələrin ifadə forması olmasından irəli gəlir» [1, 100]. Digər tədqiqatçılar da Azərbaycan dilində xeyli miqdarda mürəkkəb strukturlu sözlərdən və söz birləşmələrindən ibarət terminlərin mövcudluğunu qeyd edirlər [3, 75]. Əlbəttə, qədim tarixə malik olan, tarixin demək olar ki, bütün dövrlərində milli dildə öyrənilən, tədris və tədqiq olunan fızika-riyaziyyat terminologiyası sahəsində sintaktik üsulla yaranan terminlər müəyyən miqdarda özünü göstərirsə, uzun müddət milli dildə, istifadə olunmayan, tədqiq və tədris edilməyən və son dövrlərdə sürətli inkişafı ilə seçilən komputer, rabitə, informasiya, hərbi və s. terminologiya sahələrində bu üsulla yaranan terminlərin daha çox olması məntiqidir. Buna rəvac verən amillərdən biri iyirminci əsrin ikinci yarısında bu bilik sahələrində aparılan tədqiqatların çoxluğu, yaradılan mürəkkəb strukturlu, mürəkkəb xarakterli texnika və alətlər həmin sahələrin çoxşaxəliliyinin dil vahidləri ilə ifadə olunması, mürəkkəb xassəli anlayışların adına uyğun çoxkomponentli terminlərin formalaşmasıdırsa, digəri son onillikdə bu sahə terminoloji sistemində kalka üsulu ilə terminyaratma üsulunun daha çox tətbiq olunmasıdır. Bunların nəticəsidir kı, nisbətən daha çox hərbi termini əhatə edən «Azərbaycanca-rusca hərbi lüğət»də əks olunan terminlər içərisində çoxkomponentli termin- söz birləşmələri çoxluq təşkil edir. Maraqlıdır ki, bu terminlərin, demək olar ki, əksəriyyəti rus dilindən kalka üsulu ilə dilimizə çevrildiyindən rus dili faktlarına uyğun olaraq Azərbaycan dilində də söz birləşmələri şəklində reallaşmış və terminlər çoxkomponentli söz birləşmələri vasitəsilə ifadə olunmuşdur.

Müasir Azərbaycan və ingilis dillərində terminlərin həm mürəkkəb söz, həm də termin-söz birləşmələri şəklində formalaşmış dil vahidləri ilə ifadə oluna bildiyini və bu dil vahidlərinin əmələ gəlməsinin dilimizin ümumi qrammatik qanunlarına əsaslandığını nəzərə alaraq sintaktik üsulla yaranan terminləri iki qrupa bölmək olar: mürəkkəb terminlər və söz birləşmələri şəklində qurulan terminlər. Bu dil vahidlərinin oxşar və fərqli cəhətləri, onların əsas xüsusiyyətlərinin araşdırılması Azərbaycan dilçiliyində ayrıca tədqiqat obyekti olduğundan bu məsələyə geniş diqqət yetirmədən təkcə onu qeyd etmək olar ki, bunların hər ikisi eyni qrammatik və məntiqi qanunlar əsasında formalaşırlar. Lakin onları komponentləri olan leksik vahidləri bir-birindən fərqlənirlər. İsmi birləşmələr şəklində formalaşan mürəkkəb söz və söz birləşmələri arasında isə semantik məzmun baxımından çox az fərqlər müşahidə olunur. Ona görə də sintaktik üsulla yaranan terminlərdən danışarkən mürəkkəb strukturlu termin sözlər, söz birləşmələri və onların termin kimi struktur-semantik xüsusiyyətlərindən bəhs etmək daha məqsədəuyğundur.

Müasir Azərbaycan və ingilis dillərinin tərcümə lüğətlərində mürəkkəb terminlər sayca termin-söz birləmələrindən azlıq təşkil edir və onların formalaşması ismi söz birləşmələrinin qurulma qanunauyğunluqlarına əsaslanır. Azərbaycan dilində tarixən mürəkkəb söz kimi formalaşmış *beşatılan, ağızotu, oxatan, odsaçan, yüzbaşı, beşbarmaq, dəstəbaşı, minbaşı, onbaşı (hərbi), gərginlik bölən, laplaştənliyi, mikroskop* (riyaziyyat)*, üslubi sinonim, milli dil* (diliçilik) və s. kimi mürəkkəb terminlərlə yanaşı, son dövrlərdə eyni qrammatik qanunlar əsasında yaranmış *aviabomba, minaaxtaran, radioəlaqə, radioaktiv, tankvuran, özüyeriyən, raketdaşıyan, minaatan, kiçikçaplı* və s. onlarla hərbi anlayış bildirən mürəkkəb sözlər işlənməkdədir. Azərbaycan dili ilə

müqayisə etdiyimiz ingilis dilində də bu xüsusiyyət aydın şəkildə özünü göstərir və bu dildə də mürəkkəb terminlərin yaranması ümumən mürəkkəb leksik vahidlərin yaranma qanunauyğunluqlarına əsaslanır. İngilis dilində işlədilən *atomization- kimyəvi silah tətbiqi, deconsentratkın-hədəfə atma, decontaminant- deqozasiya vasitəsi, decontaminate- deqozasiya etmək, demibrigade- yanmbriqada, frontiersman-sərhədçi, frontier post-sərhəd məntəqəsi, fuel tanker-yanacaq tankeri, fuel colonel-polkovnik, fuel rank-zabit, photograph-aerofoto, fotoşəkil* və s. kimi mürəkkəb terminlər bu qəbildəndir. Lakin həm Azərbaycan, həm də ingilis dilində kəmiyyətcə müqayisədə termin -söz birləşmələri mürəkkəb terminlərdən çoxdur və onların yaranma yolları və üsulları öz müxtəlifliyi ilə seçilməklə yanaşı, bu dillərdə termin-söz birləşmələrinin getdikcə çoxaldığını, bu tipli dil vahidləri hesabına terminoloji leksikanın daha da zənginləşdiyini müşahidə etmək mümkündür.

Onu da qeyd etmək lazımdır ki, həm Azərbaycan, həm də ingilis dilində lüğət tərkibinin terminoloji qatında işlənən leksik vahidləri kəmiyyətcə müqayisə etdikdə aydın olur ki, termin-söz birləşmələri mürəkkəb terminlərə nisbətən çoxluq təşkil edir. Söz birləşmələri şəklində qurulan terminlərin yaranma yolları və üsulları öz müxtəlifliyi ilə seçilməklə yanaşı, son dövrlərdə bu cür terminoloji vahidlərin daha da çoxaldığını, bu tipli vahidlər hesabına dilin terminoloji leksikasının daha da zənginləşdiyini müşahidə etmək mümkündür. Bu xüsusiyyət Azərbaycan dilində daha çox özünü göstərir. Çünki respublikamızda son dövrlərdə müstəqil, milli ordu quruculuğuna başlanması və dilimizin bu sahə terminoloji sistemi daha sürətlə inkişaf etməsi ilə əlaqədar olaraq dilimizdə yeni-yeni mürəkkəb quruluşlu hərbi terminlərin yaranması daha sürətlə artır.

Məlumdur ki, terminlərin çoxkomponentli dil vahidləri ilə ifadə olunması və buna uyğun olaraq mürəkkəb quruluşlu termin-söz birləşmələrinin yaranması terminlərə verilən əsas tələblər baxımından (terminlər sadə, azsözlü olmalıdır ki, onların işləkliyi asan olmaqla daha tez yadda qalsın) o qədər də məqsədəuyğun deyildir. Lakin cəmiyyətin inkişafı onun elm və texnikası da müxtəlif sahələrinin inkişafına şərait yaradır. Bu baxımdan ayrı-ayrı elmlərin inkişafı, müxtəlif sahələrə aid məfhum və anlayışların daha mürəkkəb funksiya daşıması, bu və ya digər anlayış və məfhumların sadə sözlə adlandırılmasının mümkünsüzlüyü dildə termin-söz birləşmələrinin kəmiyyətcə daha çox, struktur baxımdan rəngarəng növlərinin yaranmasını şərtləndirir. Çünki cəmiyyət inkişaf etdikcə daha mürəkkəb, çoxfunksiyalı və çoxsahəli xarakterə malik əşya, avadanlıq və anlayışlar meydana çıxır. Bunların dil vahidləri ilə adlandırılması da, məntiqi olaraq, çoxkomponentli termin-söz birləşmələri vasitəsilə mümkün olur. Bu cür çoxkomponentli terminlər isə dildə daha çox söz birləşmələri şəklində formalaşır.

Ədəbiyyat

1. Sadıqova S. Azərbaycan dilində fizika-riyaziyyat terminologiyasının formalaşması və inkişafı.Bakı: 1997.
2. Seyidov Y. Azərbaycan ədəbi dilində söz birləşmələri.Bakı: 1966.
3. Məmmədli Y. Azərbaycan dilinin hərbi leksikası.Bakı: 1997.
4. Qasımov M. Azərbaycan dili terminologiyasının əsasları. Bakı:1973.
5. Бондалетов В.Д. Социальная лингвистика. Москва: 1987.

S.Agayeva

the term word combinations in English and Azerbaijan languages and their specific characters

Summary

The article is devoted to the main features of the term word combinations, which be created with a syntactical way in the Azerbaijani and English languages, which are multilingual languages. It also speaks of ways in which they are formed. It is known that the term word combinations arising from the combination of two or more independent meaning words in lexical and grammatically leads to a violation of one of the term requirements. That is, it leads to a violation of the requirement that they be short and be with few words. Nevertheless, it would not have been

possible to call this or that concept without term-word combinations to call complex and multifunctional concepts related to modern rapid development of society. Because, as society develops, new fields are created in connection with science and technology. Therefore, the notion of these areas can not be called a simple word. Therefore, new terms and phrases have been created in the comparative Azerbaijani and English languages, as well as in most field terminology lexicon of other languages. Including, a large number of terminology-word combinations have been created in the military, information, communication, economic and political terminology lexicon. Such language units differ according to the number of components and their morphological affiliation. At the same time, they also differ according to regularities of their merging. The article also discusses which of the more complex terms with the term-word combination is the dominant one. Terminology combination prevails both in English and in Azerbaijani. At the expense of these compounds, the terminology lexicon of the language is even more enriched. It is dominated by Azerbaijani in comparison with English. For this reason, the term-word combinations have significantly increased in quantitative terms in both languages in recent times.

Ключевие слова: *словосочетание, составное слово, синтаксический метод, срок, терминологический блок.*

А.Салатын

Словосочетания в английском и азербайджанском языках и их специфические символы

Резюме

Статья посвящена основным особенностям терминов-словосочетаний, образованных синтаксическим методом, в азербайджанском и английском языках, которые являются разностилевыми. Также говорится о способах их формирования. Известно, что термины-словосочетания, образованные из лексического и грамматического сочетания двух или более слов с независимым значением, приводит к нарушению одного из требований к термину, то есть к нарушению их краткости и малословности. Но несмотря на это, в связи с современным быстрым развитием общества невозможно было бы назвать сложные и многофункциальные понятия без терминов-словосочетаний. Потому что по мере развития общества создаются новые области, связанные с наукой и техникой. Поэтому невозможно назвать концепции данных сфер простыми словами. По этой причине и в азербайджанском, и в английком языках, сравниваемых между собой, и в терминологической лексике других языков были образованы новые термины-словосочетания. А также образовано много терминов-словосочетаний в военной, информационной, связанной, экономно-политической терминологической лексике. Подобные языковые единицы отличаются количеством компонентов и их морфологической принадлежностью. Помимо этого они также отличаются закономерностью сочетания. В статье также ставиться вопрос: какой из них преобладает – термины-словосочетания или сложные термины? И в английском, и в азербайджанском языках имеются много терминов-словосочетаний. Благодаря терминам-словосочетаниям, обогащается терминологическая лексика языка. По сравнению с английским языком их больше в азербайджанском языке. По этой причине, в последнее время в обоих языках увеличилось количество сравниваемых терминов-словосочетаний.

Keywords: *word combination,compound word, syntactic method, term, terminology unit.*

Redaksiyaya daxil olma tarixi: 01.04.2019
Çapa qəbul olunma tarixi: 17.04.2019
Filologiya elmləri doktoru, professor İkram Qasımov tərəfindən çapa tövsiyə olunmuşdur.

TURANƏ QURBANOVA
Azərbaycan Dillər Universiteti
Rəşid Behbudov 134
qurbanova-t@list.ru

MƏTNİN FORMALAŞMASINDA RETROSPEKSİYA VƏ PROSPEKSİYANIN ƏHƏMİYYƏTİ

Xülasə

Bu məqalədə mətnin formalaşmasında onun komponentləri arasında olan əlaqə vasitələrindən bəhs olunur. Mətndə retrospeksiya və prospeksiyadan danışarkən zaman və məkan anlayışlarından və onların mətndə realizasiyasından danışmaq vacibdir. Məhz bu kateqoriyaların, xüsusən də retrospeksiyanın köməyilə oxucu mətndə zaman əlaqəsi məsələsini anlayır. Mətndə retrospeksiya implisit yolla verilir. Bu oxucunun beynində olan əvvəlki məlumatı yeni məlumatla əlaqələndirir və keçmiş haqqında danışmağa imkan verir.

Prospeksiya isə fərqli anlayışdır. Prospeksiya retrospeksiyadan fərqli olaraq eksplisit yolla verilir. Bu kateqoriyada əsas diqqət keçmişdə baş vermişlərə deyil mətnin sonrakı hissələrində baş verəcəklərə yönəldilir.

Hər bir mətn müəyyən dərəcədə retrospeksiyanın xüsusiyyətlərini daşıyır. Məlum məsələdir ki, yeni informasiyanın qəbulu köhnəni yadda saxlamadan qeyri mümkündür. Retrospeksiya bir neçə üsulla ifadə oluna bilər. Lakin bunlardan ən əsası təkrardır. Özlüyündə retrospeksiya da fikirlərin təkrarıdır.

Mətnlərdə prospeksiyanın göstəricisi kimi bir çox ifadələr verilə bilər. Məsələn, əvvələ qayıdaraq, yuxarıda qeyd olunduğu kimi və s.Bu əlaqə vasitələrinin köməyilə oxucu müxtəlif fakt və hadisələr arasında uyğunluq taparaq onları daha yaxşı anlaya və hadisələrin inkişaf ardıcıllığını duya bilir.

Mətn dilçiliyinin başqa kateqoriyaları kimi bu kateqoriyalar da koheziya, informativlik və s.ilə sıx əlaqəlidir.

Açar sözlər: mətn, məntiqi-semantik əlaqə, zəncirvari əlaqə, retrospeksiya, prospeksiya, əlavə-qabaqlayıcı informasiya

Mürəkkəb sintaktik bütöv çərçivəsində müxtəlif əlaqə vasitələri mətn yaratmaq potensialına malikdir. Qeyd etmək lazımdır ki, bu əlaqə vasitələri bir-biri ilə çox sıx, qarşılıqlı münasibətdədirlər, onlar bir-birini tələb edir, birgə iştirak edə bilir və nəhayət, bütöv mətnin komponentləri arasında qarşılıqlı semantik əlaqələrin mürəkkəb sistemini təşkil edirlər. Semantik münasibətlər və onların eksplisit formal göstəriciləri mətnin komponentləri arasında əlaqənin anlaşılması baxımından zəruridirlər.Mətndəki formal əlaqələndiricilərin qrammatik funksiyasının dəyişməz qalmasına baxmayaraq ötürülən fikirlər mətnin məzmununa və müəllifin kommunikativ məqsədlərinə müvafiq olaraq dəyişkən olur. A.Məmmədov da qeyd edir ki, mətndəki semantik münasibətlər formal vasitələrin yaranmasını şərtləndirir [2, 73].

Mətnin komponentləri arasında qarşılıqlı əlaqələr birmənalı olaraq seçilmir, çünki bunlar real həyatda mövcud olan və baş verən müxtəlif hadisə və halların dil quruluşunda inikasıdır.Mətn komponentləri arasında qarşılıqlı əlaqə mürəkkəb obyekti onun tərkibinə daxil olan hissələrin sadə çoxluğu kimi nəzərdən keçirməməyə imkan verir. Məhz, bu münasibətlərə görə mətn yalnız struktur tərkib hissənin deyil, həmçinin mürəkkəb, müxtəlif tipli məzmun – məna tutumunun yardımı ilə formalaşır.Mətnin linqvistik vahid kimi təhlili mətnlərin qrammatik –semantik siniflərinin yaradılmasını nəzərdə tutur. Məsələn, bir mürəkkəb sintaktik bütövün komponentləri arasında zaman ardıcıllığı, səbəb-nəticə münasibətləri daşıyan bağlayıcılar mütləq yeni-köhnə informasiya qarşıdurması, anaforik – kataforik əlaqəyə, yəni müxtəlif tipli təkrarlığa işarə edən deyktik elementlərlə birgə işlənir. Mətnin sonrakı komponentinə əvvəlki komponentdəki informasiyanın bir

hissəsini daxil etməklə formal kateqoriyalar yalnız artıq qəbul edilmiş informasiyanı xatırlatmır, həmçinin alınmaqda olan informasiyanı ona müəyyən münasibətdə qoyur və bununla da hər ikisinin ümumiliyi əldə olunur. Göründüyü kimi formal kateqoriyaların bir mətn komponentindən digərinə məntiqi keçidi onların məzmunlarının paralelizmini aşkarlayaraq təmin etməyə qadirdirlər.

İnformasiya öz gücünü ayrıca götürülmüş cümlədə deyil, məhz mətndə tapır. Prof. K.Abdullayev "Azərbaycan dili sintaksisinin nəzəri problemləri" əsərində haqlı olaraq qeyd edir ki, "Beləliklə, informasiya nəzəriyyəsinin məlum müddəasını tətbiq edərkən ayrıca götürülmüş cümlənin informativ, təbii ki, semantik naqisliyi sübut olunur və məhz bundan sonra "anlaşma prosesi üçün vacib olan informasiya bəs haradadır?" sualı ilə axtarışlara çıxsaq, ilkin olaraq mətnlə, yəni kommunikasiya aktında işləm məqamına malik olan və formal-semantik planda müəyyən eynicinslilik əsasında birləşən cümlələr birliyi ilə qarşılaşmalı oluruq" [1, 182].

Retrospeksiya və prospeksiya da mətnin kateqoriyaları hesab olunur. Mətndə retrospeksiya və prospeksiyadan danışarkən zaman və məkan anlayışlarından və onların mətndə realizasiyasından danışmaq vacibdir. Bu kateqoriyalar diskontinuumun bir forması hesab edilir. Məhz bu kateqoriyaların, xüsusən də retrospeksiyanın köməyilə oxucu mətndə "zaman əlaqəsi" məsələsini anlayır.

Qeyd etmək lazımdır ki, mətnlərin çoxunda retrospeksiya implisit yolla verilir. Bu oxucunun beynində olan əvvəlki məlumatı yeni məlumatla əlaqələndirir və keçmiş haqqında danışmağa imkan verir.Prospeksiya isə retrospeksiyadan fərqli anlayışdır. Yuxarıda qeyd olunduğu kimi retrospeksiya implisit yolla ifadə olunur. Prospeksiya isə onun əksinə olaraq eksplisit yolla verilir. Bu kateqoriyada əsas diqqət keçmişdə baş vermişlərə deyil, mətnin sonrakı hissələrində baş verəcəklərə yönəldilir. Lakin bu iki kateqoriya arasında fərqi daha aydın görmək üçün onları ayrı-ayrı nəzərdən keçirmək daha münasib olar.

Retrospeksiya mətnin qrammatik kateqoriyası olub, oxucuya faktiki informasiyanı qavramağa şərait yaradır. İ.Qalperin qeyd edir ki, retrospeksiya 2 cür ifadə oluna bilər:

1. Artıq keçmiş informasiya mətndə verilib.

2. Keçmiş informasiya mətndə verilməyib, lakin bu informasiya hadisələrin baş verməsi, ardıcıllığı üçün zəruridir. [7, 100]. Müəllif oxucunu əvvəl verilmiş faktlara qaytararaq, oxucunu bu faktlara önəm verməyə və yadda saxlamağa çağırır. Belə olan halda da retrospeksiya koheziya rolunda çıxış edir.Retrospeksiya mətndə hansı praqmatik mənanın verilməsindən asılı olaraq 3 cür ifadə oluna bilər:

1. oxucunun yaddaşında daha əvvəl verilmiş məlumatı bərpa etmək və yaxud ona keçmişlə əlaqəsi olan və gələcək hadisələri başa düşmək üçün vacib olan yeni informasiyanı ötürmək.

2. retrospeksiyaya qədər olan məlumatı yeni kontekstdə işlədə bilmək.

3. mətnin ayrı-ayrı hissələrini aktuallaşdırmaq. [7, 106]

Retrospeksiya xüsusilə mətnin yenidən yaxud da bir neçə dəfə oxunması zamanı daha asan qavranılır.Qeyd etmək lazımdır ki, demək olar ki, hər bir mətn müəyyən dərəcədə retrospeksiyanın xüsusiyyətlərini daşıyır. Məlum məsələdir ki, yeni informasiyanın qəbulu köhnəni yadda saxlamadan qeyri-mümkündür. Bədii əsərlərdə də müəllifin əsas rolu ondan ibarətdir ki, o, aktuallaşması vacib olan fakt və hadisələri oxucuya çatdırmalı və onu bu informasiyaları yadda saxlamağa sövq etməlidir.Retrospeksiya bir neçə üsulla mətndə ifadə oluna bilər. Lakin bunlardan ən əsası təkrardır. Özlüyündə retrospeksiyaya də təkrar kimi yanaşmaq mümkündür. Bu fikirlərin təkrarıdır.

Mətn dilçiliyinin başqa kateqoriyaları kimi retrospeksiya da digər mətn kateqoriyaları olan koheziya, informativlik, kontinuum və s. ilə əlaqəlidir. Retrospeksiyanın mətndə verilməsi bir növ oxucunu sonra baş verəcək hadisələrə hazırlayır.Qeyd olunduğu kimi, mətn kateqoriyaları bir-birilə əlaqəlidir. Aydındır ki, bir mətndə müxtəlif kateqoriyaları müşahidə etmək mümkündür.Retrospeksiya da kontinuum kateqoriyası ilə sıx əlaqəlidir.Retrospeksiyaya təkcə bədii mətnlərdə deyil, o cümlədən qəzet mətnlərində də tez-tez rast gəlmək mümkündür. Xüsusən də, publisistik məqalələrdə hər hansı hadisənin inkişafını verərkən, onu əvvəldən xatırladırlar ki, oxucu köhnə məlumatla yeninin əlaqəsini görə bilsin və yeni informasiyanı asanlıqla anlasın.

Bu məqsədlə bir qəzet mətnini nümunə kimi göstərmək olar:

Over the past 540 million years, life on Earth has passed through five great mass extinctions. In each of those catastrophes, an estimated 75 percent or more of all species disappeared in a few million years or less.

For decades, scientists have warned that humans may be ushering in a sixth mass extinction, and recently a group of scientists at the University of California, Berkeley, tested the hypothesis. They applied new statistical methods to a new generation of fossil databases. As they reported last month in the journal Nature, the current rate of extinctions is far above normal. If endangered species continue to disappear, we will indeed experience a sixth extinction, over just the next few centuries or millennia. [New York Times, April 3, 2011].

Verilən nümunədə də yeni informasiya, yəni yer kürəsində heyvan növlərinin bir çoxunun məhv olmaq üzrə olması və əgər belə gedərsə yer kürəsində altıncı böyük nəsil kəsilmə prosesinin baş verəcəyi bildirilir. Lakin bu yeni informasiya verilməmişdən əvvəl qeyd olunur ki, yer kürəsində keçən 540 milyon il ərzində 5 dəfə kütləvi şəkildə heyvanların nəsil kəsilmə prosesləri olmuşdur və bu proses bir neçə milyon il yaxud da daha az davam etmişdir.

Göründüyü kimi köhnə informasiyanın xatırladılmasında retrospeksiya köməyə çatır və bu kateqoriyanın vasitəsilə mətndə olan yeni informasiya köhnə ilə əlaqələnir.

İndi isə prospeksiya kateqoriyasına nəzər salaq. Bu kateqoriyanın köməyilə oxucu mətnin sonrakı hissələrində nədən söhbət gedəcəyini anlayır və bu xüsusiyyəti ilə də prospeksiya retrospeksiyadan fərqlənir.Mətnlərdə prospeksiyanın "göstəricisi" kimi bir çox ifadələr verilə bilər. Məsələn, *əvvələ qayıdaraq; yuxarıda qeyd olunduğu kimi; o biləndə necə də təəccüblənəcək; sonrakı hadisələr göstərəcək ki* və s. [7, 77]

Belə bir nümunəni nəzərdən keçirək:

If there is one last art in the past decade or two, it's cooking real food. By "cooking", we don't mean warming up packaged food from the grocery store.

We are talking about preparing meals from fresh ingredients. That's how our parents and grandparents did it.

As it is mentioned above, making meal – whether it's just for yourself or a whole family, it's the one of the little rituals which forces us to slow down and be mindful of what we eat. It's also healthier, and an enormous money saver. [6,51]

Bu nümunədə prospeksiyanın göstəricisi kimi *as it is mentioned above* (yuxarıda qeyd olunduğu kimi) ifadəsi verilmişdir. Burada bu ifadənin işlənməsi ilə oxucu mətnin sonrakı hissələrində də sağlam qidalanmadan söhbət gedəcəyini anlayır. Beləliklə də, prospeksiya mətnin anlanılmasında mühüm rol oynayır.Retrospeksiyada olduğu kimi prospeksiyada da oxucu müxtəlif fakt və hadisələr arasında uyğunluq taparaq, onları daha yaxşı anlaya və hadisələrin inkişaf ardıcıllığını duya bilir.Prospeksiya bir kateqoriya kimi təkcə bədii mətnlərə aid deyil. Bu kateqoriyaya elmi mətnlərdə də tez-tez rast gəlinir. Bu məqsədlə belə bir nümunəyə nəzər salaq:

A research paper is, first and foremost, a form of written communication. Like other forms of nonfiction writing-letters, memos, reports, essays, books – it should present information and ideas clearly and effectively. But when students are asked to write research papers, they often become so preoccupied with gathering material, taking notes that they forget to apply the knowledge and skills they have acquired through previous writing experiences.

As it is mentioned, this discussion, therefore, begins with a brief review of the steps often outlined for expository writing. Although few writers follow such formal steps, keeping them in mind can suggest ways to proceed as you write. [5, 22]

Nümunədən də göründüyü kimi, burada prospeksiya kateqoriyası işlənmiş və bu kateqoriya bir sıra formal göstəricilərlə vurğulanmışdır. Mətndə ilk öncə tədqiqat işinin yazılı kommunikasiyanın bir forması olduğu qeyd olunur. İkinci cümlədə isə digər elmi yazılar qeyd olunur və burada qeyd olunan yazı növləri müqayisə olunaraq digər bir elmi yazı – tədqiqat işi barədə danışmağa imkan verir. Növbəti cümlələrin birində isə *as it is mentioned* ifadəsi ilə sonra deyiləcəklərə bir növ hazırlıq aparılır. Yalnız bundan sonra tədqiqat işinin yazılması zamanı və gözlənilməli olan ardıcıl addımlar haqqında məlumat verilir. Göründüyü kimi, prospeksiyada əsas diqqət keçmişdə baş verənlərə deyil, mətnin sonrakı hissələrində baş verəcəklərə yönəldilir.

Ədəbiyyat

1. Abdullayev K.M. Azərbaycan dili sintaksisinin nəzəri problemləri. Bakı: Maarif, 1998, 284 s.
2. Məmmədov A.Y. Mətn yaranmasında formal əlaqə vasitələri sistemi. Bakı: Elm, 2001, 144 s.
3. Məmmədov A., Məmmədov M. Diskurs təhlilinin koqnitiv perspektivləri. Bakı: Çaşıoğlu, 2010, 96 s.
4. Hoey M. Textual Interaction. An Introduction to Written Discourse Analysis. Routledge, 2001, 203 p.
5. Lambrecht K. Information structure and sentence form: topic, focus and the mental representations of discourse referents. Cambridge University Press, 1994, 388 p.
6. Salkie R. Text and discourse analysis. Reutledge, 1995, 115 p.
7. Гальперин И.Р. Текст как объект лингвистического исследования. Москва: Наука, 1981, 138 с.
8. Гальперин И.Р. Информативность единиц языка. Москва, 1974, 175 с.
9. Папина А.Ф. Текст: его единицы и глобальные категории. Едиториал УРСС, 2002, 367 с.
10. Тураева З.Я. Категория времени. Время грамматическое и время художественные. Москва, 1979, 219 с.

İnternet saytları:

11. www.beaugrande.com/introduction_to_text_linguistics.htm
12. www.discourse-analysis.com
13. www.thesundaytimes.co.uk
14. www.time.com

Т.Курбанова

Важность ретроспекции и проспекции в формировании текста

Резюме

Данная статья освещает способы связи между компонентами в формировании текста. В статье необходимо затронуть понятия времени и места когда мы говорим о ретроспекции и проспекции в дискурсе и их реализации в тексте.

Именно с помощью этих категорий, в особенности, посредстом ретроспекции, читающий понимают проблему временной связи.В тексте ретроспекция передается имплицитно.Это позволяет читающему соединить предыдущую информацию с новой и говорить о прошлом.

Проспекция совсем другое понятие.Проспекция в отличие от ретроспекции выражается эксплицитно.В этой категории основное внимание уделяется не тому что произошло в прошлом, а тому, что произойдет потом.

В языкознании текста эти категории тесно связаны с другими категориями текста, такими как кохезия, информативность и другие.

Каждый текст в какой-то степени носит в себе черты ретроспекции.Известно, что принятие новой информации без сохранения в памяти прошлой информации невозможно.

Ретроспекция может быть выражена несколькими способами.Но из них самый важный способ-повтор.Сама по себе ретроспекция ето - повтор мыслей.В тексте показателем ретроспекции может быть много выражений.Например: возвращаясь к началу, как указывается выше и другие.С помощью этих способов связи читающий найдя сходств между различными фактами и событиями, может их лучше понять и осознать последовательность развития событий.

Ключевые слова: логико-семантическая связь, ценная связь, ретроспекция, проспекция, дополнительно-опережающая информация

T.Gurbanova

The importance of retrospection and prospection in text forming

Summary

This article deals with the importance of relations between the components of the text while text forming process.While speaking about retrospection and prospection in text analyses,it is important to mention time and place notions and their realisations in text.

By the help of these categories, specially with retrospection, the reader understands “the notion of time relation”.Retrospection is given in implicit way in text.It connects the earlier information with the new one and gives way to speak about past.

Prospection is a different notion.Prospection is given in explicit way in text.In this category the main attention isn’t given to the prior one,but the later one.

Each text is somehow has the features of retrospection.It is obvious that accepting new information is impossible without memorizing the old one.Retrospection can be given in different ways.However,the main one is repetition.Actually, retrospection is the repetition of ideas.

In discourse,as the main elements of prospection some expressions may be given. For example:turning to the back,as given above etc.

By the help of these categories the reader can find the relations between different facts and notions and can understand them better and can feel the sequence of notions in text.

As other categories of text linguistics these categories are related with cohesion,information and so on.

Keywords: text, logical-semanticrelations, chain connection, retrospection, prospection, extra-advance information

Redaksiyaya daxil olma tarixi: 05.04.2019
Çapa qəbul olunma tarixi: 04.05.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Xatirə Süleymanova tərəfindən çapa tövsiyə olunmuşdur

NARGİLƏ ABDULLAYEVA
Bakı Avrasiya Universiteti
Həsən Əliyev 135 A
nargile.abd@gmail.com.

MÜSTƏQİLLİK İLLƏRİNDƏ AZƏRBAYCAN LÜĞƏTŞÜNASLIĞININ BƏZİ NAİLİYYƏTLƏRİ HAQQINDA QEYDLƏR

Xülasə

Lexikoqrafiya Azərbaycan dilçilərinin orta əsrlərdəki dövrlərdən ciddi şəkildə məşğul olduğu və əhəmiyyətli uğurlara imza atdığı elm sahələrindən biridir. 1991-ci ildən sonra Azərbaycan öz müstəqilliyini əldə etdikdən sonra respublikada humanitar sahələrin inkişafı üçün əlverişli şərait yaradılıb, o cümlədən leksikoqrafiya. Sovet dönəmindən fərqli olaraq, ölkəmizin mədəniyyət və iqtisadiyyat sahəsində dünyanın qabaqcıl dövlətləri ilə hərtərəfli birbaşa əməkdaşlığı, dünya elminin və texnoloji nailiyyətlərinin milli həyatın sürətlə tətbiqi həm inanılmaz, həm də müsbət təsir göstərdi elm və leksikoqrafiyanın digər sahələri. Bu, 28 ildir ki, leksikoqrafiyada keyfiyyət dəyişiklikləri ilə təsdiqlənir.

Məqalənin müəllifinə əsasən, Azərbaycan dilinin əsas nailiyyətləri aşağıdakılardır:

1) dünya leksikoqrafiyasının qabaqcıl təcrübəsinin mənimsənilməsi nəticəsində lüğətlər məzmunda yenilənir;

2) lüğətlər ictimai və siyasi həyatın ən geniş spektrini əhatə edir;

3) onlayn (elektron) lüğətlər yaradılıb.

Məsələn, müəllif yalnız 5 ədəd kağız lüğətini təhlil edir:

a) Qulu Məhərrəmli, Rafiq İsmayılov. Azərbaycan dilinin frazeoloji lüğəti. (Bakı: Altun kitab, 2015).

b) Bəşir Əhmədov. Etimologiya lüğəti. (Bakı: Altun kitab, 2015).

C) Gulu Məhərrəmli, Elçin Şıxlı. Jurnalistlik terminlərinin lüğəti. (Bakı: Altun kitab, 2016).

d) Vasim Məmmədəliyev. Sufi konsepsiyaları və dərviş simvolları. (Bakı: Tural-Ə NPM, 2001).

e) İsmayıl Cəlal. İnformatika şərtlərinin izahlı lüğəti. (Bakı: "İnformasiya texnologiyaları" və "Bakı" nəşriyyatı, 2017).

Açar sözlər: onlayn lüğətlər, kagiz lüğətlər, elektron lüğətlər, lüğətlərin üstünlük və çatışmazlıqları.

Lüğətşünaslıq (leksikoqrafiya) Azərbaycan dilçilərinin orta əsrlərdən üzübəri ciddi məşğul olduğu və kifayət qədər nailiyyət qazandığı bir sahədir. 1991-ci ildə Azərbaycan öz müstəqilliyini şəhidlərimizin qanı ilə qazandıqdan sonra bu sahənin hərtərəfli inkişafı üçün daha münasib şərait yaranıb. Belə ki, sovet dövründən fərqli olaraq, ölkəmizin qabaqcıl dünya dövlətləri ilə birbaşa mədəni-iqtisadi əməkdaşlıq etməsi, müasir elm və texnika nailliyyətlərinin xalqımızın həyatına sürətlə daxil olması başqa elm sahələrinə, o sıradan humanitar elmlərə də müsbət təsirini göstərib. Bu fikrin doğruluğunu son 28 ildə lüğətşünaslığımızda baş vermiş keyfiyyət dəyişiklikləri də sübut edir.

Fikrimizcə, müstəqillik illərində Azərbaycan lüğətşünaslığında (leksikoqrafiyasında) müşahidə edilən başlıca nailiyyətləri aşağıdakılardan ibarətdir:

1) dünya leksikoqrafiyasının çağdaş təcrübəsinin mənimsənilməsi nəticəsində lüğətlərin məzmunca yeniləşməsi;

2) lüğətlərin ictimai-siyasi həyatın ən geniş dairəsini əhatə etməsi;

3) onlayn (elektron) lüğətlərin yaranması.

Əlbəttə, kiçik bir məqalədə bütün bu amillərdən bəhs etmək imkansızdır, ona görə də biz onlayn lüğətlərlə bağlı fikirləri başqa bir yazıya saxlayaraq burada yalnız bir neçə kağız lüğətlə alaqədar öz mülahizələrimizi bildirəcəyik.

Son illərdə Azərbaycanda çox dəyərli lüğətlərin nəşr edilməsi lüğətşünaslığımızın danılmaz nailiyyətidir. Bu məqalədə onların içərisindən yalnız son illərdə (2015-2017-ci illər) işıq üzü görmüş bir neçəsindən nümunə kimi bəhs edəcəyik. Onlar bu əsərlərdir:

a) Qulu Məhərrəmli, Rafiq İsmayılov. Azərbaycan dilinin frazeologiya lüğəti. Bakı: Altun kitab, 2015.

b) Bəşir Əhmədov. Etimologiya lüğəti. Bakı: Altun kitab, 2015.

c) Qulu Məhərrəmli, Elçin Şıxlı. Jurnalistika terminləri lüğəti. Bakı: Altun kitab, 2016.

d) Vasim Məmmədəliyev. Təsəvvüf anlamları və dərvişlik rəmzləri. Bakı: Tural-Ə NPM, 2001.

e) İsmayıl Calallı. İnformatika terminlərinin izahlı lüğəti. Bakı:. "İnformasiya texnologiyaları" və "Bakı" nəşriyyatları, 2017.

Əlbəttə, bu, bizim subyektiv seçimimizdir. Ancaq, bizcə, bu 5 əsərin özü lüğətlərimizin məzmunundakı keyfiyyət dəyişikliyi haqqında əyani təsəvvür yaratmaq gücündədir.

Frazeoloji birləşmələrin istər məzmun, istərsə də forma baxımdan zənginliyi, onların dildə geniş şəkildə işlədilməsi frazeologiya lüğətlərinin tərtibini zəruri edir. Qulu Məhərrəmli və Rafiq İsmayılovun tərtib etdiyi ***"Azərbaycan dilinin frazeologiya lüğəti"*** də [3] məhz həmin zərurətdən irəli gəlib. AMEA Nəsimi adına Dilçilik İnstitutu Elmi Şurasının 27 may 2015-ci il tarixli iclasında müzakirə edilərək bəyənilmiş (protokol № 5) bu lüğətin tərtibindən əsas məqsəd dilimizin frazeoloji zənginliyini bir daha göstərmək və frazeoloji vahidlərimizi mümkün qədər çox qeydə almaq, eyni zamanda onların məna çalarlarını daha dərindən incələməkdir. 7 minə yaxın frazeoloji vahidi toplayaraq ilk dəfə lüğət şəklində oxuculara təqdim etmiş müəlliflər Azərbaycan dilçiliyində ilk dəfə olaraq frazeologizmlərlə atalar sözlərini elmi şəkildə fərqləndiriblər. Lüğətdə mətbuat, televiziya və radio verilişlərində, həmçinin şifahi və yazılı ədəbiyyatda tez-tez rast gəlinən ifadələrin ümumişləkliyi əsas prinsip kimi götürülüb.

Lüğətdə frazeoloji vahidlər əlifba sırası ilə verilib. Frazeoloji vahidin eyni və ya yaxınmənalı sinonimi izahdan sonra (~) işarəsi qoyulmaqla *kursivlə* göstərilir; məsələn:

Divan tutmaq – çox əziyyət vermək, çox incitmək, cəzalandırmaq; ~ *dərisinə saman təpmək, dərisini soymaq, gönünü soymaq, anasını ağlar qoymaq.*

Frazeoloji vahidin izahında bəzən başqa bir frazeoloji birləşmədən istifadə olunur. İstifadə olunan frazemin qrammatik forması lüğətdə verilmiş baş sözlə eyni deyilsə, həmin birləşmə izahda sinonim kimi (kursivlə) verilmir.

Çoxmənalı, yaxud omonim frazeoloji birləşmələr rəqəmlərlə sıralanıb. Bəzi ifadələr məsdər şəkilçisi ilə işlənən frazeoloji vahidlərdən fərqli olaraq dilimizdə müəyyən qrammatik formada (daha çox feilin əmr və ya xəbər şəklində) daşlaşmışdır. Bu lüğətdə həmin frazeoloji vahidlər sabitləşmiş qrammatik formasında saxlanılıb. Frazeoloji vahidin tərkibindəki sözün başqa bir leksik variantı varsa, həmin söz mötərizə içərisində verilib. Burada məqsəd lüğət istifadəçisinin söz axtarışındakı imkanlarını məhdudlaşdırmaqdır. Frazeoloji vahid daha çox danışıq dilində işlənirsə, izahdan əvvəl *dan.* (danışıqda) ixtisarından istifadə olunub. Tərkibindəki sözlərdən birinin iştirakı olmadan da işlənə bilən frazeoloji birləşmələrdə də daha işlək varianta istinad olunub. Frazeoloji vahidin tərkibindəki sözün müxtəlif qrammatik variantları (şəkilləri) varsa, ən geniş yayılmış variant əsas götürülüb. Bu daha çox birləşmə daxilində ismin hal, cəm, mənsubiyyət və ya feilin inkar şəkilçisi ilə işlənə bilən sözlərə aiddir. Az sayda elə frazeoloji birləşmələr vardır ki, onların tərkibində müəyyən leksik kateqoriyaya aid müxtəlif sözlər işlənə bilir. Belə olduqda həmin sözlərin yerinə üç nöqtə (...) qoyulub.

Lüğətdə 22 qaynaqdan istifadə edilib.

Ümumiyyətlə, Qulu Məhərrəmli və Rafiq İsmayılovun bu lüğəti Azərbaycan dilinin frazeologiyasına dair ən dəyərli, ən son və ən zəngin mənbədir.

Bəşir Əhmədovun ***"Etimologiya lüğəti"*** [2] Azərbaycan dilinin leksik sisteminə daxil olan sözlərin mənşəyinin araşdırılmasına həsr edilib. Alimin gərgin əməyi sayəsində onlarla qəzet

məqaləsi və 3 kitab (“Azərbaycan dilinin qısa etimoloji lüğəti”, 1999; “Qısa etimoloji lüğət”, 2001; “Etimoloji mülahizələr”, 2003) meydana çıxıb.

Azərbaycan dilçiliyində etimologiya sahəsində tədqiqlər olsa da, onun leksikoqrafik həlli yox dərəcəsindədir. Bu lüğətdə qədim türk sözləri, Avropa və ərəb-fars mənşəli sözlər etimoloji təhlilə cəlb olunub. Lüğətin fərqləndirən xüsusiyyəti bundadır ki, mövcud mülahizələrin bir qismi burada öz əksini tapıb, yəni oxucu yalnız B.Əhmədovun özünün subyektiv fikri ilə deyil, digər tədqiqatçıların yozumu ilə də məlumatlandırılır. Məsələn: “kazak” sözünü V.Radlov türk mənşəli hesab edir... Söz rus mənbələrində ilk dəfə 1395-ci ildə işlədilib. Deməli, kazaklar Rusiyaya XIV əsrdən gəlmiş ola bilər. Müəllif güman edir ki, bizim Qazax rayonunun adı da onların adı ilə qohumdur. Sözün mənşəyi *ozan, gəzən* kəlmələri ilə bağlıdır. M.Fasmer onları qırğız hesab edir: *qırğız – qır* (çöl) və *gəzmək* (çöldə gəzən) deməkdir. Onlara *kaysaki* də deyiblər. Deməli, *qırğız* və *qazax* eyni kökə malik sözlərdir.

Göründüyü kimi, bu lüğət məqaləsində yalnız B.Əhmədovun deyil, M.Fasmerin və V.Radlovun fikirləri də əks olunub.

4.400-ə yaxın sözün etimoloji yozumu araşdırılmış bu lüğətdə bəzən sözlərin etimologiyası ilə bərabər, əlavə məlumat da verilir. Fikrimizcə, bu əsər çağdaş leksikoqrafiyamızın dəyərli nailiyyətlərindən biridir.

Müstəqillik dövründə kütləvi informasiya vasitələrinin sovet dönəmi ilə müqayisəyə gəlməyəcək dərəcədə inkişafı, qəzet, jurnal və başqa nəşr vasitələrinin həm çeşid, həm məzmun baxımından misilsiz tərəqqisi jurnalistika üzrə də terminləri sistemləşdirib oxucuların istifadəsinə verməyə zərurət yaradır. Qulu Məhərrəmli və Elçin Şıxlının ***“Jurnalistika terminləri lüğəti”*** [4] bu boşluğu dolduran dəyərli əsərdir. Lüğətdə müasir jurnalistika, media sistemi, bütövlükdə məlumatlandırma sahəsi ilə bağlı 2.400-ə yaxın söz və ifadənin izahı verilib.

Azərbaycanda ilk dəfə hazırlanmış, tezaurus tipli sorğu kitabı olan bu lüğət jurnalistika fakültələrinin müəllimləri, tələbələr, peşə hazırlığını artırmaq istəyi ilə daim öz üzərində çalışan media işçiləri üçün ən müasir əvəzolunmaz vəsaitdir. Burada jurnalistlərin peşə fəaliyyəti sahəsinə aid anlayışlar bir-biri ilə əlaqəli və sistemli şəkildə izah edilib. Lüğətə çoxsaylı media texnologiyaları barədə məlumatlar daxil edilib. Mənbə kimi qardaş Türkiyə, ABŞ, İngiltərə, Fransa, Rusiya, Almaniya lüğət və ensiklopediyalarından, elmi ədəbiyyatdan istifadə olunub.

Ölkəmizdə nəşriyyat təcrübəsində ilk nümunə olan bu izahlı lüğət yalnız jurnalistlər üçün deyil, media və cəmiyyət problemlərini öyrənən başqa mütəxəssislər və tələbələr üçün nəzərdə tutulub.

Sovet dönəmində rəsmi ideologiya allahsızlıq (ateizm) üzərində qurulduğuna görə dinlə, özəlliklə islam dini ilə bağlı lüğətlərin hazırlanması və nəşri mümkün deyildi. Müstəqillik illərində bu mühüm qüsur da xeyli dərəcədə aradan qaldırılıb. Vasim Məmmədəliyevin ***“Təsəvvüf anlamları və dərvişlik rəmzləri”*** [5] əslində bir izahlı lüğətdir. Xüsusilə ali məktəblərimizdə təsəvvüflə (sufiliklə) bağlı tədris olunan fənlərin müəllim və tələbələri üçün olduqca faydalı olan bu əsər bötövlükdə lüğətşünaslığımıza dəyərli hədiyyədir.

Haqqında danışmaq istədiyimiz, lüğətşünaslığımızın müstəqillik illərindəki ən dəyərli nailiyyətlərindən saydığımız sonuncu əsər İsmayıl Cəlallının ***“İnformatika terminlərinin izahlı lüğəti”***dir [1]. 2017-ci ildə işıq üzü görmüş bu lüğət yalnız informatika elmimizin deyil, ümumən Azərbaycan elminin, xüsusən leksikoqrafiyamızın ən əlamətdar hadisələrdən biri, XXI yüzil leksikoqrafiya tariximizin inkişafını göstərən ən gözəl nümunələrdəndir.

“İnformatika terminlərinin izahlı lüğəti” hesablama texnikasının müxtəlif sahələrinə – aparat vasitələri, proqram təminatı, verilənlərin saxlanması, şəbəkələr, qrafika, oyunlar, informasiyanın emalı, internet, tarix, jarqon ifadələr, təşkilatlar, proqramlaşdırma və standartlara aid terminləri əhatə edir. İstifadəçilərin çoxu fərdi kompüterlərdə işlədiyindən lüğətdəki məqalələrin böyük hissəsi də bu sistemlərin təsvirində və onlarda iş zamanı istifadə olunan terminologiya ilə bağlıdır. Ancaq lüğətə kompüter sənayesi, proqramlaşdırma kimi xüsusi sahələr üzrə terminlər də salınıb. 5 minə qədər terminin sanki ensiklopediya məqaləsi şəklində izahı verilmiş bu əsərdə şağdaş informatika üzrə anlayışların böyük əksəriyyəti əhatə olunub. Ədədlərlə və simvollarla başlayan terminlər onların ASCII koduna uyğun sıralanıb.

"Lüğətdəki məqalələri iki qrupa ayırmaq olar: termini tam təsvir edən əsas məqalələr və onların sinonimləri olan istinad məqalələr. Lüğətdə iki növ istinad verilib: "*Bax:*" və "*Tut:*". İstinad edilən məqalələr kiçik baş hərflərlə (*Bax:* SMALL CAPS) verilib" (1, s. 9).

Əsas məqalələrin mətni eyni qaydada tərtib olunub: məqalənin başlığı, yəni izah olunan termin qalın şriftlə 4 dildə (ingiliscə-rusca-türkcə-azərbaycanca) verilib, mötərizədə terminin variantları (varsa) göstərilib; sonra terminin izahı təqdim olunub; məqalənin sonunda, bəzən isə daxilində əlaqəli məqalələrə istinadlar (varsa) göstərilib.

Bəzi məqalələr uyğun şəkil, sxem, diaqram və ya cədvəllə müşayiət olunub. Məqalələr ingilis dilindəki terminlərə görə sıralandığından Azərbaycan, rus və ya türk dilində hər hansı termini tapmaq üçün kitabın sonunda "azərbaycanca-ingiliscə", "türkcə-ingiliscə" və "rusca-ingiliscə" terminlər sözlüyü verilib. Bu üç dildən hər hansı birində verilmiş termini öncə uyğun sözlükdə tapmaq, sonra isə həmin sözün ingiliscə qarşılığına görə onu lüğətdə axtarmaq gərəkdir; məsələn, lüğətdə "*simgə*" terminini tapmaq üçün öncə "azərbaycanca-ingiliscə terminlər sözlüyü"ndə həmin termin tapılmalı, sonra onun qarşısındakı ingiliscə "*icon*" termini lüğətdə axtarılmalıdır.

Lüğətin başlıca xüsusiyyətlərindən biri də budur ki, bəzi terminlərin lüğət məqalələri ilə bərabər həmin terminə dair şəkillər də verilib. Bu təsvirlərin yardımı ilə öyrəndiyimiz termin haqqında həm geniş məlumat alır, həm də həmin terminin məzmununu əyanişəkildə təsəvvür edə bilirik. Bu amil mənasını bilmək istədiyimiz termin haqqında geniş bilgi almağımıza və öyrənməyimizə daha yaxından yardımçı olur.

Dövrümüzə qədər nəşr olunmuş lüğətlərdən onu fərqləndirən müsbət xüsusiyyətlərdən biri də budur ki, əsərdə terminin izahından əvvəl onun ingilis-rus-türk-Azərbaycan dillərində tərcüməsi verilib, sonra termin məqalə şəklində izah olunub. Terminlərin izahının lüğət məqaləsi ilə verilməsinə nümunə olaraq aşağıdakı terminə baxaq.

"*Communications protocol – протокол связи – iletişim protokolu – rabitə protokolu.* Kompüterlər arasında bağlantının qurulması və informasiya mübadiləsinin minimal xətalarla aparılmasını nizamlayan qaydalar və standartlar toplusu. Kompüterlərarası rabitənin bütün aspektlərini standartlaşdıran və hamı tərəfindən qəbul edilmiş protokol OSI (Open Systems İnterconnection) kimi tanınmış, aparat və proqram spesifikasiyalarının yeddi səviyyədən ibarət olan dəstidir. İBM firmasının SNA (Systems Network Arehitecture) protokolu OSİ modelinə qədər geniş tətbiq olunan azca fərqli protokoldur. Bununla belə, protokollar rabitə prosesinin müxtəlif elementlərinə təsir etməklə çox zaman bir-birinin üzərinə qoyulur. Beləliklə, bəzən *protokol* termininin özü ilə bağlı dolaşıqlıq yaranır: onunla rabitənin bu və ya digər aspektlərini nizamlayan standartların bütün spektri işarə edilir. Onlardan bəziləri, məsələn, RS-232-C standartı aparat birləşmələrin işini müəyyənləşdirir. Başqa standartlar verilənlərin ötürülməsini, onların kodlaşdırılması üsullarını nizamlayır. Bəzi protokollar (məsələn, geniş yayılmış XMODEM və ZMODEM protokolları) faylların ötürülməsini qaydaya salır" [1, s. 149].

Göründüyü kimi, bir termin lüğət məqaləsi ilə geniş şəkildə aydınlaşdırılıb.

Lüğətdə nəzərimizi cəlb edən əsas məqamlardan biri biri də sonda rusca-ingiliscə, türkcə-ingiliscə, azərbaycancanca-ingiliscə terminlərin sözlüyünün verilməsidir.

Ümumilikdə götürsək, lüğətin leksikoqrafiya tarixində özünəməxsus üstün mövqeyi vardır, çünki etiraf etməliyik ki, müstəqillik dövrümüzdə terminlərin bu səviyyədə dəqiq və əhatəli izah olunması, bəzi lüğət məqalələrinin əyani təsvirlərlə verilməsinə çox az rast gəlirik.

Beləliklə, müstəqilliyimizin yalnız 3 ilində (2015-2017-ci illər) nəşr edilmiş 5 lüğətin hətta səthi təhlili belə kağız lüğətlərimiz sahəsində lüğətşünaslığımızın inkişaf etdiyini bir daha təsdiqləyir.

Ədəbiyyat:

1. Calallı İsmayıl. İnformatika terminlərinin izahlı lüğəti. Bakı: "İnformasiya texnologiyaları" və "Bakı" nəşriyyatları, 2017. 995 səhifə.
2. Əhmədov Bəşir. Etimologiya lüğəti. Bakı: Altun kitab, 2015. 287 səhifə.

3. Məhərrəmli Qulu, İsmayılov Rafiq. Azərbaycan dilinin frazeologiya lüğəti. Bakı: Altun kitab, 2015. 288 səhifə.
4. Məhərrəmli Qulu, Şıxlı Elçin. Jurnalistika terminləri lüğəti. Bakı: Altun kitab, 2016. 272 səhifə.
5. Məmmədəliyev Vasim. Təsəvvüf anlamları və dərvişlik rəmzləri. Bakı: Tural-Ə NPM nəşriyyatı, 2001. 240 səhifə.

Н. Абдуллаева

Заметки о некоторых достижениях азербайджанской лексикографии за годы независимости

Резюме

Лексикография является той отраслей науки, где азербайджанские лингвисты со времен средневековья серьезно занимались и достигли значительных успехов. После 1991 года, когда Азербайджан прибрел свою независимость, для развития и гуманитарных наук, в том числе лексикографии, созданы благоприятные условия в республике. В отличие от советского периода, всесторонное непосредственное сотрудничество нашей страны с передовыми государствами мира в области культуры и экономики, быстрое внедрение достижений мировой науки и техники в народную жизнь оказали неимоверную позитивное воздействие как на другие отрасли науки, так и на лексикографии. Сказанное подтверждается качественными изменениями в лексикографии за 28 лет.

По мнению автора статьи, основными достижениями азербайджанской лексикографии можно считать следующие:

1) в результате освоения передового опыта мировой лексикографии словари обновлены по содержанию;

2) словари охватывают самый широкий спектр общественной и политической жизни;

3) созданы онлайн (электронные) словари.

В качестве примера автор статьи анализирует лишь 5 бумажных словарей:

a) Гулу Магеррамли, Рафиг Исмаилов. Фразеологический словарь азербайджанского языка. (Баку: Altun kitab, 2015).

b) Башир Ахмедов. Этимологический словарь. (Баку: Altun kitab, 2015).

C) Гулу Магеррамли, Эльчин Шыхлы. Словарь терминов по журналистике. (Баку: Altun kitab, 2016).

d) Васим Мамедалиев. Суфийские понятия и дервишские символы. (Баку: Tural-Ə NPM, 2001).

e) Исмаил Джалаллы. Толковый словарь терминов по информатики. (Баку: изд-ва “İnformasiya texnologiyaları” и “Bakı”, 2017).

Ключевые слова: *онлайн-словари, бумажные словари, электронные словари, превосходства и недостатки словарей.*

NAbdullaeva

Notes on some achievements of the azerbaijan lexicography for years of independence

Summary

Lexicography is one of the branches of science where Azerbaijani linguists have been seriously engaged since medieval times and achieved significant success. After 1991, when Azerbaijan gained its independence, favorable conditions were created in the republic for the development of the humanities, including lexicography. In contrast to the Soviet period, the comprehensive direct cooperation of our country with the advanced states of the world in the field of culture and economics, the rapid introduction of the achievements of world science and technology into national life had an incredible positive impact on both other branches of science and lexicography. This is confirmed by qualitative changes in the lexicography for 28 years.

According to the author of the article, the following can be considered the main achievements of Azerbaijani lexicography:

1) as a result of mastering the advanced experience of world lexicography, the dictionaries are updated in content;

2) dictionaries cover the widest spectrum of public and political life;

3) created online (electronic) dictionaries.

As an example, the author analyzes only 5 paper dictionaries:

a) Gulu Maherramli, Rafig Ismailov. Phraseological dictionary of the Azerbaijani language. (Baku: Altun kitab, 2015).

Ora əsrlər Azərbaycan ədəbiyyatının ən qüdrətli təmsilçisilərindən biri də Məhəmməd Füzulidir. Onun yaradıcılığı coğrafı hüdudları aşaraq bütün türk islam coğrafiyasına yayılmışdır. Hələ həyatda olarkən böyük şöhrət tapan Füzuli ədəbi məktəb səviyyəsinə yüksəlmiş, sonsuz sayda şairlər onun əsərlərini özünə nümunə saymış, bunun nəticəsində çoxlu ardıcılları yetişmişdir. Bu baxımdan Füzulidən sonra yaranan Azərbaycan ədəbiyyatında, xüsusən də poeziyasında Füzulinin cazibəsinə bu və ya başqa dərəcədə düşməyən az ədib tapmaq mümkündür.

Füzuli hələ gənc yaşlarından tanınmış bir şairə çevrilmiş, şeirləri Yaxın Şərqin bütün ərazilərinə yayılmışdır. Onun dövrünün ən geniş yayılmış üç əsas: türk, ərəb və fars dillərində mükəmməl şeir yazması məhşurlaşması və şöhrətinin islam dünyasının hər təfəfinə yayılması üçün əsas vasitələrdən biridir. Füzulinin ədəbi məktəb kimi formalaşmasından bəhs açarkən, onun inkişaf mərhələlərindən də söz açmaq lazımdır. Belə ki, artıq XVI əsrin ikinci yarısından başlayaraq Azərbaycanda yaranan əksər ədəbi məhsullarda Füzuli təsiri az və çox dərəcədə hiss olunur. XIX əsrin birinci yarısında bu təsir bir az səngisə də ikinci yarısından başlayaraq təşkil edilmiş ədəbi məclislərin fəaliyyəti ilə əlaqədar Füzuli əsərlərinə müraciət yenidən artmışdır. Füzuli qəzəlləri dilinin anlaşıqlı olması və həmçinin kiçikliyinə görə sənətkarlıq dərslərində tədris vəsaitinə çevrilmişdir. Onun ədəbi təsiri yalnız Azərbaycan ədəbiyyatına deyil, ümumtürk ədəbiyyatının üzərində bütün orta əsrlər boyu hiss olunmuş və bu gün də hiss olunmaqdadır.

Açar sözlər: Azərbaycan ədəbiyyatı, Məhəmməd Füzuli, ədəbi təsir, ədəbi məktəb, poeziya, dibaçə, qəzəl

Orta əsrlər Azərbaycan ədəbiyyatının ən böyük siması, şübhəsiz ki, Məhəmməd Füzulidir. Islam Şərqində, xüsusən də, türk dili anlaşılan elə bir yer yoxdur ki, M. Füzulini bu və ya başqa dərəcədə tanımasınlar. Onun yaradıcılığı coğrafı hüdud tanımadığı kimi, demək olar ki, müəyyən mənada zaman məhdudiyyəti də tanımır. Belə ki, hələ yaşadığı dövrdə böyük şöhrət tapan Füzuli ədəbi məktəb səviyyəsinə yüksəlmiş, ardınca gələn sonsuz sayda şairlər onun əsərlərini özünə nümunə saymış, bunun nəticəsində çoxlu ardıcılları yetişmişdir. Böyük şair ədəbiyyat tarixindəki mövqeyini özü də duymuş, yeri gədikcə şeirlərində bunu vurğulamaqdan çəkinməmişdir:

Gör nə sultanəm məni-dərviş kim, feyzi süxən,
Eyləmiş iqbalımı asari-nüsrəti məzhəri.
Hər sözüm bir pəhləvandır kim, bulub təyidi-həq,
Əzm qıldıqda tutar təsxiri ilə bəhrü-bəri.
Payimal etməz onu asibi-dövrani-ruzgar,
Eyləməz təsir ona dövrani çərxi cənbəri (1, 360).

Özünün qeyd etdiyi kimi söz aləminin cəngavəri olan Füzuli poeziyası bütün dövrlərdən üzü ağ çıxmış, təsir gücünü itirməmiş, ketdikcə daha da artırmışdır.

Adətən, ədəbi məktəblər ayrı-ayrı sənətkar şəxsiyyətlərin adı ilə bağlı olur və həmin sənətkarların bədii irsinə aid xüsusiyyətlər müasirləri və sonrakı xələfləri tərəfindən inkişaf etdirilir. Yalnız ideya-bədii cəhətdən orijinal bədii əsərlər yazan, bu əsərləri ilə ədəbiyyat tarixində yeni bir yol açan və irəli sürdüyü ideyaları davamçıları tərəfindən müdafiə olunan sənətkarlar ədəbi məktəb

yarada bilərlər. (Kamran Əliyevin "Terminlər elmi təfəkkürün ifadəsidir, yaxud metod, cərəyan, üslub və ədəbi məktəb məsələsi" ArtKaspi , 2017, 8 avqust)

Füzuli ədəbi məktəbi, onun yaranması və inkişafı haqqında bu şairlə bağlı tədqiqatlarda müəyyən fikirlər əks olunmuş, hətta həmin mövzuda müxtəlif elmi iş və dissertasiyalar yazılaraq müdafiə edilmişdir. M. F. Axundovdan başlayaraq bir çox ədib və ədəbiyyat tarixçiləri araşdırma və yazılarında Füzuli yaradıcılığının nüfuz və təsir dairəsi, xüsusən də türkdilli ədədbiyyatda oynadığı həlledici rol haqqında bəhs açmaqdan geri durmamışlar.

Hələ XIX əsrin ortalarında Füzulidən söz açan klassikimiz S. Ə. Şirvani Füzulini "Bəlağət bostanının və gözəllik baharının ilk çiçəyi" adlandırır və fikrini davam etdirərək bildirir ki, Füzulidən sonra gələn türk şairlərinin onun yolunu izlədiyi, nəzirələr yazdığını və şeirlərindən bəhrələndiyini bildirir (3, 221).

Firudin bəy Köçərli ədəbiyyat tarixində ilk dəfə Füzuli yaradıcılığının özündən sonra yetişən türk şairləri üçün ədəbi məktəb olması fikrini irəli sürmüş və onu "Ustadül-məkatib" adlandırmışdır (4,).

C. Cabbarlı 1938-ci ildə çap etdirdiyi "M.F. Axundov" adlı məqləsində Füzulidən söz açmış və onu Azərbaycan ədəbiyyatını "Fars və ərəb girdabından dartıb çıxarmış və yeni yaranmış ədəbiyyatı çiyinlərinə almış" bir şair kimi təsvir etmişdir, sonra fikirlərinə davam edən ədibimiz "Füzuli öz dühası ilə Azərbaycan parlaq klassik ədəbiyyat verdi, lakin eyni zamanda onun dühası üzərinə düşüb onu öz ağırlığı ilə əzməyə başladı. El ağzından çıxmış ədəbiyyat bir dahinin qələmi altında yonuldu və birdən-birə kalssik bir yüksəkliyə qalxdı". C. Cabbarlının sonrakı qeydlərində Azərbaycan ədəbi mühitinin bu yüksəkliyə hazır olmadığını bildirir və qeyd edir ki, "Füzulidən sonra gələn ədəbiyyat bu yüksəklikdə qala bilmədi. Şairlər Füzulini yamsılamağa başladı. ....Füzuli elə bir tilsim idi ki, ədəbiyyatımız ondan bir addım belə olsun bayıra çıxmayır və uzun illər yeni bir şəkilə keçmirdi" (5, 118-122).

Göründüyü kimi, Ç. Cabbarlı Füzulinin özündən sonra yaranan ədəbiyyata təsiri, daha doğrusu ondan sonra yaranan ədəbiyyatın Füzuli sehrindən çıxa bilməməsini və şairlərin ona nəzirələr yazmasını qeyd etməklə, Füzulinin ədəbiyyatımıza yan təsirlərindən də söz açmışdır.

Füzulini ədəbi şəxsiyyəti və sonrakı ədəbyyata təsiri ilə bağlı XX əsrin əvvəllərindən başlayaraq Azərbaycan ədəbiyyatşünaslığında bir çox tədqiqatçılar: A. Sur, B. Çobanzadə, S. Mümtaz, H. Araslı, M. Quluzadə, Ə. Səfərli, A. Rüstəmova, C. Nağıyeva, V. Feyzullayeva, P. Kərimov və b. öz əsərlərində müəyyən qədər söz açmış və bu məsələyə yer vermişlər.

Füzuli ədəbi məktəbi və bu məktəbin təsir dairəsi haqqında ən ciddi araşdırmanı Aynurə Mahmudova apararaq birbaşa bu mövzuda elmi tədqiqat işi ortaya qoymuş, ayrı-ayrı məqalələr yazmışdır. O, "Füzuli ədəbi məktəbi (XVI-XVIII əsrlər)" adlı fundamental araşdırmasında "Ədəbi məktəb" anlayışını izah etməyə çalışmış, qərb və şərq ədəbiyyatşünaslığında bu məvhumun işlənmə yeri və fərqli xüsusiyyətlərinə geniş şəkildə aydınlıq gətirməyə cəhd etmişdir. Tədqiqatçı Füzuliyə münasibətdə ədəbi məktəb və ədəbi təsirin fərqli cəhətlərindən söz açmışdır: "Təsir daha geniş bir anlayış olub, müxtəlif şairlərin əsərlərində müxtəlif şəkildə üzə çıxa bilər.

Füzulinin Azərbaycan ədəbiyyatına böyük və güclü təsiri olmuşdur. Bir anlıq Füzulidən sonrakı ədəbiyyatımızı göz önünə gətirəcək olsaq, günümüzə qədər hər şairin, yazıçının yaradıcılığında Füzulidən bir qığılcım düşdüyünü müşahidə etmiş olarıq. Ədəbiyyatımızda Füzulidən təsirlənməmək, Füzulidən bəhrələnməmək qeyri-mümkün məsələyə çevrilmişdir. Lakin Füzuli ədəbi məktəbi dedikdə, biz yaradıcılığında Füzuli sənətini yaşadan, sənətdə onunla rəqabət aparmağa cəhd edən, onu təqlid edən, ona üstün gəlməyə çalışan müxtəlif dövrlərdə yaşamış şairləri birləşdirən bir yaradıcılıq nəzəriyyəsi sistemini nəzərdə tuturuq. Füzuli sənəti onun ədəbi məktəbinin nümayəndələri üçün bir məhək daşına çevrilmiş, istənilən vəziyyətdə Füzuli sənətkarlığı onlara sənət meyarı olmuşdur. Bu baxımdan, Füzuli təsiri və Füzuli ədəbi məktəbi kimi anlayışlar arasında böyük fərqlərin olduğu məlum olur" (7, 26).

Tədqiqatçının çox doğru olaraq qeyd etdiyi kimi Füzulidən sonra yaranan Azərbaycan ədəbiyyatında, xüsusən də poeziyasında Füzulinin cazibəsinə bu və ya başqa dərəcədə düşməyən az ədib tapmaq mümkündür. Ona görə də Füzuli təsirinə məruz qalan şairlə, birbaşa Füzuli ədəbi məktəbinə daxil olan şairləri bir-birindən fərqləndirmək lazımdır.

Füzulinin ədəbi məktəb səviyyəsinə yüksəlmə tarixi təxminən şairin elə sağlığında baş vermiş hadisə olmasını öncə qeyd etdik. Belə ki, Füzuli hələ gənc yaşlarından tanınmış bir şairə çevrilmiş, şeirləri Yaxın Şərqin bütün ərazilərinə yayılmışdır. Onun dövrünün ən geniş yayılmış üç əsas: türk, ərəb və fars dillərində mükəmməl şeir yazması məhşurlaşması və şöhrətinin islam dünyasının hər tərəfinə yayılmasına səbəb olmuşdur:

Mən gözəl bir süfrə açdım sözdən əhli-aləmə,
Onda min zövq artıran hər dürlü nemət düzmüşəm.
Süfrəmə hər bir qonaq gəlsə, xəcalət çəkmərəm;
Fərqi yox, ya türk gəlsin, ya ərəb, yaxud əcəm.
Kim gəlir gəlsin, aparsın hər nə istər xatiri,
Qurtaran nemət deyil, süfrəmdən olmaz heç nə kəm (6, 13).

Böyük şair öz yaradıcılığına münasibətdə obrazlı şəkildə bir süfrə açdığını və həmin süfrədə min zövq artıran dürlü nemətlər olduğunu qeyd edir. Milliyyətindən asılı olmayaraq o süfrəyə kim olur olsun, əl uzadarsa, hər cür nemət tapacağını və tükənməz nemətlərlə zəngin olduğunu iftixarla bildirir.

Digər tərəfdən, qeyri-adi istedad, geniş mütaliə, ən başlıcasi isə, gərgin zəhmət janrından asılı olmayaraq M. Füzulinin qələmindən çıxan bütün ədəbi məhsulları: məsnəvi, qəzəl, qəsidə, tərki-bənd, rübai, qitə və b. bir yaradıcılıq incisinə çevirmişdir.

Təsadüfi deyil ki, Füzuli estetik görüşlərində şair olmaq, gözəl şeirlər yazmaq üçün böyük zəhmət və əzmkarlıq tələb olunduğunu dönə-dönə qeyd etmişdir. Sənət və sənətkarlıq məsələlərinə diqqətlə yanaşan Füzuli şair və şeir yaradıcılığı haqqında fikirlərini əsərlərində, xüsusəndə farsca "Divan"ının dibaçəsində bildirmişdir: "Elə ki, uşaqlıq dövründə dünya karxanasına etibar nəzərilə baxdım, maarif kəsb etmək gözəlini özümə məşuqə etdim. Onunla eşqbazlıq zamanı hərdəm bir fitri şövqümün hərəkət veräni istedad üzündən məni nəzm məhəbbətinin qapılarına çəkirdi. Amma maarif kəsb etmək qeyrəti mən eləyirdi ki, hərçənd bu gözəl ürəyəyatandır, madam ki, elm-kamal təhsilinə manedir, – yaxşı deyildir" (6, 14).

Erkən yaşlarından şeir yazmağa meyilli olan Füzuli ilk öncə mütaliə etməyi və öyrənməyi üstün tutmuş və sonra şeir yazmağa meyl etmişdir: "Şeirə qarşı özümdə bir meyl də duydum. Artıq qeyrət qurşağını belimə qurşayaraq oturub düşündüm və şeirə başladım. Bəzən ərəbcə şeir yazdım və ərəb fəsihlərini müxtəlif mənzumələrimlə şadlandırdım. Bu, mənim üçün asan idi. Çünki mənim elmi bəhslər (fənlər, yaxud mübahisə) dilim ərəbcə idi. Bəzən türkcə şeir meydanında at çapdım və türk zəriflərinə türkcə şeirin gözəlliklərilə zövq verdim. Bu da məni o qədər təşvişə salmadı, çünki türkcə şeir mənim əslimin səliqəsinə uyğundur. Bəzən fars dili sapına inci düzdüm və o budaqdan könül meyvəsi dərdim". Şairin hər üç dildə şeir yazması ilə bağlı fikrlərindən aydın olur ki, bu məq-sədyönlü şəkildə olmuşdur.

Füzuli yaradıcılq məsələlərində nə qədər diqqətli olduğunu sonrakı qeydlərində bildirir: "İnsan onların bütün yazdıqlarını bilməlidir ki, çalışıb vücuda gətirdiyi əsərlərdə özündən əvvəl söylənən mənalar olmasın. Elə vaxtlar olmuşdur ki, gecə səhərə qədər oyaqlıq zəhərini dadmış və bağrımın qanı ilə bir məzmunu tapıb yazmışam. Səhər olanda başqa şairlərlə uyğun gəldiyini görüb, yazdığımı pozmuşam, ona sahib çıxmamışam. Elə vaxtlar da olmuşdur ki, gündüz axşama qədər düşüncə dəryasına dalıb, söz almazı ilə məna gövhərini deşmişəm. (Bunu görənlər:) bu məzmun anlaşılmır, bu ləfz xalq arasında işlənilmir və xoşagəlməzdir – deyər-deməz, o məzmun gözümdən düşmüş, hətta onun üzünü köçürməmişəm. Qəribə bir haldır, söylənmiş bir sözü söylənildiyinə görə, söylənməmiş bir sözü isə əvvəlcə söylənilmədiyinə görə işlətmək olmur" (6, 17). Söz sənətinə bu qədər diqqətlə yanaşan şairin ədəbi məhsullarının sürətlə yayılması, geniş şöhrət qazanması və ardınca gələn çoxsaylı şairlərin onu izləməsilə nəticələnmişdir.

Füzuli ədəbi məktəbindən bəhs açarkən onun formalaşması tarixi və inkişaf mərhələlərindən də söz açmaq lazımdır. Belə ki, artıq XVI əsrin ikinci yarısından başlayaraq Azərbaycanda yaranan əksər ədəbi məhsullarda Füzuli təsiri az və çox dərəcədə hiss olunur. Bu təsir XIX əsrin birinci yarısında bir az səngisə də II yarısından başlayaraq təşkil edilmiş ədəbi məclislərin fəaliyyəti ilə

əlaqədar Füzuli əsərlərinə müraciət yenidən artır. Füzuli qəzəlləri dilinin anlaşıqlı olması və həmçinin kiçikliyinə görə sənətkarlıq dərslərində geniş əks olunmuşdur (8,3).

XX əsrdə də Füzuli poeziyasının Azərbaycan ədəbiyyatı üzərindəki cazibəsi öz mövcudluğunu davam etdirmişdir. Maraqlıdır ki, həmin dövr Füzuli təsiri yalnız, lirik romantik ədəbiyyata deyil, həm satirik realist ədəbiyyata nüfuz etmişdir. Təsadüfi deyil ki, jurnalın təsisçisi, böyük ədibimiz Cəlil Məmmədquluzadə etiraf edərək bildirmişdir ki: "Füzuli "Molla Nəsrəddin"in birinci nömrəsindən başlayıb bu günə qədər məcmuəmizdə iştirak etmiş və şeirlər yazmışdır. ....Füzuli bizim məcmuədə işləyir. Yenə də işləyəcəkdir. İnanmırsınız, götürünüz "Molla Nəsrəddin" məcmuələrinin 20 illiyin tökünüz qabağınıza. Hansı yerə baxsanız, görəcəksiniz ki, onda Füzulidən bir duz vardır .....Bizim türk əruz şairlərimiz də şeiri yazanda Füzuli gəlib durur gözünün qabağında. Deyir ki, ölsən də mənim təsirindən çıxa bilməyəcəksən. Molladan istəsən yazmışam, varlıdan yazmışam, rüşvətxorluqdan yazmışam. Bu gün get, sabah gəldən yazmışam, yəni zavtra-zavtradan yazmışam. Bütün işini-gücünü, dərsini buraxıb şeir yazanlardan yazmışam. Müxtəsər, hər şeyi əhatə eləmişəm. Nə qədər bu üsul varsa, məndə varam. ("Molla Nəsrəddin" məcmuəsi. 23 may 1925-ci il №21).

C. Məmməquluzadənin bu sözlərinin nə qədər gerçək olduğunu elə onun dediyi kimi "Molla Nəsrəddin"çilərin əsərlərini diqqət yetirərkən aydın olur. Belə ki, ictimai satiranın ən böyük nümayəndəsi olan və "Molla Nəsrəddin"çi ədibimiz M. Ə. Sabir yaradıcılığını izləyərkən onun Füzulinin təsirinə ciddi şəkildə məruz qaldığını müşahidə etmək mümkündür. A. Zamanovun döğru müşahidə etdiyi kimi, M. Ə. Sabir yaradıcılığının həm birinci, yəni "Mollla Nəsrəddin" məcmuəsininin yazarına çevrilməmiş 1905-ci ilə qədərki dövr, həm də "Molla Nəsrəddin"çi kimi 1905-ci ildən sonrakı dövrdə Sabir dahi ustadın "çıxılmaz yolundan" cəsarətlə çıxmış, artıq "füzuliyanə" qəzəllər, sadəcə bənzətmələr, təzminlər yazmayıb, Füzuliyə "Sabiranə" bənzətmələr yazmışdır" (10, 9).

Beləliklə, Orta əsrlər klassik ədəbiyyatımızın ən böyük təmsilçisi M. Füzuli yaradıcılığı ilə özündən sonra yaranan ədəbiyyata örnək olmuş, xeyli sayda ardıcıllar yetirmişdir. Onun ədəbi təsiri yalnız Azərbaycan ədəbiyyatına deyil, ümumtürk ədəbiyyatının üzərində bütün orta əsrlər boyu hiss olunmuş və bu gün də hiss olunmaqdadır.

ƏDƏBİYYAT

1. Füzuli M. Əsərləri: Altı cilddə. Ic., Bakı: Şərq-Qərb, 2005
2. Əliyev K. "Terminlər elmi təfəkkürün ifadəsidir, yaxud metod, cərəyan, üslub və ədəbi məktəb məsələsi" ArtKaspi , 2017, 8 avqust
3. Şirvani S. Ə. Əsərləri 3 cilddə, II c., Bakı: Elm, 1974.
4. Köçərli F. Azərbaycan ədəbiyyatı: İki cilddə, I c., Bakı, Avrasiya press, 2005
5. Cabbarlı C. M. F. Axundov haqqında. // "Revolyusiya i kultura"Jurnalı, Bakı, 1938, №6-7, s.118-122)
6. Füzuli M. Əsərləri: Altı cilddə. IIIc., Bakı: Şərq-Qərb, 2005
7. Mahmudova A. Füzuli ədəbi məktəbi (XV-XVI əsrlər) Bakı: "Elm və Təhsil", 2019
8. Füzuliyə təxmislər, Toplayan və nəşrə hazırlayan: Cənnət Nağıyeva. Bakı: Yazıçı, 1993
9. Məmmədquluzadə C. "Molla Nəsrəddin" məcmuəsi. 23 may 1925-ci il №21
10. Zamanov A., Əməl dostları. Bakı: Yazıçı, 1979

Губадов Гадим

Литературное влияние Физули

Резюме

Мухаммед Физули является одним из самых великих, могучих представителей средневековой азербайджанской литературы. Его творчество, наследие пересекло географические границы родины и стало неотъемлемой частью тюркской, мусульманской литературы. Мухаммед Физули стал известным еще при своей жизни, его творчество повысилось до уровня литературной школы, бесчисленное количество поэтов считали его творчество истинным образцом для себя, в результате влияния творчества Физули появились многие последователи его наследия. С этой точки зрения в азербайджанской литературе, особенно в поэзии, появившейся после смерти Физули, встречается мало литературных деятелей, в той или иной степени не попавших под влияние творчества Физули.

Мухаммед Физули еще с юных лет стал известным поэтом своего времени. Его стихи стали популярными на всем Ближнем Востоке. Он писал свои стихи на трех основных языках своей эпохи: арабском, персидском и тюркском и именно это обстоятельство способствовало широкой популяризации его творчества на Исламском Востоке. Говоря о литературной школе Физули следует отметить также этапы ее развития. Уже со второй половины XVI столетия в большинстве литературных произведений, появившихся в Азербайджане, наблюдается влияние литературно-философского наследия Физули. В первой половине XIX столетия это влияние в определенной степени ослабло.

Но со второй половины этого века, в связи с появлением и деятельностью литературных меджлисов вновь усилилась тенденция обращения поэтов к наследию Физули. Язык газелей Физули был понятным для всего народа, его газели были маленькими и именно эти обстоятельства сделали Физули средством обучения новых литераторов-поэтов.

Влияние литературного наследия Физули наблюдается не только в азербайджанской литературе, но и в литературе других тюркских народов. Это влияние было заметно в эпоху позднего средневековья, оно наблюдается и ныне.

Ключевые слова: Азербайджанская литература, Мухаммед Физули, литературное влияние, литературный школа, поэзия, дибача, газель

Gubadov Gadim

Literary influence of Fizuli

Summary

Mohammed Fizuli is one of the greatest, mighty representatives of medieval Azerbaijani literature. His work, the heritage crossed the geographical boundaries of the motherland and became an integral part of the Turkic, Muslim literature. Mohammed Fizuli became famous during his lifetime, his work has risen to the level of a literary school, countless poets considered his work a true model for himself, as a result of the influence of the creative work of Fizuli, many followers of his heritage appeared. From this point of view, in the Azerbaijani literature, especially in poetry, which appeared after Fizuli's death, there are few literary figures who were not influenced by Fuzuli's work.

Mohammed Fuzuli from a young age became a famous poet of his time. His poems became popular throughout the Middle East. He wrote his poems in the three main languages of his era: Arabic, Persian and Turkic and this circumstance contributed to the wide popularization of his work in the Islamic East. Speaking about the literary school of Fizuli, one should also note the stages of its development. Already since the second half of the XVI century, in most literary works that appeared in Azerbaijan, the influence of the literary and philosophical heritage of Fuzuli is observed. In the first half of the XIX century, this influence weakened to a certain extent. But since the second half of this century, in connection with the emergence and activity of literary Majlis, the tendency of poets to turn to the heritage of Fuzuli again increased.

The language of the Fuzuli gazelle was understandable for the whole nation, his gazelles were small and it was these circumstances that made Fuzuli a means of teaching new writers and poets. The influence of the literary heritage of Fizuli is observed not only in the Azerbaijani literature, but also in the literature of other Turkic peoples. This influence was noticeable in the late Middle Ages, it is observed now.

Keywords: Azerbaijani literature, Mohammed Fizuli, literary influence, literary school, poetry, dibacha, gazelle

Redaksiyaya daxil olma tarixi: 2.04.2019
Çapa qəbul olunma tarixi: 26.04.2019
Filologiya üzrə fəlsəfə doktoru Ruhəngiz Əliyeva tərəfindən çapa tövsiyə olunmuşdur.

CƏVAHİR QƏHRƏMANOVA
BDU-nun Qazax filialının müəllimi
Qazax rayonu, Qazax şəhəri, Azadlıq küçəsi 78
qehremanova.c@mail.ru

XX ƏSRIN ƏVVƏLƏRINDƏ AZƏRBAYCAN UŞAQ ƏDƏBİYYATI

Xülasə

Uşaq ədəbiyyatı ədbiyyatın ayrılmaz tərkib hissəsidir. Onun obyektini uşaqlara təşkil etmişdir. Uşaq ədəbiyyatının başlıca məqsədi uşaqların mənəvi təkamülünə nail olmaqdır. Bu mövzuda yazan sənətkar uşağın daxili dünyasının incəliklərini bilməlidir. O, həyat yolunun ilk bələdçisi kimi uşağa həyat yolundakı doğru istiqamət göstərməlidir. Bu ədəbiyyata müraciət edən sənətkar seçdiyi mövzuya xüsusi diqqət yetirməlidir. Ümumiyyətlə, məna gözəlliyi həmin dövrün şeirləri üçün başlıca prinsip hesab edilirdi. Uşaq ədəbiyyatının təkcə mündəricəsi deyil, eləcə də dil üslub xüsusiyyətləri də nəzərə alınmalıdır. Belə ki, yazılan əsərlərin dili səlis, aydın, rəvan olmalı, uşaqlar tərəfindən aydın şəkildə dərk edilməlidir. Azərbaycan ədəbiyyatında isə uşaq mövzularına hələ şifahi xalq ədəbiyyatının bir çox növlərində müraciət olunmuşdur. XIX əsrin sonlarından etibarən isə Azərbaycanda uşaq ədəbiyyatına fərqli mövqedən yanaşılmışdır. Bu dövrdə daha çox dərslik tipli vəsaitlər hazırlanmışdır. 20- ci əsrin əvvəllərində isə M.Ə Sabirin, A.Səhhətin, A.Şaiqin və digərlərinin yaradıcılıqlarında uşaq ədəbiyyatının əvəzsiz nümunələri yarnmışdır. Onların "Uşaq və buz", "Qərənfil", "Keçi", "Dovşan" kimi şeirləri özlərində uşaqlara aid ən həssas duyğuları, düşüncələri, bədii estetik zövqləri özlərində cəmləyir. Bu şeirlərin başlıca xüsusiyyəti, sadə, anlaşıqlı dildə yazılmış olması və şairin həyata uşaqların gözündən baxmasıdır.

Açar sözlər: uşaq ədəbiyyatı, poetik ifadə, məzmun.

Uşaq ədəbiyyatı bədii ədəbiyyatın tərkib hissələrindən biri olub, onun digər nümunələrindən özünəməxsus xüsusiyyətlərinə görə fərqlənir. Belə ki, bu ədəbiyyatın əsas obyektini uşaqlar təşkil etmiş, onların duyğu və düşüncələrini, hisslərini, xəyallarını poetik ifadələrlə obrazlı şəkildə özündə ehtiva etmişdir. Uşaq ədəbiyyatının qarşısında duran başlıca məqsəd uşaqlarda nəcib insani duyğular yaratmaq, mənəvi aləmlərini zənginləşdirmək, gözəl estetik zövq formalaşdırmaqdan ibarətdir. Bu mövzuda yazan sənətkar uşağın daxili dünyasının incəliklərini bilməli, həyat yolunun ilk bələdçisi kimi uşağa həyat yolundakı doğru istiqamət göstərməlidir. Sənətkar öz oxucusunu göz önünə gətirdikdə kiçik yaşlı uşaq deyil, ən ümdə insani xüsusiyyətləri özündə cəmləyən bir varlıq görməlidir. Səməd Vurğun "Balalarımız üçün gözəl əsərlər yaradaq" adlı silsilə məqaləsində yazır:

"Uşaq insandır! Onun sadə görünən oynaq, daima xoşbəxt və azad təbiətində böyük insanların bütün xassələri mövcuddur. Düşünmək, duymaq, sevmək... xəyala dalmaq, ümid və arzulara bağlanmaq, yaxşılıq, hörmət- bütün insan xassələri uşaq aləmində mövcuddur. Demək istəyirəm ki, biz uşaqla danışdığımız zaman insanla danışdığımızı, uşaq üçün yazdığımız zaman insan üçün yazdığımızı unutmamalıyıq" (4, 139)

Göründüyü kimi uşaq ədəbiyyatında başlıca problemlərdən biri şairin nədən, hansı mövzudan yazmasıdır. Əsərin ideyası, mövzusu oxucunun bədii zövqünü formalaşdırmaqla yanaşı, onun bir şəxsiyyət kimi formalaşmasına, kamil insan olmasına yardımcı olan başlıca amillərdən biri hesab olunur. Məsələn, Ə.Xaqaninin "Gənclərə Nəsihət", N.Gəncəvinin "Sirlər Xəzinəsi" poemasından "Sultan Səncər və qarı" hekayəsi, "Kərpickəsən qocanın hekayəsi", N.Tusinin "Əxlaqi Nasir", A.Bakıxanovun "Təhzibül Əxlaq" kimi didaktik xarakterli əsərlərində başlıca məqsəd kiçik yaşlarından uşaqlara nəsihət verərək düzgün yolu onlara göstərməkdən ibarət idi. Lakin bu əsərlər bütün oxucular tərəfindən eyni şəkildə dərk edilmir. Buna görə də sənətkar hər zaman əsərin ideyasını qoyarkən, mövzunu işləyərkən uşaqların yaş xüsusiyyətlərini nəzərə almalıdır. "İdeya-idraki funksiya uşaq ədəbiyyatının başlıca funksiyasıdır" (1, 65). M.Qorki yaş xüsusiyyətləri nəzərə alınmayan bədii nümunələri üzərinə ünvan yazılmamış poçt qutusuna bənzətmişdir.

Uşaq ədəbiyyatında yaş xüsusiyyətləri pedaqoji təlimlər nəzərə alınmaqla 4 qrupa ayrılır: 1) bağça yaşlı uşaqlar: 3-6 yaşlılar. 2) kiçik məktəblilər: 6- 10 yaşlılar 3) orta yaşlı məktəblilər: 10-15 yaşlılar 4) yeniyetmələr: 15-17 yaşlılar. Yeniyetmələrin sonuncu yaş pilləsi bəzən 15, bəzən isə 18 yaş olaraq götürülmüşdür. Qara Namazov "Azərbaycan uşaq ədəbiyyatı"nda isə qeyd etmişdir: "Uşaq ədəbiyyatı məqsəd və vəzifəsinə görə 17 yaşına qədər müxtəlif oxucu qruplarının təlim, təhsil və əxlaqi estetik tərbiyəsinə yönəldilən bədii əsərlərə deyilir" (2, 5). Ümumiyyətlə, uşaq ədəbiyyatının 17 yaşa qədər götürülməsi məqbuldur, çünki 18 yaşından etibarən onlara azadlıq verilir və öz haqlarından qanun çərçivəsində müstəqil şəkildə istifadə etmələrinə icazə verilir.

Uşaq ədəbiyyatının təkcə mündəricəsi deyil, eləcə də dil üslub xüsusiyyətləri də nəzərə alınmalıdır. Belə ki, yazılan əsərlərin dili səlis, aydın, rəvan olmalı, uşaqlar tərəfindən aydın şəkildə dərk edilməlidir. Bu gün bəzi yaş qrupu uşaqlar Nizami, Füzuli tərəfindən yazılan əsərləri oxumaqda müəyyən çətinliklər çəkirlər. Lakin müasir dövrü nəzərə almaqla yazan sənətkar bilməlidir ki, o ilk öncə ana dilinin öz oxucularına sevdirməli, onun incəliklərini, sadəliyini onlara çatdırmalı, uşaqların söz ehtiyatlarını zənginləşdirməlidir. Sözlərin poetikası, obrazlılığı bədii təsvirin əlvanlığı sadəlik prinsipi əsasında yaradılmalı və nəzərə alınmalıdır ki, bədii nümunələr vasitəsilə oxucuda şüurlu oxuma vərdişi yaranır.

Uşaq ədəbiyyatın tarixi də müzakirəli mövzu olmuşdur. 17 və18- ci əsrlərdə Avropa ədəbiyyatında Çarliz Perraultnın "Yatmış Gözəl", "Qırmızı papaq", "Çəkməli pişik" adlı kitabları, Daniel Defoenun "Robinzon Kruz", Jonathan Sviftin "Qulliver" kimi əsərlərin yazılmasına baxmayaraq, uşaq ədəbiyyatının sistemli şəkildə inkişafı Aydınlanma dövrünə, 19- cu əsrin sonu 20- ci əsrin əvəllərinə təsadüf edir. Bu vaxta qədər yazılan ədəbi nümunələr isə didaktik əsərlər kimi qiymətləndirilirdi. Əvvəlki illərdə yazılan nümunələr daha çox siyasətin və dinin tələblərinə cavab verən insan fiqurlarının yaradılmasını öz öhdəsinə götürmüşdür. 20- ci əsrin əvvələrindən etibarən isə Avropada uşaq ədəbiyyatının qarşısına yeni tələblər qoyuldu. İlk öncə, yazılan əsərlər yığcamlığı və dilinin sadəliyi ilə digər ədəbi nümunələrdən fərqlənməli, nəsihətçilikdən uzaq olmalı, uşaqları əyləndirməklə yanaşı düşündürməyi də bacarmalı idi. Bu cəhətləri nəzərə alaraq artıq 20- ci əsrdən etibarən E.M.Blitonun "Gizli yeddilər", Mark Tveynin "Tom Sauyer", Frances Burnetin "Balaca Şahzadə" kimi əsərlərində kiçik uşaq dünyaları fəqli rakurslardan, obrazlı, əyani və canlı şəkildə təsvir olunurdu.

Azərbaycan ədəbiyyatında isə uşaq mövzularına hələ şifahi xalq ədəbiyyatının növləri olan tapmacalar, nəğmələr, xalq oyunları, yanıltmaclar, atalar sözləri və məsəllərdə müraciət olunmuşdur. F.Köçərli tapmacalar haqqında qeyd etmişdir ki, uşaqlar üçün yaradılmış kiçik həcmli folklor nümunələrində təsvir olunan əşyaların xarakterik xüsusiyyətləri sadalanmaqla yanaşı, uşaqların zehnini, şüurunu inkişaf etdirir. "Tapmacanın sualı, mahiyyəti, fikrin metaforik tərzdə ifadəsi, mövzu dairəsinin uşaq ruhuna yaxınlığı, kollektiv ünsiyyət məhsulu olması və həm də oyun xarakteri daşıması onu uşaqlar üçün cazibədar edir"(2, 76). Bundan sonra klassiklərimizin-Ə.Xaqaniin "Gənclərə nəsihət", Nizaminin "Sirlər xəzinəsi" poemasında "Yaralı uşağın dastanı", "Kərpickəsən qocanın hekayəsi", Nəsrəddin Tusinin "Əxlaqi nasir", Füzulinin "Söhbətül Əsmar" A.Bakıxanovun "Təhzibül əxlaq"və s . kimi əsərlərində uşaqların bir şəxsiyyət kimi formalaşmasına təsir edən başlıca xüsusiyyətlər təhlil olunmuş, daha çox onlara gələcək həyatları ilə bağlı ibrətamiz öyüdlər verilmişdir.

XIX əsrin sonlarından etibarən isə Azərbaycanda uşaq ədəbiyyatına fərqli mövqedən yanaşılmış, daha çox dərslik tipli vəsaitlər hazırlanmışdır. Bunun başlıca səbəblərindən biri isə həmin dövrdə yeni üsullu məktəblərin yaradılması. Bu məktəblərə uyğun A.Çernaşevskinin yazdığı "Vətən dili", R.Əfəndiyevin "Uşaq bağçası", A.Şaiqin "Uşaq gözlüyü", "Gülzar", kimi dərsliklərində təlim və tərbiyə vəhdət şəklində götürülmüş, uşaqlara ilkin olaraq dünyagörüşü, həyat hadisələri ilə bağlı aydın və dəqiq məlumat verilmişdir. Bu vəsaitlərdə ən mühüm cəhət dil üslub xüsusiyyətlərinə xüsusilə nəzər yetirilməsi, aydın dildə yazılması və ana dilinin uşaqlara sevdirilməsi idi. F.Köçərli özünün "Ana dili" adlı məqaləsində bu xüsusiyyətləri nəzərə alaraq yazırdı: "Hər millətin özünəməxsus ana dili var ki, onun məxsusu malıdır. Ana dili millətin mənəvi diriliyidir, həyatının mayəsi mənziləsindədir... Hər kəs öz anasını və vətənini sevdiyi kimi, ana dilini də sevir" (2, 86). Yazıçı 1912- ci ildə "Balalara hədiyyə" adlı dərsliyini hazırlamış və onu digər vəsaitlərdən fərqli

formada oxucularına təqdim etmişdir. Buradakı hekayələr öz qayəsini folklor nümunələrindən almış, həyat hadisələrini əyani şəkildə, bədii ifadələrlə təsvir edilmişdir. Məhz bu cəhəti nəzərə alaraq Seyid Hüseyn yazırdı: "Hərçənd bu kitab zahirdə uşaqlar üçün yazılmışdırsa da, lakin bütün ənənəyi- milliyyəsi... nağıl və hekayələri,...milli misal və nəömələri, uşaqlara məxsus oyuncaqları tərtib etdiyindən bizi keçmişimizlə aşina edir... Keçmişimizə qarşı bizdə milli duyğu oyandırır..."

Lakin bütün bu xusiyyətləri nəzərə alaraq qeyd etməliyik ki, Azərbaycan ədəbiyyatında uşaq ədəbiyyatının xüsusi bir forma kimi inkişafı Abdulla Şaiqin adı ilə bağlıdır. O, 1911- ci ildə uşaqlar üçün "Gözəl Bahar" adlı ilk alleqorik səhnə əsərini yazmış, bunun ardınca "Danışan kukla", "İntiqamçı xoruz", "Eloğlu", "Vətən", "Bir saatlıq xəlifə" pyeslərini yazmış və əsərlərin mövzusunu nağıl və hekayələrdən götürmüşdür.

"Ananın oğula layla" deməsi adlı ilk şeirini isə Dəbistan jurnalında çap etdirmiş, 1906- 1908 ci illərdə "Xoruz", "Keçi", "Yeni köməkçi", "Layla", "Çoban mahnısı", "Səhər", "Təpəl Kəlim", "Bir quş", "Çütçü", "Payız" kimi tərbiyəvi əhəmiyyət kəsb edən şeirlərini qələmə almışdır. Bu şeirlərin başlıca xüsusiyyəti, sadə, anlaşıqlı dildə yazılmış olması və şairin həyata uşaqların gözündən baxması və əşyaları, hadisələrin izahatını onların dərk edə biləcəyi şəkildə vermiş olmasıdır.

Qərənfiləm mən,
Gözəl güləm mən;
Yaşıl saplaqlı
Bir sünbüləm mən.

"Qərənfil" şeirində şair qərənfilin surətini ən incə poetik boyalarla, emosionallıqla təsvir etmiş, uşaqlar gül haqqında canlı təsvvür yaratmışdır. Abdulla Şaiq "öz əsərlərində uşaq təbiətinin zəruri tələbindən doğan əyanilik prinsipinə, canlılıq konkretlilik, inandırıcılıq xüsusiyyətlərinə ciddi əməl edirdi"(2, 132)

Şair "Bahar", "Payız", "Payızın son gecəsi" "Ana yurdu" "Vətən nəğməsi", "Vətən" kimi şeirlərində canlı peyzajlar, təbiət lövhələri yaratmaqla bərabər, vətəni oxucularına daha yaxından tanıtdırmışdır.

Çöllərində şən,
Hər yerin gülşən.
Sən nə gözəlsən,
Ey ana Vətən! (1, 72)

"Ana yurdu" şeirindən götürülmüş bu kiçik hissəni təhlil edib görərik ki, şair sadə obrazlı ifadələrlə, yüksək emosionallıqla vətənpərvərlik duyğularını öz oxucularına aşılayır. Bu kimi şeirlərdə vətənə qarşı böyük məhəbbət, həssaslıq aydın şəkildə duyulur və uşaqların yaddaşlarına həkk olunur.

Abdulla Şaiqin "Məktəbdə", "Məktəbə təğrib", "Oyan oğlum" kimi şeirlərində məktəbə, təhsilə olan sevgi təsvir olunmuş, bütün qaranlıq yollara məhz elmin çıraq olduğu göstərilmişdir.

Səhər ziyandır yuxu,
Məktəbə get, dərs oxu.
Al şəfəqli günəş var,
Pəncərədən parıldar (1, 71)

Mirzə Ələkbər Sabir də "Məktəbə təğrib" adlı şeir yazmış, o da təhsil, elm haqqında düşüncələrini, ən munis duyğularını obrazlı şəkildə təsvir etmişdir. Ümumiyyətlə, məktəb mövzusu M. Hadinin "Məktəb şərqisi", "Qızlar bulağı", "Məktəb", Əli Nəzminin "Məktəb uşağı", "Çalışqan Cəmal", Abbasağa Nazir Qayıbzadənin "Məktəb", Ə.Cavadın "Müəllim", H.Cavidin "Qız məktəbində" və digər sənətkarların yaradıcılıqlarında tez- tez işıqlandırılır, elm haqqında düşüncələrini öz qəlblərindən gələn poetik sözlərlə ifadə etmiş, cəhalət və avamlıq dünyasının məhv edilməsinə qarşı ən böyük silah kimi təsvir edilmişdir. Bu mövzuya müraciət olunmasının digər səbəblərindən biri avamlıq əleyhinə mübarizə idisə, digəri həmin dövrdə surətlə yeni üsullu məktəblərin açılması idi. Bu Təhsil ocaqları şagirdlərin ana dilində tədris almasına çalışmaqla yanaşı, qızlarıda elmə, təhsilə cəlb etməyə, valideynləri cəhalət yuxusundan ayıdıb, övladlarına gözəl gələcək bəxş etmələrinə səy göstərirdilər. Dövri mətbuat da bu ideyaların gerçəkləşməsinə yardım etmiş, sənətkarların elm uğrundakı qələm döyüşlərində onlara dəstək olmuşdular.

"Dəbistan", "Rəhbər", "Məktəb" kimi məcmuələrdə bədii nümunələr tez-tez işıqlanıdırılır, təbliğ olunurdu. "Dəbistan" jurnalında A. Bakıxanov yeni məktəbləri mollaxanlar ilə müqayisə edir, onlarda tətqbiq olunan cəza üsullarından səəhnəciklər verirdi. N.Nərimanov isə "Məktəb jurnalının ilk sayında böyük sevinc hissi ilə qeyd edirdi ki, " Şükürlər olsun ki, bu axırıncı illərdə məktəblər artır, camaatda məktəbə az da olsa bir rəğbət, bir ehtiyac hissi oyanır" (2, 92). M.Hadi "Qızlar bulağı", H.Cavid "Qız məktəbində" adlı əsərlərində isə qızları məktəbə səsləyirlər. Bu şeirlərdə artıq müasirləşmə meyilləri özünü göstərir və təhsilli qızların obrazları sadə, səliqəli mübaliğəsiz formada təsvir olunmuşdur.

Qeyd etdiyimiz kimi M.Ə.Sabir də məktəb mövzusunu xüsusi həssaslıqla yanaşmış, "Məktəbə təğrib" şeirindən başqa "Elmə təğrib", "Məktəb uşaqlarına töhfə" kimi əsərlərində məhz, uşaqların dərk edə bilcəkləri şəkildə məktəb haqqında düşüncələrini poetik dillə ifadə etmişdir.

Mənim bağım, baharım!
Fikri ziyalı oğlum!
Məktəb zamanı gəldi,
Dur, ey vəfalı oğlum!
Ey gözüm, ey canım!
Get məktəbə, cavanım!

"Məktəbə təğrib" şeirindən götürülmüş birinci bəndə nəzər yetirsək görərik ki, burada Sabir uşaqlarla necə sadə və həlimli dildə danışdığını və bu misraların necə böyük məna gözəlliyi ilə yükləndiyinin şahidi oluruq. Həmçinin, şairin uşaqlar üçün yazdığı "Uşaq və buz", "Yaz günləri", "Qoca bağban", "Uşaq və pul", "Təbib və xəstə", Çütçü kimi əsərləri mövzu ideyasının rəngarəngliyi, dilinin sadəliyi ilə fərqlənir. "Yalançı Çoban" mənzum hekayəsində qurduğu süjetlə, yaratdığı real poetic lövhələr ilə sanki uşaqlara həyat dərsi verir.

Bax, yalançı tanindi cünki çoban,
Doğru derkən sözü göründüyü yalan.
Hərgiz, oğlum, yalan demə ki, xuda
Dust tutmaz yalançının əbəda!

Göründüyü kimi Sabirin şeirlərində mündəricə ilə həyat hadisələri vəhdət şəklində olur və dərin məna ifadə edir. Ümumiyyətlə, məna gözəlliyi həmin dövrün şeirləri üçün başlıca prinsip hesab edilirdi. S.Vurğun qeyd edirdi ki, "Mənası dayaz, qayə və məqsədi aydın olmayan, ötərgi hisslər və təsirlər tərənnüm edən əsərlər uşağın hafizəsində ani bir qığılcım kimi parlayıb sönür" (4, 139). Sabirin də uşaqlar üçün yazdığı şeirlərində də qəlbinin həqiqətlərini həyatla əlaqələndirib poetik dilin anlaşıqlı sadə forması ilə ifadə etiyinə görə uzunmüddət yadda qalır.

İstifadə olunmuş ədəbiyyat:

1.Azərbaycan Uşaq Antologiyası. II cild Bakı: "Öndər", 2004
2.Haciyev Aydın "Azərbaycan uşaq ədəbiyyat tarixi". Bakı: "Təhsil", 2004
3.Namazov Qara "Azərbaycan uşaq ədəbiyyat". Bakı: "Maarif" 1984
4.Vurğun Səməd "Seçilmiş əsərləri" V cild. Bakı: "Şərq- Qərb" 2005

J.Qahramanova

Early 20th century Azerbaijani children's literature

Summary

Children's literature is an integral part of the literature. Its main subject is children. The main purpose of children's literature is to help children's development of moral evolution and formulation

of their personality. The artist who writes on this subject should know the inner world of the child. He/she as the first guide to the life, he/she should show the right direction to the children. The artist who addresses to this literature should pay special attention to the subject he/she chooses to consider. In general, the beauty of meaning was considered to be the principal principle for the poetry of that era. Not only the context of child literature, but also the language style features should be taken into account. Thus, the language of written works should be fuzzy, clear, smooth, and they should be clearly understood by children. In the literature of Azerbaijan, children's issues were addressed to riddles, songs, folk plays, tongue-twisters, proverbs and sayings, as well as oral folk literature. Since the end of the 19th century, Azerbaijan has developed a different approach to children's literature.

In this period mainly manuals such as textbooks were created. At the beginning of the 20th century, in M. Sabir's, A.Sahhat's, A.Shaig's and others' works, invaluable samples of children's literature was created. Their poems such as "Uşaq və buz", "Qərənfil", "Keçi", "Dovşan" contains the children's most sensitive emotions, thoughts and artistic aesthetic pleasures. The main feature of these poems is that it is written in a simple, understandable language, and that the poet views the life from children's perspective.

Key words: children's literature, poetic expression, content

Д.Ж.Гахраманова

Детская литература начала 20 века

Резюме

Детская литература является неотъемлемой частью литературы. Его основной предмет - дети. Основная цель детской литературы - помочь детям развить нравственную эволюцию и сформулировать свою личность. Ремесленник,, который пишет на эту тему, должен знать внутренний мир ребенка. Он /она как первый проводник по жизни, он / она должен показывать правильное направление детям. Ремесленник,, который обращается к этой литературе, должен обратить особое внимание на предмет, который он / она выбирает для рассмотрения. Вообще красота смысла считалась главным принципом поэзии той эпохи. Следует учитывать не только контекст детской литературы, но и особенности языкового стиля.

Таким образом, язык письменных работ должен быть нечетким, ясным, гладким, и они должны быть понятны детям. В азербайджанской литературе проблемы детей были адресованы загадкам, песням, народным пьесам, скороговоркам, пословицам и поговоркам, а также устной народной литературе. С конца XIX века в Азербайджане выработался иной подход к детской литературе. В этот период были созданы в основном учебные пособия, такие как учебники. В начале XX в. В работах М. Сабира, А. Саххата, А. Шейга и других созданы бесценные образцы детской литературы. Их стихи, такие как «Uşaq və buz», «Qərənfil», «Keçi», «Dovşan», содержат самые чувствительные эмоции детей, мысли и художественные эстетические удовольствия. Главная особенность этих стихов заключается в том, что они написаны простым и понятным языком и что поэт рассматривает жизнь с точки зрения детей.

Ключевые слова: детская литература, поэтическое выражение, содержание

Redaksiyaya daxil olma tarixi: 1.04.2019
Çapa qəbul olunma tarixi: 16.04.2019
Filologiya üzrə fəlsəfə doktoru İlahə Hacıyeva tərəfindən çapa tövsiyə olunmuşdur.

GÜNEL XIDIRLI
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Üzeyir Hacıbəyli 68
filmanpiriyev@mail.ru

XƏSTƏ HASAN LİRIKASINDA MƏZMUN ZƏNGINLİYİ

Xülasə

Məqalə Axıska türklərinə məxsus folklor nümunələrinin, daha konkret desək onun ən görkəmli nümayəndələrindən olan Xəstə Hasanın yaradıcılığındakı mövzu istiqamətlərinə həsr olunmuşdur. Xəstə Hasanın sənəti və yaradıcılığının böyüklük və ululuğu öz qaynağını ilk növbədə mühitdən almışdır. Xəstə Hasanın poeziyasının məzmun zənginliyinə həsr olunmuş bu məqalədə sənətkarın poetik irsinin, xüsusilə Axıskada məşhur olmasının səbəblərinin elmi əsasları təhlil edilmişdir.

Sənətkarın poeziyası mövzu, janr, bədii məna sistemi baxımından çox zəngindir. Onun şeirlərinin mövzu əhatəsi dini, vətən həsrəti, məhəbbət, əxlaqi-didaktik və s. baxımından təhlil edilmişdir. Sənətkarın vətən həsrəti ifadə edən şeirlərində xalqın həyatında baş verən siyasi, tarixi hadisələrlə bağlılıq diqqət mərkəzində saxlanılmışdır. Dini məzmunda söylənmiş şeirlərdə islamın müqəddəs kitabı, "Quran", peyğəmbər Məhəmməd rəsuləleyhüssəlam, 12 imam, Həzrət Əlinin adları çəkilir. Belə şeirlərdə təkcə Allah, Məhəmməd, Əli və başqaları sadəcə tərənnüm olunmur, insanlara həmçinin yüksək mənəvi dəyərlər təbliğ olunur. Aşığın poeziyasında məhəbbət mövzusunun çoxlu çalarları müşahidə olunur. Nümunələrdən göründüyü kimi, aşıq məhəbbət lirikasında gözəllik motivlərindən istifadə edərək insanın daxili dünyasına sirayət edir, onu gözəl əməllərə, əxlaqlı və ədəb-ərkanlı olmağa dəvət edir. Qadın gözəlliyinin başlıca əlaməti kimi, əxlaq, mərifət olduğu nəzərə çatdırılır.

Xəstə Hasan müasir aşıq poeziyasında klassik poetik ənənələrin görkəmli davamçılarındandır. Burada həmçinin ustad aşığın fərdi üslubunun əsas cəhətləri, bədii təsvir və ifadə vasitələrindən istifadə məharəti də konkret nümunələr əsasında şərh olunmuşdur. Məqalədən aydın olur ki, Xəstə Hasan Azərbaycan aşıq poeziyasının mövzu dairəsinin bütün mütərəqqi ənənələrini davam etdirmişdir. Şeirlərin aktuallıq kəsb etmə məziyyətləri bədii örnəklər vasitəsi ilə aydınlaşdırılmışdır.

Açar sözlər: məhəbbət, şeir, dini, gözəl, aşıq

Xəstə Hasan Axıska aşıq mühitinin yetişdirdiyi ən görkəmli sənətkarlardan biridir. Onun zəngin yaradıcılığı mühitin tarixi-mədəni, bədii-estetik mənzərəsini aydınlaşdırmaq baxımından mühüm əhəmiyyət daşıyır. Tarixi ənənənin yararlığı, sənətin özünəməxsusluğunun qorunuşu ilə zənginləşməsi timsalında Axıska aşıq mühiti funksional xarakteri ilə seçilir. Aşıq Zülali, Aşıq Səfili, Ürfani, Qul Qaranı, Aşıq Şenlik, Usta Polad, Aşıq Ömər, Aşıq Teyfi, Aşıq Nuru və s. ustad sənətkarlar bu mühitin formalaşmasında müstəsna rol oynamışlar. Axısqa aşıq mühitinin ustad sənətkarı Xəstə Hasan da öz fitri istedadı, zəngin yaradıcı təbi ilə ədəbi-mədəni prosesə töhfələrini vermişdir. Mövzu zənginliyi ilə seçilən şeirləri aşıqların repertuarında uzun illər türk ellərni dolaşmışdır. Ayrı-ayrı şeirlərinin zəngin informasiya yükü bunun göstəricisdir. Məsələn, "Yüzdə bir" rədifli divanisində bu sənətkarların əksəriyyətinin adını çəkir.

Abu çeşmə göllərində sona da bir, qaz da bir,
Süsən sünbül, mor mənəvşə, bülbül ötər yazda bir.
Vaqif dərtdən xəbərdardı, gövhərin qiyməti yox,
Qul Qaranı, Qara Zülal, Aşıq Ömər sözdə bir.

Molla Xəlis dəlalətdə içdi eşqin badasın.
Küfdadiyə da verildi, onnan da ziyadasın.
Urfanı dərya-ümmandı, keçmək olmaz adasın.
Aşıq Seyfi, Usta Polad, Dəli Tamo sazda bir. (8, 133)

Ustad sənətkarın dövrünün aşıqlarını ayrı-ayrı misra və bəndlərdə xatırlaması onların sənətinə verilən qiymət idi. Bu gün onların yaradıcılığı tam şəkildə əlimizə çatmasa da, ancaq məlum nümunələr ümumi təsəvvür formalaşdırmağa imkan yaradır. "Çox aşıqlar gəldi, getdi, Xəstə Hasan bir" deyən sənətkar özü ilə bağlı dolğun bilgi verir. Həqiqətən də Xəstə Hasan XIX yüzilin birinci yarısında və ortalarında yazıb-yaradan ən məşhur sənətkar olmuşdur. Xəstə Hasan çoxlu sayda qoşma, gəraylı, divani, təcnis, müxəmməs və bir neçə dastan yaratmışdır. Həmçinin aşıq dövrünün görkəmli söz ustaları Qul Qaranı, Usta Polad, Ürfani ilə deyişmişdir. Aşığın lirik poeziyası ideya-məzmun xüsusiyyətlərinə görə fərqlənir. Xəstə Hasan saf məhəbbəti, yurdunun gözəllərini tərənnüm etməklə bərabər, həm də dövrünün ictimai-siyasi hadisələrinə öz mövqeyini bildirir. Əxlaqi, nəsihətamiz fikirləri ilə insanları doğru yola çağırır. Aşığın lirik poeziyasını mövzusuna, ideyasına görə aşağıdakı şəkildə qruplaşdırmaq olar:

a) Vətən həsrəti ifadə edən şeirlər;
b) dini şeirlər;
c) məhəbbəti tərənnüm edən şeirlər;
ç) öyüd-nəsihət ruhlu şeirlər.

Aşıq sənəti bütün dövlərdə xalqın həyatında baş verən mühüm siyasi, tarixi hadisələri özündə əks etdirmişdi. Axısqa aşıq mühitinin elə bir saz-söz sənətkarı yoxdur ki, yaşayıb-yaratdığı dövrün hadisələrinə, ictimai ağrılarına öz münasibətini bildirməsin. Xəstə Hasan da bir ustad sənətkar, el aşığı kimi baş verənlərə biganə qalmamış, dövrün ictimai, siyasi, mədəni proseslərinə yaradıcı mövqeyini bildirməyə üstünlük vermişdir. Yurd, torpaq vətən sevgisi bir istiqamət kimi onun şeirlərində mühüm yer tutur.

Ustad sənətkar vaxtilə qaçqın və səfil ermənіləri Axılkələkdəki Dırqına kəndində ürək genişliyi ilə qarşılamış, onlara yer vermişdir. Əvəzində isə aşıq otlağına yiyələnmiş təzə qonşularının nanakorluğuyla üzləşmişdir. Bunlar ustad sənətkarın gözündən yayınmamış və ona "Dırqınada" rədifli gəraylısında öz münasibətini bildirmişdir.

Ermənіyə yol açıldı,
Yuva saldı Dırqınada
Yerli getdi, yersiz qaldı,
Əcəb haldı Dırqınada. (4, 20)

Göründüyü kimi, bu nümunə Xəstə Hasanın zamanında ermənilərlə bağlı olanları, onların Axıskada məqsədli yerləşdirilməsini, dövlət siyasətinin türkə münasibətini, erməni xislətini aydınlaşdırmaq baxımından faktlaşır. Tarixi prosesin gedişi haqqında dolğun təsəvvür formalaşdırır.

Ümumiyyətlə, Xəstə Hasanın şeirləri janr və məzmun səviyyəsi baxımından zənginliklə səciyyələnir. Onun şeirlərinin mövzu əhatəsi təkcə vətən həsrəti, qürbət sıxıntısı, nisgil, ayrılıq motivləri ilə məhdudlaşmır. Dini məzmunda söylənmiş və yazılmış şeirlər də xüsusi yer tutur. Bu şeirlər islami xarakter daşıyır və müqəddəs dini dəyərləri tərənnüm edir. Xəstə Hasanın şeirlərində Allah, Məhəmməd peyğəmbər, islamın müqəddəs kitabı "Quran", Həzrət Əli, İmam Hüseyn və başqa müqəddəslərimizlə bağlı dolğun bilgilər vardır. Məsələn:

Yer altında qızıl öküz ürüzgar üsdündədir,
Hax Talanın bir nişanı peyğəmbər üstündədir.
Ömər, Osman, Abubəkir, şafaətçi ya Rəsul.
Bu dünyanın dörd ətrafı bir şahmar üsdündədir.

Ol yaradan Allah ki, çox mal verib vəliyə,
Çox malın çox əziyyəti var, onçun verməz dəliyə,

Asdanımsan-deyib, əlini çək ki, çəkdi Əliyə, ır
Heç kafıra boyun əyməz, Zülfüqar üstündədir. (8, 130)

Bu tip şeirlər aşıq yaradıcılığında bir istiqamət olaraq özünü göstərir. Qurbani, Abbas Tufarqanlı, Xəstə Qasım, Aşıq Valeh, Ağ Aşıq, Aşıq Alı, Şəmkirli Aşıq Hüseyn və s. Sənətkarlar şeirlərində dini mövzulu nümunələrə daha çox üstünlük vermişlər. Dastanlarda da bu özünə genişliklə yer alır. Aşıq yaradıcılığında dini mövzuların tutduğu yeri P.Əfəndiyev belə vurğulayır: "Qədimdən bəri el sənətkarları dini mövzulara da maraq göstərmişlər. Aşıqlar dini qayda-qanunların əxlaqi-fəlsəfi mahiyyətini dərindən hiss etmiş və öz şeirlərində yeri gəldikcə ondan ümdə bir vasitə kimi istifadə etmişlər. Xüsusilə dini möcüzələr, peyğəmbərlərlə, imamlarla, cənnət və cəhənnəmlə əlaqədar mövzular aşıq şeirlərində az da olsa qalmışdır. Bu cür nümunələrə əsas etibarilə ustad aşıqların deyişmələrində, bağlama və qıfılbəndlərində rast gəlirik." (3, 282) Axıska aşıq mühitidə bu müstəvidə tipik nümunələrlə diqqəti cəlb edir. Xəstə Hasan və digər ustad aşıqlar bu cür dini şeirlərdə Allaha Yaradan, Qəni Sübhan, Mövla, Xudam, Rəbb deyə müraciət etmişdilər:

Bizi yoxdan var eyləyən,
Qəni Sübhan birdi bir.
Abu, atəş, xaki- baddan
Xəlq olun can birdi bir.
Bir qətrədən xəlq eyləyib,
On səkkiz min aləmi,
Canlı, cansız hər nə varsa
Külli cahan birdi bir. (5, 55)

Aşığın şeirlərində təkcə Allah, Məhəmməd, Əli və başqaları yalnız tərənnüm və mədh olunmur, belə şeirlərdə əsas məqsəd insanlara mənəvi dəyərlərin təbliğ olunmasıdır. Xəstə Hasanın Aşıq Ömər, Aşıq Qaranı ilə bəzi deyişmələri, həmçinin "Eyləmə", "Nədi" və s. şeirləri dini mövzudadır. Bu nümunələr ustadın dini elmlərə, onun qayda və qanunlarına, müqəddəs kitablara lazımı qədər bələdliyini göstərir.

Qul Qaranı:
Otuz iki fərz içində oxunanı bilməli,
Sayminə səcdə et də, həm salavat qılmalı,
Qaranı yüz yaşasa da axır bir gün ölməli,
Bizi yoxdan var edənin yazdığı fərmana bax.
Xəstə Hasan:
Hasan deyər qiymatda suru çalan kim olu,
Əzrayıl ki, can alandı, onun canın kim alı,
Gələndə ölüm bazarı, tarixlər tamam olu,
Xudam qismət eyləy'sə, beş əşrə Qurana bax. (5. 62)

Şeirdən aydınlaşır ki, həm Xəstə Hasan, həm də Qarani Quranı oxumağı, dini dəyərlərə əməl etməyi müqəddəs borc bilirdilər. Ona görə də hikmətamiz fikirlərini dini obrazlarla ifadə etmişdilər. Deyişmələr bu baxımdan xüsusi önəm daşıyır və mühiti öyrənmək baxımından ciddi faktura ilə müəyyənləşir.

Şeirlərin məna zənginliyində bütün olanlar məhəbbətin ifadəliliyinə köklənir. Yurd, torpaq sevgisi, insanın mənəvi və zahiri gözəlliyinin təsvir və tərənnümü, lirik mənin hiss və duyğularının ifadəliliyi bir tərəf kimi aşıq yaradıcılığında özünə geniş yer alır. Bu cəhətdən ustad sənətkarların aşıq poeziyasında yaradığı bu mövzulu əsərlərə prof.Qara Namazov çox yüksək qiymət verərək yazır: "İnsan məhəbbəti, insan gözəlliyi: insanın amalı və mənəvi qüdrəti xalq aşığının ilham mənbəyi olmuş, onu riqqətə gətirmişdir. Buna görə də məhəbbət və gözəllik aşıqların həmişə müraciət etdikləri mövzu olmuşdur. Daha doğrusu, aşıq sənəti məhəbbət və gözəllik duyğularından

yaranmışdır. Aşıq sənətinin mövzusu yalnız aşiqanə hisslərin bədii təsviri və tərənnümü ilə məhdudlaşmayıb, insan qəlbinin nəhayətsiz istəkləri, ülvi duyğuları, hiss və həyəcanları, təbiətin əsrarəngiz gözəllikləri, bu gözəlliyin insanda doğurduğu əhval-ruhiyyələrlə zənginləşmiş və rahiyələnmişdir." (7, 104) Xəstə Hasanın yaradıcılığının da enerji qaynağında bunlar üstünlük təşkil edir. O, məhəbbət mövzusunda mənalı, dəyərli şeirlər yaratmışdır. Məhəbbət yolunda fədakarlığa dözmək, sevgi iztirabları, vüsal həsrəti bu cür şeirlərin başlıca mövzusunu təşkil edir.

Könül quşi arz eylədi silahi,
Şimdi yada düşdi sinə səvdügüm,
Həsrətindən yana-yana kül oldum,
Yandım döndüm gülə, səvdügüm.

Həsrətindən üç gün qalsam arali
Geniş dünya bu başima tarali
Nə müddət diyersin qəlbi qarali
Gəl səninən vədə kəsax, səvdügüm. (1. 184)

Göründüyü kimi, burada aşiqin məşuqəsinə olan sevgisi bədii mətnə gətirilir, həsrətdən yanaraq külə döndüyü, həmçinin geniş dünyanın ona dar gəldiyi ifadəsini tapır. Klassik ənənəyə köklənən bu nümunələr, eləcə də digər səpkili şeirlər bütünlükdə ənənəni özündə ehtiva edir.

Ümumiyyətlə, qadın gözəlliyi, vətən təbiətinin füsunkarlığı aşıqların telli sazına söz incilərindən bəzək vermişdir. Klassik aşıqlar öz şeirlərində təmiz, ləkəsiz, boyasız, müqəddəs duyğuları tərənnüm etmişlər. Onlar lirik şeirlərində aşiqin məhəbbət yolundakı cəfakeşliyini, sabit qədəm olmasını, aşiq ilə məşuqun iztirab və sevinclərini təsirli boyalarla vermişlər". (6, 9)

Ustad sənətkar aşıq şeirinin müxtəlif formalarında məhəbbət mövzusunda dediyi əsərləri ilə xalq yaradıcılığına yeni çalarlar gətirmişdir. Dövrün bədii-estetik mənzərəsi, mühitin ümumi düşüncə informasiya təfərrüatlı təhlillərə, bilgiyə şərait yaradır. Xəstə Hasan məhəbbət mövzusunda yaratdığı şeirlərində səlvi boylu, şəkər dilli, mina gərdənli, bədir sifətli, ay camallı, müjgan kirpikli, hilal qaşlı gözəllərin bədii portretini yaratmışdır. Belə gözəllərin təsvirində aşıq real boyalardan, təbii bənzətmələrdən yerli-yerində istifadə etmişdir:

Könül, səni müjdələyim savaxdan,
Budur üzü xallı yarım gəliyer.
Əzələri, məzələri, ləbləri,
Dili şəkər-ballı yarım gəliyer.

Ay qız, əbruların gərdənnən aşar,
Bad əsəndə incə belə sarmaşar,
Alların o xala nə xub yaraşar,
Boyu səlvi boylu, yarım gəliyer. (8, 86)

Aşıq qadın gözəlliyini obrazlı bir şəkildə vermək üçün səlvi boylu, şəkər dilli, fitnə qaşlı kimi bənzətmələrə yer vermişdir.

Xəstə Hasanın şeirlərinin böyük qismi el gözəllərinin tərifindən ibarətdir. Klassiklərin, şifahi və yazılı ədəbiyyatın görkəmli nümayəndələrinin yaradıcılığında bu bir xətt olaraq özünü göstərir. Qurbani, Abbas Tufarqanlı, Sarı Aşıq, Xəstə Qasım, Aşıq Valeh, Ağ Aşıq, Aşıq Hüseyn Şəmkirli, Aşıq Alı, Aşıq Ələsgər və başqalarının yaradıcılığında bu tip nümunələrə rast gəlirik. Onların təsvir etdiyi gözəllər geyimindən tutumuş, yeriş-duruşuna, əhval-ruhiyyəsinə kimi vəsf olunmuşlar. Xəstə Hasan da elin-obanın gözə gələn qızlarını özünəməxsus deyim tərzində tərənnüm edir, tərif elədiyi gözəlin adını çəkir və konkret bir şəxsə ünvanlayır:

Təzədən bir gözəl çıxdı aləmə,
Al yanağa, gül buxağa maşallah!

Onun gözəlliyin aldım qələmə,
Bədir sifət, ay camala maşallah! (8, 101)
Və yaxud:
Xəstənin yarısın ay gözəl Fədi,
Artırdın dərdimi eylədin dəli.
Göylərin ülkəri, elin sərdəri,
Sən getdin, cəsətdə canım da getdi. (8, 82)

Lirik mənin hiss və duyğuları, mənəvi aləminin zənginlikləri, istək və arzuları aşıq tərəfindən yüksək ustalıqla mətnə gətirilir. Ümumiyyətlə, aşıq yaradıcılığı milli-mənəvi yaddaşın ifadəliliyi anlamında kifayət qədər ciddi məzmun kəsb edir. X.Hasanın şeirləri də mühitin etnoqrafik mənzərəsini, inam və etiqadlarını ifadə etmək baxımından müstəsna imkanlılıqla görünür. Qoşmadan aydın görünür ki, sənətkarın vəsf etdiyi gözəl – Fədi Alosman elindəndir. Fədi Xəstə Hasanın real həyatda, toyda, yığıncaqlarda rast gəldiyi el qızlarındandır. Xəstə Hasan qadının daxili və zahiri gözəlliyindən bəhs edərkən onun bütün tərəfləri ilə canlı obrazını yaratmağa çalışır. Aşiqin sevgisini misra və bənd səviyyəsində obrazlaşdırır.

Yaxşı olar baş qoyasan, bir gözəlin qucağına.
Yanağın bu yanağına, dodağın o dodağına.
Tutasan əllərinnən, dolanasan otağına.
Yuxun da gəlməz yatasan, belə yarın həvəsinnən.

Qarannıxda dadı olmaz, məşhəlini yandırasan.
Həmi sağa, həmi sola, müleyimcə döndərəsən.
O sənnən küşk tutacax, başarginən sən yıxasan.
Yuxun da gəlməz yatasan, belə yarın həvəsinnən. (8, 123)

Onu da qeyd edək ki, klassik poeziyamızda olduğu kimi, aşıq yaradıcılığında da qadın gözəlliyinin başlıca xüsusiyyəti ədəb, mərifət, vəfa, təmiz addır. Ona görə də qadına, gözələ yalnız sevgili kimi deyil, həyat yoldaşı, gəlcəyin anası, övladların ilk tərbiyəçisi kimi baxılmışdır. Bu ruhda olan şeirlərə Xəstə Hasanın sələflərinin xələflərinin yaradıcılığında da rast gəlirik. Qurbani, Abbas Tufarqanlı, Sarı Aşıq, Xəstə Qasım yaradıcılığı və s. buna nümunədi. Yazılı ədəbiyyatın görkəmli nümayəndələri Vaqif, Zakir, M.Aşiq, C.Nəva, Ə.Nəbati, X.Natəvan və s. öz şeirlərində bu ideyaların ifadəsinə xüsusi həssaslıqla yanaşır.

Onu da əlavə edək ki, Xəstə Hasanın yaradıcılığı təkcə məhəbbət, sevgi duyğuları ilə məhdudlaşmır. Didaktik motivli şeirlər bir xətt olaraq özünü göstərir. Ümumiyyətlə, aşıqlar cəmiyyətdə baş verən hadisələrin qısa təhlilini verir, əxlaqi nəticələr əsasında məsləhət, nəsihət, ruhlu şeirlər yaradırlar. Öyüd-nəsihət məzmunlu şeirlər aşıq yaradıcılığında geniş yer tutur. Belə məzmunlu şeirlər aşıq yaradıcılığında ustadnamə və ya nəsihətnamə kimi qeyd olunur. Qoşma şəklində yazılan belə nümunələrə ən çox məhəbbət dastanlarımızda rast gəlinir. Məhəbbət dastanlarımızın əksəriyyəti ustad nəsihəti ilə başlayır. Belə ustadnamələr dastanın əsas mətni ilə birbaşa əlaqədar olmasa da insanlara əxlaqi-tərbiyəvi fikirlər aşılayır. Aşıq şeirinin bu növündə insanın mənəvi gözəlliyi, cəmiyyət içərisində davranış qaydaları, xalqın adət-ənənəsinə uyğun tərənnüm olunur. Belə öyüd-nəsihət ruhlu şeirlər Xəstə Hasanın yaradıcılığı üçün də səciyyəvidir.

Bəyzadalar məclisinə gələndə,
Axlı kamil olan, ayağı gözdər.
Ustadınnan nəsyət alan kimsələr,
Axlı kamil olan, əyaği gözdər. (8, 68)

Qoşmadan da bəlli olduğu kimi, aşıq məclisdə, xalq içərisində özünü mərifətli aparmağı, sadə olmağı, ustadından nəsihət alan hər kəsin öz yerini bilməsini, var-dövlətinə, gücünə güvənib başa keçməməyi məsləhət görür. Aşıq elin anası kimi bütün zamanlar boyu milli-mənəvi dəyərlərin təbliğatçısı, el məclislərinin bəzəyi olmuşdur. Mərifət elmində kamil olan bu şəxslər həmişə xalqla birgə olmuş, birgə mənəvi dəyərlərə sahib çıxmışlar. O.Sarıvəlli bu səbəbdən də xüsusi olaraq

vurğulayırdı ki, aşıq eldən alar öz nəfəsini. Xəstə Hasanın ustadnamələri məhz bu dəyərləri əks etdirmə gücü ilə yaşarlıq qazanmışdır.

Xəstə Hasan nəsihət ruhlu şeirlərində yaşadığı mühitdə gördüyü, eşitdiyi hadisələrə biganə qalmamış, ona öz münasibətini bildirməyə çalışmışdır. Dövrün ictimai-siyasi problemləri, xalqın həyatının ən maraqlı, tipik örnəkləri onun şeirlərində mövzuya çevrilmişdir. Ona görə də bu nümunələrin enerji qaynağı bir problem olaraq həmişə açılma aktuallığı ilə maraq doğurur. Bir gəraylısında da aşıq insanları, dostluğa, qardaşlığa, birliyə, mehriban olmağa səsləyirdi:

Xəstə Həsən, sözlərimi
Dinləyənə nəsihət.
Yatanda eylə salavat,
Qalxanda et vəsiyyət.
Göydən yağmadı rəhəmət,
Yerdən qalxdı bərəkət,
Keçdi günüm, doldu sinnim,
İxtiyar üstündədi. (2. 176)

Bütün bunlar Xəstə Hasanın yaradıcılığının mövzu və məndəricə zənginliyini, yaradıcı istedadının imkanlarını, dünyagörüşünü, ustad olaraq hansı duyğularla yaşadığını Axıska aşıq mühitində yerini aydınlaşdırmaq üçün kifayət qədər material verir.

Ədəbiyyat:

1. Ahıska türk folkloru. (A.Hacılı. A.Poladoğlu) Bakı, Mütərcim, 1998, 228 s.
2. Azərbaycan folkloru antologiyası. Borçalı folkloru. Bakı, Azərnəşr, 1996, 260 s.
3. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı, Elm və təhsil, 2012, 600 s.
4. Hacılı A. Axısqalı Aşıq Molla Məhəmməd Səfili. Bakı, Mütərcim, 2014, 84 s.
5. Hacılar V. Xəstə Hasan. Həyatı, şeirlərindən seçmələr. Tiflis, Universal 2009, 86 s.
6. Həkimov M. Azərbaycan kalssik aşıq yaradıcılığı. Bakı, APİ, 1982, 87 s.
7. Namazov Q. Azərbaycan aşıq sənəti. Bakı, Yazıçı, 1984, 192 s.
8. Şamilov Ə. Axısqalı Xəstə Hasan (şeirləri və şeirlərinin yaranması haqqında rəvayətlər). Bakı, Elm və təhsil, 2012, 248 s.

Гюнель Тельман Хыдырлы

Богатство содержания в лирике Хесте Гасана
Резюме

Статья посвящена фольклорным образцам турок-ахыска, в частности, тематическим направлениям в творчестве Хаста Гасана, являющегося одним из самых выдающихся его представителей. Источником высоты и недосягаемости искусства Хаста Гасана является окружающая среда. В данной статье, посвящённой богатству содержания поэзии Хаста Гасана, рассмотрены научные основы поэтического наследия, в основном, причины его популярности в Ахыска.

Поэзия художника очень богата с точки зрения темы, жанра, системы художественного смысла. Тема его стихов - религия, тоска по родине, любовь, морально-дидактичекая. В стихотворениях поэта, выражающих тоску по родине, в центре внимания – связь народа с политическими, историческими событиями, происходящими в жизни народа. В стихотворениях религиозного содержания упоминается священная книга ислама Коран, имя пророка Мухаммеда (Мир ему и благословение!), 12 имамов, Хазрета Али. В таких стихах не

просто прославляются Бог, Мухаммед, Али и другие, в том числе пропагандируются высокие моральные ценности.

В поэзии ашуга преобладает много оттенков любви. Как видно из примеров, ашуг, используя мотивы красоты в любовной лирике, проникает во внутренний мир человека, призывая его к совершению добрых дел, к морали и добропорядочности. Отмечается, что под основным признаком женской красоты понимается мораль и воспитанность.

Хаста Гасан является одним из выдающихся последователей классических поэтических традиций в современной ашугской поэзии. Здесь также подчёркиваются существенные особенности индивидуального стиля профессионального ашуга, мастерское использование способов художественного описания и выражения на основе конкретных примеров. Как видно из статьи, Хаста Гасан продолжил все прогрессивные традиции тем ашугской поэзии. Преимущество актуальности стихов прояснены с помощью художественных образцов.

Ключевые слова: любовь, стихи, религия, красивая, ашуг

Gunel Telman Khidirli

The richness of content in the lyric of Khasta Hasan
Summary

The article focuses on the folklore samples of the Ahıska Turks, in particular the direction of the Khasta Hasan, one of his most prominent representatives. Khasta Hasan's art and creativity, first and foremost, originated from the environment. This article, devoted to the richness of the poetry of Hasan's poetry, examined the scientific foundations of the artist's poetic heritage, especially the reason for his popularity in Axis.

The artist's poetry is very rich in subject, genre, artistic sense. The theme of his poems has been analyzed in terms of religion, homeland longing, love, moral and didactics. The poet's poetry expressing his longing for his homeland has been maintained in the focus of political and historical events in the life of the nation. Poems in religious terms contain the holy book of Islam, the Quran, the Prophet Muhammad, the 12 Imams, and the names of Hazrat Ali. In such poems, not only God, Muhammad, Ali and others are praised, but also high moral values are being propagated to people. In the poetry of the ashug, many shades of love are observed. As can be seen from the examples, the ashug uses the motives of love in the lyric to spread the inner world of the person, inviting him to do good deeds, morals and morals. As the main sign of women's beauty, it is understood that it is morals and enlightenment.

Khasta Hasan is one of the outstanding followers of classical poetic traditions in modern ashug poetry. Here, too, the essential features of the individual style of master lover, the ability to use artistic expression and expression have also been interpreted on the basis of specific examples. It is clear from the article that Khasta Hasan continued to pursue all the progressive traditions of the subject area of ashug poetry. The novelty of poetry's actuality has been clarified through artistic samples.

Key words:love, poem, religious, beautiful, ashug

Redaksiyaya daxil olma tarixi: 1.04.2019
çapa qəbul olunma tarixi: 17.04.2019
Filologiya elmləri doktoru, professor Mahmud Allahmanlı tərəfindən çapa tövsiyə olunmuşdur.

ŞAHNAZ ABDULLAYEVA
Bakı Avrasiya Universiteti
Həsən Əliyev küc 135 a
sahnaz abdullayeva72@gmail.com

OSKAR UAYLDIN "BÜLBÜL VƏ QIZILGÜL" NAĞILINDA ŞƏRQ MOTİVLƏRİ

Xülasə

Məqalədə Oskar Uayldın "Bülbül və qızılgül" nağılı əsasında "bülbül və qızılgül" motivinin şərq ədəbiyyat nümunələri ilə tarixi poetik müqayisəsi aparılır. Bülbül və gül motivi simvolik olaraq, aşiqlə məşuqu ifadə edir. Bülbülün gülə məhəbbəti, gül – bülbül mövzulu hekayələr orta əsrlərdə daha çox yayılmışdır. Bu hekayələrin qaynağı İran ədəbiyyatı olduğu zənn edilir. Bülbül və qızılgül "Bülbülname", "Bülbüliyye", "Gül ü Bülbül" kimi adlarla xatırlanan əsərlərə mövzu olmuşdur. Fazil İrəvaninin "Qızılgül və bülbül" əsərində, Rifahinin "Bülbülnamə" məsnəvisində, Füzulinin ədəbi irsində, Azərbaycan əfsanələrindəki bülbül və qızılgül motivinin oxşar və fərqli cəhətləri müqayisə edilmişdir. Oskar Uayldın "Qızılgül və bülbül" nağılı mövzu və motiv baxımından Azərbaycan əfsanələrindəki qızılgül və bülbüllə bağlı əfsanələrlə oxşarlıq təşkil edir. Bu əfsanələrdən "Qızılgül əfsanəsi", "Ağ gül və bülbül", "Bülbül və gül", "Bülbülün son nəğməsi" "Bülbül niyə görmür" və s. əfsanələrin adlarını sadalamaq olar. Oskar Uayldın "Bülbül və qızılgül" nağılında əsl sevgi, humanist ideallara əsaslanan duyğular sınağa çəkilir, əsl sevgi riyakarlıqla müqayisə olunur. Şərq motivlərinin qərb ədəbiyyatında istifadə şəklinə diqqət yetirilmişdir.

Açar sözlər: Oskar Uayld, bülbül, qızılgül, məhəbbət, Şərq ədəbiyyatı, Azərbaycan əfsanələri.

Nağılın hər hansı bir xalqın adət-ənənəsi, mifik təsəvvürü, tarixi, dünyagörüşü ilə bağlılığı əsas şərt deyildir. Çünki bütün xalqların ədəbiyyatında nağıllar bir sıra bənzər motivlər əsasında yaranır. "Hansı xalqın, hansı ölkənin nağılına baxırsansa bax, mütləq reallaşmamış arzuların, xəyalların ifadəsini, yaşanılmamış sevgilərin, həyatların, güzəranların gerçəkləşmə modelini görəcəksən. İnsan fantaziyaları, təxəyyülləri üçün ən uğurlu meydan, ən optimal məkan məhz nağıl mətnləridir" (2.5)

Oskar Uayld yaradıcılığında nağıllar xüsusi yer tutur. Oskar yalnız uşaqlar üçün yox, böyüklərin də oxuya biləcəyi ibrətamiz nağılların müəllifidir. Oskarın bu nağılları maraqlı, təsirli, cəlbedici və düşündürücüdür. Ədibin yazdığı nağıllar iki kitabda toplanmışdır. Oskar ilk nağıllarını 1884-cü ildə "Xoşbəxt şəhzadə və digər nağıllar" adlı kitabda nəşr etdirir, ikinci hissə isə 1888-ci ildə işıq üzü görür. Həmin nağıllara "Sadiq dost", "Bülbül və qızılgül", "Xoşbəxt Şəhzadə" və s. nağılları misal göstərmək olar. Oskarın nağılları dərin mənəvi problemlərlə zəngindir.

Oskar Uayld "Bülbül və qızılgül" nağılında iki ayrı hekayədən bəhs etmişdir. Hekayədə iki süjet xətti var: birincisi tələbə ilə zəngin ziyalı qızının, ikincisi isə bülbül ilə gülün hekayəsidir. Beləliklə Oskar əfsanəvi obrazlarla muasir dövrümüzün sevgi hekayəsini birləşdirib, sintez yaratmışdır. "Bülbül və qızılgül" nağılında ədib insanın şan-şöhrətə meyilliliyini, pulun insanı necə dəyişdiyini, sevginin satın alınmasını ustalıqla açıb göstərmişdir. Nağılda bülbül bir tələbənin al qızılgül üçün ağladığını, necə ah-nalə etdiyini görüb günlərlə oxuduğu o gözəl nəğmələrin sahibini tapdığı üçün sevinir. Bu sevinc hələ də məhəbbətin, əsil sevginin varlığına olan sevinc hissi idi. Bülbül deyir: "Budur, həqiqi aşiq. Heç vaxt görməsəm də gecələr boyu onun barədə oxuyuram; hər gecə onun hekayəsini ulduzlara danışıram, indi isə onunla qarşılaşdım"(5.226). Bülbül bu gənc oğlanın göz yaşlarına dözə bilmir və həqiqi məhəbbət üçün özünü qurban verir ki, tələbə al rəngli qızılgülü öz sevgilisinə apara bilsin. Bülbül hələ açılmamış tumurcuq görür və ondan al qızılgül olmasını istəyir, lakin tumurcuq al qızılgül olması üçün canında taqət qalmadığını bunun ancaq onun qanı ilə qidalansa edə biləcəyini deyir. Bülbül oxuduğu gözəl musiqilərin səbabkarı bu gözəl, həqiqi sevgi üçün canından keçməyə razı olur və qəlbini qızılgülün tikanına sancır və sondəfə nəğməsini oxuyur, səhərə qədər qanı onun gövdəsinə axır, gülün ləçəkləri getdikcə qızarır və allaşır. Tələbə qızılgülü

görüb sevincək sevgilisinə aparır, lakin sevgilisi tələbənin gətirdiyi o al qızılgülün bir dəyəri olmadığını əsl dəyərli olan ona varlı oğlan tərəfindən hədiyyə olunmuş cəvahirat olduğunu deyir. Tələbə məyus olur, sevginin varlığına inamı ölür. Nağılda bülbülün həqiqi sevgi üçün etdiyi alturizm eqoist qızın nankörlüyü nəticəsində dəyərsizləşir. Əsərdə bülbül və qızılgülün təmsilində fədakarlıq göstərildiyi halda, tələbə və qızın timsalında qiymət bilməzlik göstərilir. Bülbül həqiqi sevginin aşiqidir. Tələbə isə ona görə canını verən bülbülün hissiyatsız olduğunu bildirir. Və burada da saf və təmiz məhəbbətin ancaq qızılgüllə bülbül arasında olduğunu insanlar arasında bu cür məhəbbətin mümkünsüzlüyü ifadə olunmuşdur.

Əsərdə gərginlik qız və tələbə arasında göstərilsə də, əsas gərginlik tələbənin öz daxilində yaşadığı sevgi, ağıl və güc arasında qalmasıdır. Sonda isə qazanan ağıl və güc olmuşdur. "Bülbül və gül" əsərindəki tələbəyə aid olan bu tərz düşüncələr Oskar Uayldın əsərlərindəki bir çox qəhrəmanların düşüncələri ilə səsləşir. Yazıçının sevgiyə inamsızlığı onun hər bir əsərində özünü ifadə edir.

Güllərə, çiçəklərə və quşlara olan sevgi ən ülvi, həzin və ünyetməz insan duyğularının əksi, təcəssümüdür. Təbiət – gözəlliyin ən qədim və ən geniş mənbəyidir. Gözəllik yalnız insan üçün onun həyatına rəng və məna verən nəhayətsiz ilham və sevgi mənbəyidir. Bu mənada güllərin şahı sayılan qızılgülün insanların hiss və idrak dünyasında ayrıca yeri və məqamı vardır. Quşlar isə fərqli yerlərdə yaşayır. Qarğa qarışığı, bayquş enişi, bülbül də gülləri sevir. Bağda, bağçada, çiçəklərlə dolaşan bülbül, daha çox güllərin budaqları və yarpaqları arasında görülür.

Bülbül və gül motivi simvolik olaraq, aşiqlə məşuqu ifadə edir. Bülbül ilə gül arasında sevgi şərq ədəbiyyatında Allaha olan sevgi və ilahi sevginin özünə çatma yollarını izah etməyə çalışır. Bülbül və qızılgül obrazları eşqin daha ilahi formada göstəricisi kimi bir çox şərq xalqların ədəbiyyatında istifadə olunan obrazlardandır. Bülbül və qızılgül həm qədim, həm də çağdaş ədəbiyyatımızda da istifadə olunan obrazlardandır.

Bülbülün gülə məhəbbəti, gül – bülbül mövzulu hekayələr orta əsrlərdə daha çox yayılmışdır. Bu hekayələrin qaynağı İran ədəbiyyatı olduğu zənn edilir. "Gül ve bülbül imajı İran edebiyatından Arap edebiyatına girmiş, oradan da Doğu kültürünün Avrupa'ya geçişinde önemli iki kapı olan İspanya ve Sicilya yoluyla Batı'ya ulaşmıştır". (10.222)

Bülbül və qızılgül "Bülbülname", "Bülbüliyye", "Gül ü Bülbül" kimi adlarla xatırlanan əsərlərə mövzu olmuşdur. İlk "Bülbülnamə"nin Fars ədəbiyyatında Fəriduddin Əttar tərəfindən yazıldığı qeyd olunur. Kiçik bir məsnəvi olan bu əsərdə bülbülün gülə qarşı hiss etdiyi sevgini nəğmə oxuyaraq tərənnüm etməsi digər quşları narahat edir və quşlar Hz.Süleymana şikayətlərini bildirirlər. Hz. Süleyman adam göndərir, bülbülü yanına gətirir. Bülbül özünü müdafiə edir, gülə necə aşiq olmasını, ona necə ilahi bir məhəbbətlə bağlı olduğunu deyir və Hz. Süleyman ona haqq qazandırır, digər quşları bülbülə toxunmamağı əmr edir. Eyni motivlər Fazil İrəvaninin "Qızılgül və bülbül" əsərində də istifadə olunmuşdur. Həmin əsər Xocens Markar Geğamyan tərəfindən tərcümə olunaraq 1812-ci ildə erməni və rus dillərində çap edilmişdir. Sonra isə bu əsər Xocens Markarın öz orijinal əsəri kimi, Avropada fransız və alman dillərində dönə-dönə çap edilmişdir. Fransız tədqiqatçısı Şarl Jorjien 1892-ci ildə məsələyə aydınlıq gətirərək yazmışdır ki, "Qızılgül və bülbül" əsəri Fazil və ya Fazili adlı türk müəllifinin əsəridir, Xocens Markar sadəcə olaraq, "Qızılgül və bülbül"ü erməni və rus dillərinə tərcümə edərək öz əsəri kimi çap etdirmişdir. Kitabın əsl müəllifinin Fazil Irəvani olduğu bəlli olduqdan sonra belə, ermənilər "Qızılgül və bülbül"ü 1950-ci ildə yenə də erməni müəllifinin əsəri kimi, Freznoda (ABŞ) çap etdirmişlər. "Qızılgül və bülbül" əsərinin orijinalı Matenadaranda – Mesrop Maştos adına Qədim Əlyazmalar İnstitutunda saxlanılır. (11.3)

Bülbül və qızılgül motivləri özündə əks etdirən başqa bir əsər Rifahinin "Bülbülnamə" məsnəvisidir. Alleqorik bir əsər olan "Bülbülnamə" iki obrazlı bir sevgi hekayəsidir. Bülbül aşiqi, Gül məşuqu təmsil edir. Aşiqlərin arasına girən maneə ayrılıq və gülün tikanları ilə təmsil olunmuşdur. Məhəbbət mövzulu hekayələrdə olduğu kimi, burada da aşiq bülbülün sevgisini isbat etmək üçün maneələri keçməlidir. İki sevgili arasında əlaqə yaradan Səbadır. Klassik şeirlərdə də səba aşiqlə məşuq arasında xəbərləşmə simvolu olmuşdur. Bülbül gülün həsrətindən xəstələnib halsız düşəndə Gül sevgilisinə Narı göndərmişdir. Burada digər meyvələrin deyil, məhz narın

seçilməsini onun daha çox mualicəvi xüsusiyyətlərə malik olması kimi düşünmək olar. Həmçinin burada narın rəngi sevgi alovu, sevginin simvolik rənginin qırmızı olması ilə üst-üstə düşür. Hekayədə bülbülün gülə fədakarlıq edərək canından keçməsi, gül və bülbül motivli əfsanələrin ortaq xüsusiyyəti kimi çıxış edir.

Rifahinin "Bülbülnamə"si ilə Oskarın "Bülbül və gül" nağılı arasında fərqli və oxşar cəhətləri nəzərdən keçirək: Fərqli dövrlərə və fərqli ədəbi mühitə aid olan "Bülbülnamə" və "Bülbül və gül" hekayəsi istər mövzu, istərsə də yazı tərzinə görə oxşarlıq hiss olunmur. Lakin hər iki hekayədə də məhəbbət mövzusu gül və bülbül motivi ilə ifadə edilmişdir. Aşiqlər "Bülbülnamə"də ənənəyə, "Bülbül və Gül" də isə modernizmə əsaslanmışdır. Rifai əsərində təsəffüv, irfani, sonda tanrıya qovuşma kimi ilahi sevgini göstərir. Oskarın əsərində isə maddi dəyəri olmayan sevginin bir anlamı olmadığına əsaslanır. hər iki əsərin fərqli mühit və dövrdə yazılmasından asılı olmayaraq eyni motiv –"bülbül və gül" alleqoriyalarından istifadə olunmuş, "bülbül" həqiqi aşiqi təmsil etmişdir. Rifai də, Oskar Uayld da həqiqi məhəbbətin səbr və fədakarlıqla vüsala çatacağını bildirmişlər. "Bülbül"ün sonu ölümdə olsa "gül"ə olan məhəbbəti onu əbədiləşdirmişdir.

"Çü buldu eşq ile ömri nihayet
Olunur dasıtanı ta qiyamət" (6. 25)

Sevgili hər iki hekayədə də məğrur və əlçatmazdır, sevənlərə əzab verir. Ancaq heç bir əzab insanoğlunun sevgidən uzaqlaşdırmamış, bəlkə də aşiqin ən böyük mükafatı olmuşdur.

Dünya ədəbiyyatında qəzəlləri, poemaları ilə şöhrət qazanan və qəlb şairi kimi tanınan Füzulinin ədəbi irsində "bülbül və qızılgül" motivi xüsusi yer tutur. Məcnunu bülbülə, Leylini qızılgülə bənzədən şairin qəzəl və qəsidələrində bu iki motiv geniş istifadə olunub.

Bülbül kimi könlüm quşu güldən gülə qonmaz,
Aşiq odur aləmdə ki, cananəsi birdir. (3.85)
Açdı bülbül dərdini yüz min fəğan ilə gülə,
Keçdi gül dövrü, yenə gül bülbülə ram olmadı.(3.97)

Füzulinin bu əsərlərində də bülbülün gülə necə aşiq olması lakin bu eşqinin qarşılıqsız olması gülün bülbülə biganəliyi metaforik şəkildə göstərilmiş və alleqorik formada təsvir olunmuşdur. Şair sevgisinin bülbül sevgisi kimi sadiq və saf olduğunu yuxarıdakı beytlərlə ifadə etmişdir.

Oskar Uayldın "Bülbül və qızılgül" nağılındakı kədərli son Füzulinin şeirləri ilə səsləşir. Füzuli "Su" qəsidəsində belə deyir:

Içmək istər bülbülün qanın, məgər bir rəng ilə,
Gül budağının mizacına girə, qurtarə su. (3. 32).

Gül hiylə işlədərək bülbülün qanını su ehtiyacını ödəmək üçün içmək istəyər. Su gül budağının mizacına girər və bülbülü qurtarar. Bu qəsidədə gülün al rəng alması və xoş ətir qazanması bülbülün qanının içməsi ilə baş tutur.

Oskar Uayldın "Qızılgül və bülbül" nağılı mövzu və motiv baxımından Azərbaycan əfsanələrindəki qızılgül və bülbüllə bağlı əfsanələrlə oxşarlıq təşkil edir. Bu əfsanələrdən "Qızılgül əfsanəsi", "Ağ gül və bülbül", "Bülbül və gül", "Bülbülün son nəğməsi" "Bülbül niyə görmür" və s. əfsanələrin adlarını sadalamaq olar. Bu əfsanələrin hər birində bülbül və qızılgülün sevgisindən, bülbülün sevgi, həqiqi məhəbbət üçün necə fədakarlıq etməsindən danışılır.

"Bülbülün son nəğməsi" əfsanəsi Oskar Uayldın "Bülbül və qızılgül" nağılı ilə mövzu baxımından ən çox səsləşən əfsanədir. Hər iki əsərdə maddiyatla sevgi qarşı – qarşıya qoyulur. Bu əfsanədə bülbül də əsl sevgi üçün özünü qurban verir. Əfsanədə kasıb oğlan dövlətli qızı sevir və ataları bu məhəbbətə qarşı çıxır, qız məhəbbət acısı ilə saralıb solur onun sağalması üçün al qızılgül dərmandır. Alqızılgülün dərman kimi qeyd olunması onun rəmzi mənasındadı, al qızılgül sevgi məhəbbət rəmzi olduğu üçün qızı acaq saf məhəbbət sağalda bilərdi. "Qız məhəbbətin rəngini görən kimi, məhəbbətin ətrini duyan kimi sağalır." (1.186) Ata oğlanı alqızılgülü tapmaq üçün göndərir. Oğlan bülbül kimi yanğılı bir səslə oxuyur, alqızılgülü tapa bilmədiyi üçün qəm-qüssəyə batır. Bunu görən bülbül həqiqi, saf sevgi üçün özünü qurban verir. Ürəyini ağ qızılgülün tikanına sancır və ag qızılgül bülbülün qanı ilə al rəngə boyanır. Hər iki nağıl bülbülün alturizmi ilə nəticələnir.

"Qızılgül əfsanəsi" əfsanəsində də Oskar Uayldın "Bülbül və qızılgül" nağılındakı kimi var dövlətin əsl sevgini üstələməsi, həqiqi məhəbbətin maddiyatla ölçülməsi kimi aktual mövzudan

bəhs olunur. Bu əfsanədə bülbül və gülün qovuşmaq üçün tanrıdan onları gülə və bülbülə cevirməsi kimi duaları, bülbülün Qızılın ağ gülə çevrildiyini görərək özünü xəncərlə yaralıyaraq qanının gülün üzərinə tökməsi və gülün al rəngə boyanması Oskarın nağılı ilə səsləşir. Hər iki nağılda gülün al rəngə boyanması bülbülün qanı ilə baş verir. Eyni motiv Azərbaycanın digər əfsanələrində də istifadə olunub. "Ağ gül və bülbül" əfsanəsində də bülbül sevgisinə qarşı biganə olan, onun sevgisinə inanmayan qızılgülə sevgisini ifadə etmək üçün özünü onun tikanlarına sancır və ağ gülü al qanı ilə al gülə çevirir.

Oskar Uayldın "Bülbül və qızılgül" nağılında əsl sevgi, humanist ideallara əsaslanan duyğular sınağa çəkilir, əsl sevgi riyakarlıqla müqayisə olunur. Bu ideyanı gerçəkləşdirmək üçün ədib Şərq ədəbiyyatında geniş yayılmış bir motivə müraciət edir. Əsərin intetekstual bazasında Şərq ədəbiyyatı nümunələrinin dayanmasını XIX əsrdə Qərb ədəbi-nəzəri düşüncəsində Şərqlə tanışlığın artması, Şərqin ezoterik mədəniyyətinə vurğunluqla izah etmək olar.

Ədəbiyyat siyahısı

1. Azərbaycan türklərinin xalq əfsanələri, Bakı, "Azərnəşr", 2009, 485 səh
2. Dünya yazıçıları nağılları, Bakı, "Şərq-Qərb" nəşriyyat evi,2013,336 səh.
3. Füzuli M. Əsərləri. Altı cilddə. IV cild. Bakı, "Şərq-Qərb", 2005 344 səh.
4. Tven M. Şəhzadə və dilənçi, Uayld O. Nağıllar, Bakı, "Öndər nəşriyyat", 2005, 336 səh
5. Uayld O.Seçilmiş əsərləri.Bakı,Şərq-Qərb,2013,464 s.
6. Fazlî, Gül ü Bülbül, Akademi Kitabevi, İzmir 2002.
7. http://www.turkiyatjournal.com
8. https://edebiyatvesanatakademisi.com
9. İkram Çinar http://www.egitisim.gen.tr/tr/index.php/arsiv/sayi-11-20/sayi-11-ask-olsun-mart-2006/85-askin-felsefesi-gul-ile-bulbul
10. **Aydın Məmmədov** http://qazet.bsu.edu.az/az/article/77
11. **.** Nazim Mustafa www.iravan.info/ebedi_muhit.html

Sh.Abdullayeva

Oriental motifs on Oscar Wail's Nightingale and Rose fairy tale

Summary

The article is based on Oscar Wail's "Nightingale and Rose" motif, "Nightingale and Rose" motif is a historical poetic comparison with eastern literary samples. The bull and flower motif symbolically expresses passionate love. The bull's love of laughter, and the flower-bull's stories have become even more common in the Middle Ages.

The source of these stories is believed to be Iranian literature. The bulbul and rose are the subject of the works known as "Bulbuliname", "Bulbulia", "Gulf Bulbul". Fazil Iravan's "Rose and Nightingale", similarity and different features of the Bulbul and Rose motif in Azerbaijani legends, in the literary heritage of "Bülbülname" of Rifahi, Fuzuli's literary heritage have been compared. Oscar Wail's "Rose and Nightingale" is similar to the legends about roses and nightingale in Azerbaijani legends in terms of theme and motif.

These legends include "The Legend of Rose", "White Rose and Nightingale", "Nightingale and Rose", "The Last Nightingale of Nightingale", "Nightingale Does not See" and so on. names of legends can be listed. Oscar Wail's " Nightingale and Rose" tale is based on true love, humanist ideals, and the true love is compared to hypocrisy.

The use of eastern motifs in western literature has been emphasized.

Keywords: Oscar Wilde, Nightingale, Rose, Love, Eastern Literature, Legends of Azerbaijan.

Ш.Абдуллаева

Восточные мотивы по сказке Оскара Уэйла "Бюльбюль и Роза"

Резюме

Статья основана на мотиве «Соловья и розы» Оскара Уэйла, мотив «Соловья и розы» представляет собой историческое поэтическое сравнение с восточными литературными образцами. Мотив быка и цветка символически выражает страстную любовь. Любовь быка к смеху и рассказы о цветочных быках стали еще более распространенными в средние века. Источником этих историй считается иранская литература. Бюльбюль и роза являются предметом работ, известных как «Бюльбулинам», «Бюльбюля», «Галф Бюльбюль».

Были сопоставлены литературное наследие Фузули Фазиля Иревана «Роза и соловей», сходство и различные черты мотивов Бюльбюля и Роуз в азербайджанских легендах, в литературном наследии «Бюльбюлнаме» Рифахи. «Роза и соловей» Оскара Уэйла похожа на легенды о розах и соловьях в азербайджанских легендах с точки зрения темы и мотивов.

К таким легендам относятся «Легенда о розе», «Белая роза и соловей», «Соловей и роза», «Последний соловей соловья», «Соловей не видит» и так далее. имена легенд могут быть перечислены. Рассказ Оскара Уэйла "Бюльбюль и Роуз" основан на истинной любви, гуманистических идеалах, а настоящая любовь сравнивается с лицемерием. Использование восточных мотивов в западной литературе было подчеркнуто.

Ключевые слова: Оскар Уайльд, соловей, роза, любовь, Физули, Рифахи, Фазиль Иревани, азербайджанские легенды.

Redaksiyaya daxil olma tarixi: 1.04.2019
Çapa qəbul olunma tarixi: 17.04.2019
Filologiya üzrə fəlsəfə doktoru Maral Yaqubova tərəfindən çapa tövsiyə olunmuşdur.

TAMARA ƏLİZADƏ
ATU
Səməd Vurğun 167
alizade64@mail.ru

AZƏRBAYCANIN MILLI BAYRAMI - NOVRUZ

Xülasə

Novruz Azırbaycan xalqının milli bayramıdır. Bu bayramın köklərinin araşdırılması ilə bağlı indiyədək xeyli tədqiqatlar aparılmışdır. Bu barədə Əzizə Cəfərzadənin, Bəhlul Abdullanın, Azad Nəbiyevin, Hüseyn İsmayılovun və başqalarının tədqiqatları vardır.

Xalqımız ayrı-ayrı hökmdarların təbliğ etdıyı bir sıra bayramları, mərasimləri zaman keçdikcə unutmuşdur. Lakin Novruz bayramı əsrlər boyu xalqın yaddaşında yaşamışdır. Azərbaycan xalqı bu bayramı gözləmiş, hörmətlə qarşılamışdır. Bu bayramı sevgi ilə qeyd etmişdir. Novruzda icra olunun mərasimlər, adətlər bu gün də yaşayır: tonqal qalanır, şam yandırılır, süfrə bəzənir, insanlar yeni libas geyinir, küsülülər barışır və s.

Məqalədə Novruz bayramı və bayram ərəfəsində keçirilən adətlər araşdırılır. Qonşu Türkiyə və İran ərazisində qeyd olunması ilə bağlı müqayisələr aparılır. Bu bayramın klassiklərin əsərlərində rast gəlindiyi məqamlar göstərilir.

Ümummilli lider Heydər Əliyevin Novruz bayramına münasibəti təhlilə cəlb edilir. Qeyd olunur ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Novruz bayramı şənliklərində iştirakı, xalqla birlikdə olması insanlara ruh verir. Həmçinin Novruz bayramının 30 sentyabr 2009-cu il tarixində YUNESCO-nun dünya xalqlarının qorunan qeyri-maddi mədəni irs siyahısına daxil edilməsində Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın böyük rolu olduğu diqqətə çatdırılır.

Açar sözlər: Novruz, milli, çərşənbə, od, adətlər, fal, nəğmələr, su, el, şirniyyatlar

Novruz bayramı türk-müsəlman dünyasının keçirdiyi "Ramazan", "İsmayıl qurbanı" kimi dini bayramlardan öz dünyəviliyi ilə fərqlənir.Türk-Oğuz tərəkəmə müdriklərinin, aqillərinin yorum-yozumuna görə Yeni ilin yeni günündə, yəni Martın 21-də "Sultan Novruz"da gecə ilə günüz bərabərləşir. Ana torpağa nəfəs gəlir, yerin donu açılır, ağaclara müqəddəs bahar suyu yüyürür. Təbiət qış yuxusundan oyanır, hər şey dirilib cana gəlir (4, 112).

Ümummilli Lider Heydər Əliyev qeyd edirdi ki, insanları baharın gəlməsi, təbiətin oyanması, həyatın canlanması ilə müjdələyən Novruz bayramı ən qədim dövrlərdən bəri xalqımızın sevinc və şadlıq bayramı olmuş, tariximizin müxtəlif dövrlərində bəzi təzyiqlərə, süni maneələrə məruz qalmasına baxmayaraq, bu günə qədər gəlib çatmışdır (1).

Azərbaycan xalqı bu bayramı xüsusi məhəbbətlə qarşılamağa, qeyd etməyə çalışmışdır. "Ancaq elə vaxtlar, zamanlar olubdur ki, bu bayramı xalqımızın əlindən almaq istəyiblər, bu bayramı keçirməyə mane olmaq istəyiblər. XX əsrdə biz bu dövrü yaşamışıq. Ancaq Novruz bayramının o qədər dərin kökləri var, Azərbaycan xalqının, millətimizin qəlbində o qədər yerləşib ki, heç bir qüvvə, heç bir hakimiyyət, heç bir siyasi sistem bu bayramı Azərbaycan xalqının əlindən ala bilməyibdir" (2).

Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Novruz bayramı şənliklərində iştirakı, xalqla birlikdə olması insanlara ruh verir. Həmçinin Novruz bayramının 30 sentyabr 2009-cu il tarixində UNESCO-nun dünya xalqlarının qorunan qeyri-maddi mədəni irsi siyahısına daxil edilməsində Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın böyük rolu vardır.

Şərqin ilk demokratik respublikası olan Azərbaycan Xalq Cümhuriyyəti milli ənənələrin qoruması məsələlərini xüsusilə diqqətdə saxlamışdır. Azərbaycan Xalq Cümhuriyyəti dövründə

"Novruz bayramı münasibətilə hökumət məmurlarına müavinəti - Nəqdiyyə verilməsi haqqında qanun" adlanan sənəd bu barədə bir örnəkdir. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Novruz bayramının yüksək səviyyədə keçirilməsini təmin edən bu hüquqi sənəd Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti tərəfindən 1919-cu il martın 19-da qəbul edilmişdi. Rusiya əsarəti dövründə Novruz bayramı rəsmən qeyd olunmurdu. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Novruz bayramının keçirilməsinə xüsusi önəm verərək, bu məqsədlə 1919-cu il fevralın 18-də bayram münasibətilə müavinət verilməsi barədə Parlamentə qanun layihəsi təqdim etdi. Qanun layihəsi Parlamentin 17 mart tarixli iclasında müzakirə olundu. Müzakirədə Əhməd bəy Pepinov, Ağa Aşurov, Xudadat bəy Məlik-Aslanov, Məhəmməd Əmin Rəsulzadə və Mustafa Vəkilov çıxış etdilər. Layihə səs çoxluğu ilə qəbul olundu. Qanuna əsasən, hökumət məmurları əmək haqqına görə üç kateqoriyaya bölünərək, onlara məvaciblərinin 40-70 faizi qədər müavinət verilməsi qərara alındı. Hökumətin 1919-cu il 19 mart tarixli qərarı ilə nazirlər, onların müavinləri və hökumətin işlər idarələri rəislərinin mart ayı üçün maaşları iki dəfə artırıldı (3, 269).

Novruz bayramı ilə əlaqədar indiyədək bir sıra geniş tədqiqatlar aparılmışdır. Bu təqiqatlar arasında məsələlər müxtəlif istiqamətlərdə araşdırılmışdır. Bu barədə Əzizə Cəfərzadənin, Azad Nəbiyevin, Bəhlul Abdullanın, Hüseyn İsmayılovun və başqalarının maraqlı tədqiqatları diqqəti çəkir. Novruz yeni ilin ilk günüdür və fars dilindən tərcümədə "yeni gün" mənasını ifadə edir.

İnanclara görə, Novruzu hansı əhvalla qeyd edərsənsə, il boyu günün də həmin əhvalla davam edər. Odur ki, insanlar Novruzu şən əhval-ruhiyyədə keçirməyə can atır, şən, şad-xürrəm qarşılayır, bol süfrə açır, qohum-əqrəba ilə deyib-gülərək keçirirlər. Hətta dəfn mərasimi varsa, təxir edilərək ertəsi gündə icra olunmuşdur. Xəstə insanlar ziyarət edilir, küsülülər barışır.

"Novruz bayramı öz mərasimləri ilə birlikdə zaman-zaman Azərbaycanda hakim kəsilmiş dinlərindən hamıdan çox sadə təsərrüfat bayramı, yəni qışın yola salınması, yazın qarşılanması mərasimi olmuşdur. Məhz elə buna görədir ki, xalqımız müxtəlif dinlərin, məzhəblərin, siyasi sistemlərin, ayrı-ayrı hökmdarların təsis etdikləri onlarca bayramları, mərasimləri unutmuş, bunu isə insanı əməyə, zəhmətə, maddi nemətləri yaratmağa çağıran təsərrüfat bayramı kimi əsrlər boyu yaşatmış, indi də hər il gözləyir, hörmətlə qarşılayır, xüsusi məhəbbətlə icra edir (6, 115).

Tonqal qalamaq, od üzərindən tullanaraq "Ağırlığım, uğurluğum odda yansın", "Azar-bezarım odlara" kimi ifadələrin işlədilməsi atəşpərəstlikdə olduğu kimi odun müqəddəsliyi ilə deyil, qədim türklərdən gələn - odun təmizləyici rolu ilə bağlıdır. Novruz bayramı sona çatdıqdan sonra səməninin suya atılması ilk məhsulunqurban verilməsi kimi izah edilir. Həmçinin yumurta döyüşmək də qurbanvermənin izlərindəndir.

Novruz bayramının qeyd edilməsində bölgələrimizdəki müxtəlif adət-ənənələr də diiqəti çəkir. Novruz bayramı ərəfəsində "çillə çıxartmaq" adəti də bölgələrimizdə müşahidə edilir. Bəlli olduğu kimi, böyük çillə 40 gündür, kiçik çillə 20 gündür. Martın 21-nə qədər olan 1ay isə "boz ay" adlanır. Çillələrlə bağlı aşağıdakı nəğmələr qeydə alınmışdır:

Böyük çillə, boyu bir belə.
Gəldi elə, gülə-gülə.
Ağ gülünü də göstərdi,
Al gülünü də göstərdi.
Pay qoydum xurcununa,
Paylı olsun !
və ya
Kiçik çillə, boyu bir belə,
Hikkəsi bir belə.
Gəlişi oldu hayınan,
Gedişi oldu vayınan.
Əlində qırmanc
Eli, günü yandırdı.

Görndüyü kimi, Novruzla bağlı el arasında oxunan nəğmələr də, deyimlər də çoxdur. İnanclar daha da maraq doğurur:

Çərşənbədə lal su ilə fala baxarlar.

Övladı olmayan qadının başından çərşənbədə qırxaçar suyu tökərlər ki, övladı olsun.

Çərşənbədə çırağı, odu söndürməzlər.

İnanca görə, subay qız duzlu kökə yeyib yatar ki, yuxuda su verən oğlan onun gələcək qisməti olar

Dünyanın yaranmasında iştirak edən 4 ünsür (su, hava, torpaq, od) bu bayram ərəfəsində 4 çərşənbə olaraq qeyd olunur. Birinci çərşənbə el arasında "əzəl çərşənbə", "su çərşənbəsi", ikincisinə "üskü çərşənbə", "od çərşənbəsi", üçüncüsünə "ata-baba günü", "ölü çərşənbə", "yel çərşənbəsi", sonuncuya "ilaxır çərşənbə", torpaq çərşənbəsi" deyilir.

Türkiyədə Novruz əsasən, Anadolu ərazilərində və 21 mart və ya 22 mart tarixində qeyd olunur. Lakin qeyri-iş günü olmur. Azərbaycanda içra edilən bir sıra adətlər də müşahidə edilir. Məsələn, qulaq falı adəti orada "qapı pusma" adı ilə icra olunur. Tonqal qalamaq adətinin isə bölgədə qeyd edilməsi ilə bağlı bir sıra rəvayətlər dolaşır (Bu qeydi Türkiyədən təhsil almaq üçün gəlmiş tələbələrdən yazıya almışıq). İranda isə Novruz 13 gün qeyd edilir. Od çərşənbəsindən başlayaraq Novruz ab-havası davam edir. Hazırda işlədilən təqvimdə həftə adlarına nəzər salaq: yekşənbə, doşənbə, seşənbə, çeharşənbə, pəncşənbə, şənbə (Bu qeydi İrandan təhsil almaq üçün gəlmiş tələbələrdən yazıya almışıq).

Tədqiqatçı Ş.Albalıyev bu barədə yazır: "Əgər İslam dünyasında Novruz bayramı Həzrət Əlinin qırmızı geyinib taxta çıxdığı günlə, yaxud Həzrəti Məhəmmədə peyğəmbərliyin verildiyi günlə əlaqələndirilirsə və hətta bu münasibətlə Novruz bayramında İslam dünyasının haram buyurduğu içkinin içilməsi yasq olunursa, bu, Novruzun təkcə türk dünyasında yox, həm də türk-islam dünyasında, bütövlükdə Şərq aləmində yayıldığını və insanları milli-dini birliyə - dünyadakı sabit əhval-ruhiyyəni, sülhü qoruyub saxlamağı xidmət edən Bayram olduğunu bir daha təsdiqləməkdədir. Eyni zamanda əgər Novruz bayramı, ümumiyyətlə, Adəm peyğəmbərin yaradılıb-xəlq olunduğu gün kimi düşünülürsə, bu fikir, bu ideya özü də birbaşa mifik-fəlsəfi-dini düşüncədə bütün bəşəriyyətin vahid babası sayılan Adəmin dünyaya gəldiyi gün kimi müqəddəs hesab olunur (5, 231).

Mənbələrdə Novruzun 2600 ildən çox yaşı olduğu qeyd edilir. Həmçinin klassiklərin əsərlərində Novruz adını müşahidə edirik. Məsələn dahi Nizami Gəncəvidə izləyirik:

Cəmşidin Novruzunda, Sədə bayramında,
Onda ki atəşkədələrdə ayinlər yenidən başlardı.
Hər tərəfdən ər üzü görməmiş gözəl qızlar
Evlərdən dışarı çıxardılar.

Məhəmməd Füzuli isə belə ifadə edir:

Hər yerdə ta Novruz ola,
Gül bustanəfruz ola,
Novruz tək Firuz ola
Əyyami şahi övliya.

Novruz bayramı bir mədəniyyət hadisəsi kimi öz təsirini təkcə türk-islam dünyasında yox, digər dinlərdə və millətlərdə göstərmişdir. Yəhudilərin "Pesah" bayramı, xristianların "Pasxa" bayramı öz mənşəyini Novruz bayramından götürür.

Demək, Novruz bayramı həm millətləri, xalqları, həm də dinləri bir-birlərinə yaxınlaşdıran-qovuşduran tolerantlıq örnəyi kimi bütün dünyada özünün iradəsini - mənəvi gücünü nümayiş etdirir (5, 231).

Odur ki, insan övladının dünyaya gəldiyindən ta dünyasını dəyişənədək bir-birini əvəz edən adət-ənənləri, mərasimləri, bayramları qoruyaraq gələcək nəsillərə ötürmək lazımdır. Bu istiqamətdə aparılan elmi təhlillər isə xalqın tarixinin, mədəniyyətinin, etnoqrafiyasının, dilinin öyrənilməsində olduqca əhəmiyyətlidir.

Ədəbiyyat

1. Əliyev H. Novruz bayramı münasibəti ilə Azərbaycan xalqına təbrik. 19 mart 2000-ci il
2. Əliyev H. Novruz bayramı münasibəti ilə keçirilən ümumxalq şənliyində nitq. 21 mart 2002-ci il
3. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. II cilddə. II cild. Lider Nəşriyyat, Bakı, 2005, 470 s.
4. Azərbaycan folkloru antalogiyası. XXI kitab. Qazax örnəkləri. Bakı, "Elm və təhsil" nəşriyyatı, 2012, 376 səh.
5. Albalıyev Ş. Novruz bayramı tolerantlıq örnəyi kimi. Azərbaycan folkloru və milli-mədəni müxtəliflik - Beynəlxalq Elmi-praktik Konfransın materialları. zaqatala, 2016, 237 səh., s. 230-234
6. Təhmasib M. Seçilmiş əsərləri. 2 cilddə. I cild. Bakı, Mütərcim, 2010.

T.Alizadeh

The national holiday of Azerbaijan - Novruz

Summary

Novruz is the national holiday of the people of Azerbaijan. Numerous studies have been conducted so far on the roots of this holiday. There are studies of Aziza Jafarzade, Bahlil Abdulla, Azad Nabiyev, Huseyn Ismayilov and others.

Our people have forgotten a number of holidays and ceremonies, which have been preached by different rulers over time. But Novruz holiday has lived in the memory of the people for centuries. The people of Azerbaijan welcomed this holiday and met with respect, celebrated this holiday with love. There are ceremonies and customs that are being performed in Novruz: the bonfire is burning, the candle is lit, the table is decorated, the people wear new clothes, and so on.

The article examines the traditions of Novruz holiday and holidays on the eve of the holiday. Comparisons are taking place on the celebration of the holiday in Turkey and Iran. Here are the moments that are found in the works of classics.

National leader Heydar Aliyev's attitudes towards Novruz holiday are being analyzed. It is noted that the participation of the President of the Republic of Azerbaijan Ilham Aliyev in the Novruz holiday festivities and the fact that his being with the people gives people a sense of gratitude. At the same time attention is given to the fact that President of the Heydar Aliyev Foundation Mehriban Aliyeva has a great role in inclusion of Novruz holiday into the list of protected non-material cultural heritage of world nations of UNESCO September 30, 2009 year.

Key words: Novruz, national, Wednesdays, fire, customs , folk songs, water, people, sweets.

Т.Ализаде

Национальный праздник Азербайджана - Новруз

Резюме

Новруз - национальный праздник Азербайджанского народа. До сих порбыли проведены многие исследовании по изучению корней этого праздника. Об этоместь исследованиу Азизы Джафарзаде, Бахлула Абдуллаева, Азада Набиева, Гусейн Исмайлова и других. Наши люди забыли ряд праздников и церемоний, которые были провозглашены разными правителями.

Но праздник Новруз веками жил в памяти народа. Народ Азербайджана ждал и чтил этот праздник. Народ отпраздновал этот праздник с любовью. Церемонии и традиции, проводимые в Новрузе, живути сегодня: зажигают костер, свечизажигают, стол украшают, люди надевают новую одежду, мириться и т.д.

В статье рассматриваются праздник Новруз и традиции на кануне праздника. Проводятся сравнения по поводу празднования соседних Турции и Ирана. В этом празднике есть моменты, которые встречаютсяв творчестве классиков. Отношение общенационального лидера Гейдара Алиева к празднику Новруз анализируется.

Ключевые слова: Новруз, национальный, среда, огонь, традиции, гадание, песни, вода, край, сладости.

Redaksiyaya daxil olma tarixi: 1.04.2019
Çapa qəbul olunma tarixi: 17.04.2019

Filologiya üzrə fəlsəfə doktoru, dosent Məfkurə Hüseynova tərəfindən çapa tövsiyə olunmuşdur.

AYTƏN MUŞKIYEVA
Gəncə Dövlət Universiteti
Neriman Nerimanov praspekti donge 9 ev 5
ayten@mail.ru

AZƏRBAYCAN ƏDƏBİYYATININ DÖVRLƏŞDİRİLMƏSİ MƏSƏLƏLƏRİ

Azərbaycan bədii düşüncəsinin tarixi minilliklərə gedib çıxır. Ayrı-ayrı mənbələrdə, qaynaqlarda bu nümənələrin bir hissəsi dövrümüzə qədər gəlib çıxsa da, böyük bir qismi müxtəlif zamanlarda itib batmışdır. Bizə gəlib çatan nümunələrin böyük bir qismi isə ayrı-ayrı dövrlərdə təzkirəçilər tərəfindən yazılmış müxtəlif təzkirələrdə yer tutmuşdur. Orta əsrlərdən başlayaraq, XX əsrin başlanğıcına qədər yazılan təzkirələrdə təzkirəçinin yaşadığı və ondan əvvəlki dövrün bədii nümunələri yer alırdı. Müxtəlif təzkirələrdə verilən bu bədii nümunələr ədəbiyyat tariximizin bütövləşməsi üçün önəmli rol oynamışdır. Təzkirələrə dövrün hər hansı bir şairinin bir çox əsərləri daxil edilir, onun haqqında qısa məlumatlar verilirdi.

20-ci illərdə də ədəbiyyat tarixinin dövrlərə ayrılmasına ciddi elmi əhəmiyyət verilirdi. Əslində bu problem F.Köçərlinin "Azərbaycan ədəbiyyatı tarixi materialları" əsərinin çapından sonra daha da aktuallıq qazandı. Çünki rus və digər xalqların ədəbiyyatının yazılmasında müəyyən bir prinsip gözlənilirdisə, F.Köçərlinin ikicildliyində bu prinsipə əməl edilməmişdi. Yalnız kitaba yazılan "Bir neçə söz" müqəddiməsində tədqiqatçı kitabı ilə bağlı bəzi prinsplərini verməli olmuşdu. Bu mənada ədəbiyyat tarixinin dövrləşdirilməsi məsələləri ən çox M.F.Köprülü, İ.Hikmət, Ə.Abid, B.Çobanzadə, A.Musaxanlı yaradıcılığında qabarıq şəkildə işlənilib.

Azərbaycan ədəbiyyatının dövrləşməsi məsələsində əsas prinsip bədii nümunələri dövrlərə ayırmaq və milli ədəbiyyatın başlanğıcını müəyyən etmək idi. Bununla yanaşı, ilk dəfə olaraq, Azərbaycan ədəbiyyatının və ədəbiyyatın bu sistemləşdirmə tarixinə çevrilmə probleminə münasibəti sistematik şəkildə ortaya çıxdı. Tədqiqatçı periyodlaşdırma məsələsində nəzəri düşüncələri verməməsinə baxmayaraq, bu, özünə aid olan ünvanına görə qiymətləndirilə bilər.

Açar sözlər: ədəbiyyat, mərhələ, tarixçilik, ədəbiyyatşünaslıq, yaradıcılıq, dövr, məqalə

Ötən əsrin əvvəlləri və 20-ci illəri ədəbi nümunələrin toplanılması, həm də ədəbiyyat tarixçiliyinin formalaşması baxımından ən zəngin dövr olmuşdur. XX əsrə qədərki Azərbaycan ədəbiyyatşünaslığında ədəbiyyat tarixinə sistemli baxış olmadığı kimi, tarixi hadisələrlə bədii təfəkkürün tarixiliyi arasında dialektik əlaqə də müəyyənləşdirilməmişdi. Ədəbiyyatın dərkində təfəkkürün və tədqiq metodunun tarixiliyi də özünün elmi həllini tapa bilməmişdi. Ümumiyyətlə, XX əsrə qədər ədəbiyyat tarixini yaratmaqla bağlı təşəbbüslər olmamışdır, yalnız epizodik şəkildə ədəbiyyat tarixinin bəzi məsələlərinə toxunulmuşdur. Çox az bir zamanda F.Köçərlinin, Y.V.Çəmənzəminlinin, A.Surun, İsmayıl Hikmətin və Əmin Abidin ədəbiyyat tarixləri yazılmışdır. Bundan başqa Əli Nazim, Atababa Musaxanlı, Hənəfi Zeynallı, S.Mümtaz, M.K.Ələkbərli, Bəkir Çobanzadə, Ə.Abid kimi kimi tənqidçi və ədəbiyyatşünasların da yaradıcılığında bu və ya digər şəkildə ədəbiyyat tarixi məsələləri təhlil edilmişdir. Bu ədəbiyyat tarixlərində həm ədəbiyyat tarixinin mərhələləri, problemləri, həm də yazıb-yaratmış ədəbi şəxsiyyətlərin həyatı, yaradıcılığı və əsərləri təhlil edilmiş, ədəbiyyat tarixçiliyi nöqteyi-nəzərindən təhlil edilmişdir.

Ədəbiyyat tarixi ilə bağlı ən çox araşdırmalar 20-ci illərdə aparılmışdır. Bu da təsadüfi deyildi; xalqın ədəbiyyat tarixi hələ tam olaraq ortaya çıxmadığından bu boşluqları doldurmaq lazım gəlirdi. M.F.Köprülü, Y.Vəzirov, S.Mümtaz, Ə.Abid, İ.Hikmət, A.Musaxanlı, Ə.Nazim və b. ədəbiyyatşünasların ədəbiyyat tarixinin adı ilə bağlı fərqli fikir və baxışları vardır. Bu baxışlar arasında "Azəri ədəbiyyatı", "Azəri türk ədəbiyyatı", "Azərbaycan ədəbiyyatı", "Azərbaycan türklərinin ədəbiyyatı" və s. adlar mühüm yer tutur.

Cümhuriyyətdən sonrakı 20-30-cu illər həm də Azərbaycan ədəbiyyatı tarixinin və ədəbiyyat tarixçiliyinin araşdırılması prosesi bütün yönləri ilə çağdaş elmi-nəzəri düşüncə

kontekstində inkişaf etmişdir. Bu illərdə yenilikçilik təkcə bədii düşüncədə deyil, elmin, tarixin, ədəbiyyatşünaslığın araşdırılmasında da bu və ya digər şəkildə özünü göstərirdi. Əgər 20-ci illərə qədər Azərbaycan ədəbiyyatı tarixi, yaxud ədəbiyyat tarixçiliyi ilə müntəzəm şəkildə F.Köçərli və A.Sur kimi ədəbiyyatşünaslar məşğul olurdusa, 20-ci illərdə ədəbiyyatşünaslıq sahəsinə gələn yeni qüvvələr (Əli Nazim, İsmayıl Hikmət, Əmin Abid, Atababa Musaxanlı, Bəkir Çobanzadə, Cabbar Əfəndizadə, Hənəfi Zeynallı və b.) problemi çağdaş metodologiya ilə araşdırırmaq yolunu tutmuş və bu istiqamətdə müəyyən iş görmüşdülər. F.Köçərlinin ölümündən sonra iki cildlik ədəbiyyat tarixinin nəşr edilməsi sonrakı ədəbiyyatşünaslar üçün də yeni istiqamətlər açmış oldu. Görkəmli tədqiqatçı akademik Bəkir Nəbiyev bunu nəzərdə tutaraq yazırdı: "F.Köçərlinin əsərlərinin işıq üzü gördüyü illərdən bugünə qədər olduğu kimi, bundan sonra da həmişə Azərbaycan ədəbiyyatı və ictimai fikir tarixi ilə məşğul olanlar bu alimin və tənqidçinin kitab və məqalələrini öyrənmədən ciddi tədqiqata əl aparmağa özlərini mənən haqlı bilməyəcəklər" (Nəbiyev B. Seçilmiş əsərləri. 5 cilddə, I c., Bakı, Çinar-çap, 2009, 268). Tədqiqatçı haqlıdır, F.Köçərlinin əsərləri 20-ci illərdə Ə.Abid, Ə.Nazim, İ.Hikmət, M.K.Ələkbərli, H.Zeynallı kimi gənc tənqidçi və ədəbiyyatşünaslar yeni ədəbiyyat tarixçiliyinin yazılması yolunda çalışır və ayrı-ayrı klassiklərlə bağlı mühüm məqalələr, əsərlər yazırdılar.

Ədəbiyyat tarixinin yazılmasında ən mühüm məsələlərdən biri dövrləşdirmə məsələsidir. Belə ki, hər hansı bir materialı toplayarkən, yaxud onun haqqında müəyyən bir fikir bildirərkən istər-istəməz sistemliliyə əml etmək lazım gəlir. Bu mənada ədəbiyyat tarixçilərinin qarşısında onun dövrləşdirilməsi məsələsi əsas vəzifə kimi dururdu. Ədəbiyyat tarixinin dövrlərə ayrılması, hər şeydən əvvəl, müəyyən bir prinsipə əməl olunması demək idi. Elə ədəbiyyat tarixi ilə məşğul olan tədqiqatçıların əsas narazılıqlarından biri də bugünə qədər bəlli-başlı ədəbiyyat tariximizin yazılmaması və sistemliliyə əməl olunmaması idi. 20-ci illərdə də ədəbiyyat tarixinin dövrlərə ayrılmasna ciddi elmi əhəmiyyət verilirdi. Əslində bu problem F.Köçərlinin "Azərbaycan ədəbiyyatı tarixi materialları" əsərinin çapından sonra daha aktuallıq qazandı. Çünki rus və digər xalqların ədəbiyyatının yazılmasında müəyyən bir prinsip gözlənilirdisə, F.Köçərlinin ikicildliyində bu prinsipə əməl edilməmişdi. Yalnız kitaba yazılan "Bir neçə söz" müqəddiməsində tədqiqatçı kitabı ilə bağlı bəzi prinsplərini verməli olmuşdu. Bu mənada ədəbiyyat tarixinin dövrləşdirilməsi məsələləri ən çox M.F.Köprülü, İ.Hikmət, Ə.Abid, B.Çobanzadə, A.Musaxanlı yaradıcılığında qabarıq şəkildə işlənilib.

Azərbaycan ədəbiyyatının dövrləşdirilməsi məsələsində əsas prinsip bədii nümunələri dövrlərə ayırmaq, milli ədəbiyyatın başlanğıcını müəyyənləşdirməkdən ibarət idi. Doğrudur, dövrləşdirmə məsələsində bir-birinə zidd fikirlər, bir-birini təkzib edən, yaxud əsaslandırılmayan mülahizələr də yer tuturdu. Bununla belə, ilk dəfə olaraq, Azərbaycan ədəbiyyatının dövrləşdirilməsi məsələsinə münasibət bildirmək və ədəbiyyat tarixini bu dövrləşdirmə əsasında sistem şəklində öyrənmək ortaya qoyulurdu. M.F.Köprülünün "Azəri ədəbiyyatının təkamülü" əsərində ədəbiyyat tariximizin dövrləşdirilməsi məsələsinə də yer verilib. Tədqiqatçı ayrıca dövrləşdirmə məsələsinə nəzəri mülahizələrini bildirməsə də, təklif etdiyi dövrləşdirmənin özündən çıxış edərək ona qiymət vermək olar. Tədqiqatçı bu əsərində Azərbaycan ədəbiyyatını aşağıdakı kimi dövrləşdirir:

1. İlhanlılar və Cəlairlər dövrü (XII ilə XVI əsrlər);
2. Qaraqoyunlular və Ağqoyunlular dövrü (XV əsr);
3. Səfəvilər dövrü (XVI ilə XVII əsrlər);
4. Avşarlar, zendlər və Qacarlar dövrü (XVII ve XIX əsrlər);
5. Azəri ədəbiyyatında təcəddüd dövrü (XIX-XX əsrlər):

Qarşu yatan Ala dağdan bir oğul uçurdunsa, degil mana! [8, s.31]; Qazlıq dağının suçı yoqdur [8, s.33]; Ağam Qazan, sası dinlü Gürcüstan ağzında oturarsan, ordun üstinə kimi qorsan? [8, s.37]; Dəmir qapu Dərvənddəki dəmür qapuyı dəpüb alan, altmış tutam ala gön dərinin ucında ər bögürdən Qıyan Selcik oğlı Dəli Dondar çapar yetdi: “Çal qılıcın, ağam Qazan, yetdim!” -dedi [8, s.49]; Bunun ardınca, xanım, görəlim, kimlər yetdi: Həmidlən Mərdin qalasın dəpüb yıqan, dəmür yaylı Qıpcaq Məlikə qan qusduran, gəlübən Qazanın qızın ərliklə alan, Oğuzun aq saqallu qocaları görəndə ol yigidi təhsinləyən, al mahmuzt şalvarlı, atı bəhri xotazlı Qaragünə oğlı Qara Budaq çapar yetdi [8, s.49]; Bərdəyə, Gəncəyə varub vətən tutdı. Doquz tümən Gürcüstan ağzına varub qondı, qaravullıq eylədi [8, s.135]; Arqu beli Ala dağdan dünin aşdım [8, s.136]; Dəmür qapu Dərvəndindən xəbər varmış [8, s.139]; Bu yanadan dəxi bazirganlar gəlübəni Qara Dərvənd ağzına qonmışlardı. Yarımasun-yarçımasun Evnik qalasının kafirləri bunları casusladı [8, s.53]; Nagah Parasarın Bayburd hasarına gəldilər [8, s.63]; Türkistanın dirəgi! Amit soyının aslanı, Qaraçuğun qaplanı! [8, s.71]; Beyrək gedəli Bam-bam dəpə başına çıqdınmı, qız?! [8, s.74]; Qan Abqaz elinə mən gedərəm [8, s.78]; Kafir sərhəddinə, Cızığlara, Ağlağana, Gögcə dağa aluban çıqayın; Məgər Başı açuq Tatyan qalasından, Aqsaqa qalasından kafirin casusı vardı; Qara dəniz kibi yayqamb gələn kafirin ləşkəridir [8, s.80]; Andan Şiröküz ucından Gögcə dənizə dəkin at çarpdı; Mərə, Oğuzdan bir bölük atlı gəldi; Əlincə qalasına zindana bıraqdılar. Katib Ulaş oğlu Salur Qazan [8, s.145]; “Tumanın qalasında tutsaqdır”, - dedi [8, s.159]; üzərində kafirin Ayasofyası vardı [8, s.160]; Aq qayanın qaplanının erkəgində bir köküm var; Yol Ağca qala Sürməlidə at oynatdım, Aq hasar qalasının bürcin yıqdım [8, s.158].

Ağ qaya- Şəkidə, Naxçıvan MR, Babək rayonunda, Şəmkir rayonunda, Gürcüstanın Faxralı kəndi ərazisində və Türkmənistanda qaya adıdır; Ağlağan, Ağilqan- Ağbaba yaylasının şərq qurtaracağındadır, Boz Abdal dağ silsiləsinə daxildir; Tumanın qalası- Gürcüstanda Kür çayının sağ qollarından biri olan Maşaveri çayı üzərində, indiki Dumanisi (Başkeçid) rayonu ərazisində şəhər xərabəsidir; Tatyan- Azərbaycanın Masallı rayonu ərazisində-Tatyan oba, Biləsuvar rayonu ərazisindəTatyanovka kəndlərinin adları qeydə alınmışdır; Sürməli- Sürməli Arpa çay axarında – indiki Naxçıvan MR-in ərazisindədir. Sürməli həmçinin Şərqi Anadoluda, Cənubi Azərbaycanda Marağa səmtində yer adlarıdır; Bayburd, Bayburd hasarı – Anadolunun şimal-qərbində Çoruh çayının aşağı vadisində dəniz səviyyəsindən 155 m. yüksəklikdə, yaşıllıqlarla örtülü mənzərəli bir sahədə yerləşən qəsəbə. Hazırda Gümüşxanaya bağlı bir qəzanın mərkəzidir; Aladağ- Türkiyə ərazisindədir; Göycə gölü keçmişdə Dədə Qorqud oğuzlarının vətəni daxilində olub, hazırda Ermənistan ərazisində qalıb; Əlincə qalası Naxçıvanın Culfa rayonunda Qazançı kəndinin cənubunda olan Əlincə dağının təpəsində yerləşir; Cızıqlar- Ağlağan dağının cənubi-qərbində, Ağbaba nahiyyəsinin şərqində, Arpa çayının solunda azərbaycanlılar yaşayan qədim bir kəndin adıdır; Dəmirqapu Dərbənd Qafqaz Albaniyasının qədim şəhərlərindən biridir; Abqaz eli IX-XI yüzilliklərdəki Gürcüstanın KDQ-dəki adıdır [7].

“Battal Qazi” dastanı XI-XIII əsrlər arasında təşəkkül etmiş, XIII əsrdə qələmə alınmışdır. Hadisələr əsasən Malatya şəhərində və onun ətrafında cərəyan edir. Deyilənlərə görə “Battal Qazi” dastanı elə burada da qələmə alınmışdır. Dastanın qəhrəmanının ata və anası da Malatyalıdır.

Əsərdə İstanbul, Bağdad, Şam (Dəməşq), Hindistan, Çin, İraq, Rum, Misir, Yəmən, Xəcaz, Türkistan, Gürcüstan, Bolqarıstan, müqəddəs İslam torpaqları Mədinə, Məkkə və s. ölkə və şəhərlərin adı çəkilir ki, bunlardan Gürcüstan qədim Qafqaz arealına daxildir.

Rəşidəddin Fəzlullah ibn Əbil-Xeyrə Əli Həmədaninin XIV əsrdə yazıya aldığı “Cəmi ət-Tavarix (Tarixlər toplusu)” əsərinin “Tarixi-oğuz və türkan və hekayəti-cahangiri” adlanan bölməsi

onun ikinci kitabındadır, şərti olaraq "Rəşidəddin Oğuznaməsi" kimi tanınır. Farscaya çevrilmə sayılan bu "Oğuznamə"də yüzdən artıq türk mənşəli söz və yer adları işlənmişdir.

Əsər tarixçilərə türk-oğuzların Şimali Çinin, Türkistanın, Tibetin, Hindistanın ölkə və vilayətlərini, Ural dağlarının hər iki tərəfindəki, Emba, Ural və Volqa çaylarının aşağı axarındakı, Rusiyanın cənububdakı torpaqları, Şimali Qafqaz, Zaqafqaziya, İran, Anadolu, İraq, Suriya və Misir torpaqlarını zəbt etmələrinə dair son dərəcə zəngin məlumat verməklə yanaşı Qafqaz arealında mövcud olmuş yer adlarının tarixini də özündə əks etdirir.

Qafqaz arealında mövcud olan bəzi yer adlarına "Oğuznamə"də rast gəlirik:

Buradan onlar Xəzər Dərbəndinə köçdülər [6, s.14]; Dərbənd ətrafındakı əkilib şumlanmış çöllərin hamısını başdan-başa toplayıb məhv etməyə çalışmaq lazımdır [6, s.15]; Oğuz Şamaxıya çatdı və orada on dörd gün qaldı. Bu günlər ərzində Şabaran camaatı bac-xərac verdi. Amma Şamaxı camaatı bac-xərac verməyi gecikdirirdi [6, s.16]; Oğuz onlardan bac-xərac aldı, bura şixnə təyin edib, oradan Arran və Muğana tərəf yollandı [6, s.16]; Yay aylarında onlar bu vilayətlərin bütün yaylaqlarını Sabalan, Alataq və Ağdiberiyə qədər bütün dağlıq yerlərini ələ keçirdilər. Deyilənlərə görə Alataq adını və Sabalan adını da onlar vermişlər. Türk dilində meydana gələn, dikələn, bir şeyə sabalan deyilir [6, s.17]; Onlar Azərbaycan vilayətini də tutdular. Həmin yayı Oğuz Aladağdakı yaylaqda keçirdi. Oradan Bağdad, Gürcüstan, Diyarbəkr və Rakka tərəfə elçilər göndərib xəbər verdi ki, oralara gələcək [6, s.17]; Bir gündən sonra ona xələt göndərib əmr etdi ki, Ananda və Yeni Kənd vilayətlərindən üç illik vergini gətirsin [6, s.44]; O iyirmi il müddətində Mənd və Yenikənddə padşah oldu; Oğuzun ölümündən sonra bəlli oldu ki, Oğuz qədim zamanlarda bir şəhər salmış, adını Yeni kənd qoymuşdu [6, s.45]; Təkcə türklərin Antak Şəhr adlandırdıqları və üç yüz altı qapısı olan Antakiya şəhəri tərslik edib müqavimət göstərdi [6, s.19].

"Oğuznamə"də adı çəkilən Şabəran (Şabran) xarabaları Azərbaycan Respublikası, Dəvəçi rayonunun Şahnəzərli kəndinin yaxınlığında qalan orta əsr şəhəridir. Sabalan (Sevalan)- Ərdəbil yaxınlığında dağdır, Alatağ və Ağdiberi dağları Van gölündən (Türkiyə) cənubda yerləşir.

Şamaxı hələ uzun müddət xaraba qaldı və yalnız Şirvanşah Qubadın (1043-1049) hökmranlığı vaxtında Oğuzlar Şirvan torpaqlarından xeyli cənubda yürüş keçirməklə məşğul olub, Şirvana nəzarəti zəiflətdikdə- Yəzidiyyə (Şamaxı) şəhərinin ətrafına yonulmuş daşlardan möhkəm divar çəkildi və türk-Oğuzların qorxusundan ona dəmir qapı qoyuldu [11,c. 56].

XVI-XVII əsrlərə aid edilən "Koroğlu" dastanı türk xalqlarının ən möhtəşəm folklor abidələrindəndir. Koroğlunun adı Baykaldan Balkanlaracan, Altaylardan Anadoluyacan türk xalqlarının yaşadıqları torpaqlarda məşhurdur. Türkdilli xalqlar arasında ən ortaq görünən "Koroğlu" epos-dastanıdır. Azərbaycanda Koroğlunun məskəni Çənlibeldir, Orta Asiya və Türkiyədə Yıldız dağıdır.

"Koroğlu" eposunda bizə tanış olmayan, yaxud uydurma təsiri bağışlayan bir dənə də toponim, yəni qeyri-real məkan yoxdur: İstanbul, Bağdad, Dərbənd, Naxçıvan, Qars, Ərzincan, Rum və s. [4, s.67].

Dastanda işlənmiş bəzi toponimlərə nəzər salaq:

Hamı igid, səxavətli, gözəl bir cavanın Göycəbeldə sakin olduğunu eşitdi [5, s.20]; Koroğlu Qazlı göldən köç edib özünü Çəmlibelə çatdırdı [4, s.23]; Elə bu zaman Lələ gəlib Narınqalaya çatdı [4, s.200]; Naxçıvan vilayətində Dəmirçioğlu adında qorxmaz, igid bir cavan var idi [4, s.51].

Vəli Xuluflu nəşrinin "Koroğlunun Dərbənd səfəri" qolunda Çənlibelin yeri aydınca göstərilir. Qurdoğlu atası Koroğlunun arxasınca Çənlibelə gələrkən aşağıdakı marşrut üzrə hərəkət edir:

Dərbənd- Şəki- Zəkərtala (Zaqatala)- Siqnax- Haçaxaya- Şirək- Qoş Suyu-Tiflis- Ağbaba-Arzurum- Çənlibel

Bu qolda Çənlibel Ərzurumla sərhəd yer kimi göstərilir: "Oğul, sənə dedim ki, bura (Ərzurum – E.İ) Koroğlu torpağı, sərhətidi (sərhədidir). Çənlibel ilə bunun arasında bir o qədər yol yoxdur. Dəlilər səfərə çıxıb, Koroğlu özü isə Çənlibeldədir" [5, s.120].

Dastanda adı çəkilən yer adlarının böyük bir qismi Qafqaz inzibati ərazisinə daxildir. Məsələn, Urfa, Ərzurum, Ərzincan, Qars, Rum, Çin, Məkkə, Toqat, Tərcəm eli, Kürdüstan, İstambul, Naxçıvan, Misir, Narınqala (Şəki), İsfəhan, Gilan, Dərbənd və s. [3].

1957-ci ildə çap olunmuş "Türkmən xalq yaradıcılığı boyunca oçerk" adlı kitabın "Dastanlar" bölməsini X.Koroğlu yazmışdır. O, bu hissədə "Əsli-Kərəm" dastanı haqda da öz fikir və mülahizələrini vermişdir. Tədqiqatçı yazmışdır: "Türkmən dastanı "Əsli-Kərəm" bir vaxtlar Azərbaycan ərazisindən gəlmişdir. Orada olan ərazi adlarını və Azərbaycana aid etnik elementləri nəzərə alsaq bu dastanın Azərbaycanda törəndiyini ehtimal etmək olar". Müəllif dastanın türkmən variantında Konstantinopolun (İstanbulun) adının yaşamasını əsas tutaraq dastanın yaranma tarixinin XIV-XV əsrlər olduğunu qeyd edir [2, s.23].

Mərhum tədqiqatçımız T.Xalisbəylinin "Məhəbbətə xalq abidəsi" adlı əsəri bütövlükdə bu dastana həsr olunmuşdur. O, dastanın hansı dövrün məhsulu olması məsələsinə belə aydınlıq gətirir: "Əsli-Kərəm" dastanının Azərbaycan variantlarında hadisələr, əsasən Gəncə-Hələb, türk variantlarında İsfahan-Hələb, türkmən variantlarında Təbriz-Konstantinopol-Təbriz şəhərləri arasında cərəyan edir. Maraqlıdır ki, Orta Asiya variantlarının əksəriyyətində hadisələrin bitdiyi yer Konstantinopol göstərilir [2, s.35].

"Əsli və Kərəm" dastanının Azərbaycan variantında hadisələr Göy-göl, Gəncə, Tiflis, Gürcüstan, Ərzurum, Çolaba, Qars, Nəlrud (Məlrud) dağı, Qeysəriyyə, Hələb şəhərində cərəyan edir. Dastanda adı çəkilən yer adlarının böyük qismi Qafqaz arealına daxildir.

Aparılmış tədqiqat nəticəsində məlum olur ki, çoxsaylı dillərin, mədəniyyətlərin beşiyi olan qədim Qafqazın yer adları ən qədim dövrdən bugünədək dastanların sujet xəttinin təşkilində siyasi mövqeyə malik oluşdur. Qafqazın mədəni zənginliyini, tarixiliyini, gözəlliyini bütün dünyaya göstərmək baxımından türk dastanları çox zəngin mənbədir.

Qafqaz regionunda davam edən bəzi münaqişələr (Dağlıq Qarabağ, Abxaziya, Çeçenistan, Cənubi Osetiya) nəticəsində mədəni vəziyyət xeyli mürəkkəbləşmişdir. Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində minlərlə mədəni abidə məhv edilib, yer-yurd adları dəyişdirilib. Qədim türk dastanlarında verilmiş toponimlərdən istifadə etməklə adı dəyişdirilmiş bir çox türk yer-yurd adlarının ilkin formasını üzə çıxarmaq, yer adlarının qədim etnoslarla əlaqəsini müəyyənləşdirmək olar.

Ədəbiyyat

1. Əcəmi S. Əsli və Kərəm (poeması). Bakı: Mürtəcim, 2011, 121 s.
2. Heydərov E.İ. "Əsli-Kərəm" dastanı və alban mədəniyyəti. Bakı: Səda, 2007, 208 s.
3. Koroğlu. Bakı: Lider, 2005, 552 s.
4. Koroğlu. Paris nüsxəsi. Bakı, Şərq-Q ərb, 2005, 224 s.
5. Koroğlu (Vəli Xuluflu nəşri). Bakı: Elm, 1999, 704 s.
6. Rəşidəddin F. Oğuznamə. Bakı: Azərnəşr, 1992, 72 s.
7. Kitabi- Dede Qorqud Ensiklopediyasi. Elektron nəşrinin redaktoru: Tariyel Məmmədov. Bakı: Öndər, 2004.
8. Kitabi-Dədə Qorqud. Əsil və sadələşdirilnıiş mətnlər. Bakı: Öndər, 2004, 376 s.
9. Turan O. Cihan hakimiyeti Mefkuresi Tarihi. l-ll c. İstanbul: Boğazçı, 1993, 559 s.
10. Касумова С. Ю. Азербайджан в lll-Vll вв., Баку: Элм, 1985, 140 с.
11. Минорский В. Ф. История Ширвана и Дербенда. Москва: Издательство восточной литературы, 1963, 266 с.
12. az.wikipedia.org
13. www.academia.edu

ХМурсалиева

Кавказ как колыбель турецкого эпоса

Резюме

Мотивы турецких эпосов могут широко использоваться для демонстрации культурного богатства, истории и красоты Кавказа всему миру. Топонимы древнего Кавказа, которые являются колыбелью для многих языков и культур, занимают политическую позицию в

организации эпической линии поэмы с самых ранних времен до наших дней. В исследование вошли «Альпийская Тонга Тонга», «Китаби-Деде Горгуд» (XI век), «Батталь Гази» (XIII век), «Асли и Керем» (XVI век), «Кероглу» (XVII век) и эпопея Фазлуллы Рашидаддина «Огузнадэ» "(XIV век). Отметим, что в этих эпосах мы находим много известных нам древних топонимов: Туран, Аран, Муган, Гянджа, Барда, Дербент, Замок Алин, Абгаз Эль, Шабаран, Гог и т. д. Мы наблюдаем, что события в турецком эпосе более активны в древнем Азербайджане и Грузии.

Следует отметить, что можно выявить первоначальную форму многих переименованных турецких названий земель, используя имена, данные в древнем турецком эпосе, и отождествить топонимы с древним этносом. В результате проведенного исследования известно, что турецкие эпосы являются одним из самых богатых источников на Кавказе для изучения древней топонимики Кавказа.

Ключевые слова: Турецкие эпосы, древние топонимы Кавказа, Туранская страна, древние огузские провинции, настоящие места в эпосе Кероглу, азербайджанские топонимы в эпосе

KH.Murseliyeva

Caucasus as the cradle of the Turkish epic

Summary

The motifs of the Turkish epics can be widely used to demonstrate the cultural wealth, history and beauty of the Caucasus to the whole world. The toponyms of the ancient Caucasus, which are the cradle for many languages and cultures, occupy a political position in the organization of the epic line of the poem from the earliest times to the present day. The study included Alpine Tonga Tonga, Kitabi Dede Gorgud (XI century), Battal Gazi (XIII century), Asli and Kerem (XVI century), Koroglu (XVII century) and Fazlullah Rashidaddin's epic “Oguznade” "(XIV century). We note that in these epics we find many ancient toponyms known to us: Turan, Aran, Mugan, Ganja, Barda, Derbent, Alin Castle, Abgaz El, Shabaran, Gog, etc. We We see that events in the Turkish epic are more active in ancient Azerbaijan and Georgia.

It should be noted that it is possible to identify the original form of many of the renamed Turkish names of lands, using the names given in the ancient Turkish epic, and to identify toponyms with the ancient ethnos. As a result of the study, it is known that Turkish epics are one of the richest sources in the Caucasus to study the ancient toponymy of the Caucasus.

Key words: Turkish epics, ancient toponyms of the Caucasus, the Turanian country, the ancient Oguz provinces, real places in the epic Koroglu, Azerbaijani toponyms in the epic

Redaksiyaya daxil olma tarixi: 06.04.2019
Çapa qəbul olunma tarixi: 23.04.2019
Filologiya elmləri doktoru, professor Astan Bayramov tərəfindən çapa tövsiyə olunmuşdur.

İLAHƏ QAÇAYEVA
Bakı Avrasiya Universiteti
Akademik Həsən Əliyev 135 a
ilaheqacayeva94@gmail.com

AŞIQ VƏ MƏŞUQ OBRAZLARININ TƏSƏVVÜFI-ÜRFANI SEMANTIKASI

Xülasə

Təsəvvüfi-ürfani dünyagörüşdə aşiq və məşuqun bir-birinə məhəbbəti bərabər olmalıdır. Biz bütün məhəbbət dastanlarında bu bərabərliyi görürük. Əgər bu bərabərlik pozularsa, bu dünyada ilahi məhəbbətə qovuşmaq baş verməyəcəkdir. Bunu "Əsli və Kərəm"də, "Abbas və Gülgəz"də, "Qurbani"də, "Tahir və Zöhrə"də və başqa dastanlarda da müşahidə edirik. Bu dastanlardakı aşiq və məşuqlar eşqin zərrələridir, onlar bir-birindən ayrıldıqdan sonra vəhdət-vücuda qovuşa bilirlər. Ayrılıq baş verməyən dastanlarda isə Allaha qovuşma ürəkdə olaraq özünü göstərir. Ümumi şəkildə götürsək, bütün məhəbbət dastanlarının aşiq və məşuq obrazları öz zamanlarının sufi və ya təsəvvüfi ideyalarının təsiri altında yetişir, bu dastanların əsas qəhrəmanlarına çevrilirlər. Bütün məhəbbət dastanlarında ilahi eşqin mahiyyətini açmaq üçün təsəvvüf anlayışının rolunun öyrənilməsi vacibdir. Təsəvvüfün dastan poetikasında oynadığı rol isə daha qabarıq görünür. Aşıq yaradıcılığının təsəvvüf şeiri üzərində qurulması bu yaradıcılıq növünün öyrənilməsini əsas məsələyə çevirir, aşıqların sufi baxışlarının dini-ictimai, elmi-fəlsəfi və ürfani cəhətdən araşdırılmasını nəzərdə tutur. Təsəvvüf işarələrinin dastan yaradıcılığında rast gəlinməsi isə Allah – insan, dünya – ruhani aləm münasibətlərinin aşıq şeirində necə təcəssüm olunmasını öyrənməyi tələb edir. Bu vaxta qədər bəzi monoqrafiyalarda bu barədə söz deyilsə də, bu, mətləbin hərtərəfli öryənilməsinə gətirib çıxarmamışdır.

Açar sözlər: Allah ,aşıq, aşiq, məşuq, məhəbbət, təsəvvüf, ürfan, dastan,dərviş, pəri, müqəddəs, hicran, ruh, yol.

Aşıq dastanlarının strukturunda aşiq və məşuq obrazlarının xüsusi bədii tutumu vardır. Xüsusilə məhəbbət dastanlarının formalaşmasında aşiq və məşuq önəmli rol oynayırlar. Birbaşa söyləsək, aşiq və məşuq obrazları olmadan məhəbbət dastanları yarana bilməz. Məhəbbət dastanlarının strukturunda buta və butavermənin də vacib rol oynadığını xüsusi olaraq təsdiq etmək lazımdır. Biz buta və butavermə haqqında da çoxlu məlumatlar ala bilirik. Aşiq və məşuq, buta və butavermə, Xızır, dərviş, seyid, Həzrət Əli məhəbbət dastanlarının süjetinin formalaşmasında vacib rol oynayır. Bütüt bunlar dastanın təsəvvüfi-ürfani struktur modelində hər birinin özünə məxsus semantikalarını yaratmağa kömək edir. Hər bir məhəbbət dastanının sufi semantikası insanın Allaha bağlanmasında ehkamçılığı qəbul etmir, onun bədii-estetik zövqünü formalaşdırmağa yönəlir. Bu cazibənin daxilində elə bir sonsuzluq vardır ki, onun dərk olunması insanın ilahi mahiyyətini anlamağa gətirib çıxarır. Bu mənada ürfani məzmunda olan hər bir bədii əsər Allaha, onun elçilərinə, müqəddəs şəxslərə, övliyalara məhəbbət yaratmaqla Onun ilahi varlığını, ona məxsus sifətləri vəsf etməyə, insanları bu ruhda tərbiyə etməyə başlayırdı. Bu həm də xalq ədəbiyyatının sufi-ürfani məzmun almasında, bu mübarək adların təsəvvüf semantikasında bədii şəkildə ürfani dərəcədə izahına yol açırdı.

XV əsrdən başlayaraq aşıq şeirinin müxtəlif janrlarında sufi-ürfani məzmun genişlənməyə başlayır. Bu janrların tələblərinin mahiyyətinə yönəlik dini-müqəddəs adların təyini kimi sufi-ürfani epitetlər də yaranmağa başlayırdı. Məsələn, Həzrət Əlinin adının təyini kimi Şahi-mərdan epitetini misal göstərə bilərik. Bir çox ustad aşıqlar Həzrət Əlinin adını çəkmək istəsə, Şahi-mərdan deyərək, ona müraciə edir. Bu xüsusiyyət gizli ad altında şeirdə, dastanda işarələrə malik olan obrazlara da aiddir. Pəri adı bütün dastanlarda şərti ad daşıyan qızlara verilirdi. Birbaşa olaraq Allahı təcəssüm etdirən bu qadın butalar obraz kimi təsəvvüfi məzmunda Böyük Yaradana işarə edirdi. Allah adının

sufi yozumunda qoyulan Pəri adına müstəqil şəkildə həm də əsas ada qoşulan epitet kimi rast gəlirik. Məsələn, Pəri Allah adını səciyyələndirəndə ilahi gözəlliyə malik qüsursuz eşq mələyini simvolizə edir, ada (Gülgəz) qoşulanda isə məşuqun xüsusi adına məxsus olur. Hər iki halda Pəri adını Allaha məxsus məşuqun gizli işarəsi kimi görürük. Amma bəzi məhəbbət dastanlarında məşuq adları, məsələn, Nigar, Sədəd, Zöhrə, Sərvnaz, Qəndab kimi adlar da dolayısı ilə Allaha məxsusluq bildirir və qarşı tərəfin, aşiqin sınanmasında rol oynayir. Məhəbbət dastanlarında ən çox adı keçən məşuq Pəridir. Bu ad "Qurbani", "Alı xan", "Seydi və Pəri" dastanlarında Pəridir. Qalan dastanlarda məşuq adları dolayısı ilə Allaha işarə etməklə bərabər, Onun nurundan yarandığını da təsdiq edirlər.

"Əsli və Kərəm" dastanı bu cəhətdən hələ də öz gizli işarələrini saxlamaqdadır. Bu məhəbbət dastanlarındakı Əsli adını Azərbaycan dilinin leksik-qrammatik qaydalarına uyğun olaraq təhlil etmək olar. Sözün kökü "əsil"dir. Bir şeyin "doğru", "həqiqi" olduğunu göstərən leksik vahiddir. Yenə burada nəyin "həqiqi" olduğunu, "doğru"sayıldığını görmək olar. Deməli, doğru olan Allahdır, həqiqi olan yenə Allahdır. əsli adının semantikasına bu baxımdan nəzər yetirdikdə, bu adın "Allahın özü" – "Əsl Allah" (Allahın əsli) mənalarında daşlaşdığını görürük. Əsli obrazının əvvəlki Məryəm adından tamamilə fərqləndiyini görürük. Məryəm xristianlıqda İsa peyğımbəri dünyaya gətirən qadının adıdır. Məryəm, Mariya semantemləri dini müqəddəslər kimi Əsli adına transformasiya olunduqda dastanda müqəddəslik statusunu qoruya bilmir, İslam dininin təsiri ilə və sufi-təsəvvüf düşüncəsinə uyğun olaraq Əsli adını qəbul edir. Əgər xristianlıqda İsa peyğəmbərə Allahın oğlu deylirsə, deməli, Məryəm də Allaha yaxın müqəddəs şəxsdir. Əsli Allahın surətidirsə, Kərəm də Həzrət Əlinin dastandakı surətidir. Bəktaşı təriqətində Həzrət Əli Allahın oğlu sayılır. F.Salim yazır ki, "Əsli və Kərəm" dastanında Kərəmin dilindən söylənən "Mövla" kəlməsi haqda da bənzər fikirləri söyləmək istərdik. Kərəm də mövladan kərəm istəyir: "Qadir mövlam, budu səndən diləyim" (5, s.51). "Burada incə bir məqam ondan ibarətdir ki, Kərəmin əsl, göbək adı Mahmuddur. Onun Kərəm olması, heç şübhəsiz, təsadüfi deyil. "Kərəm" sözü ərəb dilində Allahın ehsanı, ikramı, lütfü anlamına gəlir. Lakin bu ifadə daha çox ürfani çevrələrdə təsəvvüf mətnlərində istifadə olunur. Həqiqətdə isə konkret olaraq "kərəm" ifadəsi Həzrət Əlinin lütfünə şamil edilir ..."Əsli və Kərəm" dastanındakı Mahmudun Kərəmə dönüşü Azərbaycan xalq dastanlarında demək olar ki, ənənə halını almış Həzrət Əli kəraməti, Əli məhəbbəti ilə bağlıdır" (5, s.326 – 327). F.Salim "haldan hala düşən könlümün" misrası ilə başlanan şeirdəki mənanı – haldan hala düşməni sufiyanə hallar kimi qiymətləndirir (5, s.329).

Məhəbbət dastanlarında aşiq və məşuq obrazlarının mənalarında təsəvvüfi-ürfani baxımdan sufi anlamları ya birbaşa olur, ya da dolayısı ilə izah olunur. Dediyimiz dolayısı ilə olan təsəvvüf anlayışlarının semantikasına "Leyli və Məcnun" dastanında da rast gəlirik. Sufi simvolu kimi Məcnun adı Allah yolunda canından keçməyə hazır olan qəhrəmanlara verilir. Bu adın hərfi mənası "dəli" demək olsa da, məcnunluq heç bir aşiqə qismət olmayan təsəvvüfün mərtəbəsidir. Məcnunun eşqi klassik və aşıq ədəbiyyatında həmişə tədqiqat mövzusu olub. Lakin Məcnun adının daşıdığı məna təsəvvüfi-ürfani işarə kimi diqqət mərkəzində olmamışdır. Məcnunla Allah arasındakı ruhani informasiyalarda dini mənaların kodlarını başa düşmək lazımdır. Məsələn, Füzulinin "Leyli və Məcnun" poemasındakı "Yarəb, bəlayi eşq ilə qıl aşina məni" deməklə Məcnun Allah yolunda bütün əzablara aşina olmaqla Ona sadiqliyini göstərir. Burada məntiqdən kənar heç bir fanatizm, xurafat yoxdur. Məcnun eşqin yüksək mərtəbəsinə çatmaq üçün hər cür əzablara dözməyi mümkün hesab edir. Leyli obrazı da Məcnuna olan sevgisində nə qədər üstün mövqe sərgiləmək istəsə də, Məcnunun "get, get, sən o Leyli deyilsən" deməsi ilə ayrılığa dözməyərək ölümün qucağına gedir. Baxmayaraq ki, Leyli gecə mənasında sufi-ürfani düşüncəni əks etdirir. Allahdan qopub Allaha qayıtma yolunda onun Məcnunla qovuşması o dünyada mümkün ola bilər. Bütün qadın obrazları kimi Leyli də öz həyatının sonunda bu dünyada sevgisinə, Məcnununa qovuşmaq istəyir. Lakin Məcnun həqiqətə çatdığına görə ona tanrısı kimi baxa bilmir. Məcnunun sufiyanə çıxışlarından aydın olur ki, o, öz Leylisinə qovuşa bilməyəcəyini bilirmiş. Dastanda da bu sufiyanəlik bu dünyada Leylisinə qovuşmamaqda özünü büruzə verir.

"Leyli və Məcnun" poemasında olduğu kimi "Leyli və Məcnun" dastanında da təsəvvüf elementlərinə çox rast gəlinir.. Əslində "Azərbaycan dastanları"nın ikinci cildində (Bakı, 1966)

qeyd edilir ki, “Leyli və Məcnun” dastanının variantı 1941-ci ildə nəşr edilmiş “Nizami əsərlərinin el variantları” kitabında çap olunmuşdur. Bu nəşrdə Nizami və Füzuli “Leyli və Məcnun” poemalarının məzmunu əsas götürülmüşdür. Dastanda çərxi-fələkŞ fələk, burc, yar, şam, pərvanə, buta, naxoş, sail, dilbər, cünun, nur, pünhan, divanə, dəli və s. sözlər təsəvvüf semantikasını əks etdirir və sufi ad-terminləri kimi istifadə olunur.

“Qurbani” dastanında da təsəvvüfi-ürfani məzmunda çoxlu aşkar və gizli mənalar verən sözlərə təsadüf edilir. Dastanda Qurbani şəriət, mərifət və həqiqət mərhələlərindən keçərək, özünü əsil aşiq kimi təqdim edir.

Dastanda gizli və açıq mənalarda təsəvvüfi-ürfani söz və terminlər qüdrətli aşığın dövrünün sufi semantikasını əks etdirir. Dastanın əvvəlində ağıllı, müdrik qocanın doğulan körpəyə Qurbani adı verməsi təsəvvüfi-ürfani düşüncədə Allaha qurban edilən şəxs məzmunundadır. Buradan aydın olur ki, Qurbani kimi butavermədə rast gəldiyimiz Pəri obrazı da Allah adının gizli poetik mənası kimi dastanda kodlaşdırılmışdır. Bütün dastanlarda butavermə qəhrəmanların qəhrəmanların həddbüluğa çatması dövründə verilir. Burada da Qurbaninin həddbüluğ yaşına çatması təsvir olunur və butavermə hadisəsi də bu yaşdan başlayır. İpək qarının Qurbaninin nəbzini yoxlamasından aydın olur ki, o, sevdalıdır, eşqdən sərxoşdur, layiməstdir. Buta sərxoşluğu, atası Mirzalı xanın “ölmüsən, o dünyadan danış, sağsan bu dünyadan” (1, s.101) deməsi o dünya ilə bu dünya arasında Qurbaninin qeybdən vergi almasını göstərir.

Dastanda haqq aşığı, məşuq, Pəri, könül, xublar ilahı, kan, məkan kimi sözlər sufi məzmunlu, təsəvvüfi-ürfani düşüncəli söz-terminləriin işlənməsini klassik ədəbiyyatdakı terminlərin aşıq ədəbiyyatına təsiri kimi qiymətləndirmək olar. Xüsusilə abi-kövsər, payi-Qənbər, kəramət eyləmək kimi ifadələr məhz dastan poetikasınının təsəvvüfi terminlər üzərində formalaşdığını göstərir. Fəxrəddin Salim abi-kövsərlə bağlı Qurandakı “Kövsər” surəsində Allahın dilindən peyğəmbərə “Biz sənə kövsər suyu bəxş etdik” deyilməsini misal çəkir (5, s.334). Məhz dastanda da Qurbaninin ilahi su ilə dolu eşq camını içməsi abi-kövsərdən su içilməsi ilə bağlıdır. Qurbaninin buta alandan sonra dediyi “Doxsan min kəlməmə bəyan dedilər” ifadəsinin kəsb etdiyi məna – buta zamanı doxsan min kəlmənin şərhlərini başa düşmək üçün Qurbaninin həqiqət mərhələsində olmasına, onun – aşiqin həqiqət elminə çatmasına işarə edir. “Bu ifadə, əsasən, ruhani təkamülün həqiqət mərhələsində özünə yer almış bir mətləbdir. Həqiqətin mənbələrində üçlər, beşlər, yeddilər, qırx kimsənə, yetmiş iki pir, üç yüz on üç əsgərlə yanaşı, doxsan min qulamın da adı çəkilir. Doxsan min qulam anlayəşı da digərləri kimi, nasut (insanlıq) aləminin deyil, lahut (ruhlar və məna) aləminin atributları olub, bu dünyada yalnız aşiq və ariflərin gözünə görünən, bəlli sayda müqəddəslərin vücudlarında təcəlli edən varlıqlar kimi qəbul olunur. Deyilir ki, onlar da hülul edir (inkarnasiya olunur), ərşi-əladakı gerçəkliyin mənzərəsini yaradırlar” (5, s.335).

Qurbaniyə eşq badəsi içirən Həzrət Əlidir. Dastanda işlənən abi-kövsər dini söz olmaqla bərabər mey, badə məzmununda da qəbul olunur. “Tərəhhüm eylədi abi-kövsərdən” misrasında Qurbaninin içdiyi eşq şərabının “Doldurub camını eylədi əta” cümləsi ilə bağlı olduğunu görürük. Bildiyimiz kimi, şəriətdə badə, mey, şərab, içki və s. birmənalı olaraq qəbul edilmir. Amma Qurbani ona eşq camını əta edənin Həzrət Əli olduğuna işarə edir. Əlbəttə, burada Həzrət Əlinin adının çəkilməsi o dövrün sufi aşığının priyomu idi, Qurbani özünü cəzadan sığortalamaq üçün onun adından istifadə edirdi. Həm də Qurbani ilahi eşqin bu mərtəbəsində həqiqət elminə bələd olduğunu təsdiq edir. Burada həqiqət elmi Qurbaninin xalq təsəvvüfündə Əhli-həqq olmasını göstərir. Eyni zamanda dastanda Pəri obrazı aşığın Əhli-həqq olması funksiyasını yerinə yetirməsi üçün Allahın şəxsində seçilən eşq simvoludur. Yəni, Pəri dastanda ilahi varlıqla təması yaradan aşığın sevgilisidir.

Məhəbbət dastanları içərisində təsəvvüfi-ürfani dünyagörüşü əks etdirən dastanlardan biri də “Şah İsmayıl”dır. “Şah İsmayıl” dastanı qəhrəmanlıq dastanlarının strukturunda olsa da, burada təsəvvüf baxışları da geniş əks olunmuşdur. Dastanın mətnində rast gəlinən eşq, buta, yol, sınaq, dil, ürək, könül, kan, məkan, zaman sufi terminləri ilahi məhəbbətə qovuşmaq yolunda məhəbbət aşiqlərinin dilində işlənir. Başqa dastanlarda olduğu kimi, bu dastanda da aşiq-məşuqun ilahi məhəbbəti 4 mərhələdən keçir. Bu mərhələlərdən birincisi şəriət pilləsidir. Bu pilləni keçmək üçün aşiqlər İslamın bütün hökm və qanunlarını dəqiq bilməli və ona əməl etməlidirlər. İkinci mərhələ təriqət adlanır, ərəbcədən çevirəndə “yol” mənasına uyğun gəlir, yəni bu söz gedilən yolla bağlıdır.

Bu pillədə aşiq öz nəfsini qorumalı, onu dünyəvi həzzə qurban verməməlidir. Yoxsa getdiyi yol yarımçıq qalar və o, eşq yolunun yolçusu sayılmaz. Üçüncü mərhələ mərifət adlanır. Bu zaman aşiq dərketmənin üstün pilləsinə gəlib çıxır, tam şəkildə idraka sahib olur, yəni kamala yiyələnir. Bütün bu üç mərhələdən sonra aşiq həqiqəti dərk etməyə başlayır, həqiqəti dərk etmək ilahi sevgiyə qovuşmaq deməkdir. Bu dörd mərhələnin hamısına "Şah İsmayıl" dastanında rast gəlirik. Aşiqin, yəni Şah İsmayılın bu mərtəbələri keçməsi üçün bir neçə sınaqdan istifadə olunur. Birinci sınaqda qəhrəman-aşiqin məhəbbət yolunda dözümlülüyü, məqsədə çatmaq uğrunda mübarizəsi əks olunur.Digər sınaqlarda da Şah İsmayıl qəhrəman-aşiq kimi özünü təsdiq edir.

Dastanda Şah İsmayıl obrazının təsəvvüf semantikasında haqq aşığı olması aydın görünür. Əksər məhəbbət dastanlarında aşiq haqq aşığı olmaq üçün buta almalıdır. "Şah İsmayıl" dastanında isə bu problemi onun ata-babasının təkkə ocağı ilə bağlı olması həll edir. Əgər Şah İsmayıl haqq aşığı olmasaydı, başqa dastanlarda adı keçən eşq, miskin, seyraqub, xuda, nişan, ilqar, cənnəti-rizvan, dərd, yar, mehriban, divanə, qonaq, gül, dil, fərman, gülşən, yol, məcnun, huri, işvə, naz adları onun dilindən söylənən şeirlərdə təzahür etməzdi. Məhəbbət dastanlarında sufi qəhrəman əzab-əziyyət çəkir, sonda ona qovuşur. Allaha məxsus olan sufi təsəvvürlərin hamısı onun seçdiyi yer mənşəli gözəldə təsvir olunur. Sufi məhəbbətin dialektikasında Allaha qovuşmaq Yer gözəlinin vasitəsilə öz həllini tapır. Digər təsəvvüfi-ürfani dastanlarda isə yer qızı ilə qovuşa bilməmək o dünyada Allaha qovuşmaq kimi səslənir – yəni, burada aşiq-məşuqun ölümünü onların Allaha olan məhəbbətinə qovuşması kimi xarakterizə etmək olar. "Şah İsmayıl" dastanı da birinci sayılan dastanlardandır. Dastanın sonunda Şah İsmayıl Gülzara qovuşur, çoxlu əzab-əziyyətlərdən sonra onların qovuşması Allaha qovuşmaq anlamına gəlir. Dastanda təriqət, mərifət və həqiqət pillələri keçilir. Şah İsmayıl eşqinə qovuşmaq üçün səfərə çıxır. Bu yolda ayrılıq, hicran da vardır. Ayrılıq, hicran da təsəvvüfi mənada aşiqin halını müəyyənləşdirir. Onun səfərə yola düşməsinə səbəb Gülzardan ayrılmasıdır. O, bu yolda Allaha doğru məcazi olaraq simvolik yol gedir, üç mərhələdən ibarət yoldan keçir, sonda kamil bir insana çevrilir. Şah İsmayılın bu yolda qarşılaşdığı dörd maneə onu daha da ilahi sevgisinə sadiq edir (2, s.82).

Təsəvvüfi-ürfani dünyagörüşdə aşiq və məşuqun bir-birinə məhəbbəti bərabər olmalıdır. Biz bütün məhəbbət dastanlarında bu bərabərliyi görürük. Əgər bu bərabərlik pozularsa, bu dünyada ilahi məhəbbətə qovuşmaq baş verməyəcəkdir. Bunu "Əsli və Kərəm"də, "Abbas və Gülgəz"də, "Qurbani"də, "Tahir və Zöhrə"də və başqa dastanlarda da müşahidə edirik. Bu dastanlardakı aşiq və məşuqlar eşqin zərrələridir, onlar bir-birindən ayrıldıqdan sonra vəhdət-vücuda qovuşa bilirlər. Ayrılıq baş verməyən dastanlarda isə Allaha qovuşma ürəkdə olaraq özünü göstərir.

Təsəvvüf semantikasında ov, səfər, körpü, ruh, bədən, könül, kam almaq sözləri dastan poetikasında məcazi mənada işlənir. Məsələn, ruh və bədən bir-birindən asılı sözlərdir. Bu sözlərin psixoloji mənada deyil, mənəvi mənada işləndiyini görürük:

Şah İsmayıl, günlər keçdi vətəndən,
Ağıl başdan getdi, ruh da bədəndən,
Yusif kimi ayrı düşdüm Kənandan,
Misirdə alışmış ha yanım indi. (2, s.144)

- misralarında ruhun bədəndən ayrı düşməsini, vətən, alışıb-yanmaq, nişan, ayrı düşmək, ayrılıq sözləri simvol kimi məcazi mənada işlənmişdir. Bu sözlərin hər birinin ayrıca alt mənaları vardır. Bu sözlər təsəvvüfi-ürfani düşüncədə konkret simvollara çevrilir.

Şah İsmayıl Allaha doğru ruhani yolun yolçusudur. O, dörd mərhələdən keçərək, öz ilahisinə qovuşmalıdır Amma bu yolda maneələri dəf etməlidir, həm də bu maneələr Şah İsmayılın həqiqi eşqində kamil olmasını yoxlamaq üçündür.

"Şah İsmayıl" dastanında təsəvvüfi-ürfani düşüncənin keçdiyi mərhələlər obrazların, ümumiyyətlə, aşiq və məşuqun mənəvi-ruhani həyatına təsir edərək, onların fərd kimi yetişməsində rol oynayır. Ümumi şəkildə götürsək, bütün məhəbbət dastanlarının aşiq və məşuq obrazları öz zamanlarının sufi və ya təsəvvüfi ideyalarının təsiri altında yetişir, bu dastanların əsas qəhrəmanlarına çevrilirlər. Bütün məhəbbət dastanlarında ilahi eşqin mahiyyətini açmaq üçün təsəvvüf anlayışının rolunun öyrənilməsi vacibdir. Təsəvvüfün dastan poetikasında oynadığı rol isə daha qabarıq görünür.

Aşıq yaradıcılığının təsəvvüf şeiri üzərində qurulması bu yaradıcılıq növünün öyrənilməsini əsas məsələyə çevirir, aşıqların sufi baxışlarının dini-ictimai, elmi-fəlsəfi və ürfani cəhətdən araşdırılmasını nəzərdə tutur. Təsəvvüf işarələrinin dastan yaradıcılığında rast gəlinməsi isə Allah – insan, dünya – ruhani aləm münasibətlərinin aşıq şeirində necə təcəssüm olunmasını öyrənməyi tələb edir. Bu vaxta qədər bəzi monoqrafiyalarda bu barədə söz deyilsə də, bu, mətləbin hərtərəfli öryənilməsinə gətirib çıxarmamışdır.

Ədəbiyyat

1. Azərbaycan dastanları. 5 cilddə. 1-ci cild. Bakı: Azərbaycan SSR EA Nəşriyyatı,1965,380 s.
2. Azərbaycan dastanları.5 cilddə. 3-cü cild. Bakı: Azərbaycan SSR EA Nəşriyyatı,1967,340 s.
3. Cəfərli M. Azərbaycan dastanlarının struktur poetikası. Bakı: Nurlan, 2010, 404
4. Cəfərli M. Azərbaycan məhəbbət dastanlarının poetikası. Fil. elm. dok. dis. avtoref. Bakı, 2003, 54 s.
5. Qasımlı M. Ozan-aşıq sənəti. Bakı: Uğur, 2011, 304 s.
6. 6.Fəxrəddin Salim. Milli yaddaş sistemində ürfan və təsəvvüf. Bakı: Elm və təhsil, 2010, 460 s.
7. Kazımov Q. Qurbani. Əsərləri. Bakı: Şərq-Qərb, 2006, 232 s.
8. Təhmasib M.H. Azərbaycan xalq dastanları (orta əsrlər).Bakı: Elm, 1972, 400 s.

I.Qacayeva

Sufi semantics of Ashig and Mashug images

Summary

In the Sufi outlook, love and affection must be equal to each other. We see this equality in all of our love epics. If this equality is violated, it will not be possible to achieve divine love in this world. We observe it in "Asli and Kerem", "Abbas and Gulgas", "Kurbani", "Tahir and Zohra" and other saga. Lovers and lovers in these epics are fragments of love, and after separating from one another, they are able to get together. In episodes that do not separate, the reincarnation of God manifests itself. In general, the ashig and mashug of all love epics grow under the influence of sufi or imaginary ideas of their time, and become the main heroes of these epics. It is important to study the role of Sufism in explaining the essence of divine love in all love epics. Establishing ashug creativity on the Sufi Poetry makes it a fundamental issue for studying this kind of creativity, envisaging religious-social, scientific-philosophical and horror-based investigations of the ashugs' viewpoints. Finding signs of Sufism in the creation of the epic of creation requires that God learn how to manifest the relationship between the world and the spiritual world. Even though some monographs have not been mentioned before this, it has not led to a thorough boom.

Key words: God, ashug, ashug, mashug, love, sufism, wisdom, epos, dervish, fairy, separation, holy, spirit, way.

И.Гачиева

Суфийская семантика образов Ашика и Машука

Резюме

В суфийском мировоззрении любовь и привязанность должны быть равны друг другу. Мы видим это равенство во всех наших любовных эпосах. Если это равенство будет нарушено, невозможно достичь божественной любви в этом мире. Мы наблюдаем это в «Асли и

Керем», «Аббас и Гулгас», «Курбани», «Тахир и Зохра» и других саг. Любовники и любовники в этих эпопеях - это фрагменты любви, и, отделившись друг от друга, они могут собраться вместе. В эпизодах, которые не разделяются, реинкарнация Бога проявляется. В общем, ашиг и машуг всех любовных эпопей растут под влиянием суфийских или воображаемых представлений своего времени и становятся главными героями этих эпопей. Важно изучить роль суфизма в объяснении сущности божественной любви во всех любовных эпосах. Установление ашугского творчества в суфийской поэзии делает его фундаментальной проблемой для изучения этого вида творчества, предусматривающего религиозно-социальные, научно-философские и ужасные исследования точек зрения ашугов. Нахождение признаков суфизма в создании эпоса творения требует, чтобы Бог научился проявлять отношения между миром и духовным миром. Хотя некоторые монографии не упоминались до этого, это не привело к основательному буму.

Ключевые слова: Бог, ашугом, ашуг, машуг, любовь, суфизм, мудрость, эпос, дервиш, фея, разделение, святой,дух, путь.

Redaksiyaya daxil olma tarixi: 20. 04.2019
Çapa qəbul olunma tarixi: 25.04.2019
Filologiya elmləri doktoru, professor Seyfəddin Rzasoy tərəfindən çapa tövsiyə olunmuşdur.

ZÜMRÜD RƏSULZADƏ
Bakı Avrasiya Universiteti
Həsən Əliyev 135 a
zumrudemerald@gmail.com

QUSTAV FLOBERIN "MADAM BOVARI" VƏ "SADƏLÖVH" ƏSƏRLƏRINDƏ QADININ MƏNƏVI-RUHI ALƏMININ TƏSVIRI

Xülasə:

Məqalədə Qustav Floberin "Madam Bovari" və "Sadaəlövh" əsərlərindəki qadın obrazlarının təhlili aparılır. "Madam Bovari"də insanın mənəvi-ruhi aləmində baş verən, ağılla, şüurla dərk olunmayan hislərin izah olunur. Eyni zamanda Flober Emma obrazı ilə özünə qədər yazılmış daim romantik arzularla yaşayan qadın obrazlarına kinayə ilə gülür. Flober ailə sədaqətsizliyi kimi geniş yayılmış bu hadisənin köklərini burjua nikahındakı mənəviyyatsızlıqda görür. Bütün bunlarla bərabər Emma meşşan insanlar arasında yeganə canlı obrazdır ki, özünə bəzən bəraət qazanır. Romanda həqiqi insan hislərinə düşmən olan mövcud ictimai quruluş tənqid olunur.

Müəllifin yaradıcılığında digər mühüm əsərlərdən biri də "Sadəlövh"dür ki, burada Flober Felisite obrazı ilə bütün yaradıcılığı boyu davam etdirdiyi ənənəni pozur. Flober əsərin adının izahını Felisite obrazı ilə tamamən açıqlayır. Felisitenin əsas psixoloji keyfiyyəti onun sadəlövhlüyüdür. Floberin fikri bu idi ki, bu xüsusiyyət heç də səfehlik, axmaqlıq deyildir. Eyni zamanda, bu da göstərilir ki, sadə insanların da zəngin daxili aləmi olur, onların da məhəbbəti böyük olur, fədakarlıq edə bilirlər.

Mövcud gerçəkliyə daim kinayə ilə baxan bir yazıçının yaradıcılığının yekunuda belə bir mövzu seçməsi təəccüblü hal deyil. Bu obraz müəllifin indiyə qədər yaratdığı qəhrəmanların bədii yekunu və Floberin avtoportretidir. Yazıçı bu əsərdə Felisite vasitəsi ilə daha çox şəxsi hiss- həyəcanlarını ifadə etmiş və daha dəqiq desək, öz şəxsi hisləri ilə bu qəhrəmanı zənginləşdirmişdir.

Açar sözlər: qadın obrazı, daxili aləm, romantizmi tənqid, burjua cəmiyyəti, kinayə

Qustav Flober 1851-57-ci illərdə "Madam Bovari.Əyalət adətləri" (Bundan sonra "Madam Bovari") romanını yazmışdır. "Madam Bovari" romanı öz məzmun orijinallığı, üslubi özünəməxsusluğuna görə o dövrədək yazılmış bütün romanlardan fərqlənirdi.

Yazıçının bu şah əsəri dünya ədəbiyyatına ən qalmaqallı əsərlərdən biri kimi düşmüşdür. Bu əsər elə bir dövrdə yazılmışdır ki, burjua mühitinin meşşanlığı qadınları boğurdu. Flober Emmanın facisəini əks etdirərək "Bovari mən özüməm" deyirdi. O, Emmanın simasında burjua mühitinin meşşanlığını tənqid edirdi.

Artıq 30-cu illərdə psixoloji roman ənənələri fransız ədəbiyyatında yaranmağa başlamışdı. Floberin də yaradıcılıq metodu bu istiqamətdədir. Madam Bovarinin fəlsəfi iztirabında da bunu görürük. Professor B.Q.Reizov yazır: "30-u illərdə psixoloji roman inkişaf etməyə başlayır və fəlsəfi problem psixoloji problemlə əvəz olunur. Jül Janen, Güttünger, Sent-Böv, Müsse, hətta, Jorj Sand aralarında olan bütün fərqlərə baxmayaraq fəlsəfi və ictimai problemləri müasir insanın əxlaqi şüurunu öyrənərək psixoloji təhlil metodu ilə həll edirdilər". (4, 223)

Yazıçı bu romanın baş qəhrəmanı kimi, ağılla yox, hisləri ilə yaşayan, öz hislərindən baş çıxara bilməyən natamam təhsilli əyalət qadınını seçmişdir O,özünə də dumanlı olan və eyni dərəcədə də müəmmalı olan estetik idealların, ənənəvi tərbiyənin, mühitin idarə etdiyi hislərin hökmü ilə yaşayır. Elə ona görə də sadə məntiq belə psixologiyanı izah etməyə acizdir" (1, 162).

Emma, ilk baxışda, səviyyəsinə, dünyagörüşünə görə ətrafdakılardan heç də fərqlənməyən bir qadındır. O, sadəlövh ərini aldadaraq əxlaq normalarını pozur. Əslində, yazıçı oxucuya əxlaq dərsi vermək niyyətində deyil. O, öyüd verməkdən daha çox bu eybəcər hadisənin köklərini göstərir. Sent Bövün təbirincə desək, "Flober bunları burjua nikahının mənəviyyatsızlığında görür və asılı qadının

cansıxıcı ailə həyatına qarşı çıxmaqdan, onu tam mənada, bayağılığa və çirkaba sürükləyən ərinə xəyanət etməkdən başqa yolu qalmır" (5, 19)

Emma hər şeydən əvvəl, ehtirasın ondan tələb etdiyi kimi davranmır. Emmanın davranışı qeyri-rasionaldır. Onun davranışını məntiqi baxımdan qiymətləndirmək olmaz. Floberin psixoloji ustalığını görmək üçün Emmanın davranışındakı bəzi nüanslara toxunaq: Bir-birlərini sevdiklərini anlayarkən Emmanın Leonu rədd etməsi, münasibətləri pozulduqdan sonra yenidən Leona qarşı hissləri, onun özünü aldatmaları buna nümunədir. XVIII əsrin sonu-XIX əsrin əvvəllərinin materialist psixologiyasına əsaslanan o vaxta qədərki əsas metod, "hakim ehtiras" metodu idi. Personajın psixologiyası həmin ehtirasın məntiqindən ibarət olurdu.Flober bu metoddan imtina etmişdir.". (1, 162)

Bizim fikrimizcə də Madam Bovarinin davranışlarına məntiqi baxımdan qiymət vermək olmaz. Əgər bütün bunlara məntiqi baxımdan qiymət versək, bu, nə mövcud reallığa, nə normal əxlaq prinsiplərinə uyğun gələcək.Onun mənəviyyatında baş qaldıran hislər şüuraltı səviyyəsindədir.

Yazıçı bu obrazı yaradarkən qarşısına müəyyən əxlaq dərsi vermək niyyətində deyildir, o, hansısa mənəvi- əxlaqi qaydalara əsaslanmır. Müəllif, sadəcə olaraq, mümkün olmayanı əldə etmə arzusunda olanın psixologiyasını və onun nəticələrini göstərir. Flober öz qəhrəmanını nə suçlayır, nə də ona haqq qazandırır. O, öyüd verməkdən daha çox bu eybəcər hadisənin köklərini göstərir. Sent Bövün təbirincə desək, "Flober bunları burjua nikahının mənəviyyatsızlığında görür və asılı qadının cansıxıcı ailə həyatına qarşı çıxmaqdan, onu tam mənada, bayağılığa və çirkaba sürükləyən ərinə xəyanət etməkdən başqa yolu qalmır" (6, 456)

Madam Bovarinin daxili aləmində baş qaldıran ziddiyyətli hislərin səbəbini görmək üçün onu uşaqlıqdan izləyək: Monastrda təhsil alan Emma orada monastır əxlaqına uyğun olmayan bir sıra əsərlər oxuyur. Kəndə qayıdan Emma onu əhatə edən mühitlə uyğun gəlmədiyini anlayır. Bunun üçün də özünün kübar hesab etdiyi Şarl Bovariyə ərə getsə də, o, burada da axtardığını tapa bilmir. Əyalət qızı olsa da, kübar xanımlar kimi davranmaq istəyən Emma Şarlın sevgisinə məhəl qoymur. Çünki o, xoşbəxt olmadığını anlayır. Məhz elə bu nöqtədən sonra Emmanın daxili aləmində fırtınalar başlayır. Əslində, Emmanın faciəsinin təməli hələ monastırda oxuyan zaman yaranmışdı. Flober, sanki, özü də Emmanın xəyalpərvərliyinə acıyır. Bu məqamda Ş.Sent Bövün fikirlərinə qatılırıq: "Emmanı ilk uşaqlığından bizə göstərərək sonralar monastır pansionunda təhsil alan bu qızın incə və müəmmalı meylləri vasitəsilə, həm də onun təxəyyülünün çoxluğu üzündən yaranmış xəyalpərvərliyini və həssalığını təsvir edərək müəllif qəddarcasına ona gülür və - etiraf edəkmi? – elə ki, ona diqqətlə nəzər salırsan, nəticədə görürsən ki, sən bu qıza özündən daha çox mərhəmət hissi ilə yanaşırsan" (6, 454)

Flober Emma obrazı ilə öz dövründə romantik xəyallar aləmindəki ədəbi qəhrəmanları tənqid atəşinə tuturdu. O göstərir ki, insanın mənəvi aləmi mürəkkəb və çox vaxt məntiqi baxımdan izaholunmazdır.

Emmanın ölümü arzu etdiyi həyata çatmaqda etdiyi cəhdlərin onu uçuruma atmasında deyil, arzuladığı həyata heç vaxt çata bilməyəcəyinin fərqinə vardığı üçün olmuşdur.

"Madam Bovari"də hadisələrin cərəyan etdiyi məkanlar hər biri ayrı- ayrılıqda Emmanın intihar yolundakı pillələridir.

Romanın mövzusundakı ən diqqət çəkən cəhət onun romantizmi tənqididir. Emmanı öldürən zəhər deyildir. Emmanı uçuruma aparan, öldürən ən böyük qüvvə onun romantizmidir.

Floberin yaradıcılığında xüsusi əhəmiyyət kəsb edən əsərlərdən biri də "Sadəlövh" povestidir. Floberin ömrünün sonlarına yaxın yazdığı bu əsər tam ciddi tərzdə, kinayədən, satiradan uzaqdır. Mövcud gerçəkliyə daim kinayə ilə baxan, dərin yumor hissi ilə yazıb yaradan sənətkarın birdən-birə belə ciddi tərzdə əsər yaratması təsadüfi deyildi. Ağır xəstəlikdən əzab çəkən, bir-birinin ardınca bütün yaxınlarını itirərək yalqız qalan Floberin yaradıcılığında bu ədəbi dəyişiklik, sözsüz ki, təzahür olunacaqdı.

Qustav Floberin yaradıcılığında ənənəvi mübət və ya mənfi qəhrəman demək olar ki, yoxdur. Flober isə həddindən artıq yaxşı və xeyirxah obrazları bəyənmirdi. Hətta onun bu xüsusiyyətinə görə dostlar, xüsusilə də Jorj Sand ona irad tuturdu. Bu baxımdan Flober "Sadəlövh" əsərindəki Felisite ilə özünün yaradıcılıq ənənəsini pozmuşdur.

Əsərlərində, əsasən, əyalət adamlarının həyatından bəhs edən yazıçı, "Sadəlövh" povestində sadə bir insanın, xidmətçi bir qadının bədii obrazını yaratmışdır.

Felisite Floberin yaradıcılıq süzgəcindən keçirilmiş yeni bir obrazdır. O, həyat eşqi ilə çırpınan, həyatının mənasını başqalarına xidmət etməkdə görən özü də hiss etmədən özünü başqalarına qurban verən həssas bir xidmətçi qadındır.

Flober bu qədər səmimi təsvir etdiyi bir obrazın keçmişini ötəri şəkildə təsvir etmişdir. Bunun da səbəbi onun qəhrəmanının özünün daxili-mənəvi aləmi, hiss və həyəcanları, əxlaqı və psixologiyası müəllifin əsas diqqət nöqtəsində olması idi. Floberin dostu rus yazıçısı "Sadəlövh"ü onun əsərlərinin ən uğursuzu hesab edərək qeyd edir: "Orada gicbəsər bir ev xidmətçisi ömrünü onunla başa vurur ki, müqəddəs ruhu təcəssüm etdirən göyərçinlə dəyişik saldığı bir tutuquşu üzərində öz məhəbbətini cəmləşdirir". (4, 480). Qeyd edilən obraz haqqında biz bir qədər fərqli düşünürük. Yəni yazıçı bu kimsəsiz qızın obrazı ilə daxili məsuliyyət və insani borc naminə özünü fəda etməyi izah etmiş, digər tərəfdən isə onu getdikcə tənəzzül edən burjua cəmiyyətinə nümunə göstərmişdir. Bu baxımdan, A.Puzikovun fikri ilə müəyyən mənada razılaşırıq. "Burada kiçik adam haqqında, xidmətçi Felisite, əbədi zəhmətkeş haqqında bəhs olunur, qismətinə düşən müsibətlərə baxmayaraq, o, insanlara olan sonsuz xeyirxahlıq hissini, fədakarlığını, qeyri-adi mənəvi təmizliyini itirmir. Flober heç bir əsərinin qəhrəmanında bu nadir keyfiyyətləri tapmamışdır, budur, indi isə o, sadə xalqın ən yaxşı keyfiyyətlərini simvolizə edən, heç bir xüsusi adı və şan-şöhrəti olmayan bir qadına belə yüksək qiymət vermişdir". (3, 117)

Əsərdə baş verən bütün hadisələr ilk növbədə qəhrəmanın daxili, psixoloji aləminin ayrı- ayrı nüanslarının açılmasına xidmət edir. Felisite obrazı bütün dolğunluğu ilə bu əsərdə təsvir olunan bütün epizodlarda ifadə olunmuşdur. Yazıçı, ilk növbədə, qəhrəmanın əsas psixoloji "keyfiyyəti" olan sadəlövhlük anlayışına aydınlıq gətirmək istəmişdir. Müəllif belə hesab edirdi ki, bu xüsusiyyət heç də səfehlik, axmaqlıq əlaməti deyildir. Digər tərəfdən, o oxucu kütləsinə demək istəmişdir ki, sadə insanların da zəngin mənəvi aləmi olur, onlar da böyük məhəbbətlə sevə bilir, özlərini təmənna ummadan fəda edə bilirlər.

Felisitenin mənəvi saflığı, daxili zənginliyi əsərdə onun bacısı və onun uşaqlarına göstərdiyi qayğıda da təsvir olunur. Xüsusilə də, onun bacısı oğlu Viktoru balasıtək sevməsi, qayğısına qalması, Viktorun həlakından sonra hədsiz dərəcədə kədərlənməsi epizodu da Felisitenin dərin mənəvi aləminin göstəricisi hesab oluna bilər.

Felisitenin kimsəsiz qoca olan Kolmiş babaya göstərdiyi qayğı artıq bəsit bir sadəlövhlük yox, daxili zənginlikdir: "Felisite qoca üçün dəyişək tapıb gətirdi, komasını səliqəyə saldı. Kolmişin xərçəng xəstəliyinə tutulduğu məlum olanda isə qızın qayğıkeşliyi birə-iki artdı; o, hər gün qocanı yuyundurur, hərdən ona kökə gətirir, havaya çıxardır, uzanmaq üçün samanın üzərində ona yer düzəldirdi". (2, 38)

Fikrimizcə, əsərin baş qəhrəmanının dərin mənəvi-psixoloji və ruhi dünyasının açılmasında mühüm rol oynayan epizodlardan biri də tutuquşu ilə bağlı motivdir. Yazıçı Felisitenin yüksək insani keyfiyyətlərə malik olmasını bu quş ilə olan münasibətində göstərir. Bütün yaxınlarını itirən Felisite dinə pənah gətirir. Onun yeganə təsəllisi tutuquşu olur. Tutuquşu öləndə isə onun müqəvvasını hazırlayıb otağında saxlayır. Hələ çox uzun zaman öncə kilsədə Məryəmin başı üzərindəki "müqəddəs ruh"un şəklini görən Felisite yaşlananda bu quşla "müqəddəs ruh"u öz beynində eyniləşdirir

Öz sadəlövh dini dünyagörüşünü formalaşdıran və bütün mənəvi- ruhi ideallarını tutuquşunun üzərində cəmləşdirən Felisitenin ruhu, sanki, ölüm ayağında bu tutuquşu ilə qovuşur: "Onun dodaqları gülümsəyən kimi oldu. Ürəyi getdikcə daha ağır-ağır, fəvvarənin suyu qurtardığı kimi, daha yavaş-yavaş, hiss olunmadan döyünürdü. Və son dəfə nəfəsi ağzından çıxanda ona elə gəldi ki, geniş səmalarda nəhəng bir tutuquşu onun başı üzərində uçur." (2, 57)

Zənnimizcə, şəxsi həyatı və bədii yaradıcılığında mövcud gerçəkliyə daim kinayə ilə baxan bir yazıçının ömrünün sonlarına yaxın, mənəvi və psixoloji böhran keçirdən sənətkarın əsəri üçün belə bir mövzu seçməsi təəccüblü hal deyil. Demək olar ki, bu obraz müəllifin indiyə qədər yaratdığı qəhrəmanların bədii yekunu və Floberin avtoportreti idi. Yazıçı bu əsərdə Felisite vasitəsi ilə daha

çox şəxsi hiss- həyəcanlarını ifadə etmişdir. Daha dəqiq desək, Flober öz şəxsi hisləri ilə bu qəhrəmanı zənginləşdirmişdir.

Ədəbiyyat siyahısı:

1. Cəlil Nağıyev.Klassik fransız ədəbiyyatından yeddi portret. Bakı, "Elm və təhsil" 2014, 248 s.
2. Qustav Flober. Sadəlövh. Bakı, "Qanun", 2014, 140 s.
3. А. Пузиков. Пять портретов. Бальзак. Флобер. Мопассан. Золя, М.: Издательство Художественной литература, 1972, 464 s.
4. Б. Г. Реизов. Творчество Флобера, М.: Государственное Издательство Художественной Литературы, 1995, 524 s.
5. В. Е. Шор. Флобер, Краткая Литературная Энциклопедия, т. 8, Флобер — Яшпал. —М.: Издательство «Советская Энциклопедия», 1975,
6. Ш. Сент-Бёв. Литературная портреты. Критические очерки. М. Издательство "Художественной Литература", 1970, 607 s.

Z.Rasulzadeh

Description of the spiritual world of women in the works of Gustave Flaubert "Madame Bovary" and "Naive"

Summary

M. Ergin səhifə (63), Tezcan və Boeschoten səhifə (118), H. A. Schmiede səhifə (100), KDQ Ensiklopediası I, səhifə (76), KDQ əsil və sadələşmiş mətnlər, S. Əlizadə səhifə (97) və sa və il. Bu oxunuş mətnin ərəb əlifbası ilə qələmə almış yazıçının buraxdığı səhvdən törənir. Yazıçı bunu belə: "**من دخی بویرمش اوغلانیم**" yazmalı idi, amma ərəb əlifbasının fərqli fontları ilə yazılmış "**ر**" hərfi ilə "**و**" hərfi KDQnin orijinal mətnindəki fontda bir-birinə çox yaxın şəkildə olduğuna görə həm mətnin yazıçısı həm də çağdaş oxucunu yanılda bilmişdir.Drezden nüsxəsi yalnız Ərəb əlifbası ilə yazılmamış, eyni halda Ərəb yazısı və fars dilinin təsirini də Türkcənin orfoqrafiyasına daxil etmişdir. Bu da o vaxt Ərəb mədəniyyətinin siyasi-nizami üstünlüyü və bir baxımdan da islamı qəbul edən türklərin tərəfindən mənimsənilməkdən irəli gələ bilər. Ərəb dilində bir çox leksikonlar var, örnək üçün: "**رحمان**" yox, "**رحمن**" yazılıb "rəhman oxunur; "**انسان**" yox, "**انسن**" yazılıb "insan" oxunur. KDQ Drezden nüsxəsində də "**ببان**" yazılıb, "bəban" yox, "baban"; "**قناتلو**" yazılıb, "qənatlu" yox, "qanatlı"; "**طتلو**" yazılıb, "tətlu" yox, "tatlu"; "**شهباز**" yazılıb "şəhbaz" yox "şahbaz"; "**قطار**" yazılıb "qətar" yox, "qatar"; "**یصدقده**" yazılıb "yəsdıqdə" yox, "yasdıqda"; "**قرشو**" yazılıb "qərşu" yox, "qarşı" oxunur. Elə bu nədənlə də "**دخی**" yazılsa da "**dəxi**" yox, "**daxı**" oxumalıyıq. O vaxtın yazıçıları "I" səsi və hərfinin yerinə ərəb əlifbasında çarəsizlikdən "**ي / ى**", hərdən "**و**" işlətmişlər, bu problem bu gün Azərbaycanın güneyində də yaşamaqdadır. Misal üçün oğluna "**Aydın**" adı qoyur, ərəb əlifbasında "**آیدین**" yazılır, sonra haman Azərbaycanlı qardaş dönüb oğlunu "**Aydin**" səsləyir! Niyə? Ona görə ki onun ana dilində təhsili yoxdur və təhsil sistemi farsca olduğu və yazılan kəlməni farslar "Aydin" oxuduğu üçün o da "Aydın"ı buraxıb "Aydin" səsləyir! **Aynalı** Azərbaycanın Qərədağ bölgəsində gözəl bir meşəlikdir, amma ərəb əlifbası ilə yazılmış tablolarında "**آینالو**" yazılsa da xalq onu "Aynal**u**" yox, "Aynal**ı**" oxuyur, amma fars təhsili almışlar isə "Aynalu" deyir.

Bu araşdırmadakı örnəklərin hamısı Dədə Qorqud kitabı əlyazmasının Drezden nüsxəsi kimi Türkcə olduğuna baxmayaraq ərəb əlifbası ilə yazılmış olduğuna görə, o vaxtın katiblərinin yaratdığı orfoqrafiyanın, ərəb və fars dillərinin az da olsa bu əlyazmalarda olan təsiri kimi amilləri nəzərdə alsaq günümüzdəki ərəbcə, farsca, eləcə də ərəb əlifbası ilə yazılmış Türkcə ilə tanış olmayan oxucuya normal olaraq çətinliyi aydın olur. O üzdən belə bir ortamda yazılmış klassik mətnlərimizi oxumaq böyük məsuliyyət daşıyır. Eyni halda bu mətnlərin düz oxunuşu məsəllərini aradan qaldırmaq hamımızın milli-mənəvi borcumuzdur.

Milli-mənəvi dəyərlərimiz və sərvətimiz olan klassik ədəbiyyatımız Türk xalqlarının İslamı qəbul etdikləri dövrdən sonra qələmə alındığına görə ərəb əlifbası ilə yazılmışdır. Təbii olaraq ərəb və fars dilləri və mədəniyyəti ana dilimiz Türkcədə və onun o vaxtdakı yazılış qaydaları və orfoqrafiyasında qarşılıqlı təsir buraxmışdır. Bu araşdırmada təqdim olunan örnəklərdə ərəb əlifbası ilə yazılmış klassik ədəbiyyatımız, o cümlədən Dədə Qorqud kitabının Drezden nüsxəsini oxumaqda yaranan problemlərin bəzisinin həlli təqdim edildi.

ƏDƏBİYYAT

1. Abdulla K. "Paralelizm" oçerki / Dədə Qorqud kitabı. Ensiklopedik lüğət. Bakı: Öndər Nəşriyyat, 2004, s. 287
2. Ergin M. Dede Korkut Kitabı II İndeeks – Gramer. Ankara: TDK Yayınları, 1997, 483 s.
3. Ergin M. Dede Korkut Kitabı I Metin – Sözlük. Ankara: Türk kültürünün Araştırma Enstitüsü, 1964, 217 s.

4. “Kitabi-Dədəm Qorqud” əla-lisane-tafeyi-oğuzan (Drezden və Vatikan əlyazma nüsxələri və M.Erginin nəşri əsasında tərtib edib çapa hazırlayanı S.Əlizadə) / “Kitabi-Dədə Qorqud” ensiklopediyası. 2 cilddə, I cild.. Bakı: YNE, 2000, 624 s.
5. Kitabi-Dədə Qorqud. Əsil və sadələşdirilmiş mətnlər. Bakı, “Öndər nəşriyyat”, 2004, 376 s.
6. Schmiede H.A. “Kitab-ı Dedem Korkut” Destanlarının Dresden Nüshası. Ankara: Türkiye Diyanet Vakfı Yayınları, 2000, 351 s.
7. Tezcan S. Dede Korkut Oğuznameleri Üzerinde Notlar. İstanbul: YKY, 424 s.

A.H.Axmedoqlu

The Reading Problems of the Dresden Manuscript of the Book of Dada Qorqud

Summary

The original manuscript of the book of Dada Qorqud is written in Arabic alphabet. Since Turkic language phonetics is not compatible with Arabic alphabet, writing Turkic texts with Arabic alphabet has created many problems in the writing of the Turkic languages. One of the ancient masterpieces of the Turkic languages is the Book of Dada Qorqud. It has two different editions. One is the Vatican edition and the other one is the Dresden edition. Both of them have been written in Arabic alphabet.

The scholars who have transcribed and translated the original text have had several wrong readings. There are several reasons. One of them is because writing Turkic with Arabic alphabet looks like hieroglyphics. One should be thoroughly familiar with Turkic, Arabic and Farsi languages to be able to read the original text exactly.

Our classic literature, which has national and moral values and wealth, is written in the Arabic alphabet because it was written after the Turkish people accepted Islam. Naturally, Arabic and Persian languages and culture have been intermingling in our mother tongue in Turkish and in its written rules and spelling.

The examples presented in this study provide a solution to some of the problems that arise from the classic literature written by the Arabic alphabet, including the Dede Korkut's Dresden copy.

At the same time the mistakes of the writer of the original text is another cause of the problem. The study made in this paper has tried to correct some of these misreadings.

Key words: The Book of Dada Qorqud, Arabic, alphabet, Turkic, lexicon, Farsi, phonetics, misreading, new reading, language

А.Г.Ахмедоглу

Проблемы чтения дрезденской рукописи книги Дада Горгуд

Резюме

Оригинальная рукопись книги Дада Горгуд написана в арабском алфавите. Так как тюркская языковая фонетика не совместима с арабским алфавитом, написание, что тюркские тексты с арабским алфавитом создали много проблем в письме тюркских языков. Один из древних шедевров тюркских языков - Книга Дада Горгуд. У этого есть два различных выпуска. Каждый - ватиканский выпуск, и другой - Дрезденский выпуск. Они оба были написаны в арабском алфавите.

У ученых, которые расшифровали и перевели оригинальный текст, было несколько неправильных чтений. Есть несколько причин. Один из них - то, потому что написание тюркских языков с арабским алфавитом похоже на иероглифическое письмо. Нужно быть полностью знакомым с тюркскими языками, арабским и языками фарси, чтобы быть в состоянии прочитать оригинальный текст точно.

Наша классическая литература, которая имеет национальные и моральные ценности и богатство, написана на арабском алфавите, так как она была написана на турецком языке. Естественно, арабский и персидский языки и культура смешались на нашем родном языке и в его письменных правилах и правописании. Примеры, представленные в этом исследовании, позволяют решить некоторые проблемы классической литературы, написанной на арабском алфавите, включая дрезденскую копию Деде Коркута.

В то же время ошибки автора оригинального текста - другая причина проблемы. Исследование, сделанное в данной статье, попыталось исправить некоторые из этих неправильных чтений.

Ключевые слова: Книга Дада Горгуд, арабский, алфавит, тюркские языки, словарь, фарси, фонетика, неправильное чтение, новое чтение, язык

Redaksiyaya daxil olma tarixi: 20. 04.2019
Çapa qəbul olunma tarixi: 30.04.2019
Filologiya elmləri doktoru, professor Şahin Xəlilli tərəfindən çapa tövsiyə olunmuşdur.

ZEYNƏB İBRAHIMOVA
Bakı Avrasiya Universiteti
Akademik Həsən Əliyev 135 A
zeynab.ibrahimova1@gmail.com

XX ƏSR TÜRKİYƏ ƏDƏBİYYATINDA ÖZGƏLƏŞMƏ PROBLEMİ

Xülasə

Özgələşmə problemi XX əsrə qədər yalnız fəlsəfənin daxilində öyrənilirdi, lakin zaman keçdikcə bu problem digər sahələrin də maraq dairəsinə daxil oldu. XX əsrdə özgələşmə problemini özünün əsas mövzusuna daxil edən cərəyan ekzistensializm cərəyanı idi. Ədəbiyyatda da özgələşmə problemini XX əsrin bir çox yazıçısı öz əsərinin əsas mövzusu kimi qələmə aldı. Türkiyə ədəbiyyatında ilk dəfə özgələşmə ilə bağlı əsərlərin yazılmasına Tənzimat dövründən başlanılmışdır. Tənzimat fərmanının qəbul edilməsindən sonra Türkiyənin ictimai-siyasi həyatında olduğu kimi yazılı ədəbiyyatında da qərb mədəniyyətinin təsirləri hiss olunmağa başlanılmışdır. Türk ədəbiyyatşünasları özgələşməyə ədəbiyyatda "bunalım ədəbiyyatı" adını verirlər. Bu mövzuda əsər yaradan sənətkarlar özünü dünyada tapa bilməyən, yaradılışını təhlil edən obrazları əks etdirmişlər. Bunalım ədəbiyyatının nümayəndələri öz romanlarında obrazların absurd xüsusiyyətlərini qabartmağa çalışmışlar. Bu məqalədə Oğuz Atayın və Y.Q.Qaraosmanoğlunun romanları özgələşmə problemi kontekstində təhlilə cəlb olunmuşdur. XX əsrdə Türkiyə ədəbiyyatında özgələşməni öz yaradıcılığında geniş formada əks etdirən yazıçılardan ən tanınmışı Oğuz Ataydır. Çağdaş Qərb ədəbiyyatında olduğu kimi, onun yaradıcılığında da "Fərdin cəmiyyətdəki mövqeyi" problemi əsas məsələlərdən biri olmuşdur. O da bir çox Qərb yazıçıları özgələşməni fərd və cəmiyyət kontekstində araşdırmışdır. Yazıçıya görə, fərd cəmiyyətdəki problemlərin həllini tapmağa çalışmadan öncə, özünün varlığını, kimliyini sorğulamalıdır.

Açar sözlər: Özgələşmə, ekzistensializm, böhran, bunalım, ziyalı

Müasir dünya ədəbiyyatında əsas problemlərdən olan özgələşmə problemi, yaradılan bədii əsərlərin məzmunu ilə bərabər quruluşuna da təsir göstərmişdir. Türkiyə ədəbiyyatında ilk dəfə özgələşmə ilə bağlı əsərlərin yazılmasına Tənzimat dövründən başlanılmışdır. Tənzimat fərmanının qəbul edilməsindən sonra Türkiyənin ictimai-siyasi həyatında olduğu kimi yazılı ədəbiyyatında da Qərb mədəniyyətinin təsirləri hiss olunmağa başlanılmışdır. Qərb ədəbiyyatındakı yenilikləri Türk yazıçıları da öz əsərlərinə tətbiq edərək dövrün ənənəsinə uyğunlaşırdılar. Y. Ecevitin də dediyi kimi, bu dövrdə yenilikçi yazıçılar ənənəvi yazıçılardan fərqli olaraq yaratdıqları bədii əsərlərdə, xüsusən romanlarda fərdin daxili dünyasını ətraflı şəkildə təsvir etməklə oxucusu ilə qəhrəmanlarını yaxınlaşdırırdılar. (6)

XX əsrin 60-cı illərinin əvvəllərində ölkədə baş verən hərbi çevrilişdən sonra (27 may 1960-cı il) sonra meydana gələn ictimai-siyasi vəziyyət və mənəvi-ideoloji böhran Türkiyə ədəbiyyatını Qərbin modernist-ekzistensialist nəsrinə doğru istiqamətləndirirdi. Türk ədəbiyyatşünasları bu ədəbi təmayülə "bunalım ədəbiyyatı" adını verirlər. Psixologiyada "depressiya" məfhumu bir şəxsi itirdikdən və ya həyatdakı müxtəlif uğursuzluqlardan sonra ortaya çıxan kədər, yorğunluq və s. kimi hisslərin ağuşunda çırpınan insanların düşdüyü vəziyyəti əks etdirir. Bunalım ədəbiyyatı faktoru

psixoloji ədəbiyyatın müəyyən mərhələsini əhatə edən ədəbiyyat sayılır. Depressiyada olan insanlar keçirdikləri böhrana görə yaşadıqları mühitdə insanlarla münasibət problemleri yaşayır, buna görə də özlərini cəmiyyətdən təcrid edirlər. Böhran keçirən insanlar itirməkdən meydana çıxan hissə görə depressiyaya məruz qalırlar. Ziqmund Freyd itirmək və depressiyanın, həmçinin böhranın arasında əlaqə olduğunu qeyd etmiş, müxtəlif itkilərlə insanın eqosunun zədələndiyini və buna görə də özünə qapandığını qeyd etmişdir. (4, s123)

50-60-cı illərdə ölkədə və dünyada baş verən siyasi hadisələr, müxtəlif qadağaların qoyulması yazıçıların özlərinin daxili dünyalarına sığınmalarına, yaradıcılıqlarında isə keçirdikləri böhranları, psixoloji vəziyyətləri əks etdirmələrinə səbəb olmuşdur. Türkiyə ədəbiyyatında ekzistensializm cərəyanının ilk təmsilçiləri Fərid Edgü və Dəmir Özlüdür. Fərid Edgü ilk təmsilçilərdəndir. O, eyni zamanda 50-ci illərdə "Bunalım" ədəbiyyatının yaradıcısı olmuşdur. Yazıçının "Yaralı zaman" romanında İraq hadisələrindən qaçan insanların keçirdikləri sarsıntılardan, müharibənin bu insanlara verdiyi zərərdən təsirlənən Fərid Edgünün öz hisslərindən bəhs olunmuşdur.

Ekzistensializm cərəyanının və bunalım ədəbiyyatının Türkiyədəki ilk təmsilçilərindən biri də Dəmir Özlüdür. Onun "Bulantı" adlı hekayə kitabı "Bunalım" ədəbiyyatının ilk nümunəsi olmaqla yanaşı, J.P.Sartrın eyni adlı kitabından təsirlənmişdir. (1, s.18)

Bu mövzuda əsər yaradan sənətkarlar özünü dünyada tapa bilməyən, yaradılışını təhlil edən obrazları əks etdirmişlər. Bunalım ədəbiyyatının nümayəndələri öz romanlarında obrazların absurd xüsusiyyətlərini qabartmağa çalışmışlar. Hadisə və əhvalatlata uzun müddətli yox, yaşadıqları an və mühitə görə reaksiya verən obrazlar daim sıxıntı, böhran, ruhi tələtüm və tənhalıq keçirir. Təsadüfi deyildir ki, bu cür ədəbiyyat nümunələrində ən çox istifadə olunan mövzulardan biri də ölüm və intihar mövzusudur. Böhran keçirən obrazlar tənhalıqdan və insanlardan qaçaraq intihara yönəlir.

Türkiyə ədəbiyyatında özgələşmə anlayışı, xüsusən XX əsrin 70-ci illərindən sonra sənayeləşmə ilə inkişaf edən sosial-iqtisadi vəziyyətlə əlaqədar olaraq işədilirdi. Tənzimat dövründən başlayaraq bu günə kimi bir çox türk yazıçısı özgələşməni yaratdıqları bədii əsərlərdə geniş kontekstdə əks etdirməyə çalışmışlar. Özgələşmə probleminə öz yaradıcılığında geniş yer verən yazıçılara bunları nümunə göstərmək olar: Yaqub Qədri Qaraosmanoğlu, Atilla İlhan, Yusuf Atılgan, Peyami Safa, Adalet Ağaoğlu, Oğuz Atay, Vüsat O. Bener, Bilge Karasu, Elif Şafak, Orhan Pamuk və s. Bunların içərisində təkcə Oğuz Atay Türkiyə ədəbiyyatında özgələşməni bir kult halına gətirən dahi şəxsiyyət olmuşdur.

XX əsrdə Türkiyə ədəbiyyatında özgələşməni öz yaradıcılığında geniş formada əks etdirən yazıçılardan ən tanınmışı Oğuz Ataydır. Onun 1970-ci ildə ilk romanı olan "Tutunamayanlar" TRT Roman mükafatına layiq görülmüşdür. O. Atay Türkiyə ədəbiyyatına çağdaş roman anlayışını gətirən ilk postmodernist yazıçıdır. O, bütün əsərlərində insanın özündən və yaşadığı cəmiyyətdəki münasibətlərindən bəhs edir. Çağdaş Qərb ədəbiyyatında olduğu kimi, onun yaradıcılığında da "Fərdin cəmiyyətdəki mövqeyi" problemi əsas məsələlərdən biri olmuşdur. O da bir çox Qərb yazıçıları özgələşməni fərd və cəmiyyət kontekstində araşdırmışdır. Yazıçıya görə, fərd cəmiyyətdəki problemlərin həllini tapmağa çalışmadan öncə, özünün varlığını, kimliyini sorğulamalıdır.

"Tutunamayanlar" romanında hadisələr Səlim İşığın intiharı ətrafında baş verir. Roman, Turqut Özbənin Universitet illərində yaxın dost olduğu Səlim İşığın ölüm xəbərini qəzetdən öyrənməsi ilə başlayır. Bu xəbər onu dərindən sarsıdır. Bir zamanlar çox yaxın olduğu Səlimi nəyin ölümə apardığını, niyə bir-birlərinə bu qədər uzaqlaşdıqlarını düşünərək Səlimin intiharının səbəblərini araşdırmağı qərara alır. Bu romanı ilə O.Atay türk romançılığına yeni istiqamət

gətirmişdir. “Tutunamayanlar” romanı sosial-psixoloji romandır. Romandakı baş qəhrəmanlar oxuyan, düşünən, yəni cəmiyyətin o zamankı dəyərləri ilə barışmaz mövqedə olan insanlardır. Romanda Səlimin məktəblə bağlı düşüncələri, təhsil sistemindəki çatışmazlıqlar, ciddi disiplin və qorxu üzərinə qurulan qaydalar, şagirdi məktəbə özgələşdirən müəllim-şagird münasibətləri məktəbin bir təhsil müəssisəsi olaraq həyatdan ayrı düşməsi kimi vurğulanmışdır. Turqut Səlimin intihar səbəblərini öyrənmək üçün Səlimlə ünsiyyətdə olan yaxın dostlarına müraciət edir. Turqut onların hər birindən Səlimin müxtəlif xarakterlerini öyrənir. Araşdırmaları zamanı ona məlum olur ki, Səlimin insanlar tərəfindən anlaşılmaması, təcrid olunması, hətta ətrafındakılar tərəfindən aldadılması onun həyatda “tutunamayan” bir şəxs olmasına səbəb olmuşdur.

Oğuz Atayın ziyalı qəhrəmanları ilə cəmiyyət arasındakı münasibətdə yalnızlıq, ümidsizlik və qorxu daha çox hiss olunur. Daxili dünyalarında yaşayan qəhrəmanlar həyatdakı reallıqla üzləşdikdə özlərini bu dünyaya özgələşmiş hiss edirlər. Qərb mədəniyyətinin dəyərləri baxımından məsələyə yanaşdıqda, Səlimlik bir az da oblomovluqdur. “Avrupalaşma yolunu tutan her doğu ulusunda Oblomovluk vardır.” (2, s.69)

Özgələşmə problemi ilə əlaqədar olaraq bir neçə yazıçının əsərini O.Atayın “Tutunamayanlar” romanı ilə müqayisəli şəkildə araşdıraq. İlk olaraq isə Yaqub Qədri Qaraosmanoğlunun “Yaban” romanını təhlil edək.

Y.Q. Qaraosmanoğlunun qələmə aldığı “Yaban” romanı təkcə özgələşmə mövzusuna görə yox, həm də ilk dəfə olaraq Anadolu kəndlisinin həyatından bəhs edən önəmli əsərlərdən biridir. Berna Morana görə, “Yaban” romanı ziyalı ilə kəndli arasındakı uçurumu ətraflı dilə gətirdiyi üçün, həmçinin Anadolu kəndlisinə aid həqiqətləri bütün çılpaqlığı ilə gözlər önünə sərdiyi üçün təqdir olunsa da, buna baxmayaraq, bəzi həqiqətləri təhrif etdiyi və kəndlinin sadəcə mənfi xüsusiyyətlərini əks etdirdiyi üçün tənqid edilmişdir. (Bax: 6, s. 949)

Yazıçı romanda zaman və məkan anlayışlarına xüsusi önəm vermişdir. Romanda I Dünya müharibəsindən başlayaraq Sakarya zəfərinə qədər olan zamandan, Əskişəhərin kəndlilərindən və buraya sonradan gələn bir şəxsin həyatından bəhs olunmuşdur. Yazıçı bu romanı vasitəsilə türk ziyalısı ilə türk kəndlisini qarşılaşdıraraq oxucusuna iki dünya arasındakı fərqləri açıq şəkildə göstərmək istəmişdir.

I Dünya müharibəsində bir qolunu itirən Əhməd Cəlal Qurtuluş müharibəsinə qatıla bilməmişdi və işğal altında olan İstanbulda da qala bilmirdi. Məhmət Əlinin də təklifi ilə onunla birlikdə kəndlərinə gedərək orada yaşamağa razı olur. Əhməd Cəlal gəldiyi kənddə kəndlilər tərəfindən təcrid olunur və hər kəs onu “yaban” deyə çağırır. O, kənddə Əminə adlı bir qıza vurulur, ancaq qız Məhmət Əlinin kiçik qardaşı İsmayılı sevdiyi üçün onunla ailə qurur. Kəndlilər tərəfindən qəbul edilməyən Əhməd Cəlal təkcə Məhmət Əli ilə danışır, ancaq onun da İstiqlal savaşına çağırılması nəticəsində kənddə tamamilə yalnızlaşır. Romanın sonunda düşmən əsgərlərinin kəndə gəlib çıxması nəticəsində Əhməd Cəlal Əminəni də götürüb kənddən uzaqlaşmaq istəyir, ancaq yolda ikisi də yaralanır. Əhməd Cəlal kənddəki günlərini yazdığı dəftərini də orada qoyaraq uzaqlaşır. Sakarya zəfəri nəticəsində kəndə gələn heyyət uçqunlar arasında bir dəftər tapır. Bu dəftər Əhmət Cəlalın gündəliyidir, yəni “Yaban” romanıdır. Bu roman ziyalının özgələşməsini tam şəkildə izah edən bir romandır. Bu baxımdan O.Atayın romanı ilə bir çox ortaq xüsusiyyətlərə malikdir. Hər iki roman ziyalı insanların həyat faciələrini əks etdirir. Əhməd Cəlal türk ziyalısını təmsil edir. O, romandakı yeganə ziyalı obrazıdır. Yazıçı onun faciəsini elə Əhmədin öz dilindən bu şəkildə vermişdir: “Ben Celal Paşanın oğlu Ahmet, İstanbulun en muhteşem konaklarından birinde doğup ve parıltılı hülya iklimlerine doğru kanat açıp uçtuktan sonra, kanatlarımdan biri

kırılmış olarak buraya düştüm. Otuz iki yaşında bir emekli asker, bütün geleceği geride kalmış sakat bir delikanlı...” (5, s. 67)

Əhməd də Səlim kimi millətinin gələcəyini düşünən ziyalıdır. Əhməd ziyalı kimi yetişməsində oxuduğu kitabların böyük payı olduğunu düşünürdü. O, hər vasitə ilə kəndin insanlarına göstərmək istəyirdi ki, onların yaban adlandırdığı insan məhz onlar üçün müharibədə bir qolunu itirmişdir. Kəndin insanları üçün isə bu vəziyyət adi görünürdü. Bunun səbəbini yazıçı romanda aşağıdakı şəkildə ifadə etmişdir: “İlk günler Mehmet Ali ile köyde dolaşırken şuna buna rastgeldik mi, hemen sağ yanımı çeviririrdim. Hele, yeni yetişen delikanlılarla genç kızlara ne yapıp yapıp mutlaka bu eksikliğimi hissettirmemeye çabalardım. Bu, benim son süsüm, son gösterişim, son çalımımdı. Beş-on gün içinde o da gitti. Sağ kolumun yokluğu kimsenin takdirini celbetmek şöyle dursun, hatta merhametini bile uyandırmadı. Acaba niçin? Bunu sonradan anladım. Zira, burada, sakatlık hemen herkese mahsus bir hal gibidir.” (5, s.19)

Səlimlə Əhməd arasındakı digər bir paralellik isə onları başa düşməyən insanları heyvanlara bənzətmələridir. Məsələn, Əhməd ona yabançı kimi baxan cahil kəndliləri heyvanlara bənzədərək deyirdi: “Biliyordum ki, toprak katı, tabiat ise zalimdir. Biliyordum ki, insan heyvanların en kötüsü, en bayağısı ve en az sevimli olanıdır. Evet, bilhassa en az sevimli olanıdır.” (5, s.18)

“Tutunamayanlar”da Səlim isə “Qəribə varlıqlar ensiklopediyası”nda insanları da bir növ heyvana bənzədərək onların xarakterik xüsusiyyətlərini təsvir etmişdir. Bununla hər iki yazıçı, həm Y.Q. Qaraosmanoğlu, həm də O.Atay elmsiz insanın heyvandan heç bir fərqi olmadığı ideyasını oxucularına çatdırmaq istəmişlər.

Əhmədlə Səlimi yaxınlaşdıran bir ortaq xüsusiyyət isə hər ikisinin günlük tutması olmuşdur. Hər ikisi də ziyalı insan olaraq cəmiyyətdə başa düşülmədiklərinə görə ürəklərindəki sözləri dəftərdə qeyd etməyə məcbur olmuşlar. Əhməd gündəliyində kəndlilərdən həmişə “onlar”-deyə bəhs etmişdir. Kəndlilər onu qəbul etmək istəmir, hətta onu özlərinə özgələşdirərək “yaban” adlandırırdılar. Əsərdə qarşıdurma kəndli ilə ziyalı arasında cərəyan edirdi. Kəndin sakinləri Əhmədi necə yaban kimi qəbul edirdilərsə, eləcə də Əhməd də onları, öz dilindən desək “ta taş devrindeki insanlar” (5, s.72) olaraq görürdü: “Onlar gibi olmak, onlar gibi giyinmek, onlar gibi yiyip içmek, onlar gibi oturup kalkmak, onların diliyle konuşmak... Haydi, bunların hepsini yapayım. Fakat onlar gibi nasıl düşünebilirim? Nasıl onlar gibi hissedebilirim? (5, s.68)

Y.Q. Qaraosmanoğlunun bu romanına görə uzun müddət təqiblərə məruz qalmasına səbəb romanda Anadolu kəndlisinin tənqid olunduğu fikrinin irəli sürülməsi ilə bağlı olmuşdur. Berna Morana görə isə yazıçının əsas məqsədi kəndlinin tənqdini vermək olmayıb. Yazıçıya görə əsas məqsəd 1930-cu illərdə Türkiyədəki siyasi hadisələrin insanlardakı təsirini təsvir etmək olmuşdur. (Bax: 5 s.153)

Əhməd kəndin insanlarına yad olmadığını hər vasitə ilə bildirmək istəyirdi. Hər zaman onlardan biri kimi davranırdı. Zaman keçdikcə bu düşüncəsinin imkansız olduğunu görməyə başladı və öz vətənində yabana çevrildi.

Ümumiyyətlə, Y.Q.Qaraosmanoğlu bu romanı ilə türk ziyalısı ilə kəndlisi arasında dərin bir uçurum olduğunu göstərdi. Bu uçurumu yazıçı romanda aşağıdakı sözlərlə ifadə etmişdir: “Her memleketin köylüsüyle okumuş yazmış zümresi arasında, aynı derin uçurum var mıdır? Bilmiyorum! Fakat okumuş bir İstanbul çocuğu ile bir Anadolu köylüsü arasındaki fark, bir Londralı İngilizle bir Pencaplı Hintli arasındaki farktan daha büyüktür.” (5, s.36)

Özgələşmə anlayışı bir növ həm də manqurtlaşmadır, desək, heç də yanılmış olmarıq. Çingiz Aytmatova görə vətənini, ailəsini, hətta özünün keçmişini belə unudan insan manqurt

sayılırdı. Böyük yazıçı "Gün var əsrə bərabər" romanında bunu aşağıdakı şəkildə ifadə etmişdir: "İnsanlar bir-birinə qarşı dözümlü ola bilər, amma onlar eyni cür düşünə bilməz. Bununla da onlar öz insanlıq ləyaqətini saxlayıb insan olaraq qalarlar. İnsanı öz fərdiyyətindən məhrum etmək ən qədim dövrlərdən bu günə qədər dünya ağalığı arzusu ilə yaşayan imperialist siyasətinin nəticəsidir. Yaddaşdan məhrum edilmiş, öz xalqının tarixi təcrübəsini yadırğamış insan tarixi inkişafdan kənarda qalar, yalnız bu günlə yaşaya bilər". (3, s.4)

Manqurt insanla özgələşən insan arasındakı tək fərq odur ki, manqurt insan başqasının fiziki tətbiqi nəticəsində məcburi olaraq özgələşdirilirsə, lakin özgələşən insan isə cəmiyyətin insana göstərdiyi psixoloji təsir nəticəsində fərdin öz istəyi ilə yaxınlarına, ailəsinə, bir sözlə cəmiyyətə özgələşməsidir.

Oğuz Atay da "Tutunamayanlar" romanın da məhz bunu ifadə etmək istəmişdir. Cəmiyyətdə başa düşülməmək qorxusu nəticəsində ağıllı insanın ruhən özünəqapanmasına, özünün daxili dünyasına sığınmasına səbəb olmuşdur. O.Ataya görə özgələşmiş insanın cəmiyyətdə özünə yer tapa bilməməsində, özünəqapanmasında və ya intihar kimi səhv yolu seçməsində tək səbəb kimi zülmü və elmsizliyi göstərirdi. O.Ataya görə özgələşən insan düşünmə qabiliyyəti əlindən alınan insandır. "Tutunamayanlar"da Səlim də ziyalı, ağıllı bir insan olmasına baxmayaraq, cəmiyyətdən ayrı düşdüyünü hiss etdiyi üçün intiharı seçir.

Ümumiyyətlə, XX əsr istər Türkiyə, istərsə də dünya ədəbiyyatında özgələşmə probleminin daha çox müraciət edildiyi bir dövr olmuşdur. Bunun səbəbi isə o dövrdə baş verən siyasi hadisələr, müharibələr idi. Müharibələrin insanlarda yaratdığı böhran, qorxu və s. kimi hallar yazıçıların yaradıcılığına təsir etməyə bilməzdi. Bunun ən bariz nümunəsini Y.Q. Qaraosmanoğlunun "Yaban" romanında müşahidə etdik.

İstifadə olunmuş ədəbiyyat:

1. Alxanova Q. "Bunalım" ədəbiyyatının bədii-estetik xüsusiyyətləri / "Şərq filologiyasının aktual problemləri" mövzusunda Respublika elmi konfransının materialları, Bakı, 2011, s.197-198
2. Atay O. Tutunamayanlar. İstanbul: İletişim, 2016, 724 s.
3. Aytmatov Ç. Seçilmiş əsərləri. İki cilddə. I cild. Bakı: "Öndər" nəşriyyat, 2004, 504s.
4. Freyd Z. Psikoanalize giriş dersleri: İstanbul: Öteki, 2016, 552 s
5. Qaraosmanoğlu Y. Q. Yaban. İstanbul: İletişim,2014, 214 s.
6. Moran B. Türk Romanına eleştirel bir bakış-II. İstanbul: İletişim, 1991, 198s.
7. Oktay A. Cümhuriyet dönemi edebiyatı. Ankara: Kültür, 1993, 1300 s.
8. TRT- Televiziyası, O.Atayı anma programı, 13.12.1978
9. https://www.oguzatay.net/biyografi
10. https://www.turkedebiyati.org/kitap_ozetleri/tutunamayanlar-oguz-atay.html

З.Ибрагимова

Проблема отчуждения в турецкой литературе в XX веке

Резюме

Проблема отчуждения изучалась только в рамках философии вплоть до XX века, но со временем эта проблема была также в области других областей. В XX веке появилась тенденция экзистенциализма, которая включила проблему отчуждения в свою основную тему. Проблема отчуждения в литературе была описана многими писателями XX века как основная тема его творчества. Впервые в турецкой литературе написание сочинений об

отчуждении началось с эры Тынзимата. После принятия указа влияние западной цивилизации стало ощущаться как в турецкой литературе, так и в социальной и политической жизни Турции. Турецкие литературоведы называют это «кризисом литературы» в литературе. Мастера, создавшие эту работу, отразили образы, которые не смогли найти себя в мире, и проанализировали их творчество. Авторы литературы Плети пытались раскрыть абсурдные черты своих персонажей в своих романах. В данной статье романы Огуза Атая и Ю.Г.Гараосманоглу были проанализированы в контексте проблемы отчуждения. Огуз Атай, самый известный писатель XX века, широко известен как писатель в турецкой литературе. Как и в современной западной литературе, проблема «положения личности в обществе» была одной из главных. Он также исследовал многих западных писателей в контексте отдельных людей и обществ. По словам автора, человек должен сначала поставить под сомнение свое су

Ключевые слова: Отчуждение, екзистенциализм, кризис, депрессия, интеллектуальной

Z.İbrahimova

The problem of alienation in Turkish literature in the XX century

Summary

The problem of alienation was studied only within the philosophy until the XX century, but over time, this problem was also in the domain of other areas. In the XX century, the trend of existentialism, which included the problem of alienation in its main theme. The problem of alienation in literature has been described by many writers of the 20th century as the main theme of his work. For the first time in the Turkish literature, the writing of works on alienation began with the Tenzimat era. Following the adoption of the decree, the effects of western civilization began to be felt in Turkish literature as well as in the social and political life of Turkey. The Turkish literary scholars call it "crisis of literature" in the literature. Craftsmen who created this work reflected the images that could not find themselves in the world and analyzed their creation. The authors of the scourge literature tried to cover the absurd features of their characters in their novels. In this article, the novels of Oguz Atay and Y.G.Garaosmanoglu have been analyzed in the context of the problem of alienation. Oguz Atay, the most famous writer in the 20th century, is widely regarded as a writer in Turkish literature. As in contemporary western literature, the problem of "Individual's position in society" was one of the main issues. He also investigated many Western writers in the context of individuals and societies. According to the writer, the individual should first question his existence and identity before attempting to find solutions to problems in society.

Key words: Alienation, existentialism, crisis, depression, intelligent

Redaksiyaya daxil olma tarixi: 20.03.2019
Çapa qəbul olunma tarixi: 29.04.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Elmira Məmmədova – Kekeç tərəfindən çapa tövsiyə olunmuşdur

ADİLƏ SADIXOVA
Bakı Avrasiya Universitetinin
Nərimanov rayonu Akademik Həsən Əliyev kücəsi 135 a
sadikhova.a@gmail.com

MEHMET AKIF BIR ICTIMAI XADİM KİMİ

Xülasə

Mehmet Akif Ərsoy Türkiyə ədəbiyyatında yazdığını yaşayan və yaşadığını yazan çox az sayda mütəfəkkirdən biridir. O, Türk dünyasının milli şairi və İslam aləminin birliyi və bütünlüyü üçün çalışan böyük şəxsiyyətlərdəndir. Şair Türkiyənin Cümhuriyyət dövründə mücadilə, fikir və sənət adamı olaraq mühüm rol oyanamışdır. O, həyatını və yaradıcılığını milli təfəkkürün oyanışına, cəmiyyətin inkişafına sərf etmişdir. Əsərlərində batil inanc, cəhalət və tənbəllik kimi cəhətləri qələmə alaraq xalqını bu xüsusiyyətlərdən xilas etməyə çalışmışdır. Mehmet Akif, ədəbiyyatı və siyasəti İslam ümmətinin birləşməsi və xilası üçün bir vasitə olaraq görmüşdür. Buna görə də yaradıcılığında, Quran-i Kərimin təməl prinsipləri olan haqq, ədalət, hürriyət və şəhadət kimi dəyərlərə əsaslanmışdır.

Dərin intellektual bünövrəsi olan Mehmet Akif Ərsoy Şərq və Qərb ədəbiyyatını mütaliə etmişdi. Ərəb, fars və fransız dillərini ana dili qədər mükəmməl bilməsi, şairi ədəbi cəhətdən zəngin, realist bir ziyalı səviyyəsinə qaldırmışdı.

Türkiyə Böyük Millət Məclisinin birinci çağırışına vəkil seçilən Mehmet Akif Ərsoydan və onun kimi xalqın sevgisini qazanmış sənətkarlar, fikir və din adamlarından ibarət bir birlik yaradılmışdı. Bu birlik "İrşad Heyətı" adlandırılmışdı. Heyətin üzvləri həm türk xalqını düzgün şəkildə məlumatlandırmaq, həm də orduya mənəvi dəstək olmaq üçün Anadolunu qarış-qarış gəzmiş, müxtəlif fəaliyyətlər göstərmişdilər.

Mehmet Akif Ərsoy yaşadığı dövrün acı və şirin həqiqətlərini dərk etmiş və əsərlərində göstərmişdir. Şair, hürriyyətin ancaq ahəngdar bir birlik nəticəsində əldə oluna biləcəyini vurğulamışdır. Bu baxımdan böyük ədib, Türkiyə tarixində önəmli hadisələrdən olan Milli Mücadilə və zəfərin mənəvi memarlarından biridir.

Açar sözlər: M.Akif, Şərq dünyası, Osmanlı Imperatorluğu, Islam aləmi, sənəti.

Tarixdə elə şəxsiyyətlər var ki, onların fikirləri, davranışları, əxlaqı, yaradıcılığındakı dəyərlər dar zamana və məkana sığmır. Onlar öz fikirləri ilə sadəcə aid olduqları millət üçün deyil, bütün bəşəriyyət üçün mühüm rol oynamışlar. Belə şəxsiyyətlərdən biri də M.Akif Ərsoydur. Mehmet Akif türk dünyasının milli şairi və islam aləminin birliyi və bütünlüyü üçün çalışan böyük şəxsiyyətlərdən biridir. O, əxlaq, davranış və düşüncələri ilə gənc nəsillər üçün bir nümunədir.

Mehmet Akif Arnavutlu bir atanın, Buxaralı bir ananın Istanbullu övladıdır. O, Balkanların, Mavəraünnəhirin (Orta Asiyanın) və mərkəzi Istanbulun bütün dəyərlərini özündə, şəxsiyyətində birləşdirən bir simvoldur. Onun bioqrafiyası Osmanlı dövrünün son, cümhuriyyətin isə ilk dövrünün xülasəsidir. Gözünü açdığından bəri bütün Şərq-Islam dünyasını Qərb dövlətlərinin hücumuna məruz qalmış vəziyyətini, gücünü itirmiş Osmanlı dövlətinin çırpınışlarını görmüşdür. Bu vəziyyət bütün Şərq dünyasına mənfi mənada təsir etmişdir. M.Akif Türkyənin, eləcə də bütün Islam aləminin yaşadığı iztirabları bütün mənliyində hiss etmiş və bunu əlindən gəldiyincə hayqırmışdır. Dövrünün sosial ədalətsizliyini, mənəvi çöküşü ağlının və ruhunun süzgəcindən keçirərək «Safahat» adlı əsərində dilə gətirdiyi üçün o, cəmiyyətin qəlbi, vicdanı, ağlı və ruhu olmuşdur.

1.Osmanlının süqutu və Mehmet Akif

XVIII və XIX əsrlərə baxdığımızda, bu zaman kəsiyi yalnız Osmanlı dövləti baxımından deyil, dünya tarixi baxımından da bir çox təbəddülatların yaşandığı bir dövrdür. Böyük dövlətlərin bir çoxunun demək olar ki, yıxıldığı, yeni dövlətlərin yarandığı, qanlı inqilabların yaşandığı yeni bir dövr başlamışdı. Əslində, güclü dövlətlər tərəfindən müstəmləkəçilik anlayışının fərqli bir versiyası ortaya çıxmışdı. Həmin dövrdə istismar olunam və dövlətlərini qura bilməyən millətlər müxtəlif müdafiə üsulları fikirləşmişdilər. Bu dövrdə ən çox əziyyət çəkən, müharibə, zülm və istismara məruz qalanlar müsəlmanlar olmuşdur. Böyük bir imperatorluq olan Osmanlı dövləti Islam coğrafiyasında gücünü itirməklə yanaşı, öz ərazisini belə qorumaqdan aciz qalmışdi (bax: 2,75).

Qərb dünyası sürətlə inkişaf etdiyi halda eyni sürətlə Osmanlı Imeratorluğu çökməyə başlamışdı. Bir dövlət öz əzəmətini hərbi və iqtisadi sahədəki müvəffəqiyyətlərindən alır. Lakin XVII əsrdən sonra Osmanlı dövləti bütün sahələrdə olduğu kimi hərbi sahədə də böyük məğlubiyyətlər yaşamışdı. Bu məğlubiyyətlər nəticəsində «qəflət yuxusundan oyanan» Osmanlı Avropasayağı islahatlara başladı.

Qərb dünyasına qarşı islam aləminin müvəffəqiyyətsizliyini və çarəsizliyini görə mütəfəkkir və ədiblər çox götür-qoy etmişlər və nəticədə bu vəziyyətdən xilas olmaq üçün müxtəlif ideoloji cərəyanlar meydana çıxır. Osmançılıq, islamçılıq və türkçülük olaraq diqqəti cəlb edən bu cərəyanlar Qərbə qarşı münasibətdə fərqli düşüncələrdən hərəkət etsələr də, bəzi mühüm məsələlərdə ortaq qərara gələ bilirdilər. Bu mənada, islamçılıq hərəkatına «bir inkişaf və qurtuluş» ideologiyası kimi osmançılıq hərəkatının, müəyyən qədər də türkçülük cərəyanının davamı kimi baxmaq doğru olardı (bax: 2,93).

Mehmet Akif Osmanlı Imperiyası kimi nəhəng bir dövlətin çöküşə doğru sürətlə getdiyi, vətənin parçalanıb bölündüyü, müqəddəs torpaqların işğal edildiyi, əhalinin ehtiyac və istismar içində çırpındığı bir dövrdə yaşamışdır. Həmin dövrdə Qərb dövlətləri sürətlə inkişaf edərək elm və texnika sahəsində Osmanlı Impriyasını xeyli geridə qoyurdu. Bu tərəqqini çox gec başa düşən Imperiyanın dövlət adamları və ziyalıları «Avropadan nəyin və necə alınması» sualı qarşısında aciz qaldılar. Çıxış yolu kimi qəbul olunan qərarlar, verilən fərqmanlar isə nəticə etibarı ilə özünü doğrultmadı (bax: 3, 23).

2.Islamçılıq ideologiyasının təmsilçisi Mehmet Akif

Sosial partlayışların baş verdiyi bir dövrdə özünü dərk edən Mehmet Akif, bir ziyalı kimi hadisələrdə fəal şəkildə iştirak etməyə başlayır. Dindar ailədə doğulub böyüyən M.Akif, əlbəttə ki islamçılığı qurtuluş yolu olaraq qəbul edir. Bu ideologiya onun sənətinin məzmununa da öz təsirini göstərir.

Mehmet Akif Avropa ədəbiyyatının Türkiyədə təsirli zamanında, Sərvəti-fünun dövründə ədəbiyyat aləminə qədəm qoymuşdur. Tənzimatdan sonra yetişən bir çox insan kimi M.Akif də Avropa siviliziyasının bütün məziyyətlərindən faydalanmağa hazırdır. Bu yetkin fikir adamı, ilk şeirlərində özünə örnək aldığı Muallim Nacini və Abdülhaq Hamidi xatırladır.

Qeyd etdiyimiz kimi tarixdə elə şəxsiyyətlər var ki, onların fikirləri, davranışları, əxlaqı, yaradıcılıqlarındakı dəyərlər dar zamana və məkana sığmır. Onların fikirləri ilə cəmiyyətdəki problemlərin çözümü arasında birbaşa əlaqə olur. Hələ yaşadığı dövr müxtəlif faktorların təsiri ilə xalqın ümidsizliyə düşdüyü bir dönəm olarsa, bu baxımdan M.Akifin rolu əvəzsizdir. Bu mənada şairin fikirləri sadəcə aid olduğu millət üçün deyil, bütün bəşəriyyət üçün mühümdür. Yaradıcılığının əsas xətlərindən biri olan milli xarakterin funksionallığı, hər şeydən əvvəl mütəfəkkirlə kütlə arasında qurulan dioloqların baş tutması ilə bağlıdır. Mehmet Akif: «Sizler avam dediğimiz halk tabakasının idrakını yükseltmedikçe, köylülerimizi bugünkü hallerında bıraktıkça, farzı-muhal olarak dünyanın en büyük adamlarını yetiştirseniz yine boştur, yine boş» deyərək bu vacib məsələyə diqqət yetirir.(bax: 6,22)

Elə əslində ziyalıların vəzifəsi cəmiyyətdə doğru və müasir düşüncə tərzi yaratmaq deyilmidir? Şübhə yox ki, çatmaq istədiyimiz cəmiyyət də belə bir istək və iradənin nəticəsidir. Şair, ən böyük əsəri olan «Safahat»da bu istək və iradəni bu şəkildə ifadə etmişdir:

«Hülasa hepsi çalışmak, yorulmak isteyecek.

Fakat çalışmak için önce şart olan: istek.
O yoksa hangi vesileyle biz ilerleyelim.
Sıkıntısız mütefenni, üzüntüsüz alim».(bax: 8,242)

Bu misralarda şair istər ictimai olaraq, istər də fərdi baxımdan zamanın mühüm problemini qoymuşdur. Ayrılıqda hər bir insanın, ümumən, cəmiyyətin təkanverici qüvvəsi nədir? Söz yox ki, istəkdir. Əgər istək – cəmiyyəti yaşamağa, yaratmağa sövq edən arzu, məmnunluq hissi və pozitiv köklənmə yoxdursa, sözsüz ki, inkişaf haqqında düşünmək doğru olmaz. Məlumdur ki, hər bir din onun mənsubları üzərində dünya görüşü, dərketmə formalaşdırır və bununla onların davranışlarına təsir edir. Digər tərəfdən hər bir yaradıcı insanın düşüncələri dinin təsiri altına düşə bilir. Amma şüur, dərrakə dinə bağlı olanların çoxu tərəfindən təsir altına düşdüyü halda, bunları aşa bilənlərin, yəni müstəqil düşünə bilənlərin sayı çox azdır.

Yaşadığımız dünyanın ali bir güc tərəfindən idarə olunduğu, bunu elmin bir çox sahəsinin sübut etdiyi hər birimizə məlumdur. Bu imanla M.Akif, islam dininin yol göstəriciliyi ilə cəmiyyətin problemlərinə çıxış yolu axtaran, ictimai xarakterli şeirlərində xalqın heç bir dərdinə laqeyd qalmayan bir vətəndaş kimi qarşımıza çıxır. Bu mənada Akif, millətin önündə gedə bilən bir mütəfəkkirdir. O, ümumən xalq olaraq dəyişmə və inkişafın fərdi və cəmiyyəti dircəldəcəyinə inanır. Cəmiyyətin yaralarını açıb-ağartmaqdan çəkinməyərək, paralel olaraq Islami düşüncənin rəhbərliyi ilə xalqa pozitiv duyğular aşılayır, onu motivə edən, dəyişmək, yeniləşmək və irəliləmək ideyalarını təlqin edir. Mehmet Akifə görə cəmiyyət, sabit qanunları olan bir sistemdir və onun inkişafının təmin olunması ayrılıqda hər bir fərdin öz məsuliyyətini hiss etməsi ilə baş verə bilər. Şair Yaradanın yaratdığı insanın yaradılış və idarə olunma qanunlarına bələd olaraq, bu qanunlara əməl edərək daha gözəl bir gələcək qura biləcəyinə inanır. Akif düşünür ki, tərəqqi, inkişaf iradə sahibi olan insanın qabiliyyətlərinin üzə çıxması üçün əlverişli şəraitin yaradılması ilə mümkündür. Bütün bunlar, Akifin dinin üzərinə qoyduğu ictimai funksiya, düşüncə sisteminin ən sağlam və tutarlı tərəfidir. Böyük mütəfəkkir ali iman və iradə sahibi olaraq aktiv insan tipini sərgiləyir. M.Akifə görə işləmək vasitə deyil, qayədir. Məqsədə çatmaq yolun istiqamətini aydınladan bir işıqdırsa, həyatdan alınan əsl zövq işləməkdir. Şair Qərb insanı ilə Şərq insanı arasındakı əsas fərqin aktivlik və passivlik olduğunu qeyd edərək insanı həyat qarşısında aktiv olmağa çağırır. Buna görə görkəmli ədib Qərbin zahiri açıq-saçıqlığını, insan əxlaqındakı sərhədsizliyi millətə örnək göstərən «batıcıların» qarşısına Qərbin ciddi və vacib tərəfi olan elmi nəaliyyətlərini, texniki tərəqqisini və quruculuq qabiliyyətlərini mənimsəmənin zərurətini göstərərək çıxmışdır. Həmin vaxtlar Qərbi olduğu kimi təqlid etmənin lazımlığına inanan bir sıra ziyalılara, mütəfəkkir, tərəqqinin başqa millətlərin təqlid edilməsi ilə deyil, öz ruhumuza bağlanmaqla mümkün ola biləcəyini göstərmişdir.

Şairin ən böyük əsəri «Safahat»ın hissələrindən olan «Asım»da göstərdiyi kimi, şairin önəm verdiyi məqamlardan biri də «birlik» məfhumudur. Qərbə çatmaq istəyiriksə, iş birliyi və iş bölümünə önəm verməmizin vacibliyini qeyd edən Akif, Qərbdə bütün işlərin şirkətlər, cəmiyyətlər tərəfindən meydana gətirildiyini ifadə edir. Əslində Akifin bu mövzudakı baxışları, Qərbin inkişafına səbəb olan «cəmiyyət» faktoruna önəm verən amerikalı yazıcı Tom Demarkonun düşüncələri ilə üst-üstə düşür. Demarko «şirkət» adlandırılan qurumu maliyyə birliklərindən elmi, təhsil, dini və yardımla əlaqəli birliklərə qədər çox geniş mənada götürmüşdür. Əslində Akif də birlik məvhumu ilə iqtisadi, sosial və siyasi inkişaf zamanı müsəlmanların öz cəmiyyətlərinin qorunması və tərəqqisindəki uğursuzluqlarını onların daha çox fərd, ayrı-ayrı şəxslər tərəfindən idarəçiliyinə bağlı olan dərrakə tərzi ilə bağlayır. Bu mənada Akif cəmiyyət məsələlərini çoxyönlü olaraq düşünür, müsəlmanların geri qalmalarının səbəbləri arasında qədərçilik anlayışını, islamın əslindən və ruhundan uzaqlaşmasını, bu dinin özündə olmayan cahillik və xurafatın islam dini kimi təqdim edilməsində görür. Bu məsələdə M.Akif xalqda közlənmiş şəkildə olsa da var olmağa davam edən xüsusiyyətləri canlandırmağa çalışır (bax: 6,23).

3.Şairin maraq dairəsi və sənəti.

Mehmet Akif Ərsoy fransız dili və Fransa ədəbiyyatı ilə yaxından maraqlanmış, bu dili çox gözəl öyrənmiş və bir çox əsəri fransız dilində orijinal olaraq oxumuşdur. Emil Zolya, Viktor Hüqo, Alfons Dode, Düma Fils, Lamartin, Anatol Frans, Alfred Müsse, Ernest Renan, Russonun əsərlərini oxumuş, xüsusi ilə Hüqo, Lamartin, Dode və Zolyanın təsirində qalmışdır. Qədim Türk

ədəbiyyatından Bakini, Nəfini, Nədimi, Süleyman Çələbini, Şeyxülislam Yəhyanı, Şeyx Qalibi, ərəb, fars və hind ədəbiyyatlarından Feyzi-i Hindini, İbni-i Farizi, Mütənəbbini, əl-Buxturini, Əbu Təmmamı, Əbu Firası, Məhəmməd İqbalı sevərək oxumuş və yüksək qiymətləndirmişdir. Bu illərdə Sədi Şirazi və Fəxrəddin Razi haqqında mənzumələr nəşr etdirmiş xüsusi ilə Sədidən çox təsirlənərək 1898-ci ildə Sərvət-i Fünun məcmuəsində fars ədəbiyyatından etdiyi tərcümələrlə diqqəti cəlb etmişdir.(bax:7,531)

1895-ci ildən sonra bir çox Qərb mütəfəkkirlərinin təsiri ilə Türk ədəbiyyatında realist əsərlər çoxalmağa başlayır. Əsas mövzusu ictimai catışmazlıqlar olan mənzum hekayələr yazmaq bir növ dəb halını alır. Sərvət-i fünunçular, fransız şairlərinin bu qəbildən olan əsərlərini örnək alaraq sosial mövzulu mənzum hekayələr yazmağa başlayırlar. Həmin dövrdə Mehmet Akif Ərsoy, eyni xüsusiyyətlərin və dəsti-xətdin Sədinin hekayələrində olduğunu müəyyən edir. Buna görə də, şairin Sərvət-i Fünun məcmuəsində nəşr olunan "Bedayiü'l-Acem " başlıqlı ilk yazıları əsasən, Sədi Şirazinin "Bustan" əsərindən etdiyi tərcümələrdən təşkil olunmuşdur. Akifin Sədiyə olan sevgisi, onun şairin üzərindəki təsiri həyatı boyu davam etmişdir.

M. Akifin şeirlərini mənzum heкayə, xitabət şeirləri, lirik şeirlər və həcvlər olaraq qruplaşdırmaq mümкündür. Bunlardan mənzum heкayələri sosial məzmunlu, xitabət şeirləri didaктik məzmunlu, lirik şeirləri vətənpərvərlik, milli və dini duyğulara, həcvləri isə zarafatdan iynələməyə qədər dolu olan tənqidlərdir. Aкifin şeirinin təşəкkülündə bəzi amillərin təsiri böyüкdür. Bunlar aşağıdakılardır:

1. Əxlaq dərsi verən Şərq mənzum heкayəçiliyi;
2. O günün ədəbi cərəyanları içində ön planda yer alan Qərb realizmi;
3. Islam idealı;
4. Tarixin ən dəhşətli günlərini yaşayan bir dövlət və millət;
5. Gerçəкliyə obyeктiv yanaşma bacarığı verən təhsil.

Mehmet Aкif yaşadığı dövrü bütün yönləri ilə şeirlərində əкs etdirməyə çalışmış bir türк şairidir. XX əsrin əvvəllərində türк millətinin içinə düşdüyü acılarını, sevincini, ümidlərini və xəyal qırıqlıqlarını mənzum bir tarix, bir roman, bir heкayə havası içində oxucularına anlatmağa çalışmışdır. Əsərlərində yer alan qəhrəmanlar ziyalı, intelleктual, cahil, şəhərli, dindar, dinsiz, sərxoş və s. кimi xaraкterlər cəmiyyətin hər təbəqəsindən olan insanlardır. Məкan olaraq da məscid, məhəllə, çayxana, кüçə, otellər, saray və s. olaraq yaşadığı dövrün bütün xüsusiyyətlərini əкs etdirən məкanlar seçmişdir. Seçdiyi mövzuları yazmadan öncə tədqiq edərəк müşahidələr aparmış və daha sonra misralara töкmüşdür. Şeir yazmanın əsas ağırlığının işləməк sayəsində olacağını düşünmüşdür. O, şeiri ilham pərisinin qanadlarına yüкləməyib, tam tərsinə, daha çox çalışmağa üstünlüк vermişdir. Şeirlərinin cəmiyyətin maariflənməsinə xidmət etməsi gərəкdiyini düşündüyü üçün simvollardan uzaq durmuş, fiкirlərini daha çox açıq-aydın ifadə etməyə çalışmışdır. Şeirlərində islam dünyasını geri çəкən bütün əкsiliкlər, cahilliкlər və geriliкlərlə mücadilə etmiş və bu, onun sənətinin əsas qayəsi olmuşdur.

Istifadə olunan ədəbiyyat:

1. Кara I. Türкiye'de Islamcılıк Düşuncesi. Istanbul: Dergah, 1997, 1174 s.
2. Кaya H.Mehmet Aкif Ersoy'un din ive siyasi fiкirleri. Elazığ, 2009, 151 s.
3. Gündoğdu S.Mehmed Aкif Ərsoy yaradıcığında ictimai problemlərin bəddi təcəssümü. Bакı: R.M.Kompani, 2012, 228 s.
4. Gөкçeк F.Mehmet Aкifin şiir dünyası. Istanbul: Dergah, 2005, 360 s.
5. Yetiş K. Bir mustarip Mehmet Aкif Ersoy. Anкara: Aкçağ, 2006.270 s.
6. Bodur H.E. Aкif'e dini sosyolojiк bir baкış // Dergiparк, 1997, N 13, s. 21-29.
7. Bağcıoğlu F. Mehmet Akif 'in şairliği // Sızıntı, 2001, N 275, s. 531-536
8.Ersoy M.A.Safahat.32.baskı (Hazırlayan: M. Ertuğrul Düzdağ), İstanbul: İnkilap Kitabevi 2003, 587 səh.

А.Садыхова

Мехмет Акиф как общественный деятель

Резюме

Мехмет Акиф Эрсой - один из немногих мыслителей в турецкой литературе, который писал о том, что прожил, и проживал то, о чем писал. Он был народным поэтом тюркского мира и одной из великих личностей, работающих на благо единства и целостности исламского мира.

Поэт сыграл огромную роль как человек борьбы, интеллектуальный и художественный деятель в период Турецкой Республики. Свою жизнь и творчество он посвятил пробуждению национального мышления, развитию общества. В своих работах он писал о суеверии, невежестве и лени, пытаясь спасти свой народ от этих черт. Мехмет Акиф рассматривал литературу и политику как средство объединения и спасения исламской общины. Поэтому в своем творчестве он опирался на такие ценности как истина, справедливость, свобода и свидетельство, являющиеся фундаментальными принципами Священного Корана.

Мехмет Акиф Эрсой, обладающий глубоким интеллектуальным фундаментом, изучал восточную и западную литературу. Прекрасное знание арабского, фарси и французского языков на уровне родного подняло поэта на богатый с литературной точки зрения реалистичный интеллектуальный уровень.

Был создан союз, включающий Мехмет Акифа Эрсоя, избранного уполномоченным для первого созыва Великого национального собрания Турции, и мастеров, мыслителей и священнослужителей, завоевавших любовь народа. Данный союз назывался «Иршад Хеяты». Члены делегации обошли Анатолию вдоль и поперек, осуществляя различную деятельность, чтобы информировать турецкий народ должным образом и оказать моральную поддержку армии.

Мехмет Акиф Эрсой понимал горькую и сладкую правду своей эпохи и показал их в своих произведениях. Поэт подчеркнул, что свобода может быть достигнута только в результате гармоничного единства. В этом отношении великий писатель является одним из духовных архитекторов Национальной борьбы и Победы, являвшихся одним из важнейших событий в истории Турции.

Ключевые слова: М.Акиф, Восточный мир, Османская Империя, Исламский мир, творчество.

A.Sadikhova

Mehmet Akif as a public figure

Summary

Mehmet Akif Ersoy is one of the few thinkers in Turkish literature, who wrote about his life and lived what he wrote about. He is a national poet of the Turkic world and one of the great personalities working for the good of the unity and integrity of the Islamic world.

The poet played an important role as a man of struggle, an intellectual and artistic figure in the period of the Turkish Republic. He dedicated his life and work to the awakening of national thinking, the development of society. In his writings he wrote about superstition, ignorance, and laziness, and tried to save his people from these traits. Mehmet Akif viewed literature and politics as a means of uniting and saving the Islamic community. Therefore, in his work he relied on such values as truth, justice, freedom and testimony, being the fundamental principles of the Holy Quran.

Mehmet Akif Ersoy, who had a deep intellectual foundation, studied Eastern and Western literature. Excellent knowledge of Arabic, Farsi and French at the level of native language raised the poet to a realistic intellectual level, rich from a literary point of view.

A union was created, including Mehmet Akif Ersoy, who was elected as the ombudsman for the first convocation of the Grand National Assembly of Turkey, and masters, thinkers and clergy who won the love of the people. This union was called "Irshad Heyati". Members of the delegation went around Anatolia far and wide, carrying out various activities in order to inform the Turkish people properly and provide moral support to the army.

Mehmet Akif Ersoy understood the bitter and sweet truths of his era and showed them in his works. The poet stressed that freedom can only be achieved as a result of harmonious unity. In this regard, the great writer is one of the spiritual architects of the National Struggle and Victory, being one of the most important events in the history of Turkey.

Keywords: M. Akif, Eastern world, Ottoman Empire, Islamic world, activity.

Redaksiyaya daxil olma tarixi: 20. 04.2019
Çapa qəbul olunma tarixi: 30.04.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Elmira Məmmədova-Kekeç tərəfindən çapa tövsiyə olunmuşdur.

GÜLNAR RZAYEVA
Azərbaycan Universiteti
Ceyhun Hacıbəyli 71
grzayeva14@mail.ru

AMERIKA ƏDƏBI MÜHITINDƏ MƏNƏVI-ƏXLAQI PROBLEMLƏRIN TƏCƏSSÜM XÜSUSIYYƏTLƏRI

Xülasə

Təqdim olunmuş məqalədə II dünya müharibəsindən sonrakı dövrdə həyatın yeknəsəqliyi, Amerikanın patriarxal əyalət gerçəkliyi təsvir olunur. Əsasən bu əhval-ruhiyyədən yaxa qurtarmaq istəyi, mənəvi böhran problemlərinin bədii ədəbiyyatda təcəssüm xüsusiyyətləri təhlil olunur. Məqalədə Heminqueyin, Folknerin, Fitsceraldın, Steynbekin və digər sənətkarların əsərlərindən nümunələr gətirilir . XX əsrin 50-ci illərinin həyat tərzini, insanların üz-üzə gəldiyi problemlərin əks olunma problemləri şərh edilir. Belə nəticəyə gəlinir ki, o dövrdə Amerikada hələ "kütləvi cəmiyyət", bitniklərin və hippilərin timsalında baş qaldıran kontrkultura ilə çıxış edən gənclər hərəkatı və bu hərəkatla yanaşı, onunla paralel şəkildə cərəyan edən "seksual inqilab"dan əsər - əlamət yox idi. Lakin onların rüşeymləri artıq mövcud idi. Məlum olmuşdur ki, cəmiyyətin üz-üzə gəldiyi problemlərin adekvat təcəssümü fərdi talelərin təcəssümündən keçir. Məhz fərd bütün sosial, ideoloji, mənəvi-əxlaqi problemlərin düyünləndiyi yerdir. Şəxsiyyət ictimai fəlakəti öz fərdi fəlakəti kimi yaşayır. Bu baxımdan müəllif və onun qəhrəmanı adekvat şəkildə "sadə amerikalıya", "yoldan keçənə" xas olan bütün kompleksləri ehtiva edir. Beləliklə məlum olur ki, XX əsrin ortalarında amerikan cəmiyyətində mobilliyə münasibət köklü şəkildə dəyişmişdir. İndi belə hesab olunur ki, yalnız oturuşmuş cəmiyyətdə uğur qazanmaq olar. Cəmiyyətdə vaxtı ilə onun onurğa sütununu təşkil edən insanlara münasibət dəyişdi. Belə hesab olunur ki, aramsız hərəkət insana ətrafdakı əşya və hadisələri adekvat şəkildə dərk etməyə - onların daxilinə nüfuz edib mahiyyətlərini üzə çıxarmağa, onları bir-birinə calamağa, onlar haqqında ətraflı və düzgün təsəvvür əldə etməyə imkan vermir: onun protaqonistləri hər şey haqqında səthi fikirlər söyləməklə kifayətlənirlər.

Açar sözlər: cəmiyyət, əxlaq , müharibə, roman, yazıçı

Amerika cəmiyyətinin böhranının artıq iki müharibəsi arasındakı dövrdə böhran müxtəlif yönümlərdən Heminqueyin, Folknerin, Fitsceraldın, Steynbekin və digər sənətkarların əsərlərində öz bədii təcəssümünü tapırdı. İkinci dünya müharibəsi və ondan sonrakı dövr bu böhranın nəinki zəifləməsinə, yaxud yoxa çıxmasına, əksinə, onun daha da dərinləşməsinə və yeni çalarlar kəsb etməsinə səbəb oldu. Müharibə dövründə və sonrakı onilliklərdə amerikan gəncliyinin əhval-ruhiyyəsi özünün adekvat ifadəsini yaradıcılıq yoluna yeni qədəm basan bəzi sənətkarları, o cümlədən Cerom Selincerin yaradıcılığında, ilk növbədə onun məhşur "Çovdarlıqda uçurumun üzərində" romanında tapmışdır.

C. Selincer bu əsər üzərində keçən əsrin 40-cı illərinin ortalarında işləməyə başlamış və onu 1951-ci ildə nəşr etdirmişdir. Bütövlükdə roman 17 yaşlı Holden Kolfildin həm yaşının, həm də ətraf aləminin ona təsirindən aldığı təəssüratlarının -daxili aləminin bədii ifadəsidir: yeniyetmə gənc ətraf aləmlə arasında dərin uçurum yarandığını hiss edir və bunu bir şəxsiyyət kimi emosional və intellektual böhran kimi yaşayır.

Holden Kolfild zəngin ailədə dünyaya gəlmişdir və təbii ki, yüksək nüfuza malik olan bahalı, özəl məktəbdə təhsil alır. Lakin ailədə rəhbər tutulan mənəvi-əxlaqi prinsiplər və özəl məktəbdə hökm sürən əhval-ruhiyyə yeniyetməni qane etmədiyindən onda kor-təbii şəkildə formalaşan hələ son dərəcə sadəlövh olan, lakin sağlam bəşəri təməl üzərində qurulmuş prinsiplərə uyğun gəlmədiyinə görə o, məktəbdən qaçır. Əsərin qəhrəmanı son dərəcə əsəbidir, dünyada gedən

proseslərin, insanlarla münasibətlərini son dərəcə böyük gərginlikdə yaşayır. Holden ətrafında yalnız mənfi cəhətləri, adamların ikiüzlülüyünü, xəyanətə meylli olmalarını, hər kəsə yorğanı öz üzərinə çəkməyə sövq edən eqoizmi sezir. Bu isə onda bütün insanlara, bütün cəmiyyətə tüpürmək hissi aşılayır. Amma Holden Kolfildin cəmiyyətə, insanlara, təhsil aldığı məktəbə münasibətində varlı ailədə böyümüş, bütün istədiklərini həyata keçirən uşağın şıltaqlıqları və ərköyünlüyü də özünü büruzə verir. Məhz yaşın spesifikası və ailə tərbiyyəsi Selincerin qəhrəmanının dünyaya münasibətini müəyyən edən amillərdir. Məhz bu səbəblərdən Holden özünün "axmaq məktəbinə" nifrət edir, "səfeh məktəblilər" və "gözə kül üfürən müəllimlər" onda ikrah hissi oyadırlar. Holden ailəsinə də, məktəbə də, yoldaşlarına da və onların timsalında bütün dünyaya da nifrət edir. Məhz bu nifrət onun cəmiyyətdə qəbul olunmuş, qayda-qanunları, nizam-intizamı pozmağa, tədrisi yarımçıq qoyub Nyu Yorka qaçmağa sövq edir.

Lakin Holden obrazının özəlliklərini yalnız onun yaş durumu və ailə vəziyyətinə müncər etmək doğru olmaz. Tədqiqatçılar haqlı olaraq qeyd edirlər ki, romanda Holden Kolfild obrazı həmçinin simvolik ölçüyə malikdir. Heç də təsadüfi deyildir ki, onun həyat yolu haqqında etirafından ibarət hekayəti sanatoriyada xəstəlikdən müalicə olunduğu dövrdə başlanmışdır. Xəstəliyin qəhrəmanının cəmiyyətlə, dünya ilə ziddiyətli münasibətini bədii təcəssümü qismində təqdimi artıq XIX əsrdə, xüsusilə naturalizmin nümayəndələrinin əsərlərində təsadüf olunan motivlərindən biridir. XIX əsrin sonu - XX əsrlərdə özgələşmənin dərinləşməsi ilə əlaqədar olaraq qərb ədəbiyyatlarında mənəvi-əxlaqi problemlərin ədəbi-bədii fikirdə psixi pozuntusu, cismani mərəz kimi təcəssümü aparıcı mövzulardan birinə çevrilmişdir. Çexovun "Altıncı palata", T.Mannın "Möcüzəli dağ", Sartrın "Azadlıq yollarında", Kamünin "Taun" əsərləri buna misal ola bilər.

Təbii ki, Amerika ədəbi-bədii fikri də bu tendensiyaya biganə münasibət bəsləməmiş, C.Londonun məhşur "Martin İden", Heminqueyin yuxarıda təhlil etdiyimiz "Klimancaro qarları" əsərləri mənəvi-əxlaqi böhranın cismani mərəz qismində özünü büruzə verməsinin bədii təcəssümü kimi diqqəti cəlb edirlər. C. Selincer də özünəməxsus görmə bucağından ictimai mərəzi cismani xəstəlik kimi oxucuya təqdim edir. Bu halda xəstəliyə görə qəhrəmanın cəmiyyətdən təcrid olunması kimi təcəssüm olunur və metaforik səciyyə kəsb edir.

Ədəbi qəhrəman qismində Holden Kolfild dünya bədii fikrində son dərəcə qədim-folklorda geniş yayılmış səfeh obrazı ənənələrinə söykənir. Bu baxımdan qəhrəman nağılların "səfeh", " keçəl", "cırtdan" personajları kimi bir növ nağılvari ört-basdır etmə, pisi yaxşı kimi qələmə vermə meylinə aldanmayan, dünyaya açıq və ayıq gözlə baxan, bir növ nağılın içində nağılın uydurma olmasını nəzərə çatdıran Holden Kolfild ətrafdakılardan gerçəkliyi daha yaxşı başa düşür və dəyərləndirir. Bunun sayəsində Selincerin qəhrəmanı bir çox sosial ayin və mərasimlərin saxtalığını hiss edir. Romanda Holden bütün bunları "saxtakarlıq və gözəsoxmaq" cəhdi kimi dəyərləndirir. Bu baxımdan Holden nağılların personajları ilə yanaşı Orta əsrlər Avropa mədəniyyətində geniş yayılmış, ciddi rəsmi mədəniyyətin çatışmazlıqlarını ifşa hədəfinə çevirən təlxək obrazlarına bənzəyir. Holden Kolfildin tərsinə taxtığı qırmızı rəngli ovçu papağı orta əsrlərdə təlxəklərin geydikləri təlxək papağının metoforik şəkildə yenidən, XX əsr şəraitində təkrarı kimi dəyərləndirilə bilər. Sadəcə olaraq orta əsrlərin təlxəyi cəmiyyətin aşağı təbəqələrini təmsil edirdi və üz-üzə gəldiyi çatışmazlıqların gülüş, ələ salmaq obyektinə çevirməklə kifayətlənirdi, halbuki amerikalı yazıçının qəhrəmanı yuxarı təbəqənin, say-seçmələrin nümayəndəsidir və onun ifşa hədəfi özünə yaxın adamlardır və müəyyən mənada özüdür. Cəmiyyətdə mövcud olan dəyərlərə, əxlaq kodeksinə total inkar mövqeyindən yanaşması Holden Kolfildi ilk bitnik yaxud hippi kimi dəyərləndirməyə əsas verir. Bu baxımdan tədqiqatçılar haqlı olaraq, Selincerin qəhrəmanın "Xuliqanlıqla" araqarışdıranın birisi deyib, tənha üsyankar kimi dəyərləndirməkdə haqlıdırlar (1,32). Həqiqətən də Holden Kolfild obrazı Amerika ədəbiyyatının formalaşması dövründə F. Kuperin romantik Nataniel Bampo obrazı ilə təməli qoyulan, sonralar Melvill ("Mobi Dik"), Mark Tven ("Şəhzadə və dilənçi"), Heminquey ("Əlvida, silah!") tərəfindən cəmiyyətin həyatından kənarlaşdırılan, buna görə də cəmiyyətə qarşı inkar mövqeyində dayanmağa məcbur olan qəhrəmanların XX əsrdə, İkinci dünya müharibəsindən sonrakı dövrdə ictimai, siyasi, ideoloji, mənəvi-əxlaqi durumun ortaya qoyduğu kontrkultura mövqeyindən çıxış edən Ginsberqin, Keruakın, Kizinin qəhrəmanları arasında əlaqələndirici halqadır.

Dövrün mənəvi-əxlaqi dəyərlərini qəbul etməyən Kolfild paradoksal şəkildə cəmiyyətə qarşı etirazında və üsyankarlığında məhz həmin dəyərlərlə silahlanaraq çıxış edir. O, cəmiyyətin və insanların eqoizminə qarşı öz eqoizmi ilə çıxış edir. Bu baxımdan onun etirazı, 50-ci illərdə bitniklərin və hippilərin timsalında istehlak cəmiyyətinə qarşı keçən əsrin 50-ci illərində yayılmış gənclər hərəkatının ideologiyasına tamamilə uyğun gəlir. Holden apriori cəmiyyətin onun nümayəndəsi olduğu sosial təbəqə üçün yaratdığı imkanlardan imtina edir. O nəyin bahasına olursa-olsun cəmiyyətin iyerarxiya sistemində onun üçün nəzərdə tutulmuş "pillə" də qərarlaşmaqdan imtina edir. O, tədrisini davam etdirməməyi onunla əsaslandırır ki, "hansı isə bir konturda işləyib çoxlu pul qazanma, işə maşınla Medison – avenyu boyu şütüyən avtobusla getmək, gecələr qəzet oxumaq, bric oynamaq yaxud kinoya getmək istəmir" (2,49).

Kolfild belə hesab edir ki, cəmiyyət tənhaların birliyi konsepsiyası əsasında qurulmuşdur, ilk baxışdan kütlənin hüdudlarından insanlar bir-birinə çox yaxındırlar, lakin mahiyyət etibarı ilə onların arasında uçurum mövcuddur. Özü də paradkosal şəkildə kütlənin içində insanlar bir-birinə nə qədər yaxınlaşırsa, onların arasında uçurum bir o qədər genişlənir, dərin və keçilməz olur: bu, illuziya yaxınlaşmadan, əslində insanların bir-birindən uzaqlaşmasından, təcrid olunmasından özgələşməsindən xəbər verir.

Kolfild bu "tənhaların birliyi"nə qarşı özünün son dərəcə utopik səciyyə daşıyan proyektini qoyur: o, fərdin tənhalığını cəmiyyətin tənhalığına qarşı qoyaraq, Amerika Birləşmiş Ştatlarının qərb bölgəsinə qaçmaq, çayın qırağında daxma tikib orada yaşamaq istəyir. O, belə hesab edir ki, yalnız cəmiyyətdən cismən tamamilə təcrid olunmaqla ümumbəşəri dəyərlərə yol tapmaq olar.

Selincerin qəhrəmanının tənhalıqdan, cəmiyyətin insanlara zorla qəbul etdirdiyi dəyərlərdən xilas olmaq üçün qərbə üz tutması motivi Amerika ədəbiyyatı üçün səciyyəvidir. Ümumiyyətlə, Amerika mədəniyyətində qərb bölgəsi ölkənin tarixi boyu heç bir sosial məhdudluqla yaxud şərtiliklə sıxılmayan azad həyat, insanın təbiətlə ittifaqı simvolu olmuşdur. Selincer öz qəhrəmanının timsalında Amerika xalqının artıq təhtəlşüurunda özünə yer almış bu istəyin xam xəyal olduğunu, heç bir məkanın insana apriori azadlıq və sərbəstlik vermədiyini, heç bir xarici faktorun insanın daxilən azad olmasını təmin edə bilməməsi qənaətindədir. Selincer qərb amilinin azadlıq qismində qabardılmasının əsassız olduğunu sübuta yetirmək üçün qəhrəmanını istehza məqamında məhz qərbdə, Kaliforniyada klinikada yerləşdirir.

Holdenin özü əsərin adının simvolik mənasını izah edir: o, bacısı Fibi ilə söhbətində Şotland şairi Robert Bernsin bir misrasını yadına salır: "Əgər kimi isə axşam çağı çovdarlıqda tutmusansa". Selincerin qəhrəmanı istehlak cəmiyyətində özünəlayiq sosial rol tapa bilmir, buna görə də özünü nəhəng çovdarlıq zəmisinin ortasında təsəvvür edir. Bu zəminin kənarında xırda uşaqlar oynayırlar. O, özünü beyzbol ketçeri - atılan topları tutanın simasında təsəvvür edir. Lakin ona tərəf atılan toplar yox, xırda uşaqlardır. Onun vəzifəsi isə onları tutub uçuruma düşməsinin qabağını almaqdır. Deməli, romanın adı simvolik şəkildə saxta mənəvi - əxlaqi dəyərlərlə yaşayan gələcək nəsillərin xilasi problemi durur: bu ancaq bütün mövcud dəyərlərdən imtina əsasında mümkündür. Dünyaya qarşı üsyanda Holden Kolfild tək deyil, onun bacısı Fibi qardaşının bir növ təkrarıdır, güzgüdə əksidir. O da əzəli-əbədi Amerika arzusunu zəhlətökən mühitdən baş götürüb qaçmaq istəyir və bunu uşaq səmimiliyi ilə həyata keçirmək arzusundadır. Lakin qardaşlarından fərqli olaraq Fibi sövqü-təbii şəkildə başa düşür ki, dünyadan təcrid olunmuş, heç bir əxlaq məhvərinə malik olmayan, üsyankar dünyanı dəyişmək iqtidarında deyil.

Kitabın nəşrindən təxminən on il keçəndən sonra Selincerin "Çovdarlıqda uçurumun qarşısında" romanı gənc amerikalıların mövcud dəyərlərə qarşı mədəni etirazının manifestinə çevrildi. Bitniklərin və hippilərin yaratdıqları kontrkulturaya söykənən incəsənətin müxtəlif növləri məhz Selincerin romanının ideya məzmunundan bəhrələnmişlər. Ginsberqin poeziyasında, Keruakın və Kizinin romanlarında bu təsir açıq şəkildə hiss olunur.

Keçən əsrin 60-cı illərinin əvvələrində mövcud mənəvi dəyərlərə Selincerdən fərqli münasibət Con Apdaykın yaradıcılığında, xüsusilə onun dovşanla bağlı tetralogiyasında nümayiş olunmuşdur (3, 34).

Tetralogiyanın birinci hissəsini təşkil edən "Dovşan, qaç" romanı 1960-cı ildə işıq üzü görmüşdür. Bu əsər dovşan ayamalı Harri Enqstromun ömür yoluna həsr olunmuşdur. Əsər nəşr

olunan kimi oxucuların böyük rəğbətini qazanmışdır.Bu hər şeydən əvvəl gənc sənətkarın Amerika gərçəkliyinin get-gedə, dərin böhrana uğramasının səbəblərinin təmsil etdiyi nəslin nəzər nöqtəsindən təcəssüm edə bilməsi ilə bağlı idi. Onu da qeyd etmək lazımdır ki, müəllif keçən əsrin 60-cı illərində Amerika cəmiyyətində hökm sürən böhran durumunun təsviri ilə kifayətlənməmiş, onun get-gedə 70-ci və 80-ci illərdə dərinləşməsi və faktiki olaraq cəmiyyəti mənəvi fəlakət uçurumu qarşısında qoyması, müəyyən mənada hətta bu uçuruma yuvarlanması prosesi təsvir olunmuşdur; əgər Selincerin qəhrəmanı Holden Kolfild hələ beyzbol ketçeri statusunda uşaqların, yəni yetişməkdə olan yeni nəslin nümayəndələrini "Çovdarlığın kənarında" olan uçuruma yuvarlanmaqlarının qarşısını almaq ümidindədirsə, Apdaykın personajı Harri Enqstrom artıq bu missiyanı həyata keçirməkdən ümidini üzmüşdür. Bu əlbəttə ki, ilk növbədə cəmiyyətdə böhran tendensiyalarının dərinləşməsi ilə bağlıdır. Lakin onu da qeyd etmək lazımdır ki, Apdayk tetralogiyada bir romandan digərinə adlayan dovşan obrazı vasitəsilə bu böhranın get-gedə dərinləşməsinin, geriyədönməz xarakter kəsb etməsini ardıcıl şəkildə təcəssüm etməyə nail olmuşdur.

Qeyd etmək lazımdır ki, ədəbi ictimaiyyət yüksək bədii vasitələrlə sosial problematikanı təcəssüm etmiş sənətkarın əməyini yüksək qiymətləndirmişdir: sənətkar ədəbi tənqidçilərin milli cəmiyyətin, ABŞ-da ən qədim sayılan Pulitser və digər mükafatlara layiq görülmüşdür. Mükafat alınması ilə bağlı söylədiyi nitqlərdən birində Apdayk göstərirdi ki, "Dovşan haqqında tetralogiyasında onun əsas vəzifəsi qəhrəmanın adı normal mövcudluğunu göstərməklə bağlıdır. Bu, adi və bütün Amerika üçün "orta insanı təcəssüm edən qəhrəmandır" (4, 82).

Məlumdur ki, hər bir obrazda, xüsusilə müsbət qəhrəmanda sənətkar bir qayda olaraq özünün bəzi xassələrini inikas etməyə cəhd göstərir. Onu da qeyd etmək lazımdır ki, görkəmli yazıçılar bir qayda olaraq özlərini yalnız müsbət rakursda təqdim etməklə kifayətlənmirlər, mənfi cəhətlərini, xüsusilə hər bir insana xas olan fobiyalarını da əks etdirməklə onlardan yaxa qurtarmağa, xilas olmağa cəhd edirlər. Lakin bütün bunlarla yanaşı mətbuat dəfələrlə Amerika ədəbiyyatı üçün səciyyəvi olan qəhrəmanla yazıçının arasındakı məsafənin azaldılması fonunda belə Apdaykla onun qəhrəmanı Harri Enqstrom arasında məsafənin faktiki olaraq yoxa çıxması faktını qeyd etmişlər (5, 39). Onu da xüsusilə qeyd edirlər ki, bu təkcə müəlliflə qəhrəmanın eyni məkanda dünyaya gəlib fəaliyyət göstərməsi, yaş baxımından uyğunluqları ilə deyil, həmçinin və xüsusilə onların daxili aləminin psixoloji durumunun, hiss və düşüncələrinin faktiki olaraq üst-üstə düşməsi ilə bağlıdır. Bu sübuta yetirir ki, Apdaykın Dovşanla bağlı romanlar silsiləsi heç də müəllifin Amerika ədəbi-bədii fikrində geniş yayılmış yarı avtobioqrafik roman tipi yaratmaq fikri olmamışdır. Apdayk simvol qəhrəmanın daxili aləmini təcəssüm etməyə cəhd göstərməklə faktiki olaraq dövrünün adamına xas olan bütün çatışmazlıqları üzə çıxarmağa və bədii vasitələrlə ifadə etmək məqsədindən çıxış etmişdir.

Bununla bağlı iki məqamı qeyd etmək zəruridir. Birincisi, müəllif öz qəhrəmanın həyat yolunu özünün fərdi həyat yolu ilə maksimum yaxınlaşdırmaqla paradoksal nəticə əldə etməyə nail olmuşdur. Məlum olmuşdur ki, cəmiyyətin üz-üzə gəldiyi problemlərin adekvat təcəssümü fərdi talelərin təcəssümündən keçir. Məhz fərd bütün sosial, ideoloji, mənəvi-əxlaqi problemlərin düyünləndiyi yerdir: şəxsiyyət ictimai fəlakəti öz fərdi fəlakəti kimi yaşayır, buna görə də müəllif və onun qəhrəmanı adekvat şəkildə "sadə amerikalıya", "yoldan keçənə" xas olan bütün kompleksləri ehtiva edir.

"Dovşan, qaç" romanının qəhrəmanı Harrinin iyirmi altı yaşı var. Psixoloji cəhətdən bu yaş şəxsiyyətin qocalması üçün böyük əhəmiyyət kəsb edir. İnsanda bu elə bir yaş dövrüdür ki, onun dünya haqqında, insanlar haqqında təsəvvürləri hələ sırf idealist səciyyə daşıyır. İyirmi altı yaşında insan hələ özü üçün rasionalist fəaliyyət sistemi qurub, ona uyğun hərəkət etmək iqtidarında deyil. Harri evlidir, ikinci uşağının dünyaya gəlməsini gözləyir, kiçik bir mağazada reklam agenti işləyir, evdar qadınlara müxtəlif məişət əşyaları nümayiş etdirir. O, işindən də, aldığı əmək haqqından da narazıdır. Ailə həyatında Harri bir sıra problemlərlə üzləşir. Nəticədə Harri Enqstrom bir yerdə qərar tuta bilməyən, ən kiçik təhlükə meydana gələn kimi qaçıb aradan çıxmağa cəhd göstərir və bununla da özünün "Dovşan" ayamasını doğruldur. Dovşan həyat yoldaşından, onun sərxoşluğundan, ara verməyən isterikasından qaçır, evdəki qarmaqarışıqlıqdan, pərakəndəlikdən

uzaqlaşır. Ona elə gəlir ki, özü ilə zəhlətökən mühit arasında məkan məsafəsi yarada bilər və bununla da bütün problemlərini həll etmiş olar. Buna görə də "Dovşan" maşına minib naməlum istiqamətə yollanır; o heç bir şey planlaşdırmır, heç bir məqsəddən çıxış etmir. Onu yalnız bir şey maraqlandırır – qaçmaq, özü də mümkün qədər uzağa qaçmaq. Lakin qaçmazdan əvvəl, o, bir növ cismən qaçışa hazırlaşmaq üçün məşq edir. Əvvəllər basketbolçu olmuş dovşan uşaqlarla oynamağa başlayır. Dovşanın uşaqlara qarşıb dərd-sərini oyunda dağıtmaq istəyi bütövlükdə roman üçün yeni bir mövzunun idman oyunu mövzusunun meydana gəlməsinə səbəb olur. İdman oyunları Apdaykın şərhində gerçəklikdən fərqli cəhətlərə malikdir: idman oyunu nəticələrini öncədən söyləmək çətindir, idman oyunları müəyyən qaydalar əsasında təşkil olunmuşlar və onları pozmaq olmaz. Bütün bu cəhətlər Apdaykın qəhrəmanın fikrincə insana gərçəkliyin zəhlətökən gündəlik qayğılarından ayrılmaq imkanı verir.

Mənəvi–mədəni böhran problemi Apdaykın əsərində özünün yeni görmə bucağından şərhini tapır. Artıq yuxarıda göstərdiymiz kimi Selincerin qəhrəmanı Kolfild ketçer (top tutan) qismində çıxış etməklə bir növ idman hərəkətləri vasitəsi ilə gələcək nəsilləri məhv olmaqdan xilas etmişdir. Apdaykın qəhrəmanı da xilas yolunu cəmiyyətdən, daha doğrusu, onun en xırda, eyni zamanda ən məşəqqətli və əzabverici, insanı ömürlük məhkum edən nüvəsindən qaçmaq ərəfəsində idmanla (basketbolla) məşq edir.

Lakin mənəvi-mədəni böhranla idman arasında münasibətlər sisteminin şəhrində və açıqlanmasında bəzi fərqlər də mövcuddur. Hər şeydən əvvəl Selincerin qəhrəmanı yuxuda idmançı simasında özünü təsəvvür edir. Apdaykın qəhrəmanı isə ayıq şəkildə basketbolla məşğul olur. Hər iki qəhrəmanın idmanla məşğul olması uşaqlarla bağlıdır. Lakin əgər Selincerin əsərində uşaqlar virtualdırlarsa və passiv rol oynayırlarsa, Apdaykın romanında realdırlar və basketbol oyununda fəal iştirak edirlər. Selincerin əsərində idman (beyzbol) Robert Bernsin misrası ilə bütün ingilisdilli mədəniyyətin və incəsənətin tarixi ənənələri və eyni zamanda çovdarlıq zəmisi obrazı ilə təbiətlə əlaqələndirilir, Apdaykın əsərindsə isə idman (basketbol) birdəfəlik və lokal aktdır və universal səciyyə daşımır və bu mənada Selincerdən fərqli olaraq Apdayk idman epizodunu simvola çevirmək fikrində deyil. Onu da qeyd etmək lazımdır ki, hər iki əsərdə idman məqsədyönlüdür. Lakin eyni zamanda əgər Selincerin romanında məqsəd simvolik və metaforik səciyyə daşısa da qarşıya qoyulan məqsədin – gələcək nəsillərin timsalında bəşəriyyətin mənəvi-mədəni böhrandan qurtarmaqdırsa, Apdaykın əsərində məqsəd birbaşa yox, dolayısıyla ifadə olunmuşdur və cəmiyyətin deyil, fərdin Harri Enqstromun xilasına yönəlmişdir.

Kontrkultura ədəbiyyatında idman mövzusu birbaşa təsvir olunmur və yalnız bəzi hallarda epizodik səciyyə daşıyır. Lakin bununla belə Keruakın, Kizinin və digər bitnik–hippi ədəbiyyat nümunələrinin müəllifləri kontrkultura konsepsiyasından çıxış edən qəhrəmanlarının daimi yerdəyişmə, bir yerdə qərarlaşa bilməmək kimi keyfiyyətləri təsvir etməklə onların hərəkətə olan ehtiyaclarını ifadə etmişlər. Lakin bu tamamilə məqsədsiz, boş-boşuna hərəkətdir.

Evindən dovşansayağı qorxu-hürkü içində baş götürüb qaçan Harri Enqstrom öz iş yerini dəyişir. O, yaşlı və zəngin bir qadının malikanəsində bağban vəzifəsində işə düzəlir. Yeni fəaliyyət növü onun xoşuna gəlir, çünki bu onun daxili aləminin fəaliyyətinin dərin qatlarında gizlənmiş və zaman-zaman baş qaldıran bir meylinə - təbiətə qovuşmaqla həyatına, mövcudluğuna məna vermək istəyinə uyğun gəlirdi. Məhz təbiətlə bu müvəqqəti təmasın nəticəsində Harri Enqstroma növbəti iş yeri cəhənnəmə çevrilir. Qızının dünyaya gəlməsindən sonra arvadının yanına qayıtmağa məcbur olan dünənki dovşan avtomobil satqısı ilə məşğul olan kompaniyanın prezidenti qaynatasının yanında işləməyə məcbur olur. O, qaynatasının biznes maraqlarını müdafiə etmək üçün dəridən - qabıqdan çıxmaq məcburiyyəti ilə üzləşir. Ev-iş, iş-ev marşurutu onun üçün yeganə hərəkət istiqamətinə çevrilir. Bütün varlığı ilə azadlığa və sərbəstliyə can atan bir insan üçün bu, əlbəttə ki, dəhşətli bir zülmdür. Qaynatasının biznes maraqlarını qorumaq naminə yalan danışmağa məcbur olan Harri Enqstrom özünə, ətrafdakılara, bütün dünyaya nifrət və ikrah hissi ilə yaşamağa məcburdur.

Romanda təkcə əvvəlki dövrlərin ədəbi ənənələri ilə deyil, obrazlar sisteminin özündə də müəyyən paralellər mövcuddurlar. Hər şeydən əvvəl həyat idealları, həyatın köklü dəyərlərinə münasibətdə iki ata obrazı "Dovşanın atası" və onun qaynatası müxtəlif qütblərdə dayanırlar:

dovşanın atası yüksək mənəvi dəyərlərdən çıxış edir, oğlunu da bu ruhda böyüdür və onda insanlarda düzgün münasibətlər formalaşdırmağa çalışır, qaynata isə biznesmendir, pul qazanmaq üçün insanları aldatmağa hazırdır və həm qızı Cenis vasitəsilə, həm də birbaşa bu keyfiyyəti Harri Enqstroma aşılamağa cəhd edir. Harri Enqstrom evlənəndən sonra faktiki olaraq bu iki həyat konsepsiyası arasında çabalayır, sona qədər qətiyyət nümayiş etdirib heç bir tərəfə birdəfəlik keçə bilmir. Onun iki həyat mövqeyi arasında tərəddüdləri iki bir-birinə əks dünyaduyuma malik, iki müxtəlif dünyagörüş mövqeyindən çıxış edən, iki qadın arasında qalması ilə bağlıdır: Harri həyat yoldaşı Cenisin rəhbər tutduğu dəyərlərini qəbul edə bilməsə də, ailə qarşısında, dünyaya gətirdiyi uşaqlar qarşısında cavabdehlik hissi ona birdəfəlik Cenisi tərk etməyə imkan vermir. Harri ilə Cenis arasında münasibətlər sırf disharmoniya və iki tərəfin qətiyyən bir-birini başa düşməməsinə əsaslanır. Harrinin məşuqəsi Rut Cenisin tam əksini təşkil edir. Rut təbiidir, sözün əsl mənasında qadındır. Ana başlanğıcı onun xarakterinin təməlini təşkil edir. Məhz bu cəhətlər Harri Enqstromun "dovşan"a çevrilməsinə, Cenisi tərk edib Rutla yaşamağa sövq edir. Lakin yuxarıda göstərildiyi kimi Aptaykın qəhrəmanının xarakterinin mayasını məsuliyyət hissi təşkil edir: qızının dünayaya gəlməsindən xəbər tutan kimi o, Rutu tərk edib arvadının yanına qayıdır. O, həyat yoldaşı tərəfindən anlaşılmaq və əvvəllər sanki aralarında mövcud olan (o hər halda belə düşünür!) məhəbbəti geriyə qaytarmaq ümidi ilə evə qayıdır. Lakin Cenis köhnə adətlərindən əl çəkmir; alkoqolizm artıq bu qadını bütün mənəvi-əxlaqi özünənəzarət vasitələrindən məhrum etmişdir. Günlərin bir günü Harri Enqstrom ailəsində hökm sürən ab-havaya dözmür yenidən dovşana çevrilib evdən qaçır.

Bir neçə gün keçəndən sonra Harri öyrənir ki, o çıxıb gedəndən sonra sərxoş arvadı yenicə dünyaya gəlmiş qızını vannada çimizdirərkən suda boğub öldürmüşdür. Dovşan fikirləşir ki, əgər o baş götürüb evdən qaçmasaydı, bəlkə də bu növbəti faciə baş verməzdi. O belə bir qənaətə gəlir ki, dünyaya gətirdikləri məsum körpənin ölümündə o da təqsirkardır, bu faciənin törədilməsində onun da payı var.

Uşağın torpağa tapşırılması prosesində Harri yenidən həyat yoldaşı ilə münasibətlərini bərpa etmək, onun ürəyinə yol tapmaq istəyir, lakin yenidən anlaşılmazlıq və yalandan hörülmüş divarla üz-üzə gəlir.

Harri Cenisi tərk edib Rutun yanına qaçır. Burada o, məşuqəsinin hamilə olmasından xəbər tutur və ondan uşağı saxlamağı xahiş edir. Lakin onun bir yerdə qərar tuta bilməməsi artıq qadında ona qarşı şübhə hissinin formalaşmasına səbəb olmuşdur: onların arasında gözəgörünməz, bir çox cəhətdən izah olunmaz ekzistensial divar yaranmışdır. Harri Enqstrom bu divarı aşmaq iqtidarında olmadığını dərk edib, əbədi dovşana çevrilir, cəmiyyətdə mövcud olan mənəvi-əxlaqi dəyələrdən birdəfəlik və həmişəlik imtina edib qaçır.

Romanda üçüncü qarşıdurma Harri Enqstromu gənc yaşlarında basketbol üzrə məşqçisi olmuş şəxslə kilsə pastoru arasında öz əksini tapır. Harri yeniyetmə yaşında basketbolla məşğul olanda məşqçi ondan ötrü böyük nüfuz sahibi olmuşdur. İndi də ailəsi ilə, məşuqəsi ilə bağlı problemlər yarananda o, ilk növbədə adəti üzrə məşqçiyə müraciət edir və ondan məsləhət almaq istəyir. Lakin məşqçi üçün Harri əvvəlki potensial imkanlarına görə güclü basketbolçuya çevriləcəyi gözlənilən yeniyetmə yox, həddibuluğa çatmış kişidir. İndi ona məsləhət vermək yox, yeyib- içmək olar. Belə bir münasibət Harri Enqstromda məşqçisinə qarşı inamsızlıq və məyusluq hissi yaradır. Pastor Ekkols basketbol məşqçisinin əksini təşkil edir və dovşanın həyatında fərqli rol oynayır. Məhz pastor vasitəsi ilə Harri Enqstrom ona vacib olan bir problemi - insanın Allaha, Allahın insana münasibəti problemini həll etmək, insanın həyat yönümünü müəyyən edən prinsipləri aydınlaşdırmaq, bunula bağlı onda doğan saysız-hesabsız suallara cavab axtarır. Harri Enqstrom əmindir ki, inam insanın mənən və ruhən harmonik şəkildə təşəkkül tapması üçün vacib şərtdir. Harri Enqstrom həyatda öz yolunu tapmaq, sabit dəyərlərə söykənmək üçün Allaha böyük ehtiyac duyur və istəyinə nail olmaq üçün pastora müraciət edir və onun məsləhətləri əsasında həyatını qurmağa cəhd edir. Lakin Allaha inamı və pastorun ortaya qoyduğu prinsiplərin daşa dəyməsi onları gerçəkləşdirməyin qeyri-mümkünlüyü Dovşanı məyusluğa və ümidsizliyə qərq edir. Harri Enqstrom dərk etməyə başlayır ki, dünyanın faktiki olaraq iki üzü mövcuddur: bir tərəfdən insan həyat praktikasında uğur qazanmaq istəyir, digər tərəfdən həyatda gördüyü işlərin arxasında inancın

durmasını yüksək mənəvi-əxlaqi prinsiplərə əsaslanmasını arzulayır. Lakin bu iki cəhətin harmoniyası mümkün deyil. Ya gərək tamamilə mənəvi- əxlaqi prinsiplərdən imtina edib praqmatik dəyərlərə istinad edəsən, ya da tərki-dünya olub, zahid həyatı sürəsən. Bu iki alternativ arasında çabalayan Harri Enqstrom baş götürüb qaçmağı, Dovşan taleyini üstün tutur.

Romanda hadisələr son dərəcə dar bir bədii məkanda cərəyan edirlər. İlk baxışdan dovşan statusu ona Amerika Birləşmiş Ştatlarının ucsuz-bucaqsız ərazisini gəzib-dolaşmağa meydan açır. Dovşan orduda xidmət etdiyi müddətdə Pensilvaniyada iki xırda əyalət şəhərində olmuş, baş götürüb qaçanda Qərbi Virciniya ştatını ziyarət etmək imkanı əldə edir. Öz qəhrəmanını bu dar mühitdə yerləşdirməklə və eyni zamanda onda bir yerdə qərar tuta bilməmək keyfiyyəti aşılamaqla müəllif, onu çarxda aramsız fırlanıb hərəkət edən sincaba çevirir və dar məkanla onun ümidsizliyini, çıxılmaz vəziyyətini vurğulayır. Harrinin pastorla söhbətləri son nəticə etibarı ilə həyatında heç bir dəyişikliyə səbəb olmasa da, Harri ucsuz-bucaqsız səmadan yardım diləməkdə davam edir.

İstifadə olunan ədəbiyyat

1. Feied Frederick No Pie in the sky; the hobo as American cultural Hero. N.T., Citadel Press, 1964.-95 p.
2. Hassan I. Contemporary American Literature: 1945-1972 –an introduction. N.T.,, Ungar, 1974 -194 p.
3. The Moderns. An anthology of New Writing in America . Ed. By LeRoi Jones, Corinth Books, 1963, XVI, 315 p.
4. Bryant J.H. The open Decision. The Contemporary American novel and its Intellectual background.N.T., The Free Press TTQ 1970. -415 p.
5. Bay M.S. A Handbook of American Literature. St. Lucia (Queensland), University of Queensland Press, 1975. -211, 661 p.

G.Rzayeva

Features of the embodiment of moral and psychological problems in American literary environment

Summary

The presented article describes the life after the Second World War, the realities of the American patriarchal province. Mainly analyzed the features of the embodiment in the literature of the desire to get rid of such a mindset, spiritual crisis. Examples are given from the works of Hemingway, Faulkner, Fitzgerald, Steinbeck and other creators of the word. Interpreted lifestyle of the 50s of the twentieth century and the problems faced by people. It is concluded that at that time in America there was no trace of mass society, the youth movement and “the sexual revolution” in the person of the beatniks and hippies. However, they were already sprouts. It became clear that an adequate embodiment of the problems facing society is the embodiment of them in separate destinies. In the face of the individual are connected all the social, ideological, moral and ethical issues. The social catastrophe of the individual is experienced as its own catastrophe. From this point of view, the author and his hero adequately include all the complexes that characterize "ordinary Americans" and "passersby." Thus, it turns out that in the mid-twentieth century, attitudes toward mobility in american society changed radically. It is now believed that success can only be achieved in an orderly society. At that time, society changed its attitude towards those who make up its backbone. It is believed that continuous activity does not allow a person to adequately perceive the surrounding objects and events, to penetrate into their essence, to connect them with each other, to better understand them: their protagonists are limited to making superficial judgments.

Key words: society, morality, war, novel, writer

Г.Рзаева

Особенности воплощения нравственно-психологических проблем в американской литературной среде

Резюме

В представленной статье описываются тяготы жизни после второй мировой войны, реалии американской патриархальной провинции. В основном анализируются особенности воплощения в художественной литературе желания избавиться от подобных умонастроений, духовного кризиса. Приводятся примеры из произведений Хемингуэя, Фолкнера, Фицджеральда, Стейнбека и других творцов слова. Интерпретируется образ жизни 50-х годов XX века и проблемы, с которыми сталкиваются люди. Делается вывод о том, что в то время в Америке не было и следа «массового общества, молодежного движения и «сексуальной революции» в лице битниками и хиппи. Однако были уже их ростки. Стало ясно, что адекватное воплощение стоящих перед обществом проблем есть воплощение их в отдельных судьбах. В лице индивида связаны все социальные, идеологические, моральные и этические проблемы. Социальная катастрофа личности переживается как собственная катастрофа. С этой точки зрения автор и его герой адекватно включают в себя все комплексы, которые характеризуют «простых американцев», «прохожих». Таким образом, получается, что в середине XX века отношение к мобильности в американском обществе коренным образом изменилось. Теперь считается, что добиться успеха можно только в упорядоченном обществе. В то время общество изменило свое отношение к тем, кто составляет его хребет. Считается, что непрерывная деятельность не позволяет человеку адекватно воспринимать окружающие предметы и события, проникать в их суть, соединять их друг с другом, лучше понимать их: их протагонисты ограничиваются высказыванием поверхностных суждений.

Ключевые слова: общество, мораль, война, роман, писатель

Redaksiyaya daxil olma tarixi: 18.04.2019
Çapa qəbul olunma tarixi: 26.04.2019
Filologiya elmləri doktoru, professor Qorxmaz Quliyev tərəfindən çapa tövsiyə olunmuşdur.

TƏRANƏ RÜSTƏMOVA
AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı muzeyi
İstiqlaliyyət 53
aykarustemli@mail.ru

TƏMSİL SEYİD ƏZİM YARADICILIĞININ BİR QOLU KİMİ

Xülasə

Azərbaycan və Şərq folklorundan, dünya yazılı ədəbiyyatından bəhrələnərək yeni, orijinal əsərlər yazan Seyid Əzim özündən sonra ədəbi bir məktəb yaratmışdır.

Müəllifin təqdim olunan məqaləsində XIX əsr Azərbaycan ədəbi-ictimai fikir tarixində maarifçi, puplisist, lirik və satirik şair, eyni zamanda görkəmli təmsilnəvis kimi tanınan S.Ə.Şirvaninin təmsil yaradıcılığı tədqiq olunur. Belə ki, məqalədə Seyid Əzimin qələmə aldığı təmsillər bədii və pedaqoji yaradıcılığının bir qolu kimi təqdiqata cəlb olunur.

Şairin təmsil yaradıcılığına toxunan məqalə müəllifi şairin Azərbaycan xalq nağılları, "Kəlilə və Dimnə" motivləri ilə səsləşən təmsilləri haqqında ətraflı məlumat verir. Həmçinin məqalədə S.Şirvaninin M.Füzuli, U.Zakani, İ.A.Krılov və İ.İ.Dmitriyevdən tərcümə etdiyi təmsilləri araşdırılır. Eləcə də Seyid Əzimin əruz vəzninin səri bəhrində yazdığı "Siçan və pişik", "Ayı və arılar" təmsilləri nümunələr əsasında tədqiq olunur.

Məqalə müəllifi XIX əsrin I yarısında Azərbaycanda yeni, dünyəvi məktəblərin açılmasında, maarifçi-realist ədəbiyyatın inkişafında böyük xidməti olmuş S.Ə.Şirvaninin pedaqoji fəaliyyətindən də danışır. Məqalədə şairin "Rəbil-ətfal" dərsliyindən söhbət açılır. Eyni zamanda sənətkarın sözügedən dərslikdə yer alan alleqorik hekayələri, təmsilləri haqqında da məlumat verilir.

Açar sözlər: alleqoriya, folklor, təmsil, XIX əsr, ədəbiyyat, S.Ə.Şirvani,dərslik

XIX əsr Azərbaycan ədəbiyyatı dövrünün ictimai-siyasi hadisələri ilə əlaqədar olaraq əvvəlki zamanlara nisbətən daha ziddiyyətli inkişaf yoluna qədəm qoymuşdur. Belə ki, ədəbiyyatın mövzu dairəsi dövrün tələbinə uyğun getdikcə genişlənmiş, mündəricəsi dolğunlaşıb ictimailəşmişdir. Yeni dövrə uyğun ədəbi növlər, janrlar yaranmış, ədəbiyyat tədricən hekayəçiliyə, ictimai satiraya və dramaturgiyaya doğru inkişaf etməyə başlamışdır. Məhz milli dramaturgiyanın, faciə janrının, tarixi faciənin, satirik şeirin, mətbuatın, teatrın yaranması və s. bu kimi yeniliklərinə görə XIX yüzili "novator əsr"i adlandırmaq olar.

Bu yeniliklər sırasında təmsilin bir janr olaraq bərqərar olması da xüsusi qeyd edilməlidir. Belə ki, klassik ədəbiyyatdakı təmsil yaradıcılığı ənənələri rus və dünya təmsilinin təsiri ilə özünün yeni yüksəliş mərhələsinə qədəm qoyub alleqorizmdən real həyat hadisələrini əks etdirən bir ədəbi janra çevrilmişdir. Qeyd etmək lazımdır ki, XIX əsr Azərbaycan cəmiyyətinin mühüm ictimai-siyasi və əxlaqi-mənəvi problemləri məhz bu dövrdə təmsilin yaranmasının başlıca səbəbi kimi dəyərləndirilə bilər.

Ədəbiyyatımızda mövzu baxımdan aktuallaşmış, formaca zənginləşmiş təmsil janrının Abbasqulu ağa Bakıxanov, Qasım bəy Zakir kimi görkəmli nümayəndələri sırasında Seyid Əzim Şirvaninin də adını xüsusi vurğulamaq lazımdır. O, XIX əsrin görkəmli təmsilnəvisi, eyni zamanda ədəbi-ictimai fikir tariximizdə maarifçi, puplisist, lirik və satirik şair kimi də tanınmışdır.

Şairin bütöv yaradıcılığı, demək olar ki, bilavasitə xalq ədəbiyyatı ilə bağlı olmuşdur: "Onlarla nağıl, rəvayət, əfsanə, atalar sözü, bayatı və s. nümunələri nəzmə çəkən, şeirlərində istifadə edən Seyid Əzim ... folklordan istənilən qədər bədii təsvir vasitələri, dil, üslub xüsusiyyətləri, surətlər qaleriyası götürmüşdür" (4, 25).

Azərbaycan və Şərq folklorundan, yazılı ədəbiyyatından bəhrələnərək Məhəmməd Füzuli ənənələrinin davamçısı, qəzəl ustadı kimi şöhrətlənən Seyid Əzim lirik şeirlərini ictimai motivlərlə

zənginləşdirərək onların real həyatla əlaqəsini qüvvətləndirmişdir. Xüsusən, "Əkinçi" qəzetinin nəşri Seyid Əzimin özündən əvvəl yaşayıb-yaradan klassiklərin ənənələrini davam etdirərək dövrünün ictimai həyatı ilə bağlı olan mənzum hekayələr, öyüdlər, nağıllar və təmsillər yazmağa daha da sövq etmişdir.

Qeyd etmək lazımdır ki, S.Əzim təmsillərində hadisələri elə ustalıqla təsvir edir ki, oxucunu buna inandırır, onda bütün mənfiliklərə qarşı nifrət, nəcib insani sifətlərə qarşı isə rəğbət hissi oyadaraq nəticə çıxartmağa vadar edir. Sadə və yığcam mükalimə formasından məharətlə istifadə edən Seyid Əzim obrazların daxili aləmini sənətkarlıqla açа bilmişdir.

Şairin təmsil istiqamətindəki yaradıcılığına dünya təmsilnəvisləri üçün əsas mövzu mənbəyi hesab olunan "Kəlilə və Dimnə", Cəlaləddin Rumi, İ.A.Krılov, İ.İ.Dmitriyev və s. bu kimi bir sıra Şərq və Qərb sənətkarlarının təmsilləri ilə tanışlığı olduqca əhəmiyyətli təsir göstərmişdir. Belə ki, S.Ə.Şirvani məşhur sənət abidəsi olan "Kəlilə və Dimnə"nin təsiri ilə "Aslan və iki öküz", "Dəvə və balası", "Xoruz və çaqqal", "Eşşək və arılar" təmsillərini nəzmə çəkmişdir.

Seyid Əzim həmçinin Sədi Şirazinin "Bustan" əsərindən "Qarının pişiyi" təmsilini eyni adda, "Kəllə və alim" təmsilini isə "Abid və quru kəllə" başlığı altında işləyərək özünəməxsus orijinallıqla qələmə almışdır. Qeyd etmək lazımdır ki, Sədi "Qarının pişiyi" təmsilində fikirlərini qısa, konkret üsulla 5 beytdə ifadə etdiyi halda, S.Əzim bu mövzunu forma və məzmun baxımından genişləndirərək təmsildəki pişik obrazının həm başqa pişiklərlə, həm də qarı ilə dialoqunu verərək 64 beyt həcmində orijinal sənət nümunəsi yaratmışdır. Nümunələrə nəzər salaq:

S.Şirazi:
Düşündü: bu oxdan qurtarsaydım can,
Mən öz xarabamda tutardım siçan.
Səni balçın arı sancmamış hələ,
Keçin doşabınla, qənaət eylə (5, 121).
S.Ə.Şirvani:
Küncə sıxıldı, dedi ki, ey xuda!
Olsam əgər bu ox atandan rəha,
Tışraya çıxsam dəxi viranədən,
Bəsdir mənə məhzəri-pizəzən (6, 115).

Və yaxud S.Şirazinin "Kəllə və alim"i ilə S.Ə.Şirvaninin "Abid və quru kəllə" təmsillərini müqayisə edək:

S.Şirazi:
Deyirlər Dəclədə bir quru kəllə
Bir arif kişiyə söyləyib belə:
Mən də bir zamanlar hökmdar idim,
Ölkələr fəth edən hökmdar idim.
Bəxtim kömək etdi, diz çökdü yağı.
Aldım qüdrətimlə bütün İraqı.
İstədim Kirmanı tutum sonra mən,
Əfsus kəlləm oldu qurdlara məskən.
Uyma gəl qəflətə qoca dünyada,
Ölən insanları sən gətir yada (5, 40).
S.Ə.Şirvani:
O quru kəllə nitqə gəldi rəvan,
Dedi: − Ey abidi-fəriştənişan.
Şah idim mən cahanda izzət ilə,
Ruzgarım keçirdi şövkət ilə...
Eylədi dəhr eyşimi bərbad,
Mürği-ruhə əcəl olub səyyad...

Qəbrimi seyl həm fəna qıldı,
Məni bu halə mübtəla qıldı.
Seyyida, bir diyardır bu fəna−
Ki, bərabərdir onda şahü-gəda (6, 94-95).

Hər iki nümunədə abidin kəllə ilə alleqorik üsulla verilən dialoqunda dünyanın faniliyi önə çəkilir.

Qeyd etmək lazımdır ki, Seyid Əzim eyni zamanda XIV əsr İran şairi Übeyd Zəkaninin "Siçan və pişik" təmsilini də farscadan ana dilinə çevirərək əsərə geniş müqəddimə yazmışdır. "....Təmsilin orijinalı 218 misradır. Seyid Əzim isə ona 381 yeni misra əlavə etmişdir" (2, 212).

Nəql eləyim gəl sənə bir dastan,
Farsi ilə nəzm eyləyib batan.
Türki ilə mən ani təhrir edim.
Könlünü şad et, sənə təqrir edim.
Bircə qulaq ver belə dəvayə sən,
Eylə nəzər şurişü qövğayə sən.
Bil ki, nə sultan, nə xanın cəngidir.
Bir pişik ilə siçanın cəngidir (6, 78).

Seyid Əzim Məhəmməd Füzulinin "Kürbə və səg" ("İt və pişik") qitəsinə nəzirə olaraq yazdığı "İtlə pişiyin söhbəti" təmsilində Füzuli üslubunu saxlayaraq şeiri müasiri olduğu dövrlə əlaqələndirmişdir.

Azərbaycan ədəbiyyatında Abbasqulu ağa Bakıxanovla başlayan təmsil tərcüməçiliyini Seyid Əzim davam və inkişaf etdirərək XVIII əsr rus təmsilçiləri İ.İ.Dmitriyevdən "Xoruz, pişik və siçan balası", İ.A.Krılovdan "Şir və siçan", "Bülbüllər" təmsillərini dilimizə tərcümə etməklə daha da qüvvətləndirmişdir.

Qeyd etdiyimiz kimi, Seyid Əzimin yaradıcılığı birbaşa folklorla bağlı olmuşdur. Belə ki, mövzusu Azərbaycan xalq nağılı motivlərindən götürülmüş "Zahidi-müstəcabüddəvə" yəni, "Zahidin nağılı" təmsilində şair afitab (günəş), əbr (bulud), boran (yağış), xak (torpaq), nabat (bitki), qoyun, siçan kimi alleqorik obrazlar vasitəsilə olduqca maraqlı bir süjet xətti qurmuşdur:

Sözü qıldı təmam çün qəssab,
Gördü zahid ki, düzgəlib bu hesab.
Cins öz cinsinə olur vasil,
Hissən qıldı bu qissədən hasil.
Bu sözə çoxdu hüccəti-qate-
Ki, olur şey əslinə race.
Cins cinsin həmişə cəzb eylər,
Yoxdur bu işdə söhbəti-digər (7, 211).

Şairin "Ayı və siçan" təmsili də "Aslan və siçan" Azərbaycan xalq nağılı ilə səsləşir. Nəsr formasında olan folklor nümunəsini nəzmə çəkən şair insanın fani dünyada etdiyi yaxşılıqların mütləq özünə qayıdacağı fikrini təmsilində əsas götürür.

Yaşadığı dövrün, mövcud quruluşun eyib və bəlalarını şair "Aslan və qarışqa", "Dəvə və balası", "Eşşək və arılar", "Xoruz və çaqqal" kimi ictimai məzmun daşıyan təmsillərində üstüörtülü şəkildə, alleqorik üsulla tənqid edir.

Onu da qeyd edək ki, Seyid Əzimin təmsillərinin dili sadə və aydındır. Belə ki, o xalq danışıq dilinə yaxın olan təmsillərini əruz vəzninin oynaq bəhrində, məsnəvi şəklində yazmışdır. Nümunə kimi S.Ə.Şirvaninin əruz vəzninin səri bəhrində qələmə aldığı "Siçan və pişik" təmsilinə nəzər salaq:

Müftəilün müftəilün fAilün

Var idi bir şəhr də bir bəd pişik
Kim yo xi di bir be lə mür təd pi şik (6, 75).

Və yaxud şairin eyni bəhrdə yazdığı "Ayı və arılar" şeirini götürək:

Müftəilün müftəilün fAilün

Bi rayı nın düş dü yo lu bir za man
Ba ları sı kən di si nə na gə han (6, 87).

Fikrimizcə, Şirvaninin mahir pedaqoqluq qabiliyyəti onun təmsil yaradıcılığında da bariz hiss olunurdu. Belə ki, şair avam kütlənin də qavraya bildiyi dildə yazaraq, xüsusən cahil insanlarda cəmiyyətdəki eybəcərliklərə tənqidi yanaşmaq qabiliyyəti aşılamağa, analitik düşüncə formalaşdırmağa səy göstərirdi.

Bildiyimiz kimi, XIX əsrin sonu XX əsrin əvvəllərində Yaxın Şərqdə olduğu kimi Azərbaycanda da ibtidai təhsil məscid hücrələrində açılan mollaxanalarda verilirdi. Burada fars və ərəb dilləri ilə yanaşı, "Quran"dan ayə və surələr də uşaqlara öyrədilirdi. Həmçinin mollaxanalarda fars dilini öyrənmək üçün uzun müddət Sədi Şirazinin "Gülüstan" əsəri dərs vəsaiti kimi tədris olunurdu. Tarixi sənədlərlə tanışlıq göstərir ki, köhnə məktəblərdə bu kitablarla təhsil alan uşaqlar çox vaxt sadəcə mətnləri əzbərləyir, əzbərlədiklərinin mahiyyətindən bixəbər olurdular.

Məlumdur ki, Azərbaycan xalqı əsrlər boyu ana dilində danışmaq, ana dilində yazmaq, bu dili yaşatmaq, saflığını qorumaq uğrunda mübarizə aparmışdır. Lakin orta əsrlərdə istər məktəb, maarif, istərsə də şeir, sənət sahəsində ərəb, fars dillərinin hakim mövqeyi ana dilinin təhsil və tədrisinə imkan verməmişdir. Bu baxımdan sonralar Azərbaycan dilində dərs vəsaitlərini hazırlamaq, uşaqlar üçün əsərlər yazmaq ehtiyacı yaranmışdır.

Qeyd etmək lazımdır ki, XIX əsrin I yarısında Azərbaycanda baş verən əlamətdar hadisələr içərisində yeni, dünyəvi məktəblərinin açılması, məktəb və maarif hərəkatının canlanması, maarifçi-realist ədəbiyyatının inkişafı xalqın mədəni həyatında mühüm əhəmiyyət kəsb etmişdir.

Rus dilində açılmış qəza məktəblərindən başlayaraq XIX əsrin 70-80-ci illərdə yaranmış "Üsuli-cədid" və "Rus müsəlman məktəbi" kimi yenitipli, dünyəvi məktəblərdə Azərbaycan dilinin tədrisi uşaq ədəbiyyatının yaranmasına təkan vermişdir. Belə ki, 1874-cü ildən Şamaxıda yeni tipli məktəbdə müəllimlik fəaliyyətinə başlayan Seyid Əzim Şirvaninin tərtib etdiyi və içərisindəki mətnlərin bir hissəsinin müəllifi, bir hissəsinin də tərcüməçisi olduğu "Rəbiül−ətfal" ("Uşaqların baharı") kitabı, əslində, yeni zəmanənin, milli oyanışın təsiri ilə yaranmışdır. "Üsuli-cədid" − yeni üsullu məktəblərin açılmasında iştirak edən, həmçinin orada müəllim kimi fəaliyyət göstərən Seyid Əzim uşaqlara ana dilində yeni məzmunlu, asan anlaşılan oxu kitablarının, dərs vəsaitlərinin yaradılması zəruriliyini dərk edirdi.

Məlumdir ki, bədii yaradıcılığın digər sahələrindən fərqli olaraq uşaq ədəbiyyatının qarşısında daha çətin vəzifələr durur. Yazıçı və şairlər öyrədici, əyləndirici mahiyyətdə olan uşaq ədəbiyyatı üçün daha münasib mövzu və məzmun, ifadəli forma tapmalıdırlar. Uşaq dünyasına dərindən bələd olan, xalq və dünya ədəbiyyatı təcrübəsindən bacarıqla isifadə edən sənətkarlar təmsil vasitəsilə əxlaqi-didaktik fikirləri ifadə edib kiçik oxucularına həm də janra qarşı maraq oyatmalıdırlar. Belə ki, Seyid Əzim şagirdlərin dərsliyə olan ehtiyacını nəzərə alaraq tərbiyəvi mahiyyətdə olan mənzum hekayə, təmsillərini, öyüd və nəsihətlərini uşaqlar üçün hazırladığı "Rəbiül−ətfal" dərs vəsaitində toplamışdır.

"Rəbiül−ətfal"ın akademik nəşrinin tərtibçisi Süleyman Rüstəmovun yazdığı kimi: "Üç ədəd şagird dəftərindən ibarət olan bu avtoqraf bir sıra hekayə, lətifə və nadirələri əhatə edir. Birinci dəftərdəki hekayələrin çoxu Nizaminin "Xəmsə"si, Füzulinin təmsilləri, Sədinin "Gülüstan", "Bustan" və "Kitabi-qeyyibat"ı, Mollayi-Ruminin "Məsnəvi"si, Qaaninin "Kitabi-pərişan"ı, habelə hind xalq hekayə və təmsilləri, Azərbaycan, ərəb və fars folklorundan tərcümə, təbdil və iqtibas

edilmiş əsərlərdir ki, şairin qələmi altında sadələşmiş, nəzmə çəkilmiş, o dövrün məktəblilərinin anlayacağı şəklə salınmışdır" (3).

"Rəbiül–ətfal" (1878) .....yuxarı sinif şagirdləri üçün nəzərdə tutulmuş və müəllif bu dərsliyinə nəsr və nəzmlə yazdığı hekayə, təmsil, öyüd və satirik əsərlərini daxil etmişdi. Nizami, Füzuli, Krılov və başqalarından da tərcümələr daxil etmişdi, lakin Seyid Əzim Şirvani bu dərslikləri nəşr etdirə bilmir. A.O.Çernıyayevski və S.Vəlibəyov həmin dərsliklərə daxil olan materialların bir qismini "Vətən dili" kitabına daxil etdilər" (1, 287).

S.Ə.Şirvani "Rəbiül-ətfal" kitabında yer alan alleqorik hekayələrini nəsrlə ("Nuşirəvan və iki bayquş", "Tülkü və çaqqal", "Balaca qarışa və təpə"), təmsillərini ("Xoruz və çaqqal", "Hekayət-şeytanla oğlanın söhbəti", "Qaz və durna", "Ayı və siçan", "Aslan və qarışqa", "Abid və quru kəllə", "Süleyman və qarğa", "Dəvə və balası", "İtlə pişiyin söhbəti", "Qarının pişiyi", Hekayət(maralın hekayəti), "Siçan və balası", "Aslan və iki öküz", "Dəvə və iki öküz", "Eşşək və arılar", "Siçan və pişik", "Zahidi-müstəcabüddəvə") isə nəzmlə qələmə almışdır. Şair bu təmsil və hekayələrində birlik, dostluq, peşəyə, sənətə dərindən yiyələnmək, əməyə məhəbbət, xeyirxahlıq və s. bu kimi ideyaları təblig edərək avamlıq, lovğalıq, bədxahlıq kimi mənfi keyfiyyətləri tənqid edirdi.

Seyid Əzim Şirvaninin çoxşaxəli yaradıcılığının orijinallığı ilə seçilən təmsil qolu A.A.Bakıxanovla başlayan təmsilçiliyin formalaşmasında böyük rol oynamış, özündən sonra gələn təmsilnəvislərin yaradıcılığına istiqamət vermişdir.

Ədəbiyyat siyahısı:

1. Gülxani. P. Əhmədli S. Azərbaycan ədəbiyyatı məsələləri. Bakı, "UniPrint", Bakı, 2014, 616 s.
2. Hüseynov S. Seyid Əzim Şirvaninin yaradıcılıq yolu. Bakı: Elm,1977, 218 s.
3. Osmanoğlu. M. Uşaqların baharı və ya klassik üslubun payızı, Bakı, Ədəbiyyat qəzeti. 07.08.2017
4. Saləddin Ə. Azərbaycan şeiri və folklor (XIX-XX əsrlər). Bakı: Elm, 1982, 164 s.
5. Şirazi S. Bustan. Bakı: Azərnəşr, 1964, 256 s.
6. Şirvani S. Ə. Öyüd, Bakı: Gənclik, 1989, 160 s.
7. Şirvani S.Ə.Seçilmiş əsərləri. III cild. Bakı: Avrasiya Press, 2005, 384 s.

T. Рустамова

Басня как одна из ветвей в творчестве Сеида Азима

Резюме

Сеид Азим, являющийся автором оригинальных произведений, поэт, который черпал вдохновение из азербайджанского и восточного фольклора, мировой письменной литературы, оставил после себя литературную школу. Данная статья посвящена басенному творчеству С.А.Ширвани, известного публициста, поэта-лирика и поэта-сатирика, просветителя в истории литературно-общественной мысли Азербайджана XIX века, одновременно являющегося выдающимся баснописцем. Так, в статье к исследованию привлечены басни Сеида Азима как ветвь художественного и педагогического творчества.

Автор, статья которого посвящена басенному творчеству поэта, дает обширную информацию о баснях поэта, которые созвучны с азербайджанскими народными сказками, с мотивами «Калилы и Димны». В статье также исследуются переводы басен М.Физули, У. Закани И.А.Крылова и И.И.Дмитриева, осуществленные С.А.Ширвани, приводятся примеры из басен «Мышь и кот», «Медведь и пчелы» Сеида Азима, написанные в размере сари ритма аруз.

Статья охватывает и педагогическую деятельность С.А.Ширвани, который имеет огромные заслуги в развитии просветительского реализма в литературе, открытии новых светских школ в Азербайджане в первой половине XIX века, а также учебник «Рабиль-атфал», дается информация об аллегорических рассказах, баснях мастера, которые были включены в вышеупомянутый учебник.

Ключевые слова: аллегория, фольклор, басня, XIX век, литература, С.А.Ширвани,учебник

T. Rustamova

A fable as one of the branches in the creation of Seyyid Azim

Summary

Seyyid Azim, the author of the original works who got inspiration from Azerbaijani and Eastern folklore, world written literature, left literary school after him. The given article touches upon fable creation of S.A.Shirvani, the famous writer of political essays, the lyrist and satirist, the enlightener in the history of literary-social thought of Azerbaijan of the XIX century, who was the outstanding fabulist at the same time. Thus, the fables by Seyyid Azim as a branch of artistic and pedagogical creation were brought to the study in the given article.

The author of the article which touches upon the fable creation of the poet gives detailed information about the fables by the poet which are in keeping with the Azerbaijani folktales, the motifs of “Kalila and Dimna”. The translations of the fables by M.Fuzuli, U.Zakani, I.A.Krilov and I.I.Dmitriev made by S.A.Shirvani are also researched in the article too, the author gives examples from the fables “The mouse and the cat”, “The bear and the bees” by Seyyid Azim written in the metre of sari of the rhythm of aruz.

The article touches upon pedagogical activity of S.A.Shirvani which had great services in the development of enlightenment realism in literature, opening of the new high-society schools in Azerbaijan in the first half of the XIX century, the text-book “Rabil-atfal”, information about the allegoric short stories, the fables of the master which were included into the above-mentioned text-book is given.

Key words: allegory, folklore, fable, XIX century, literatura, S.A.Shirvani, textbook

Redaksiyaya daxil olma tarixi: 20. 04.2019
Çapa qəbul olunma tarixi: 30.04.2019
Filologiya elmləri doktoru, professor Aida Qasımova tərəfindən çapa tövsiyə olunmuşdur.

FƏXRƏDDİN EYLAZOV
AMEA Naxçıvan Bölməsi
E-mail: eylazov.f@gmail.com

ƏLYAZMA KİTABLARIN BƏDİİ TƏRTİBATI

Orta əsrlərdə, Yaxın Şərqin digər ölkələrində olduğu kimi Azərbaycanda da mədəniyyətin inkişafı, dünyəvi ədəbiyyata və incəsənətə maraq əlyazma kitablarına bədii tərtibat verilməsi və illüstrə edilməsi ehtiyacını doğurmuşdu. Bu dövrdə Quran və başqa dini kitablarla yanaşı, məşhur alimlərin, şair və yazıçıların təbiət, tarix, habelə ədəbi bədii əsərləri də köçürülürdü.Bədii tərtibatına görə diqqəti cəlb edən əlyazmalarından olan 1333-cü il tarixli "Şahnamə"də "nəsx" xəttilə dörd sütunda yazılmış bölmələrin sərlövhəsi "rüqə" xəttilə işlənmişdir.

Müasir təsəvvürlərə görə, cild kitabın əsas atributlarından biri sayılır. Kitabların cildlənməsinə ilk dəfə qibti və həbəş xalqları başlamışlar. Müsəlmanlarda isə cildə alınmış ilk kitab Qur'an olmuşdur. Zəmanəmizə qədər gəlib çatmış ən qədim kitab cildi VIII əsrə aid edilir. Bu kitab üzü fil sümüyü və adi sümüklə qaxılmış sidr ağacından düzəldilmiş, onun səthinə sütunlar üzərində duran tağlar (arkalar) çəkilmiş, tağların daxili və yuxarı hissəsi dördbucaq və b. həndəsi fiqurlarla doldurulmuş və palmetta ilə bəzədilmişdir. Dövrümüzə qədər gəlib çatmış ən qədim əlyazmaların cildinə dəri çəkilmişdir.Məqalədə Azərbaycanda bədii əlyazma sənətinin və ilk əlyazma kitablarının yaranması və tərtibatə tarixindən bəhs olunur.

Açar sözlər: *mətnşünaslıq,əlyazma kitabı,orta əsirlər,bədii tərtibat,xətt növü,qədim kitab.*

Yazının meydana gəlməsi ilə mətnlərin hər hansı bir material üzərinə həkk edilməsi eyni vaxta düşmüşdür. Məhz nitqin yazılı formasına olan tələb əlifbanın aktuallaşmasını şərtləndirmişdir. Müəyyən material üzərində yazılmış yazı isə kitabın yaranma tarixinin başlanğıcını qoymuşdur. İlk yazının meydana gəldiyi ibtidai dövrdə insanlar öz primitiv mətnlərini daşınmaz materiallar üzərində (mağaralarda, qayalarda, iri daşlar üzərində) yazırdılar (piktoqrafik yazını çəkirdilər). Belə materialdan istifadə edilməsi yazının inkişaf etdiyi sonrakı dövrlərdə də təzahür etmişdir. Dövrümüzə gəlib çatmış külli miqdarda kitabələr, qəbirüstü abidələr və müxtəlif məmulatlar üzərində həkk olunmuş yazılar buna misal ola bilər. Ancaq bunların heç biri əslində sözün əsl mənasında əlyazma sayılmır və hər biri həkkaklıq nümunəsidir [1, s.6]. "Əlyazma" anlayışı hansısa bərk material üzərində oyma, yonma, cızma yolu ilə həyata keçirilən "həkkaklıq" işi anlayışı ilə eyniləşdirilə bilməz. Həm əlyazma, həm də həkkaklıq "yazı" anlayışı ilə birbaşa bağlıdır, lakin əlyazma əllə yazma, həkkaklıq isə əllə həkk etmə işinin məhsuludur.[2, s. 32] XVI-XVII əsrlərdə məzarüstü daşlarda ölən adamın fəlsəfi kəlamları, görkəmli şair və aşıqların sətirləri, dua, şifahi ədəbiyyatdan gəlmə şeirlər də yazılırdı. Metal məmulatların bəzəyi, rəsm və naxışları arasında olan ərəb əlifbası ilə yazılmış yazılar içərisində məmulatın hansı usta tərəfindən, kimin üçün, kimin sifarişi ilə, nə vaxt düzəldiyini bildirən sözlərə, bəzən Qur'andan götürülmüş kəlmələrə və yaxud klassik Şərq şairlərinin şeirlərinə də təsadüf olunur[9, s.65-67].

Əlyazma əllə, əldə tutulmuş xüsusi yazı ləvazimatı (qələm, lələk və s. ilə, başqa sözlə, subyekt-ləvazimatla) digər yazı ləvazimatına (materialından asılı olmayaraq, vərəqlər şəklində olan məmulata, yəni obyekt-ləvazimata) yazı yazmaqdır. Deməli, "əlyazma" anlayışı təkcə yazının yazıldığı materialla deyil, həmin materialın forması ilə də üzvi şəkildə bağlıdır [3, s.94].

Bəşəriyyət uzun dövrlər ərzində əlyazma üçün daim münasib material axtarışında olmuş, tapdığı və icad (istehsal) etdiyi hər bir yazı materialını getdikcə daha da püxtələşdirmiş, daha çətin əldə edilən və baha başa gələn bir yazı materialını daha ucuz başa gələn yeni yazı materialı ilə əvəzləmişdir.Nəhayət, üzərində yazıya alınmış informasiyanın (mətnin) biryerdə cəmləşdirilməsinə, mətnin yazı (oxunuş) ardıcıllığının təmin olunmasına (kitab tərtibinə) imkan verən material forması tapılmışdır. Bu forma - vərəqdir [6, s.121].

Bütün əlyazma kitabları "əlyazma" anlayışına daxildir, ancaq heç də bütün əlyazmalar kitab sayıla bilməz. Ancaq bu fikir də həmişə mübahisə doğurur. Məsələn, A.A.Qreçixin funksional baxımdan əlyazma kitablarını üç növə bölür:

1) *Praqmatik təxsisatlı kitablar* – işgüzar sənədləşdirmələr.

2) *İdraki təxsisatlı kitablar* – bədii və elmi ədəbiyyat.

3) *Sosial-idarə təxsisatlı kitablar* – dini kitablar, kitabxanalardakı kitabların siyahısı və müxtəlif məcmuələr [11, s.35-36].

Orta əsrlərdə, Yaxın Şərqin digər ölkələrində olduğu kimi Azərbaycanda da mədəniyyətin inkişafı, dünyəvi ədəbiyyata və incəsənətə maraq əlyazma kitablarına bədii tərtibat verilməsi və illüstrə edilməsi ehtiyacını doğurmuşdu. Bu dövrdə Quran və başqa dini kitablarla yanaşı, məşhur alimlərin, şair və yazıçıların təbiət, tarix, habelə ədəbi bədii əsərləri də köçürülürdü. Orta əsrlərdə üzü köçürülən Quran "nəsx", yaxud "reyhan", nadir hallarda "riqə" xətləri ilə yazılıb, yalnız naxışlarla bəzədilirdisə, dünyəvi məzmunlu əsərlər "nəsx" xətti ilə köçürülür, çoxzaman süjetli miniatürlərlə illüstrə olunur, ornamentlərlə bəzədilirdi [7, s.133].

Yazıların üslubu, miniatürlərin xarakteri və əlyazma kitablarının ümumi tərtibatı Azərbaycanda bu sənətin daim inkişafda olduğunu göstərir. Yüksək vəzifəli şəxslər üçün tərtib edilmiş təmtəraqlı əlyazma nümunələri ilə yanaşı, adi həvəskar oxucular, yaxud elm və ədəbiyyat xadimləri üçün nəzərdə tutulmuş sadə nüsxələr dəyaradılırdı. Lakin əlyazma kitablarının bədii tərtibinə ən çox tələbat feodal cəmiyyətinin yuxarı təbəqəsi - padşahlar, şahzadələr, əyanlar arasında olmuşdur. Mahir rəssam, xəttat və cildsazlar tərəfindən uzun müddətə başa çatdırılan bu qiymətli manuskriptlərin əsas sifarişçisi və sahibi də elə onlar idi [4, s.102]. Kollektiv yaradıcılığın məhsulu olan əlyazma kitablarının meydana gəlməsində əsas vəzifə əsərin həm də redaktorluq işini yerinə yetirən xəttatların üzərinə düşürdü. Xəttat nəinki təkcə mətnin səhifədə yerləşdirilməsini, habelə rəssamın çəkəcəyi illüstrativ şəklin süjetini də müəyyənləşdirirdi. Xəttat ədəbi əsəri köçürərkən miniatür üçün ağ yerlər buraxır, illüstrə olunacaq hekayənin bu və ya digər parçasını buraya köçürürdü [5, s.63].

Miniatürçü rəssam isə öz növbəsində illüstrasiyada çərçivəyə alınmış düzbucaqlar şəklində bir neçə boş sahə buraxırdı ki, xəttat mətni yazarkən süjetlə əlaqədar buraxdığı parçaları bu boş yerlərə köçürsün. Belə üsul miniatürlərdə əks etdirilən ədəbi süjet təsvirinin anlaşıqlığını artırır, onu tamamlayırdı. Miniatür üçün ayrılan sahənin seçilməsində yəqin ki, bu və ya digər süjet üçün müvafiq kompozisiya müəyyənləşdirən miniatürçü rəssam da iştirak edirdi. Lakin buna baxmayaraq, xəttat bir qayda olaraq, illüstrəçi rəssamı məhdud çərçivədə saxlayır, onu həmin sahə daxilində yaradıcılıq işi aparmağa məcbur edirdi. Məhdud çərçivəyə salınmış rəssam müvafiq süjeti canlandırmaq üçün xəttatın buraxdığı ağ sahə daxilində elə düşünülmüş kompozisiya qurmalı idi ki, verilmiş sahəyə yerləşdirmək şərtilə, ədəbi mətndə nəql olunan epizodu rəsm dilində təsvir edə bilsin. Belə bir məcburi prinsip əlbəttə, rəssamdan böyük məharət tələb edirdi. Orta əsr rəssamları öz istedadları sahəsində çox vaxt buna nail olur, vəziyyətdən ustalıqla çıxırdılar. Onlar bəzən bu işdə hətta son imkana əl atıb, səhifənin geniş kənarlarından da istifadə edirdilər. Çox zaman rəssam illüstrə edəcəyi ədəbi mətndən yayınaraq öz kompozisiyasına əlavə surətlər, yaxud da bütöv səhnələr gətirirdi. Bununla o, illüstrə etdiyi süjeti daha da genişləndirir, zənginləşdirir, müvafiq həyat hadisələri ilə bağlayırdı.

Əlyazmanın tərtibat işlərində nəqqaş da iştirak edir. O, səhifələrdəki mətni çərçivəyə alır, başlıqları, sərlövhə və sonluqları bəzəyir, bəzən də əlyazma səhifələrinin geniş kənarlarında rəsmlər çəkirdi. [5, s.51]. Dövrümüzədək mühafizə olunmuş əlyazma kitablarının ilkin nüsxələri, XIII əsrin ortaları və XIV əsrin əvvəllərinə aiddir. Bu zaman monqol hakimlərinin paytaxtında əlyazma kitablarını köçürmək və tərtib etmək üçün emalatxanalar yaradılmışdı. Elmi-bədii mərkəz olan həmin emalatxanalarda yerli alimlərlə yanaşı, memarlar və rəssamlar, həmçinin monqol hakimlərinin başqa ölkələrdən buraya cəlb etdikləri digər sənətkarlar da işləyib yaradırdılar. Elxanilərin Xoyda, Marağa, Təbriz və Soltaniyyədəki saray emalatxanalarında, ağır vəziyyətdə işləyən incəsənət ustaları və sənətkarlarla yanaşı xəttat və rəssamlar da gözəl tərtib olunmuş dini, elmi və bədii əlyazma kitabları yaradırdılar. XIV əsrin əvvəllərində illüstrasiyalı əlyazmaların yaradılması ilə əsasən Təbrizin yaxınlığında, Rəşidiyyə adlanan universitet şəhərciyində məşğul

olurdular. Çox da böyük olmayan bu elmi şəhərcikdə Qazan xanın tarixçisi və vəziri Fəzlullah Rəşidəddin tərəfindən təsis olunmuş universitet və kitabxanada müxtəlif məzmunlu 60 min kitab var idi. Rəşidəddinin kitabxanası nəzdində işləyən bədii emalatxanada müxtəlif ölkə və şəhərlərdən dəvət olunmuş xəttat və rəssamlar da işləyirdilər. Onlar tarixçilərin yazdığı və Rəşidəddinin redaktoru və müəlliflərindən biri olduğu salnamə toplusu "Cami-ət təvarix"in üzünü köçürür, ona illüstrasiyalar çəkirdilər. Rəşidəddinin göstərişi ilə "Cami-ət təvarix"in çoxlu əlyazma nüsxəsi hazırlanır və o zamankı İrana və digər müsəlman ölkələrinə göndərilirdi. Sultan Əbusəidin vaxtında, 1318-ci ildə Rəşidəddin edam edildikdən sonra onun yaratdığı Rubi Rəşidi (Rəşidiyyə) şəhərciyi dağıdılmış, kitabxana isə qarət edilmişdir [10, s.86].

Saray ustaları tərəfindən Xoyda, Marağa və Təbrizdə köçürülən əlyazmalarının ilk nümunələrindən olan "Vərqa və Gülşa" (XIII əsrin əvvəli), İbn Bəhtuşinin "Mənafi əl-heyvan" (1297-1299) və Rəşidəddinin "Cami-ət təvarix" (1307- 1314) əsərlərinin tərtibatında və yazıtərzində XII-XIII əsrlərdə ərəb ölkələrində, xüsusən Bağdadda hazırlanmış əlyazmaları ilə müəyyənyaxınlıq və ümumilik vardır [13, s.112].

Azərbaycanda bədii əlyazma sənətinin bu erkən inkişaf dövründə xəttat və digər incəsənət ustalarının yaradıcılıq fəaliyyəti çox geniş idi. Onların çoxu şair, xəttat və rəssam olmuş, çoxlu tələbələr yetişdirmiş, əlyazma kitabları və memarlıq abidələrində yazdıqları dekorativ kitabələr kimi misilsiz sənət nümunələri qoyub getmişlər. Belə məşhur ustalardan biri, Təbrizdə doğulmuş Mübarək şah Zərrinqələm idi. Bu məşhur xəttat o zaman işlədilən altı klassik xətt növünün mahir ustası olmuşdur. 1358-1374-cü illərdə hökmdarlıq etmiş Sultan Üveys Cəlayir tərəfindən Nəcəfdə tikdirilmiş binanın kitabələrini Zərrinqələm yazmışdır. Bu bədii xətt ustasının çox istedadlı və məhsuldar şagirdi olan Abdullah Seyrəfi Təbrizi (1350-ci ildə vəfat etmişdir) bir çox Təbriz binalarının daxili və xaricini bəzəyən dekorativ yazıların müəllifidir [14, s.74]. XIV əsrin əvvəllərində yaşayıb-yaratmış ustad xəttatlardan biri də Abdullah ibn Əhməd ibn Fəzlullah Marağidir. 1338-ci il tarixli nadir Quran nüsxəsi onun yaradıcılığının məhsuludur.

O zaman yüksək bədii keyfiyyətdə hazırlanan əlyazmaların, xüsusən dini əsərlərin bəzəyi dekorativ sənətlər sahəsində əl qabiliyyəti olan xəttatların özləri tərəfindən yerinə yetirilirdi. Əlyazma kitabların bədii tərtibatında bədii cild ustalarının da mühüm rolu olmuşdur [12, s.48]. XIV əsrin birinci rübünə aid dini kitablardan 1322-ci ildə Şirvanda yazılmış "Musabexx us-sanna" adlı əsəri xüsusilə qeyd etmək lazımdır. 300 səhifədən ibarət olan həmin nüsxə xəttat Məhəmməd ben Şüca ben Məhəmməd əl- Katib əş-Şirvani tərəfindən "nəsx" xətti ilə köçürülmüş, çox güman ki, tərtibatı da onun özünə aiddir. Əlyazmanın başlanğıcında zəngin ornament bəzəkli qoşa səhifədən ibarət frontispis vardır ki, onun aşağı və yuxarı kartuşlarında müəllifin və əsərin adı yerləşdirilmişdir. Ayrı-ayrı fəsillərin iri xətlə yazılmış sərlövhəsi qara, qırmızı və yaşıl rəngli tuşla ifa edilmişdir. Kolofon ayrıca vərəqədə qırmızı və qara "rüqə" xətti ilə yazılmışdır. Zərifliyi və tərtibat bitkinliyinə görə bu əlyazması XIV əsr Azərbaycan kitab tərtibatı sənətinin nadir nümunələrindən hesab edilir [8, s.26]. Bu dövrə aid elmi-tarixi və ədəbi-bədii əsərlərin miniatürlərlə bəzənmiş əlyazma nüsxələrindən Əlaəddin Cöveyinin "Monqolların tarixi" (1290-cı il), İbn Bəhtaşinin "Mənafi əl-heyvan" (1297-1299), Rəşidəddinin "Cami-ət təvarix" (1307-1314-cü illər və 1318-ci il), Firdovsi "Şahnamə"sinin 1340-1350-ci il tarixli nüsxəsi ("Demot şahnaməsi") kimi nadir əsərlərini xüsusilə qeyd etmək lazımdır. [12, s.68].

Bədii tərtibatına görə diqqəti cəlb edən əlyazmalarından olan 1333-cü il tarixli "Şahnamə"də "nəsx" xəttilə dörd sütunda yazılmış bölmələrin sərlövhəsi "rüqə" xəttilə işlənmişdir. Qeyd etmək lazımdır ki, tərtib olunan əsərlərin formasını, yaxud iri bölmələr arasındakı səhifələrini bəzəyən miniatürlü frontispisli əlyazmalara hələ ilk dövrlərdə təsadüf olunur. Məsələn, yuxarıda adı çəkilən 1333-cü il "Şahnamə"sində, poemanın əvvəlində (müqəddimədən sonra) iki vərəqdən ibarət frontispis verilir. Buradakı miniatürlər kompozisiya və mövzusu etibarilə müstəqil xarakter daşıyır, poemanın məzmunu ilə əlaqədar olmayır. Onlardan biri ov səhnəsini, digəri isə padşahın saray məclisini təsvir edir. Bu əlyazması üçün səciyyəvi olan cəhətlərdən biri də budur ki, onun axırında əsərin məzmunu ilə əlaqəsi olmayan daha bir miniatür vardır ki, bu da əlyazmasının dekorativ-bəzək elementlərini yekunlaşdırır. Əlyazmanın sonunda,onun kolofonunun altında yerləşdirilən bu

miniatür Firdovsinin öz poemasını Sultan Mahmud Qəznəviyə təqdim etməsi səhnəsini təsvir edir [13, s.32].

XIV əsrin birinci yarısında Azərbaycanda cildsazlıq sənətinin ən yaxşı nümunəsinə misal olaraq İstanbulun Evqaf muzeyində saxlanan (2485 № -li) 1334-cü il tarixli əlyazmasının cildini göstərmək olar. Bu orijinal cild, usta Məhəmməd Əli tərəfindən Təbrizdə hazırlanmışdır. Qırmızımtıl-qəhvəyi rəngli dəridən düzəldilmiş cildin sol qapağının iç tərəfində ustanın adı qızılla yazılmışdır. [9, s.91]. XV əsrdə Azərbaycanın iqtisadi, ictimai və siyasi həyatında baş verən yüksəliş xalqın mədəniyyəti, ədəbiyyatı və incəsənətinə müsbət təsir göstərir, dövrün qabaqcıl ideyalarını əks etdirən elmi və bədii əsərlərin yaranmasma səbəb olurdu.

Ədəbiyyat

1.Axundzadə A. Xətti-təliq və nəstəliq. Tiflis, 11 vərəq (nəşr ili göstərilməmişdir).
2.Cabbarlı S.H. XVIII-XIX əsrlər Azərbaycan əlyazma topluları (məcmuə, cüng və bəyaz).Bakı: Ozan, 2000, 192 s.
3.Cəfərov N. Eposdan kitaba. Bakı: Maarif, 1999,187s.
4.Cəmşidov Ş. Azərbaycan yazılı dastan abidələrinin tədqiqi. Bakı: Nurlan, 2002,143s.
5.Darabadi Q.A. Kalliqrafiya. Bakı: ADU nəşri, 1953, 83s.
6.Əliyev A.M. XVII əsr Azərbaycan əlyazma kitabı (paleoqrafiya və mətnşünaslıq məsələləri). Namizədlik diss. Bakı: Elm, 1997.
7.Əliyev R.Y. İslam və Azərbaycan mədəniyyəti. Bakı: İrşad, 1998,145s.
8.Əzizov M. Xətt sənəti və bədii söz. İncəsənət, 1994, 10 may.
9. Fərfur Ə. Dəməşq əlyazmalarının paleoqrafik və tekstoloji tədqiqi ("Darül-kütüb əz-Zahiriyyə" kitabxanasının əlyazmaları əsasında). NDA. Bakı: Elm, 1994.
10.İlk Azərbaycan kitabı (Tərtib edən: Aydın Xəlilov). Bakı: Şərq-Qərb, 1995.
11.Qəhrəmanov C.V. Azərbaycan əlyazma kitabı Avropa kitabxanalarında. Azərbaycan filologiyası məsələləri. 3-cü buraxılış. Bakı: Elm, 1991.
12.Qəhrəmanov C.V. Azərbaycan əlyazma kitabı tarixindən. Əlyazmalar xəzinəsində. Azərb.EA Əlyazmalar İnstitutunun Əsərləri. VIII cild. Bakı: Elm, 1987.
13.Orta əsr Azərbaycan kitab mədəniyyəti (Tərtib edən: C.V.Qəhrəmanov). Bakı: İşıq, 1991.
14.Sultanov M. Azərbaycan əlyazmaşünaslığı məsələləri. Bakı: Elm, 1999.

Ф. Эйлазов

Художественное оформление рукописных книг

Резюме

В средние века, как и в других странах Ближнего Востока, с развитием культуры и интереса к мировой литературе и искусству, в Азербайджане требовалась потребность в художественном оформлении и иллюстрации рукописных книг.

В этот период, наряду с Кораном и другими религиозными книгами, были переданы также природные, исторические и литературные произведения известных ученых, поэтов и писателей.

Согласно современным представлениям, одним из главных атрибутов книги считался переплет. Впервые народы гибти и хебеша начали переплетать книги. Первой переплетенной книгой мусульман был Коран. Переплет самой древней книги, дошедшей до наших дней, относится к VIII веку.

Эта книга сделана из кедрового дерева, обтянутой слоновой и обычной костью, на ее поверхности были изображены расположеные на колоннах арки, внутренняя и верхняя части

арок наполнены четырехугольными и другими геометрическими фигурами, а также украшены пальметтой. Обложки самых древних рукописей, дошедших до наших дней, были обтянуты кожей. В статье рассматривается история образования художественного рукописного искусства и оформления первых рукописных книг в Азербайджане.

Ключевые слова: текстоведение, рукопись, средние века, художественное оформление, тип шрифта, древняя книга

F.Eylazov

The decoratiom of manuscripts

Summary

In the Middle Ages, as well as in other Middle Eastern countries, in Azerbaijan also there was a need for the development of culture, interest in secular literature and art, decorating and illustrating the manuscripts.

During this period, alongside with the Guran and other religious books, nature, history, and literary works by famous scholars, poets and writers were also copied out.According to modern ideas, the cover is one of the main attributes of the book. For the first time, the people of Gibti and Habash began to bind books.

The first book in Muslim world the Guran was the first bound book. The oldest book cover, coming to our time, dates back to the VIII century. This book was made of cedar tree polished with ivory and ordinary bone, in its surface arches were drowning on the columns, the inside and upper parts of the arches were filled with quadrilateral and other geometric shapes and decorated with palmettos.

The most ancient manuscripts that came to our time are covered with skin.

The article deals with the history of creation of artistic manuscript art and first manuscripts and their decoration in Azerbaijan.

Key words: textual criticizm,manuscript, Middle Ages, decoration, hand writing type,ancient book.

Redaksiyaya daxil olma tarixi: 20. 04.2019
Çapa qəbul olunma tarixi: 30.04.2019
Filologiya elimləri doktoru Fərman Xəlilov tərəfindən çapa tövsiyə olunmuşdur.

Bu iş Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun maliyyə yardımı ilə yerinə yetirilmişdir.
Qrant№ EİF-KETPL-2-2015-1(25)-56/47/5

FİRƏNGİZ RÜSTƏMOVA
Ezoterik-həkim
firengiz.rustamova@mail.ru

XALQ TƏBABƏTİNİN İZİ İLƏ: AĞCAQAYIN, DAZIOTU, ƏNGİNAR, ƏRKÜDE

Xülasə

Xalq təbabəti şifahi xalq ənənəsinin mühüm tərkib hissəsini təşkil edir. Xalq təbabəti xalqın məişətinin, adət-ənənələrinin, onun gündəlik həyatının ayrılmaz tərkib hissəsidir. Xalq təbabətinin praktiki əhəmiyyətinin araşdırılması, bütövlükdə müxtəlif ayinlərlə icra edilən bu son dərəcə mürəkkəb sistemin öyrənilməsi kimi də lazımlıdır. Türkəçarələrin yaranmasına rəvac verən bir çox üsullarla yanaşı bitkilərin, meyvə və tərəvəzlərin şəfalı nəsnə kimi istifadəsini mütləq nəzərə almaq lazımdır. Məqalədə xalq təbabətində dərman kimi, şəfalı vasitə kimi istifadə olunan ot və bitkilərdən söhbət açılır. Əlbəttə, onların şəfaverici funksiyalarının olması min illərin təcrübəsinin nəticəsidir. Yəni min illər boyu insanlar bu bitkilərdən öz müalicə praktikalarında istifadə etmişlər. Bu təcrübə bir bilik formasında ümumiləşərək şifahi şəkildə, yaddaşlarda qorunaraq əsrlərdən keçib gələrək müasir dövrümüzdə yaşamaq hüququ qazanmışlar.

Müəllif əsasən xalq yaddaşında yaşayan ağcaqayın, dağıotu, ənginar və ərküde bitkilərini tədqiqatına obyekt olaraq seçmişdir. Məqalə çox maraqlı bir quruluşa malikdir. Burada ağcaqayın, dazıotu, ənginar və ərküdenin xalq təbabətindəki yeri araşdırılmazdan əvvəl, bu sözlərin etimologiyasına nəzər salınır. Bu anlayışların mifoloji təsəvvürlərdəki yeri öyrənilir. Məqalə çox böyük praktik əhəmiyyətə malikdir. Müəllifin bu tədqiqat zamanı gəldiyi nəticələr elmidir və yeniliyi ilə fərqlənir. Burada həm də tədqiqatın predmetinə yanaşma üsulları da yeni və fərqlidir.

Açar sözlər: xalq təbabəti,etimologiya, ağcaqayın, dazıotu, ərküde

İnsana hava, balığa su lazım olduğu kimi, ağaca da işıq lazımdır. Öz kökləri ilə yerin dərin qatlarına keçən ağac; öz budaqları ilə göylərə yüksələrək bizi səmaya, ulduzlara bağlayır.
Antuan de Sent-Ekzüperi

Ağcaqayın/Akcaağac/Acer/Klen/Yavor/Yavru Ağac! Ümumiyyətlə, ağac harmoniyanın, doğumun, intibahın, ölümsüzlüyün rəmzidir. Ağcaqayın; inanılmaz gözəlliyə malik olan, müqəddəs hesab edilən bir ağacdır. Rus dilində Klen, Latın dilində Acer adlanan 150-dən çox növü olan, Kanadanın bayrağını bəzəyən bu ağacın yarpaqları Çinar ağacının yarpaqlarına bənzəyir, insan əli kimi beş barmaqlı quruluşa malik olaraq, insanın beş hissiyatını simvolizə edir və payızda sarı, narıncı, qırmızı rənglərə boyanır. Əfsanəyə görə Ağcaqayın əslində gözəl, çox gənc bir oğlan uşağı olub. Lənətləndikdən sonra gözəl bir ağaca çevrilib. Ona görə də bu ağacı kəsmək, kəsib yandırmaq, ondan tabut hazırlamaq, torpağın altına dəfn etmək olmaz. Belə hərəktlər insanı öldürüb, yandırmağa, məhv etməyə bərabər tutulur. Qam şaman davulu oğlaq dərisi ilə pərdələnir. Ağcaağacdan hazırlanmış toxmağı var. Dairəsi və ya çərçivəsi isə Qayın ağacından düzəldilir.

Akcaağac/Ağcaqayın türk xalqlarının inancında; kökləri çox dərnlikdə olub, zirvəsi isə Ağ ulduza çatan bir dünya ağacı simvolu kimi təsvr olunub. Həm də Ağ ulduzdan gəldiklərinə inanan babalarımız bu ağacı özlərinin soy ağacı, həyat ağacı hesab ediblər. Altay türklərində Qayın ağacının altında yatan "Gənc oğlan" əfsanəsi var. "Bay Kayın" adlanan ağac; Altay türklərində doğum, düyün, bayram tədbirlərində, şaman ayinlərində mühüm yer tutur. Onların inancına görə bu ağac Umay Ana ilə birlikdə göydən, Ağ ulduzdan gəlmişdi və Tanrı ilə insan arasında bir əlaqə vasitəsi idi. Şor türkləri Qayın ağacının altında dağ və su ruhları üçün ayinlər icra edərlərmiş. Bir çox türk xalqlarının söyləncələrində, boy nişanlarında Akcaağaca/ Ağcaqayına rast gəlirik.

"Defter-i Cengiz-Nāme'de Boy Nişanları ve Damgalar 567 Turkish Studies International Periodical For the Languages, Literature and History of Turkish or Turkic Volume 6/1 Winter 2011

Çagan: “öreñgi, akça ağaç” (TTAS/III: 398). Cengiznameden-Cengiz’in belge olarak verdiği damga Ordaç Bey: Kayın, şahin, kuş kaburgası”.

“Kara Kula, koruyucu ruhu öldürülünce hasta oluyor ve karısı ve Erlik’in kızı olan Kara – Taacı, kara şamandan onu iyileştirmek için yardım istemeyi düşünüyor: “Kara-Taacı yedi kat yeraltında Akçaağaç kabuğundan davuluyla Tordoor şamanı getirtip şaman töreni yaptırtsak bir faydası olur mu? dedi” (4680’den itibaren). Devamında, getirilen şamanın, sonuçsuz kalan ayini, ayrıntılı tanımlanmaktadır (1).

Serblərin inancına görə Ağcaqayını qış fəslində belə ən günahsız biri səmimi qəlbdən qucaqlayarsa; həmin an ağac yaşıllaşar. Və ya çox cinayət işləmiş, çox günahkar biri ağaca toxunarsa o an yaşıl olan ağac quruyar. Belarusiyada Troitsadan əvvəlki şənbə günü ”Klenovoy” adlanır. İngiltərədə də qədimdən bu günə qədər Ağcaqayın müqəddəs və uzunömürlülüyün simvolu sayılıb. XIX əsrdə Vest-Qrinsted parkında bir Ağcaqayın ağacını kəsilməsinə qəar verilib. Həmin ərazidə yaşayan qadınlar yığışaraq həmin ağacın kəsilməsinə etiraz ediblər və əgər ağac kəsilərsə həmin qəsəbədə doğulan uşaqların ömürlərinin çox qısa olacağını bildiriblər.

Maraqlısı isə odur ki, lənətləndikdən sonra Ağcaqayın ağacına çevrilmiş bu ağacı istər qərbi, istər şərqi slavyanlar “Yavor, yavoroçek, sınoçik” adlandırır və dəfn mərasimində dünyasını dəyişmiş gəncə elə “Yavor, yavoroçek, sınoçik”deyə də müraciət edib oxşayırlar.

Yuxarıda demişdik ki, Ağcaqayın lənətlənərək ağaca çevrilmiş gənc oğlandır. Bu ağacın adının hansı dildə olmasına baxmayaraq türkcə daha dəqiq anlaşılır və eyni məna kəsb edir. Məsələn: Klen sözündə “Ak-Ağ oğlan”, Yavor sözündə “yavru”, Acer sözündə isə “Ak Er” sözü gizlidir ki, hər biri elə Ağca Qayın deməkdir. Qayın dedikdə də söhbətin oğlandan, kişidən getməsi bəlli olur.

Dazıotu. Dazıotu bitkisi; latın d. olan *hypericin* sözündən götürülüb və *Hypericum*, rus d. isə зверобой adlanır. Bitkinin tərkibində antrasenin təsirindən yaranan qırmızı piqment və hiperforin var. Bu birləşmə qədim dövrdən bu günə kimi depressiyaların müalicəsində müvəffəqiyyətlə istifadə edilir, psixovegetativ pozuntularda, depressiv vəziyyətlərdə, qorxu və həyəcan hissləri zamanı qəbul edilir.

Dazıotu preparatlarının sinir sisteminə təsiri antik dövrlərdən məlumdur və bu bitki haqqında Qədim Misir papiruslarında yazılıb, Hippokrat, İbnsina, Parasels kimi alimlər, filosof və loğmanlar yazmışlar.

Depressiya, həyəcan hissi, yuxusuzluğu aradan qaldırmaq üçün bu bitkidən alınan dərmanlar; ilk dəfə 1998-ci ildə Almaniyada, 1999-cu ildə isə Avstriyada lisenziyalaşdırıldı və tez bir zamanda öz müsbət təsirinə görə populyarlaşdı. ru.wikipedia.org

Məsələn ənənəvi antidepressantlar alan pasiyentlər üçün dazıotu/ Hypericum perforatum preparatları, bitki mənşəli, alternativ müalicə kimi verilə bilər.

Dazıotunun antik dövrlərdən insanlara məlum olması, onun depressiyaları, qorxu və həyəcan hissini aradan qaldırması xüsusiyyətlərinə görə bu bitki haqqında bir çox əfsnələr yaranıb, onun mistik qüvvəyə malik olmasına inanılıb. Beləki bu bitkinin günəşin yay yüksək duruşu vaxtı, 21-22 iyunda çiçəkləməsinə görə kilsə onu İoan Krestitel (24 iyun İoan Krestitelin ad günü) ilə əlaqələndirib. Müxtəlif dövrlərdə müqəddəs İoan, müqəddəs Con kimi adlarla tanınıb.

Dazıotunun tərkibindəki qırmızı piqmentə görə onu; İisus Xristosun, İoanın qanı, qanlı ot, qırmızı ot da adlandırıblar. Sevgi fallarında istifadə edilib- gənc oğlan və qızlar onun gövdəsini əllərində burub əzərdilər, əgər qırmızı rəng şirə çıxsa demək düşündüyü insan onu sevir, rəngsiz şirə çıxardısa sevməməsinə işarə olduğuna inanılardı (2).

Türk d. Sarı kantaron (Hypericum perforatum), Kılıç otu, Mayasıl otu və Qoyunqıran/Koyunkıran olaraq da bilinir, sarı kantarongillər (Hypericaceae) familyasına daxil bir bitki türü (3).

Azərbaycan d. Dazıotu, tükcə qoyunqıran, rus d. isə зверобой adlanan bu bitki adlanmasına görə bir az yuxarıda göstərilən əfsanələri doğrultmur. Əksinə bu adlarda bir “daz”laşma, “heyvanların ölümü” anlayışı ortaya çıxır. Bəs nə üçün müqəddəslərlə, qara qüvvələri qovmaqla və müalicəvi təsirə malik olması ilə məhşur olan bu mistik bitki Dazıotu adlandırılsın.

Bir sıra alimlərin müşahidələrinə görə açıq çöldə, həm də dazıotunun üstünlük təşkil etdiyi sahələrdə otlayan, açıq rəngli tükü, dərisi olan heyvanların (qoyun və quzuların) qulaqlarında, dodaqlarında, göz qapaqlarında dərisi qızarır, dərialtı toxuma ödemləşir. Proses yayılaraq gözün, burun boşluğunun selikli qişasını zədələyir. Heyvanın görməsində, qidalanma və suvarılmasında xoşagəlməyən problemlər yaranır. Çox zaman heyvanların belinin dərisi zədələnir və qaşıntı ilə müşayiət olunur. Onların vəziyyəti pisləşir, mədə-bağırsaq traktı, ürək fəaliyyəti və tənəffüsü pozulur, selikli qişalarda sarılıq olur, ağır hallarda isə heyvanlar ağ ciyərin ödemindən, ürək çatışmamazlığında ölür.

Bu cür problemlərin yaranmasını dazıotu yeyən heyvanların orqanizminə ultrabənövşəyi şüaların (ən çox da uzundalğalı) təsiri və dazıotunun tərkibindəki bioloji aktiv maddələr olur. Dazıotu bitkisi dəri örtüyünün ultrabənövşəyi şüalara həssaslığını artırır. Ən çox da ağ örtüyə malik olan və albinos heyvanlarda bu promlem daha qabarıq nəzərə çarpır. (Buradan belə nəticəyə gəlmək olar ki, dazıotu preperatları və dəmləməli qəbul edən adamlar da fotosensibilizasiyadan qorunmaq üçün, günəş altında çox gəzməməlidir və ya günəşdın qorunmaq üçün kremlərdən istifadə etməlidir.) (4, 142)

Daz sözü bildiyimiz kimi əsasən saç, bəzən isə ot bitməyən yerlərə deyilir.Mahmud Kaşğarinin də lüğətində "daz" sözünün oğuzlara aid olduğu yazılır. Aluk=keçəl, daz (oğuzca).(5)

Alimlərin və heyvandarların müşayiətinə görə dazıotu yeyən heyvanların qulaqlarında, burun və dodaqlarında, göz qapaqlarında, bel nahiyəsində yaranan yaraların; sonradan nahiyəvi olaraq tükü tökülür və nekrozlaşmış sahələr əmələ gəlir! **Daz**laşır!

Demək əcdadlarımız dazıotu bitkisinin bu xüsusiyyətlərini çox dəqiqliklə biliblər və ona görə də Oğuz babalarımız bu bitkini məhz **Dazıotu və ya Qoyunqıran** adlandırıblar.

Ənginar/Cynara. Ənginar bitkisi 5000 ildən artıq bir vaxtdır ki, insanlara məlumdur. Onun haqqında min illərdir əfsanələr söylənilir, şəfaverici xüsusiyyətləri haqqında tarixçilər və təbiətşünaslar tərəfindən məlumatlar yazılıb, rəsmləri çəkilib. Bu gün də alimlər tərəfindən ənginardan müalicəvi dərmanlar alınıb və müvəffəqiyyətlə istifadə edilir. Ənginarın qurudulmuş yarpaqları, çiçəkləri, kökü, toxumları və şirəsi- qaraciyər hüceyrələrini bərpa edir, onları toksinlərdən qoruyur, zərərli maddələrdən təmizləyir, maddələr mübadiləsini tənzimləyir, tərkibində olan sinarin aterosklerozun inkişafının qarşısını alır. Sinarinin eyni zamanda ödqovucu və sidikqovucu təsiri var, ən güclü təbii antioksidantdır. C vitamini ilə birlikdə sərbəst radikalların fəaliyyətini neytrallaşdırır, vaxtından əvvəl yaşlanmanın, ürək-damar xəstəliklərinin və xərçəng hüceyrələrinin yaranmasının qarşısını alır, qan təzyiqi, diabet xəstəliyinin kompleks müalicəsində, cinsi fəallığının artırılmasında dərman bitkisi kimi istifadə edilir.

Ənginarın ilk elmi təsviri Teofrasta aiddir (e.ə. 371–287) (6).

Ənginarın tarixi, adının mənşəyi və miflər haqqında bəzi məlumatlar:

"F.A. Brokqauz və İ.A. Efrona görə: artişok (yəni Ənginar) Ərəb sözü olan "ardi-schauki" sözündən alınıb.Yunan dilində Cynara adlanan bu bitkinin elə həmin dildə mənasının "κύον", yəni "köpək" demək olduğu yazılır. Çünki onun ləçəkləri köpək dişinə bənzədiyi və tikanlı olduğuna görə həm də əli cızdığı üçün Yunan d. "κνάω", yəni "cızmaq", "scolymus" və ya "σκώλος" kimi tələffüz edilən "tikan" sözünə bənzəyir (7).

Ənginar; latın d. Cȳnara) — Asteraceae bitki ailəsinə mənsubdur. Rus d. olan mənbələrə görə; «артишок» sözü İngilis d. olan artichoke, İtalyan d. olan articicco, carciofo sözündən götürülüb ki, o da öz kökünü Ərəb sözü olan al-khurshūf (الخرشـــوف) sözündən almışdır (8).

Qədim Yunanıstanda çox populyar olan bu bitkiyə əfsanə və miflər qoşulub. O əfsanələrdən biri Zeusla və ona itaət etməyən sevgilisi ilə bağlıdır. Romada varlıların qidası sayılan ənginar; adətən günəşli yerlərdə bitər.

Egey əfsanələrinə və şair Kvintu Qorasiya Flakkaya görə Ənginar; Zinara adasında yaşayan Kinara adlı gənc bir qız olub. Əfsanədə söylənilir ki, Zeus qaedaşı Poseydonun qonağı olarkən sahildə gəzişən gözəl və gənc qız Kinaranı görür. Zeus çox uzun müddət bu gözəl və ölümlü qızı ona yaxınlaşmadan seyr edir. Amma Kinara Zeusdan çəkinib qorxmadan onu yoldan çıxarır. Baş Tanrı qızın gözəlliyinə o qədər məftun olur ki, ona özü ilə birgə Olimpdə yaşamağı təklif edir. Kinara bu təkliflə razılaşır. Bir gün qız öz anası və evləri üçün darıxır və icazəsiz olaraq öz

əzizlərini və insanları ölümlü dünyada ziyarətə gedir. Kinara qayıtdıqda çox əsəbləşmiş Zeus onu itələyir, qız yıxılır və həmin an heç vaxt yer üzündə görünməmiş olan Ənginar bitkisi bitir. Dedilənə görə bu əfsanə məhşur Roma şairi Qorasi (e.ə. 65–8) tərəfindən qələmə alınıb. Həmin mif F. Rablenin (1494-1553) "Qarqantua və Pantaqruel" romanında da verilib. http://vsaduidoma.com"

Adını Kinara adlı gözəl bir qızdan almış Ənginar bitkisi; bəs Azərbaycan dilində nə deməkdir?

Ənginar sözü bizdə nə məna verir?

Ənginar/Ən-Ki-Nar:

"Ən: ədat. Keyfiyyət bildirən sifətlərin və zərflərin əvvəlinə gətirilərək üstünlük, şiddət bildirir/nədir.az/

Ki: qadın/**ka**dın/**qa**rı/**ka**rı sözünün kökündə olub, min illərdir elə qadın mənasında işlədilir (**Ki**- Şumerlərdə yaradıcı ana tanrıça, **Ki**bela tanrıça, **Ge**ra/**Qe**ra tanrıça və s.).

Həm də xatırlasaq ki, Əngi**nar** günəşli yerlərdə, ölkələrdə bitir, o zaman dilimizdə günəş mənasında işlədilən **Nar** sözünün də mənası aydın olur.

Kinara- Ənginar bitkisinə çevrilmiş və **ən** günəşli yerlərdə bitən, lənətlənmiş gözəl **Qa**dın"!

P.S. Kinara; Zinara adasında yaşayırdı. Xəzər dənizində Böyük Zirə adası var. Sonralar isə bu ada Nargin adlandırıldı. Çox qəribə bir təsadüfdür deyilmi?

Əslində isə mənbələrin yazdığına görə: Nargin və Volf adalarının adı I Pyotrla bağlıdır. İsveçlə müharibədən sonra buralar ona formaca analoji adları olan Fin körfəzindəki Revel adalarını xatırladıb. Nargin ("Nargin" – almanca, "Nartingen" – estonca) "ensiz boğaz" mənasını verir. "Vulf" almancadan tərcümədə "canavar, canavar adası" deməkdir.

Azərbaycanda da bir sıra bölgələrimizdə canavara "ul" deyilir. Bəlkə də estonca**"Nartingen" sözü ensiz boğaz deməkdir, amma bizim dilimizdə və anlayışımızda "Nar"** günəşin rəmzi və bəzi türk xalqlarının dilində elə günəş deməkdir. "Gen/Gin" isə Ötügenin yadigarıdır və bu gün də qadınla bağlı elmlər, xəstəliklər elə eyni terminlə bağlıdır. (Nargin adasından əlavə; "Nar" ilə başlayan bir çox yaşayış yerləri də var: Nardaran adlı kənd Bakının Sabunçu rayonunda, Siyəzən və Qobustan rayonunda var, Narlıq kəndi Sabirabadda, Naroba/Narbağı lənkəranda, Nərəcan-Xaçmazda, Narınclar- Kəlbəcərdə kəndlərimizdir. Nargilə, Narınc, Kinara/Tsinaraya çox bənzər olan Çinara/Çinarə, Gülnar, Gülnara, İnara kimi xanım adlarımızda, Azərbaycanda günəşin, bəzən alovun simvolu olan Nar meyvəsinin, Tatar, Çuvaş, Mokşa, Çuvaş, Udmurt, Başqırt, Erzya türklərinin 22 dekabrda keçirdiyi Nardoğan bayramının adında yəqin ki, açılmayan çox sirlər var!

Ərkudə/Müqəddəs Vitex/Ər/Ar Kuday. Ərkudə; latın d. Vitex agnus-castus bitkisi qədim zamanlardan müalicəvi dərman bitkisi kimi məlumdur. Bu bitki; Müqəddəs Vitex, İbrahim ağacı, Saf quzu, Saf, toxunulmayan qoyun, yabanı bibər, Monax bibəri və digər adlarla tanınır. Dəmləmələr və müxtəlif formalarda sinir sistemi, sonsuzluq, cinsi pozuntular zamanı istifadə olunur. Qədimdə onun budaqlarını yatağın altına bel tərəfdən qoyarmışlarl ki, polyusiyaların və müxtəlif cinsi xəstəliklərin qarşısını alsın, toz halına salınmış meyvəsini ərinmiş yağ ilə qatıb testislərin iltihabının, bərkiməsinin müalicəsində istifadə edərmişlər (9).

Çex d. mníšský pepř , yəni Monax bibəri, "Vitex agnus-castus" [Rystonová 2007: 336], "jezuitské thé", "jezuitský čaj", yəni "İezuit" çayı, (букв. «иезуитский чай») Paraqvay Çobanpüskülü "Ilex paraguariensis", "jezuitský ořeh" İezuit qozu, "Çilim Trapa"[Ibid.: 212] kimi adlarla tanınır (10, 13).Dodaqçiçəklilərə- Lamiaceae ailəsinə mənsub olan Ərkudə, Müqəddəs Vitex, İbrahim ağacı, Saf quzu, Saf, toxunulmayan qoyun, yabanı bibər, Monax bibəri/Vitex agnus-castus, "Müqəddəs ananın çarpayısının samanı" kimi adlarla tanınan bu mistik və eyni zamanda şəfaverici bitki; çox-çox qədimlərdən məlum idi ki, kişilərdə cinsi instinktini azaldır. Ona görə də orta insan ömrü qədər 55-62 il yaşayan Ərkudəyə məhz Müqəddəs, Saf, Toxunulmamış, İffətli, Tərbiyəli quzu kimi adlar verilib.

Əfsanəyə görə, Hera Samos adasında Ərkudə/İbrahim ağacının ağacının altında doğulub. Bir dəfə Samos adasında Zeusla Hera İbrahim ağacının altında bir araya gəlir. Hera həmin adanın şimalında axan müqəddəs İmbrasos çayında çimir və onun iffəti bərpa olunur. Məhşur Tonay bayramı zamanı tanrıçanın kult obrazı ətrafında İbrahim ağacı budaqları qoyulur ki, həmin qeyri adi hadisəni xatırlatsınlar. Qədim Yunanıstanda Ərkudə bitkisi budağı və ya meyvəsi; təmiz, iffətli

nigahın simvolu hesab edilirdi. Antik dövrlərdə hələ mlum ii ki, Ərkudə bitkisi kişilərdə adi və sərxoş vəziyyətdə kontrolsuz cinsi münasibətləri idarə edir. Amma qadınlarda tam fərqli təsirə malikdir Ərkudə. Bu gün də Vitex agnus castus bitkisindən alınan məhlul və tabletlər qadınlarda klimakterik sindrom, alqodismenoreya, amenoreya, mastopatiya kimi xəstəliklərin müalicəsində istifadə edilir. www.botanichka.ru

Yuxarıdakı əfsanələr və Ərkudənin digər adları ilə tanış olduqda aydın olur ki, bu bitkidən kişilərin istifadəsi; onları daha məsuliyyətli, daha diqqətli, daha iffətli edir. Çılğınlığı, temperamenti azaldır və onları hardasa müqəddəsləşdirir, tanrısallaşdırır.

Bəs Azərbaycan dilində Ərkudə sözünü necə analiz etmək olar, hər sözün yaranmasında və yaşamasında əməyi olan Oğuz babalarımız nə üçün bu bitkini məhz Ərkudə adlandırıb?

Ərkudə sözünü iki hecaya bölmək olar: Ər və Kudə. Ər sözü isim olub mənası- Arvadın qanuni və məhrəm yoldaşı olan kişi; zövc. sif. və is. Sözündə möhkəm, mərd; qəhrəman, igid, qoçaq. Yəni burada söhbətin məhz kişidən getdiyi aydın bilinir və dilimizdə "ər" elə kişi cinsində olan adam deməkdir.

Bəs Kudə/Kuda nə deməkdir?

Türk d. olan mənbələrə görə: Kelime Kökeni Eski Türkçe kut *sözcüğünden evrilmiştir.* kut *"tanrısal rahmet, baht, talih" Orhun Yazıtları (735) www.etimolojiturkce.com*

Kut, Kuday, Xuday türk mifologiyasında (Altay, Qazax, Tatar, Qırğız, Xakas) insanı, təbiəti və bütün canlıları yaradan baş tanrıdır (11).

Demək Ərkudə sözünün mənası aydın oldu: Ərkudə; çəlğınlıqan, ehtirasdan uzaq, Tanrısallaşmış və müqəddəsləşmiş kişi/adam!

P.S. Vitex sözü isə latın d. olan "viere" sözündən alınıb ki, mənası toxumaq, hörmək, ilgəkləmək deməkdir. Çünki ərkudənin çubuqlarından zənbil və bir çox əşyalar hazırlanarmış. www.botanichka.ru

Burada da "viere" sözü ilə eyniləşən bir əyirmək sözü diqqəti cəlb edir. Dilimizdə əymək, əyirmək deyə bir feil var. Bu gün də eyni mənalarda işlənilir. Viere sözü ilə əyir/eyir/eymek/eyirmek biri digərindən tğrənmiş sözlərdir. Mahmud Kaşğarinin lüğətində də bu söz eyni mənada göstərilir: Əgir-=sövq etmək, döndərmək; əyirmək; çevirmək; mühasirə etmək. I, 229-14. ~di I, 229-9, 229-10, 229-11, 229-13

"Vitex agnus castus" bitkisinin adında bir kastrasiya sözü ilə eyni kökdən olan "castus" (alman d. castriren, latın d. castrare), rus d. isə "оскоплять, охолостить" "kastrasiya" etmək deməkdir *Mənbə: «Словарь иностранных слов, вошедших в состав русского языка». Чудинов A.H., 1910)sözü də var ki, Kaşğarinin lüğətindəki "ərət" sözü ilə tanış oluqda çox mənalar yenə də işığa çıxmış olur.*

Ərət-=xayanı çıxarmaq, axtalamaq; uşağı sünnət etmək, kişilər cərgəsinə qoşmaq. Bax\ ərədh-, arıt-. ~ti 1,252-5. / Ər=ər, adam, kişi./ (5)

Ədəbiyyat

1. Çoruhlu Y. Sanat tarihi'ne yansimalariyla Altay destani Maaday Kara'da mitsel motifler // VI Uluslararası Koroğlu sempozyumu. Bildiri kitabı. Bolu: Abant İzzet Baysal Universiteti, 2016, s.783-817
2. www.turkcebilgi.com
3. Орлов Б.Н., Гелашвили Д.Б., Ибрагимов А.К. Ядовитые животные и растения СССР. Москва: Высшая школа, 1990
4. Kaşğari M. Divanü Lüğat-it-Türk. 4 cilddə. AMEA Folklor İnstitutu. Bakı: Ozan, 2006
5. https://legendsplants.wordpress.com
6. Энциклопедический Словарь Ф.А.Брокгауза и И.А.Ефрона-1890-1907

7. https://ru.wikipedia.org
8. Ефремов А.П., Шретер А.И. Травник для мужчин. Москва: Асадаль, 1996, с. 50-51
9.
10. Синица Н.А. Образы христианских служителей культа в славянских народных названиях растений. , Екатеринбург: Уральский федеральный университет, 2014
11. Сагалаев А.М. Урало-алтайская мифология: Символ и архетип. Новосибирск: Наука, 1991

Ф.Рустамова

По следам народной медицины: клен, зверобой, артишок, орхидея
Резюме

Народная медицина составляет важную часть устной народной традиции. Народная медицина является неотъемлемой частью повседневной жизни людей, их истории, прошлого и народного быта. Изучение практического значения народной медицины также необходимо, так как изучение этой чрезвычайно сложной системы, которая реализуется на различных церемониях и обрядах, приведет к интересным и значимым научным результатам. В дополнение ко многим методам, поощряющим формирование знахарства, необходимо учитывать использование растений, фруктов и овощей в качестве лечебного источника. В статье рассматриваются травы и растения, используемые в качестве лекарственного растительного средства в народной медицине. Конечно, их лечебные функции являются результатом тысячелетнего опыта. То есть на протяжении тысячелетий люди использовали эти растения в своих целительных практиках.

Этот опыт обычно используется в форме знания, которое прошло через века и было сохранено в памяти, в устной форме и дошло до нашего времени. Автор выбрал в качестве объекта исследования такие растения и деревья, как клен, зверобой, артишок и орхидею. Статья обладает очень интересной структурой. Автор в первую очередь затрагивает этимологию этих слов, а аткже место этих растений и деревьев в культуре разных народов и их народной медицине. Затем эти понятия изучаются в мифологическом аспекте. Статья имеет большое практическое значение. Выводы автора в ходе этого исследования и отличаются научным подходом и своей новизной.

Ключевые слова: народная медицина, этимология, береза, зверобой,орхидея

F.Rustamova

About traditional medicine: maple, St. John's wort, artichoke, orchid

Summary

Traditional medicine takes an important place in oral national tradition. Traditional medicine is an integral part of everyday life of people, their history, last and national life. Studying of practical value of traditional medicine is also necessary as studying of this extremely complex system which is implemented at various ceremonies will result in interesting and significant scientific results. In addition to many methods encouraging sorcery formation it is necessary to consider use of plants, fruit and vegetables as a medical source. In article the herbs and plants used as medicinal vegetable means in traditional medicine are considered. Of course, their medical

functions are result of thousand-year experience. That is throughout the millennia people used these plants in the salutary practicians. This experience is usually used in the form of knowledge which passed through centuries and was kept in memory, in an oral form and reached our time. The author chose as a research object such plants and trees as a maple, a St. John's wort, an artichoke and an orchid. Article has very interesting structure.

The author first of all mentions etymology of these words, and the place of these plants and trees in the culture of the different people and their traditional medicine. Then these concepts are studied in mythological aspect. Article has great practical value. The author's conclusions during this research also differ in scientific approach and the novelty.

Keywords: traditional medicine, etymology, birch, St. John's wort, orchid

Redaksiyaya daxil olma tarixi: 05.04.2019
Çapa qəbul olunma tarixi: 06.05.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Afaq Ramazanova tərəfindən çapa tövsiyə olunmuşdur

ÜLKƏR DADAŞOVA
İçərişəhər, 8-ci Kiçik qala,
AMEA Folklor İnstitutunu
d_ulker@mail.ru

İRAQ-TÜRKMAN LİRİK FOLKLORUNUN POETİKASI

Xülasə

Sözün gücü ilə insanın yaşadığı zaman çərçivəsində istiqamətli, davamlı "addımlamasına", həyatda tutduğu mövqeyinin müəyyən bir düzəmdə formalaşmasına, eyni zamanda yeni dəyərlər əsasında qurulan yeni yanaşmaların bərqərar olmasına, o cümlədən bir- birini qarşılıqlı sevən gənclərin belə "isti" yaxınlığına "soyuqluq" qataraq aralarındakı münasibətlərin dəyişməsinə və s. nail olmaq olar.

Hətta bu münasibətlərin dəyişməsində heç kim rol oynamasa belə, aşiqin sevdiyi insanın ürəyini özü tərəfindən qırması və bunun da xalqın qəlbləşmiş ifadələri ilə səsləşən, bədii gözəlliklərlə təcəssüm etdirilən lirik nümunələrdə əksi bir daha söz çələnginin poetik mahiyyətindən çıxış edərək sehrli dalğaları ilə insanı təsirləndirməklə özünə çəkir. Həyatın sözlü, ifadəli aynası olan bədii nümunələrdə gerçəkliklərin uzun zaman keçidindən keçməsinə rəğmən hal-hazırkı dövr üçün mahiyyətini itirmədən əks olunması bir daha onu yaradan şəxslərin sözün mahiyyətini dərindən bilib anlayaraq bundan məharətlə istifadəsini göstərir.

Məqalədə İraq-türkman lirik folklorunun örnəklərinin poetik xüsusiyyətləri araşdırılmışdır. Müəllif xüsusilə qarğışlarda və bayatı-ağılarda istifadə olunan poetik vasitələr araşdırılmışdır.

Açar sözlər: folklor, lirika, İraq-Türkman, alqış, qarğış

Ta qədim zamanlardan sözün sehrinə, hikmətinə, gücünə inanan xalq ona dəyər verərək "qızıl söz" adlandırmışdır, lakin istifadə məqamından asılı olaraq "...söz var kəskin qılınc kimidir: dostluğu kəsər, öldürər, qəlbdə müalicəsi mümkün olmayan yaralar açar, qəlb bağçasındakı yaşıllıqları, sevgi çiçəklərini qış mövsümü kimi öldürər." (2, 136-137)
Bədii sözün leksik-semantik məna yükünü daşıyan şifahi xalq ədəbiyyatı da xalqın həyata baxışını, təsəvvürlərini əks etdirmişdir.

Sevgililər tərəfindən deyilən qarğışlar daha çox ayrılığa yönələn mövzudan qaynaqlanır və əsasən, qovuşacaqlarına ümidi olmayan bir insanın dilindən deyilən ifadələrdir.

Qarğışlarda ifadəsini tapan mövzunun əsas mahiyyətini qarşı tərəfin maddi varlıqla deyil, insan üçün daha önəmli sayılan səhhətində problemlər arzulamaq durur, bu ayrılığı həyatda yaşam təminatı verən sağlıqla yanaşı tutaraq, əməlinin əvəzi olaraq sağlamlığının itirilməsini- kor, lala, ümumiyyətlə, şikəst olmasını, həyatdan köçməsini istəyir.

Narıncı dilim-dilim,
Gəl otu mənim gülüm.
Nə dedim, küsdün gənə
Lal olsun ağzım-dilim. (3, 147)

Sevdiyi qızı dediyi sözlərlə incidən aşiq halını bədii dillə təcəssüm etdirərək mükəmməl bənzətmələrdən yararlanmaqla daha obrazlı, poetik fiqurlarla real şəraiti canlandırmağa çalışmışdır. Xalq şifahi deyimində tez-tez rastlaşdığımız "ürəyim parça-parça oldu" frozoloji ifadəsinin bədii

örnəklərdə sözün digər sehrli gücü ilə çatdırılmasına şahid oluruq, belə ki "Narıncı dilim-dilim" poetik material olaraq bənzətmənin kamil, mükəmməl nümunəsi kimi işlənmiş və aşiqin ürəyinin parçalandığını tərənnüm edən vəziyyətə işarə vermişdir.

Digər misrada prozopopeyanın şəxsləndirmə növündən yararlanmaqla sevdiyi qızı təbiətin gözəllik təcəssümü kimi dəyərləndirirərək "gülüm" deyə müraciət etmişdir.

Sevgili-gül qarşılığının istər şifahi, istərsə də klassik nümunələrdə işlənmə paraleliklərinin tez- tez qarşımıza çıxması, fikrimizcə, yalnız görünüş gözəlliyindən dolayı təsadüf edilən bir fakt kimi baxmaq kifayyət etməz, çünki müdrik xalq yalnız görünüşü əsas tutaraq belə bəsit yanaşma kondeksindən bu dərəcədə çox yararlanmazdı. Deyilənləri əsas tutaraq, əsas mahiyyətində uzaq keçmişdən süzülüb gələn mifopoetik anlamın üstündə durmağı məqsədəuyğun bildik.

Gül ənənəsinin mifoloji dərinliyinə varanda görürük ki, ilahilər su zanbağından törəmiş, buna görə də ilahilər-butlar üçün, əsasən, su zanbağı çiçəkləri qoyulurdu. Təmizlik təcəssümü olan su zanbağı ilə eyni formallığı daşıyan butlar eyniləşdirilirdi. Uyğurların əhd olaraq butlara qoyduqları lotus çiçəyi sonralar gül təqdim etmək adətinin formalaşmasına gətirmiş və təkamül proseslerindən biri kimi irəliləyən "gül" ənənəsi xalqın obrazlı, poetik söz, sənət dünyasına daxil olmuş, klassik ədəbiyyatlarda tez- tez rastlaşdığımız sevgili –but ikiləşmələrinin digər görüntü versiyası olaraq sevgili-gül metaforası kimi işlənmişdir. (1, 126)

İntihar etmiş və nəinki ölümü, hətta yaradıcılığı ilə yaddaşlarda qalan, özündən olanlar üçün normal, cəmiyyət üçün isə Tanrının onlara bəxş etdiyi fövqəladə anomaliya olan yazıçılar cərgəsinə yapon ədəbiyyatının "ölümə vurğun iblis"-i Yukio Misima da daxildir. O, 1948-ci ildə yazırdı: "İçimdə oyanan və mənə rahatlıq verməyən bir istəyi-qatil olmaq istəyini boğa bilmirəm. Al qırmızı qan görmək üçün dəhşətli dərəcədə susamışam. Təəccüblü deyil ki, qadınların sevmədiyi kişilər həmişə məhəbbətdən yazarlar. Mən isə kimisə öldürüb ölüm hökmü qazanmamaq naminə bu əsərləri yazmağa məcburam." (2, 10) Misimanın yaratdığı qatil obrazlarına yanaşması isə xüsusilə diqqət çəkir: "O, başqalarını qətlə yetirə-yetirə özünü də ölümə yaxınlaşdıraraq yaşayırdı". Onu da deyirdi ki, "qatili başa düşən olmadıqda o ölür." Yəni, qətl Misima üçün qurtuluş yox, ölümün cazibə dairəsinə daha çox yaxınlaşmaq deməkdir. Bəzilərinə görə qatil olmaq istəyən, amma öldürmək ehtirasını yazı ilə boğan Misima fikrimcə sadəcə ölümə çox aşiq idi. O, əslində ölməyin, ölümün, nəfəs və cansızlığın nə demək olduğunu dərk eləməyə çalışırdı və yaratdığı hər qatilin əli ilə başqalarının qanını tökən Misima üçün bu zaman kəsiyi nə zamansa cəsarətini toplayıb özünü təslim edəcəyi qatili tanımaq müddəti idi. "Belə yazıçılar bizdə iki, hətta üç əsrdən bir dünyaya gəlir" fikrini Yukio Misima haqqında deyən məşhur yapon yazıçısı Yasunari Kavabata, bütün qadınlar kimi müəmmalı və dumanlı aləmə sahib olan, xarakterinin ikili xüsusiyyətləri, poeziyasının intimliyi ilə seçilən və nəhayət, "Mən özüm insan olmayanların cərgəsini seçmişəm, nə edim ki... Özümü çox pis hiss edirəm, tənhayam, əsl dostlarım yoxdur" ifadələri ilə mənəvi ölümünü təsvir edən rus ədəbiyyatının tanınan simalarından biri olan Marina Svetayeva, "Allah bizə daşdan ağır ruh verib", deyən İsveçrə şairəsi Karin Boye, çox fərqli intihar növü seçən ingilis yazıçısı Virciniya Vulf, XX əsr amerika poeziyasının ən qalmaqallı və ən qəribə fiqurlarından biri olan Silvia Plat, E. Hemenquey, Cek London, Stevan Sveyq, Mayakovski, Maykl Doris, Harri Kodil, Nil Kassidi və b. öz ölümünü vaxtından tez gətirmiş, suisidi ilə intihar etmiş yazıçılar halqasına qoşulan fəlsəfi insanlardandır. Beləliklə, cəm halında yaşayan kəslərin bir-birinə özgələşməsi nəticəsində tənhalığın, nihilizmin pəncəsinə düşən bu insanlar ardı-arası kəsilməyən dolaşıq, qarışıq fikir və düşüncələrdən, mənbəyi məlum olmayan can sıxıntısı və əbədi mənəvi-ruhi tənhalığın gətirdiyi iztirablardan qurtulmaq üçün yeganə çıxış yolunu özünəqəsddə görür. Və onlar arasında bəziləri yalnız ruhən ölməyi bacarsalar da, bəziləri özlərindəki yüksək cəsarət hissindən yararlanaraq həm ruhən, həm də cismən ölməyi bacarırlar.

Ədəbiyyat

1. Ağaoğlu E. Ölümə doğru yol // "Avrasiya" qəzeti, 1997, 23-26 oktyabr.
2. Cabbarlı N. Ədəbiyyatdan intihara. Bakı: "VEKTOR" nəşrlər evi, 2006, 195 s.
3. Hacıyev Z. Fəlsəfə. Ali məktəblər üçün dərslik. Bakı: "Turan" nəşriyyatı, 2012, 485 s.
4. Hüseynov A. İntihar (Suisid). Bakı: "Adiloğlu" nəşriyyatı, 2001, 115 s.
5. Kamyu A. Absurd və intihar. // "Ədalət" qəzeti, 2018, 6 iyun.
6. Г.Чхартишвили. Писатель и самоубийство. М., Новое литературное обозрение, 2000,576 с.
7. Мартыненко А. В. Суицид в молодежной среде. // Знание. Понимание. Умение, 2005, No 1, с. 139-141.
8. Özünəqəsdin sosial-psixoloji amilləri. Bakı: "Elm və təhsil", 2013, 48 s.
9. Paj M. Mən necə idiot oldum. Bakı: "Qanun" nəşriyyatı, 2013, 136 s.

L. Gurbanova

Writers in the labyrinth of the suicide

Summary

Suicide - a conscious, deliberate and rapid deprivation of life oneself. Mental disorders, including depression, bipolar disorder, schizophrenia, personality disorders and substance abuse—including alcoholism and the use of benzodiazepines—are risk factors. Some suicides are impulsive

acts due to stress, such as from financial difficulties, troubles with relationships, or bullying. Those who have previously attempted suicide are at a higher risk for future attempts. Suicide is a sociological, biological, psychological and philosophical phenomenon, but also is a literary phenomenon based on artistic thought. Suicide is one of the main themes of literature from ancient times to the present day. Studies show that writers are twice as likely to commit suicide than other people. Although the correlation between creativity and mental illnesses is open to discussion, there is no doubt that the literary world has suffered many losses, as many geniuses have had troubles making peace with life. It is not by chance that among those who commit suicide there are many writers, for example, Jack London, S. Yesenin, Yukio Mishima, Marina Svetaeva, one of the most recognizable figures in russian literature, the swiss poet Karin Boye, english writer Virginia Wulff, who chooses a very different suicide method, Silvia Plat, one of the most scandalous and most strange figures of the 20th century american poetry, E.Hemingway, Stevan Sveyq, Mayakovsky, Michael Doris, Harry Kodil, Nil Cassidy and others. Thus, suicide is, above all, a product of artistic philosophical thought.

Key Words: suicide and writers**,** the philosophical suicide**,** absurd and death

Л. Гурбанова

Писатели в лабиринте самоубийства

Резюме

Самоубийство - это сознательное, намеренное и быстрое лишение себя жизни. Психические расстройства, включая депрессию, биполярное расстройство, шизофрению, расстройства личности и злоупотребление психоактивными веществами, в том числе алкоголизм и использование бензодиазепинов, являются факторами риска. Некоторые самоубийства являются импульсивными действиями из-за стресса, например, из-за финансовых трудностей, проблем с отношениями или издевательств. Те, кто ранее пытался покончить с собой, подвергаются большему риску будущих попыток.Суицидальное - это социологическое, биологическое, психологическое и философское явление, но и литературное явление, основанное на художественной мысли. Самоубийство одна из основных тем литературы с древнейших времен до наших дней.Исследования показывают, что авторы в два раза чаще совершают самоубийства, чем другие люди. Хотя взаимосвязь между творчеством и психическими заболеваниями открыта для обсуждения, нет никаких сомнений в том, что литературный мир понес много потерь, поскольку многие гении испытывали проблемы с миром с жизнью. Не случайно, что среди те, кто совершает самоубийство есть много писателей, например, Джек Лондон, С. Есенин, Юкио Мисима, Марина Светаева, одна из самых узнаваемых фигур в русской литературе, швейцарский поэт Карин Бойе, английская писательница Вирджиния Вульф, одна из самых скандальных и самых странных фигур американской поэзии 20-го века Сильвия Плат, Э.Хемингуэй, Джек Лондон, Стеван Свейк, Маяковский, Майкл Дорис, Гарри Кодил, Нил Кассиди и другие. Таким образом, самоубийство - это, прежде всего, продукт художественной философской мысли.

Ключевые слова: самоубийства и писатели, философское самоубийство, абсурд и смерть.

Redaksiyaya daxil olma tarixi: 01.04.2019
Çapa qəbul olunma tarixi: 03.05.2019
Filologiya elmləri doktoru, professor Cəlil Nağıyev ərəfindən çapa tövsiyə olunmuşdur.

AYNUR ADIGÖZƏLOVA
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Üzeyir Hacıbəyli küc68
Email: aynur.ahmedova17@gmail.com

LİRİK ƏSƏRLƏRİN TƏDRISI YOLLARI (V-IX SİNİFLƏR)

Xulasə

Şagirdlərin həyata baxışlarının formalaşmasında lirik şeirlərin çox böyük rolu vardır. Onlar bu əsərləri maraq və həvəslə mənimsədikcə, ətraf mühitdə və öz həyatlarında olan gözəllikləri dərk edir, mənəvi cəhətdən zənginləşir və kamil bir şəxsiyyətə çevrilirlər. Şagirdlər lirik əsərlər vasitəsi ilə həyat hadisələri və insanların hiss və həyəcanları ilə yaxından tanış olurlar. Orta ümumtəhsil məktəblərində tədrisinə hər zaman ehtiyac duyulan lirik əsərlərə tədris proqramlarında imkan daxilində yer ayrılır. Bu da ədəbiyyat müəllimlərinin öz üzərilərində metodik cəhətdən yüksək səylə işləməyi tələb edir. V – IX siniflərdə lirik əsərləri elmi – metodik əsaslarla öyrətməyi bilmək müəllimlərin qarşısında duran ən əsas vəzifədir.

Dərsdə lirik şeirin məzmunu janrından asılı olaraq misra-misra, beyt-beyt, bənd-bənd şərh edilir. Lirik poeziyanın qavranılması üçün şagirddən xüsusi həssaslıq, incəlik, müəllif niyyətini dərindən duymaq qabiliyyəti tələb olunur. Lirik əsərlər üzərində iş zamanı şagirdlərin emosional təəssüratı dərinləşdirilir, tanış olmayan sözlərin mənası aydınlaşdırılır. Sözlərin düzgün yazılışı və deyilişi ilə bərabər məna çalarlarını da öyrənirlər. Bunlarla yanaşı həmçinin şagirdin Lüğət ehtiyatı zənginləşir, nitqində canlılıq yaranır. Təhlil şagirdlərin əsəri ilkin qavraması nəzərə alınaraq aparılır.Qeyd etməliyik ki, lirik şeirləri şagirdlərə hələ ibtidai siniflərdən öyrətməyə başlayırlar. Əgər ibtidai siniflərdə tədris edilən şeirlər düzgün metodik nəzəri əsaslarla öyrədilərsə, bu bir növ yuxarı siniflərdə lirik şeirlərin öyrədilməsi üçün əsaslı zəmin olar. Belə bir zəmin əsasında öyrədilən lirik şeirlər isə daha da güclü və təsirli emosional hisslər yaradır.

Açar sözlər: ədəbiyyat, tədris, inteqrasiya, lirika

Bədii ədəbiyyat yüksək tərbiyəvi təsir gücünə malik olub, şagirdlərə hər tərəfli sağlam əxlaqi- estetik düşüncə, mənəvi saflıq, nitq zənginliyi və başqa bu kimi keyfiyyətlər aşılayır. Lirik əsərlər bu cəhətdən daha mühüm əhəmiyyət kəsb edir. Bu səbəbdən də lirik əsərlərin öyrədilməsinə daha geniş imkanlar yaradılır. Lirika insanda yeni duyğular yaradıb onları mənən kamilləşdirir. V.Q.Belinskinin dili ilə desək, lirika dilsiz duyğulara söz və surət verir. [3, səh 6] Lirik əsərlər vasitəsilə həyat hadisələri, əhatə olunduqları şərait və insanların hiss və həyəcanları ilə yaxından tanış olurlar. Şagirdlərin əxlaqi -estetik tərbiyəsinin inkişafında lirik əsərlərin rolu əvəzsizdir .

Bu səbəbdən də əsl həyati duyğuları özündə əks etdirən şeirləri oxuyarkən oxucunu həyacanlandıran, hisslərinə təsir edən, duyğularını inkişaf etdirən lirik əsərlərin tədrisi mənəvi ehtiyacdan doğan zərurətdir.Lirik əsərlərdə əşya və hadisələrin təsirindən yaranan hiss və həyəcan ifadə olunur. Şair lirik əsərləri yaradarkən vəzn, heca, qafiyə, rədif və s. kimi cəhətləri gözləməlidir. Az sözlə dərin mənalı fikir demək, folklorun nadir incilərindən, klassiklərin hikmətli sözlərindən istifadə etmək lirik əsərlərə gözəllik və ölümsüzlük bəxş edir. Şair bədii sözün gücü ilə canlı həyat lövhəsi yaradır. Lirik əsərlərdə işlənən bədii ifadə və təsvir vasitələri şeiri daha canlı edir, onun bədiiliyini gücləndirir.

5-ci sinifdən başlayaraq lirik şeirlər elmi-nəzəri əsaslarla şagirdlərə öyrədilir. Proqramda verilmiş şeiri tədris edərkən nəzəri-metodik baxımdan giriş hissədə bu məlumatların verilməsi daha məqsədəuyğundur:

1.Şairin dövrü, həyat və yaradıcılığı haqqında qısa məlumat;

2. Tədris edilən şeirin yazıldığı tarixi şəraiti konkret şəkildə şərh etmək;
3. Şagirdlərdə şeirin ideya və məzmununa maraq yaratmaq;
4. Lüğət üzərində iş, mətndəki çətin söz, ifadə və cümlələrin izahı;
5.Şeirin poetik məzmunu;

6. Şeirin vəzni üzərində iş a) heca vəznində yazılması, janrı, hecası, qafiyəsi və s; b) əruz vəznində yazılması, janrı, bəhri, bəhrin qəlibi, qafiyəsi c) sərbəst yazılması, qafiyə sistemi və s. misal çək şairin həyatı yaradıcılığından nümunə.

Lirik əsərlərin öyrədilməsində müəllimin xüsusi elmi-nəzəri hazırlığı və pedaqoji-metodik ustalıq səriştəsi lazımdır. Lirik əsərlərin tədrisi zamanı müəllimlər aşağıdakı tələbələrə əsaslanaraq dərslərinin səmərəli olmasına nail ola bilərlər:

1.Tədris prosesində müəllim şagirdlərinə konkret elmi məlumat verməlidir;
2. Təlimin texniki vasitələrindən səmərəli istifadə edərək mövzunu dərindən mənimsətməlidir;
3. Keçilən mövzuları yaxın mövzularla, başqa fənlərlə inteqrasiya etməyi bacarmalıdır;
4. Müasir texniki tərəqqini izləmək və onun son nailiyyətləri ilə dərsləri bağlamaq müəllimin ən öndə vəzifəsidir;
5. Materialları asan yolla, həm də hərtərəfli şəkildə şagirdlərə çatdırmağı bacarmalıdır;
6. Yeni təklifləri, mülahizələri və mütərəqqi iş üsullarından düzgün istifadə edib dərsin intensivləşdirilməsinə nail olmağı bacarmalıdır;
7. Lirik əsərlərin tədrisi zamanı məzmun və ideya ilə bərabər, mövzununun tərbiyəvi əhəmiyyətini də ön plana çəkə bilməli;
8. Hər bir dərsin şərhində təlim, tərbiyə və bilikdən vəhdətdə istifadə etməyi bacarmalıdır;
9. Şagirdlərdə vətənpərvərlik və milli iftixar hissi yaratmalıdır.

Lirik şeirlərin tədrisində onun təhlili məsələsi də digər vacib amillərdən biridir. Müasir texniki tərəqqi ilə əlaqədar lirik əsərləri təhlilini köhnə, ancaq ənənəvi təlim əsasında aparmaq heç də məqbul hesab edilmir. Elə məhz bu səbəbdən də təhlil müasir dərs tələblərinə uyğun formada aparılmalıdır. Belə olduğu halda, şagirdlər bu zaman şeirin mövzusu, ideyası, janr xüsusiyyətləri, dili, yazılma səbəb və s kimi bir çox məlumatlara yiyələnirlər. Lirik qəhrəman, eləcə də əsərdəki emosional hallar şeir haqqında şagirdlərdə müəyyən qədər təsəvvürlər yaradır. Qısacası, lirik şeirləri öyrənən şagirdlər sənətkarı, yazıçını ilhamlandıran ideyalarla tanış olur, onun şeirdə ifadə etməyə çalışdığı hiss və emosiyalar anlamağa çalışırlar.

. Təhlil şagirdlərin əsəri ilkin qavraması nəzərə alınaraq aparılır. Lirik əsər həcmcə yığcam olduğu üçün təhlil zamanı sənətkarın hər sözü, ifadəsi, əsərin hər misrası, təsvir olunan səhnənin detalları, bədii təsvir və ifadə vasitələri üzrə iş əhəmiyyətlidir.

Lirik əsərin təhlili üçün sualların tərtibi zamanı aşağıdakı məsələlərə diqqət yetirilir.

1. Əsərin mövzusu, problmatikası;
2. Lirik qəhrəmanın səciyyəsi;
3. Əsərdəki emosional ovqat;
4. Əsərin janr, kompozisiya, dil, üslub xüsusiyyətləri, şairin novatorluğu;
5. Lirik əsər üzrə ədəbi- nəzəri anlayışların mənimsənilməsi (janr, vəzn, misra, beyt, bənd, qafiyə, ölçü və s.);
6. Əsərin oxucuda doğurduğu təəssürat;
7. Sənətkarın niyyəti (əsərin ideyası).

[2, səh77]

Şeirlərin yaxşı yadda qalmasının bəzi özünəməxsus psixoloji xüsusiyyətləri də vardır. Belə ki, hər şagirdin anlama səviyyəsi, yaddasaxlama qabiliyyəti bir deyildir. İlk növbədə, şeirin uzunmüddətli yadda saxlanılması üçün məzmununun şagird tərəfindən yaxşı öyrənilməsi vacibdir. Məzmunu tam şəkildə mənimsəyən şagird şagird üçün həmin şeiri əzbər öyrənmək, həm də yadda saxlamaq asan olar. Digər bir tərəfdən şeirin yaxşı yadda saxlanılmasında onun müəllim tərəfindən mükəmməl formada öyrədilməsinin böyük əhəmiyyəti var. Lirik əsərlərin düzgün dərk olunmasında

oxunun sürəti də vacibdir. Oxunun düzgün sürəti şeirin məzmununun tam və şüurlu şəkildə anlaşılmasını təmin edir. O, cümlədən onlarda həmin şeirlərə öz şəxsi münasibətlərini bildirmək, burada verilən duyğularla yaşamaq bacarığı tərbiyə olunur. Təhlil ilk növbədə məzmunun necə mənimsənilməsi ilə şərtlənir. Əslində mənimsəmə ilə təhlil bir- birinə yaxın proseslərdə. Çünki məzmun mənimsədilərkən müəyyən mənada təhlil aparılır.

Hər bir əsərin sinifdə öyrədilməsi onun oxunması ilə başlanır. Müəllim tərəfindən şeirin ifadəli oxunması təcrübəyə əsasən demək olar ki., şagirdlərə daha yaxşı təsir edir. ifadəli oxu zamanı çalışmaq lazımdır ki, şagirdlər şeirin məzmununu, ideyasını və sənətkarlıq xüsusiyyətlərini daha dərindən və şüurlu şəkildə anlasınlar. Qeyd etməliyik ki, birinci növbədə ifadəli oxunun texniki şərtlərinə əməl etmək lazımdır. Belə şərtlərdən biri oxucunun səsinin tonudur. İfadəli oxu zamanı sözlərin düzgün tələffüz edilməsi şeirin təbiiliyini və rəvanlığını artırır və bu da mətnin dərindən qavranılmasına səbəb olur. Lirik şeirlərin tədrisinin rolu şagirdlərin həyata münasibətlərinin fəallaşmasında da özünü göstərir. Lirik əsərləri əzbərləməyə şagirdlərin meyli hər zaman çox olur. Onlar bu əsərləri mənimsədikcə , ətraf mühitdə özünün və başqasının həyatında olan həqiqi gözəllikləri dərk edir, özünü mənəvi cəhətdən zənginləşdirir və bir şəxsiyyət kimi kamilləşdirir.

Məktəb təcrübəsində müəllimlərin yol verdiyi səhvlərdən biri dərs zamanı keçilən şeirin bütün şagirdlərdən əzbər soruşulmasıdır. Eyni mətnin dönə-dönə təkrar edilməsi əsərdən alınan təəssüratın sönükləşməsinə, maraqsızlaşmasına gətirib çıxara bilər.[1, səh 114] Bu zaman şeirin hissələrə bölünüb hər şagirddən həmin bölgü üzrə əzbər soruşulması daha məqsədəuyğundur. Şeirin təhlili zamanı əsərdə istifadə olunan bədii təsvir və ifadə vasitələrinin izahı yazıçının dilinin zənginliyinə dəlalət edir. Əslində, bu şeirin həm qısalığı, həm də onun ahəngdarlığı, rəvanlığı, musiqililiyi, lakonikliyi və s cəhətləri ilə birbaşa bağlıdır. Lirik əsərdə yazıçı həyata qarşı öz münasibətini, həyatın onda oyatdığı hisslərlə ifadə edir.

Lirikada hiss və həyəcanın daşıyıcısı olan lirik qəhrəman obrazının təhlili mühüm əhəmiyyət kəsb edir. Lirik qəhrəman bir sıra hallarda şəxsiyyəti, təbiəti baxımından müəllifə yaxın olsa da, aralarında fərqlər mövcuddur. Daxili aləmin, psixoloji ovqatın, düşüncələrin, hiss və duyğuların dərindən, canlı ifadə olunduğu lirik əsərin qəhrəmanının heç də hər zaman şairin özü olduğunu söyləmək olmaz. Lirik əsərin qəhrəmanında sənətkarın şəxsiyyəti ilə səsləşən cəhətlər olsa da, digər ədəbi növlərdə olduğu kimi burada da müəyyən tipikləşmə, şərtilik, ümumiləşdirmənin olması nəzərdən qaçırılmamalıdır. Lirik əsərdə sənətkarlılığın mühüm elementləri olan peyzaj detalları, portrert təsvirləri, əşya obrazları, məcazlar da əsərdəki ovqatın, qəhrəmanın xarakterinin, yaşantılarının aydınlaşdırılması baxımından əhəmiyyətlidir.

Lirikanın məzmunu insanın hiss və həyəcanını təşkil edir, çünki insanın keçirdiyi hisslər uzun müddət davam edə bilməz. Beləliklə, həyəcanın təsirini artırmaq üçün lirik əsərlər bəzi hallarda çalğı alətinin müşaiyəti ilə oxunur. Bu cür əsərlər qədim yunanların simli musiqi aləti lira ilə bağlı olmuşdur . Zaman ötdükcə bu alətin müşaiyəti ilə oxunan şeirlər lirik əsərlər adlanmağa başladı. Şeirdə həyatın məziyyətləri öz əksini tapır.[4, səh 15] Öyrədilən zaman şagirdlərin bunu duyması və qavraması ən başlıca məqsəd olmalıdır. Orta ümumtəhsil məktəblərində tədrisinə hər zaman ehtiyac duyulan lirik əsərlərə tədris proqramlarında lazımınca yer ayrılır. Bu da ədəbiyyat müəllimlərinin öz üzərlərində metodik cəhətdən səylə işləməyi tələb edir.

Lirik əsərlər oxunan zaman şagird yazıçının qələmini, üslubunu öyrənir. Burada əvvəlcə mövzunun nədən bəhs edildiyi müəyyən edilir. Və beləliklə mətnin daxilindəki obrazlar, obyektlər təhlil edilir.

Əgər mövzu təbiət təsvirinə həsr olunubsa təhlil obyekti kimi dağ, Günəş, ulduz, Xəzər dənizi, çay, meşə, ağac və s kimi təbiətə aid olan varlıqlar götürülür.

Əgər mövzu vətənpərvərlik mövzusudursa əsas təhlil obyekti kimi igid qəhrəmanlar, əsgər obrazı, kişilərlə çiyin- çiyinə vuruşan fədakar qadın obrazı təhlil edilir. Və yaxud da insanın daxilində olan vətənpərvərlik, vətən sevgisi kimi hisslər təhlil obyekti olur.

Sevgi motivli lirik əsərlərdə vüsal, hicran, iztirab, eşq, aşiq, yar, canan, kimi obraz və hisslərə yer ayrılır.

Müəllim təhlil zamanı öz rəyini bildirərək şagirdin fikrinə müdaxilə etməməlidir. Belə olduğu halda şagirdlər sərbəst düşünüb öz fikrilərini sərbəst şəkildə ifadə edə bilmirlər. Təhlil zamanı

verilən sualların cavabını şagird özü düşünməli, araşdırıb tapmalıdır. Müəllim burada yalnız həmin tədqiqat prosesini təşkil etməlidir. Və xüsusilə bu qaydanı unutmayaq ki, təhlil prosesi əsərin məzmunu qavranıldıqdan sonra aparılmalıdır.

Məlum məsələdir ki, təhlil əsərin məzmunu öyrənildikdən sonra aparılır. Yəni, əvvəlcə şagird verilən mətnin məzmun və ideyasının nədn ibarət olduunu anlayır, daha sonra təhlil edir.

Şeirin əzbərlənməsi ilə təhlil edilməsi arasında fərq gözlə görüləcək qədər çoxdur. Əzbərlənən zaman bəzən nəyi oxuyub, nəyi və niyə əzbərlədiklərini belə bilmədən oxuyurlar. Lakin təhlil zamanı onlar düşünürlər, nəyi təhlil edirik, niyə edirik. Mövzu nədir, nədən bəhs edir kimi bir sıra suallara cavab tapırlar.

Bədii təsvir və ifadə vasitələrinin təhlili zamanı şagird Azərbaycan dili fənni ilı ədəbiyyat arasında fənlərarası inteqrasiya yaratmış olurlar.

Çünki bədii təsvir və ifadə vasitələrinin tərkibi Azərbaycan dili qrammatikası ilə bağlıdır. Ümumiyyətlə, bədii əsərlərin təhlili dərsləri müəllimdən dərin ədəbiyyatşünaslıq biliyi, metodik ustalıq, yaradıcı fəaliyyət, həmçinin, şagirdin maraq və tələbatlarını, psixologiyasını bilməyi tələb edir.

Ədəbiyyat:

1. Bilal Həsənli " Ədəbiyyatın tədrisi metodikas" Bakı,2016
2. Fəxrəddin Yusifov " Ədəbiyyatın tədrisi metodikası" Bakı, 2012
3. Lirik əsərlərin tədrisi yollarına dair (Metodik tövsiyə). Azərbaycan Elmi- Tədqiqat Pedaqoji Elmlər İnstitutunun dissertantı Sabir Rğstəm oğlu Məmmədov, Bakı 1990.
4. V.Q. Belinski. Seçilmiş əsərləri, Bakı, 1948

А. Адигезалова

Способы преподавания лирических произведений (V-IX классы)

Резюме

Лирические стихи играют большую роль в формировании мировоззрения учеников. По понимании этих произведений с интересом и энтузиазмом, они понимают красоту окружающей среды и их жизни, становятся морально обогащенными и становятся совершенной личностью. Школники близко знакомятся с жизненными событиями, чувствами и эмоциями людей через лирические произведения. Лирические произведения, которые необходимо преподавать в средних школах, всегда доступны в образовательных программах. И это требует от учителей литературы усердно работать над собой в методологическом плане. Умение преподавать лирические произведения на научно-методической основе в V - IX классах - важнейшая задача, стоящая перед учителями.

В уроке содержание лирического стихотворения объясняется часть за частью. Чтобы понять поэзию поэта, студенту нужна особая чуткость, изощренность, способность глубоко понимать замыслы автора.

Эмоциональное впечатление учеников при работе над лирическими произведениями углубляется, выясняется значение незнакомых слов. Они изучают значение слов, а также правильное написание и произношение.Следует отметить, что лирические стихи еще начинают преподавать в начальных классов. Если бы стихи, преподаваемые в начальных классах, преподавались правильно на теоретической основе, это было бы прочной основой

для усваивания лирических стихов в высших классах. И лирические стихи, преподаваемые на такой основе, создают еще более сильные и более эмоциональные чувства.

Ключевые слова: литература, обучение, интеграция, лирика

A.Adigozalova

Methods of teaching of lyric poems (V-IX grades)

Summary

Lyrical poems play a big role in formulating the students' worldview. By understanding these works with interest and enthusiasm, they understand the beauty of the environment and their lives, become morally enriched and become a perfect personality. Schoolchildren are closely getting acquainted with the life events, feelings and emotions of people through lyrical works. Lyric poems that need to be taught in high schools are always available in educational programs. And this requires literature teachers to work hard on themselves in methodological terms.

The ability to teach lyric poems on a scientific and methodological basis in classes V - IX is the most important task facing teachers. To understand poet’s poetry, the student needs special sensitivity, sophistication, and ability to deeply understand the author’s plans. The emotional impression of students while working on lyric poems deepens, it turns out the meaning of unfamiliar words. They study the meaning of words, as well as correct spelling and pronunciation. At the same time it enriches the student's vocabulary and speech. The analysis is carried out taking into account the initial perception of lyric works by pupils. It should be noted that lyric poems are still to be taught at primary grades. If the poems were taught in elementary classes properly on a theoretical basis, this would be a strong basis for learning lyrical poems in the upper classes. And lyrical poems taught on such a basis create stronger and more emotional feelings.

Key words: literature, teaching, integration, lyrics

Redaksiyaya daxil olma tarixi: 05.04.2019
Çapa qəbul olunma tarixi: 07.05.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Yaqub Babayev tərəfindən çapa tövsiyə olunmuşdur.

GÜLARƏ MƏMMƏDLİ
Bakı Slavyan Universiteti
Bakı şəhəri, S.Rüstəm 33
gulara@mail.ru

İSMAYIL ŞIXLI NƏSRİ MÜASİR TƏHLİLDƏ

Xülasə

İsmayıl Şıxlı XX əsr Azərbaycan ədəbiyyatında "Ayrılan yollar", "Dəli Kür" "Ölən dünyam" kimi möhtəşəm romanların müəllifidir. Eyni zamanda yazıçı çoxsaylı elmi, tənqidi, publisistik məqalələr yazmışdır. Həmin məqalələr ədəbiyyatın müxtəlif problemlərinə həsr olunmuşdur.

Müasir dövrümüzdə İsmayıl Şıxlının əsərlərinin yenidən araşdırılmasına, təhlil olunmasına böyük ehtiyyac vardır. Çünki yazıçının əsərləri ideoloji təsirlərə az məruz qalmışdır. Bu mənada yazıçı ustalığına, məharətinə təəccüblənməmək olmaz. İsmayıl Şıxlı hər bir əsərində yenilikçidir, novatordur. Yazıçının təsvir etdiyi obrazlar millidirlər, koloritlidirlər.

Onlar təkrar olunmazdırlar. Hər birinin ədəbiyyat tarixində müstəsna yeri vardır. Məqalədə məhz yuxarıda göstərilən problemlərin araşdırılması nəzərdə tutulmuşdur. Yazıçının gələcək yaradıcılıq yolunu məhz bu roman müəyyənləşdirmişdir.

Düzdür, "Dəli Kür" romanının onun yaradıcılığında müstəsna yeri və rolu vardır. Bu fikri ədəbi tənqid də dönə- dönə vurğulamışdır. "Ayrılan yollar" romanının ilk hissələri əvvəlcə "Azərbaycan" jurnalında, sonra isə ayrıca kitab şəklində çap olunmuşdur. İsmayıl Şıxlı ilk əvvəl fəhlə və kəndlilərin həyatından iri həcmli oçerk yazmağı planlaşdırırdı. Lakin sonradan fikrini dəyişdi. "Ayrılan yollar" romanı haqqında Mirzə İbrahimov və Mehdi Hüseyn dəyərli fikirlər söylədilər və əsəri 50-ci illər Azərbaycan nəsrinin böyük uğuru kimi dəyərləndirdilər.

Açar sözlər: *İsmayıl Şıxlı, nəsr, təhlil, müasir.*

İsmayıl Şıxlı XX əsr Azərbaycan ədəbiyyatında "Ayrılan yollar", "Dəli Kür", "Ölüləri qəbirstanlıqda basdırın", "Ölən dünyam" kimi möhtəşəm əsərlərin müəllifidir. Yazıçının hər bir əsəri XX əsr Azərbaycan ədəbiyyatında mühüm bir mərhələni təşkil edir.

İsmayıl Şıxlı sovet dövründə ideoloji təsirlərdən yan keçə bilmiş, əsrlərin sınağından çıxa biləcək əsərlər yaratmışdır. Müasir tədrisin əsas vəzifələrindən biri İsmayıl Şıxlının əsərlərini milli mənlik, həqiqət, düzlük, doğruluq kimi meyarlardan çıxış edərək araşdırmaqdır.

İsmayıl Şıxlının ilk iri həcmli əsəri "Ayrılan yollar" romanıdır. Yazıçının gələcək yaradıcılıq yolunu məhz bu roman müəyyənləşdirmişdir.

Düzdür, "Dəli Kür" romanının onun yaradıcılığında müstəsna yeri və rolu vardır. Bu fikri ədəbi tənqid də dönə- dönə vurğulamışdır. "Ayrılan yollar" romanının ilk hissələri əvvəlcə "Azərbaycan" jurnalında, sonra isə ayrıca kitab şəklində çap olunmuşdur. İsmayıl Şıxlı ilk əvvəl fəhlə və kəndlilərin həyatından iri həcmli oçerk yazmağı planlaşdırırdı. Lakin sonradan fikrini dəyişdi. "Ayrılan yollar" romanı haqqında Mirzə İbrahimov və Mehdi Hüseyn dəyərli fikirlər söylədilər və əsəri 50-ci illər Azərbaycan nəsrinin böyük uğuru kimi dəyərləndirdilər.

"Ayrılan yollar" romanında XX əsrin 40-50-ci illərindəki Azərbaycan kəndi təsvir olunmuşdur. Ancaq yazıçı 20-30-cu illərə qısaca da olsa ekskurs etməyi qarşısına məqsəd qoymuşdur və fikrimizcə buna tam şəkildə nail olmuşdur. İsmayıl Şıxlının qənaətinə görə Azərbaycan kəndində 50-60-cı və daha sonrakı illərdə baş verən sosial bəlaların kökünü müharibədən əvvəlki dövrlərdə- kollektivləşmə siyasətində axtarmaq lazımdır.

Yazıçı müxtəlif illərdə dərc etdirdiyi məqalələrdə yuxarıdakı fikri dönə- dönə vurğulayırdı. "Ayrılan yollar" romanında şərin, əyriliyin, oğurluğun, kolxozu talan etməyin, kəndin həqiqi zəhmətkeşlərini, əmək adamlarını əzməyin "mücəssəməsi" hesab edilən kolxoz sədri Qurban

Kosaoğlunu uzun müddət rəhbər vəzifədə işləməsi, yerini möhkəmlədib qalması təsadüfi ola bilməzdi. XX əsr Azərbaycan kəndinin Xudayar bəyi, Qurbanəli bəyi- Qurban Kosaoğlu cəzasızlıq mühitində yaşayıb işləmişdi.

Qurban Kosaoğlu kimilər tək deyildilər. Cəzasızlıq, nəzarətsizlik, özbaşınalıq mühitində onlar "yağışdan sonra bitən göbələklər kimi çoxalmışdılar". İsmayıl Şıxlının ustalığı və yazıçı kimi böyüklüyü ondan ibarətdir ki, o, Azərbaycan kəndini, eyni zamanda cəmiyyətini narahat edən problemləri qələmə almışdır. Fikrimizcə, ali və orta məktəblərdə ədəbiyyatın tədrisi zamanı yuxarıda göstərilən məqamlara xüsusi diqqət yetirilməlidir. Yeni tədris metodlarından və üsullarından istifadə məhz bunları nəzərdə tutur.

"Ayrılan yollar" romanında Qurban Kosaoğlunun etdiyi hərəkətləri, cinayətləri təsadüfi hesab etmək düzgün olmazdı. Qurban Kosaoğlunun keçmişi ləkəlidir.

Müharibədə sol qolunu qəsdən yaralamış, döyüş yoldaşlarını dar ayaqda qoymuş, "qəhrəman", dezertir kimi evlərinə qayıtmışdı. Məsələnin üstü açılanda həyat yoldaşı Sayalının qarşısında diz çökmüş, onu balalarının başına çevirməyi, güllələnməkdən qurtarmağı xahiş etmişdi.

Sayalının "kimlərisə görməsi" nəticəsində Kosaoğlu hərbi tribunaldan, güllələnməkdən canını qurtarmışdı. Kəndə, evlərinə qayıtdı. Əvvəlcə briqadir, sonra isə kolxoz sədri seçildi. İlk zamanlar hamıya yaxşılıq etdi. Əsgər ailələrinə xüsusi qayğı ilə yanaşdı. Qorxurdu ki, onun özünü qəsdən yaraladığını yuxarılara xəbər verərlər. Kosaoğlu yavaş- yavaş rayon rəhbərlərindən özünə dost tutmağa başladı. Müharibə illərində kişilərin əksəriyyəti cəbhəyə getmişdi. Çoxları müharibədən qayıtmadı. Qısa zaman kəsiyində Qurban Kosaoğlu kolxozun hesabına etdiyi "hörmətin", "yaxşılıqların" sayəsində çoxlarının and yeri oldu.

Beləliklə, dünənki dezertir bügünün "qəhrəmanına" çevrildi. Kosaoğlunun həyat yoldaşı Sayalı "özünün və ərinin keçmişini" tamamilə unutmuşdu. Kənddə "yeni ağalara" müqavimət göstərən, hüquqlarını tələb edən insanların müqavimətini amansızcasına qırır, onları cəzalandırır, təhqir edirdilər.

Nəsib kişinin və aqranomluğu yenicə qurtarmış İmranın kəndə gəlməsi "kəndin şəriksiz ağasının"- Qurban Kosaoğlunun kürkünə birə saldı. Nəsib kişinin, İmranın, Zeynəbin gərgin və inadlı mübarizəsi nəticəsində Kosaoğlu tutduğu vəzifədən uzaqlaşdırıldı, xalqa zidd əməlləri ifşa olundu. Doğrudan da İsmayıl Şıxlının "Ayrılan yollar" romanı, dövrü, zamanı qabaqlayan əsərdir. Fikrimizcə, yazıçının hər bir əsəri yenidən təhlil olunmağa, araşdırılmağa layiqdir. Müasir dövrdə ədəbiyyatın tədrisi zamanı bütün bu deyilənlərin nəzərə alınması vacibdir...

İsmayıl Şıxlının ikinci iri həcmli əsəri "Dəli Kür" romanıdır. Yazıçı roman üzərində təxminən on il işləmişdir. Əsərin ayrı- ayrı hissələri əvvəlcə "Azərbaycan" jurnalında çap olunmuşdur. "Dəli Kür" romanı dərhal tənqidçilərin və ədəbi ictimaiyyətin diqqətini cəlb etmişdir. Bir faktı vurğulamaq lazımdır ki, "Dəli Kür" romanı haqqında ədəbi mübahisələr və mülahizələr bu gün də davam edir.

Bəzi tənqidçilər və alimlər "Dəli Kür" romanını Azərbaycan bəylərinin və bəyliyinin süquta uğramasının səbəbləri haqqında əsər hsab edirdilər. Əlbəttə, bu fikrin tamamilə yalnış olduğunu söyləmək düzgün deyildir. Digər tərəfdən Azərbaycan bəyliyinin süquta uğraması səbəbləri Nəcəf bəy Vəzirovun "Müsibəti- Fəxrəddin", Əbdürrəhim bəy Haqverdiyevin "Dağılan tifaq", "Bəxtsiz cavan", və Cəlil Məmmədquluzadənin "Danabaş kəndinin əhvalatları", "Qurbanəli bəy" və digər yazıçıların əsərlərində aydın şəkildə göstərilmişdir. Fikrimizcə, İsmayıl Şıxlının "Dəli Kür" romanı daha geniş və əhatəli problemləri əks etdirmişdir. Eyni zamanda "Dəli Kür" romanı XIX əsr Azərbaycan həyatının ensiklopediyasıdır.

Əsər dünya ədəbiyyatının nadir incilərindən olan L.Tolstoyun "Hərb və sülh", M. Şoloxovun "Sakit Don", M. Auezovun "Abay", Ə. Nurpeisovun "Qan və tər" romanları ilə bir sırada dayanır. Romanın obrazlar silsiləsi zəngin və koloritlidir. Cahandar ağa, Zərnigar, Şamxal, Əşrəf, rus Əhməd və digərləri əhəmiyyətli dərəcədə fərqlənirlər, seçilirlər. İsmayıl Şıxlının "Dəli Kür" romanındakı təbiət təsvirləri ana yurdun, doğma Azərbaycanın füsunkar, əsrarəngiz gözəllikləri haqqında nağıldır, əfsanədir, balladadır. Romanın dili Azərbaycan dilinin zənginliklərini, üstünlüklərini özündə ehtiva edir. Ona görə də İsmayıl Şıxlının "Dəli Kür" romanı müasir tədris və

təlim metodlarına ən çox uyğun gələn əsərlərdəndir. Bu mənada roman hələ də öz tədqiqatçılarını gözləyir. Başqa sözlə desək, "Dəli Kür" romanı keşmişin, bugünün və gələcəyin əsəridir...

"Əsər iki baş qəhrəmanının – Cahandar ağanın və Kür çayının xarakterindəki yaxınlıqda, səsləşmədə daha aydın duymaq olar, hər iki surət mühitin səciyyəvi xüsusiyyətlərini özündə əks etdirir, qələmə alınan həyat tərzinin koloritinin təcəssümünə çevrilir" (3, s.143-144).

"Tragik pafos "Dəli Kür" romanında qəhrəmanların duyğu və düşüncələrinin geniş şəkildə ifadəsini şərtləndirən amillərdən biridir" (5, s.17).

"Ölən dünyam" romanı İsmayıl Şıxlının son əsəridir. Roman 1995- ci ildə yazılmışdır. Yazıçı müxtəlif səbəblərdən "Cəbhə gündəliyi", "Ayrılan yollar", "Dəli Kür" əsərlərində deyə bilmədiklərini "Ölən dünyam" romanında qələmə almışdır. Bəlkə də "Ölən dünyam" romanı yazıçının gələcək nəsillərə ağsaqqal məsləhəti, mənəvi vəsiyyətidir.

XX əsr Azərbaycan ədəbiyyatında heç bir əsəri xalqın tarixi keçmişi, faciəvi taleyi "Ölən dünyam" romanında olduğu qədər dəqiqliklə, geniş və əhatəli şəkildə əks etdirilməmişdir. Həm də əsər cəmiyyətdə baş verən siyasi hadisələr və insanlar haqqında həqiqətlər toplusudur. Doğrudan da İsmayıl Şıxlı bütün dövrlərdə siyasi, ideoloji təzyiqlərə, təhdidlərə baxmayaraq həqiqəti söyləmişdir. Həqiqət isə hər zaman acı olur. Bu mənada bir faktı vurğulamaq yerinə düşər ki, hər üçn əsər bir-biri ilə əlaqəlidir və müəllif mövqeyinin aydınlaşdırılmasına xidmət edir.

"Ölən dünyam" romanı XIX əsri, Müsavat hakimiyyətini və XX əsrin 20- 30- cu illərindəki Azərbaycanda sovet hakimiyyəti uğrunda gedən kəskin, barışmaz mübarizəni əhatə edir.

"Ölən dünyam" əsərində "Ayrılan yollar" və "Dəli Kür" romanlarında olduğu kimi zəngin, koloritli, mürəkkəb obrazlar sistemi vardır.

Ömər koxa Cahandar ağanın, Güllü xanım isə Zərnigar xanımın eynidir.

Digər iki əsərdən fərqli olaraq "Ölən dünyam" romanında yeni sosialist quruluşunun nümayəndələrinin- kommunistlərin obrazı təsvir edilmişdir.

İsmayıl Şıxlı ənənəvi yazıçı kredosuna sadiq qalaraq kommunist surətlərinin təsvirində də bədii və həyat həqiqətlərinə sadiq qalmışdır. Əlbəttə, "Ölən dünyam" romanında yoldaş Fətullayev və keçəl Xondulu obrazlarının təhlilinə geniş yer verilmişdir. Onlar yeni sovet quruluşunun "tipik nümayəndələridir". Fətullayev və keçəl Xondulu heç kimə rəhm etmirlər, hər yerdə gözlərinə "nüzür ünsürlər", "sinfi düşmənlər" görünür.

"Ayrılan yollar" romanında Qurban Kosaoğlunun etdiyi hərəkətləri, cinayətləri təsadüfi hesab etmək düzgün olmazdı. Qurban Kosaoğlunun keçmişi ləkəlidir. Müharibədə sol qolunu qəsdən yaralamış, döyüş yoldaşlarını dar ayaqda qoymuş, "qəhrəman", dezertir kimi evlərinə qayıtmışdı. Məsələnin üstü açılanda həyat yoldaşı Sayalının qarşısında diz çökmüş, onu balalarının başına çevirməyi, güllələnməkdən qurtarmağı xahiş etmişdi.

Sayalının "kimlərisə görməsi" nəticəsində Kosaoğlu hərbi tribunaldan, güllələnməkdən canını qurtarmışdı. Kəndə, evlərinə qayıtdı. Əvvəlcə briqadir, sonra isə kolxoz sədri seçildi. İlk zamanlar hamıya yaxşılıq etdi. Əsgər ailələrinə xüsusi qayğı ilə yanaşdı. Qorxurdu ki, onun özünü qəsdən yaraladığını yuxarılara xəbər verərlər. Kosaoğlu yavaş- yavaş rayon rəhbərlərindən özünə dost tutmağa başladı. Müharibə illərində kişilərin əksəriyyəti cəbhəyə getmişdi. Çoxları müharibədən qayıtmadı. Qısa zaman kəsiyində Qurban Kosaoğlu kolxozun hesabına etdiyi "hörmətin", "yaxşılıqların" sayəsində çoxlarının and yeri oldu.

Bəzi tənqidçilər və alimlər "Dəli Kür" romanını Azərbaycan bəylərinin və bəyliyinin süquta uğramasının səbəbləri haqqında əsər hsab edirdilər. Əlbəttə, bu fikrin tamamilə yalnış olduğunu söyləmək düzgün deyildir. Digər tərəfdən Azərbaycan bəyliyinin süquta uğraması səbəbləri Nəcəf bəy Vəzirovun "Müsibəti- Fəxrəddin", Əbdürrəhim bəy Haqverdiyevin "Dağılan tifaq", "Bəxtsiz cavan", və Cəlil Məmmədquluzadənin "Danabaş kəndinin əhvalatları", "Qurbanəli bəy" və digər yazıçıların əsərlərində aydın şəkildə göstərilmişdir. Fikrimizcə, İsmayıl Şıxlının "Dəli Kür" romanı daha geniş və əhatəli problemləri əks etdirmişdir. Eyni zamanda "Dəli Kür" romanı XIX əsr Azərbaycan həyatının ensiklopediyasıdır.

Beləliklə, dünənki dezertir bügünün "qəhrəmanına" çevrildi. Kosaoğlunun həyat yoldaşı Sayalı "özünün və ərinin keçmişini" tamamilə unutmuşdu. Kənddə "yeni ağalara" müqavimət

göstərən, hüquqlarını tələb edən insanların müqavimətini amansızcasına qırır, onları cəzalandırır, təhqir edirdilər.

Kommunist Kabı Kəsəmənli və qəza firqə (partiya) komitəsinin sədri Abdal kişi də yeni quruluşun insanları xoşbəxt edəcəyinə əmindirlər. Və bu yolda canlarından keçməyə hazırdırlar. Həm də onlar ədalətlidirlər, insaflıdırlar, vicdanlıdırlar. Ən başlıcası isə milli və yerli xüsusiyyətləri nəzərə alırlar. Bilirdilər ki, insanlar bir- birilərinə qırılmaz tellərlə bağlıdırlar. Ucdantutma hamını həbs edib cəzalandırmaq düzgün deyildir.

Fikrimizcə, İsmayıl Şıxlının "Ölən dünyam" romanında kommunist, əqidəli bolşevik Kabı Kəsəmənlinin dili ilə dediyi "əməl var ki, danlarlar, əməl var ki, damlarlar" sözlərində dövrün sərt və acı həqiqətləri "gizlənmişdir". Eyni zamanda bunlar 20- 30- cu illərdə və sonrakı illərdə baş verən qanunsuzluqlara və 37-ci ilin hadisələrinə açar rolunu oynayır.

Bu mənada İsmayıl Şıxlının və digər yazıçıların əsərlərinin yenidən nəzərdən keçirilərək təhlil olunmasında müasir tədrisin rolu əvəzsizdir.

Ədəbiyyat:

1. İmanov M. Müasir Azərbaycan nəsrində psixologizm. Bakı, Elm, 1991, 136 s.
2. İsmayılov Y. İsmayıl Şıxlı. Həyatı, mühiti, sənəti. Bakı: Ayna Mətbu Evi, 1999, 223 s.
3. Hüseynov A. Müxtəliflilyin birliyi. Bakı, Yazıçı, 1983, 250 s.
4. Şıxlı İ. Daim axtarışda. B.: Yazıçı, 1988, 360 s.
5. Şıxlı İ. Seçilmiş əsərləri. İki cilddə. II cild. Bakı, Şərq-Qərb, 2005, 400 s.
6. Şıxlı İ. Seçilmiş əsərləri. İki cilddə. I cild. Bakı, Şərq-Qərb, 2005, 405 s.

G.Mammadli

Ismail Shikhli's prose and methods of analysis

Summary

Ismayil Shikhli is the author of great novels such as "Divisible Ways", "Dali Kür", "My Dead World" in the 20th century of Azerbaijani literature.

At the same time, the writer has written numerous scientific, critical, publicist articles. Ismail Shikhli is an innovator. The images depicted by the writer are national and colouring. They are unrepeatable. Each has a unique place in the history of literature. The article examines the above-mentioned problems.

These articles are devoted to various problems of literature. In modern times, there is a great need to re-examine and analyze Ismayil Shikhli's prose. Because the writer's prose was less exposed to ideological influences.

In this sense, we should not be surprised by the skill of the writer. Ismail Shikhli is an innovator. The images depicted by the writer are national and colouring. They are unrepeatable. Each has a unique place in the history of literature.

The article examines the above-mentioned problems. In modern times, there is a great need to re-examine and analyze Ismayil Shikhli's prose. Because the writer's prose was less exposed to ideological influences. In this sense, we should not be surprised by the skill of the writer.

Keywords: *Ismayil Shikhli, prose, analysis, modern*

Г.Мамедли

Проза Исмаила Шихлы в современном анализе
Резюме

Исмаил Шихлы в азербайджанской литературе XX века является автором таких романов, как «Дороги расходятся», «Буйная Кура» и «Мой мир умерший». Одновременно писатель написал множество научных, критических, публицистических статей.

Исмаил Шихлы в каждом новом произведении новатор. Изображенные писателем образы колоритные, национальные. Одновременно они – неповторимые. Каждый их них играет особую роль в истории азербайджанской литературы. В данной статье предусмотрено анализировать вышеназванные проблемы.

Эти статьи посвящены многочисленным проблемам литературы. В настоящее время настала необходимость заново анализировать произведение Исмаила Шихлы. Потому что идеологические воззрения очень мало повлияли на творчество писателя. В этом смысле невозможно не удивляться умению и художественному мастерству писателя.

Исмаил Шихлы в каждом новом произведении новатор. Изображенные писателем образы колоритные, национальные. Одновременно они – неповторимые. Каждый их них играет особую роль в истории азербайджанской литературы. В данной статье предусмотрено анализировать вышеназванные проблемы.

Ключевые слова: *Исмаил Шихли, проза, анализ, модерн.*

Redaksiyaya daxil olma tarixi: 05.04.2019
Çapa qəbul olunma tarixi: 08.05.2019
Filologiya elmləri doktoru, professor Fərəh Cabbar qızı Cəlil tərəfindən çapa tövsiyə olunmuşdur.

MÜNDƏRİCAT

DİLÇİLİK

ƏSMƏTXANIM MƏMMƏDOVA
FARS DİLİNDƏ [m] SONANTİNİN DİSTRİBUTİV VƏ FONETİK XÜSUSİYYƏTİ 3
NABAT CƏFƏROVA
AZƏRBAYCAN DİLİNİN TƏDRİSİNDƏ İNNOVATİV TƏLİM METODLARINDAN İSTİFADƏ 9
НАРГИЗ СЕИДОВА
ОСОБЕННОСТИ РЕЧЕВОГО АКТА ПРОКЛЯТИЯ В МИРОВОМ ФОЛЬКЛОРЕ И НАРОДНЫХ ПОВЕРЬЯХ 14
ARİFƏ YUSİFOVA
RƏFİQ CƏFƏROV
MƏDƏNİYYƏTLƏARASI ƏLAQƏDƏ DİLİN İNKİŞAFI VƏ NİTQ MƏDƏNİYYƏTİNİN BƏZİ XÜSYSİYYƏTLƏRİ HAQQINDA 19
NURİYYƏ ƏLİYEVA
DİL FAKÜLTƏLƏRİNDƏ ŞİFAHİ NİTQ VƏRDİŞLƏRİNİN İNKİŞAF ETDİRİLMƏSİNDƏ KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN ROLU 24
ŞƏLALƏ MƏMMƏDOVA
FEİLİ LEKSEMLƏRDƏ POLİSEMİYANIN MEYDANA ÇIXMASI ŞƏRAİTİ VƏ SƏBƏBLƏRİ 29
SONA İSKƏNDƏROVA
MÜQAYİSƏ DƏRƏCƏLƏRİ KATEQORİYASI VƏ İSİM 34
ZİBA BADALOVA
THE ROLE OF PHRASEOLOGICAL UNITS IN ENRICHING THE ENGLISH LANGUAGE 40
NAİLƏ ƏHMƏDLİ
THE ROLE OF INVERSION IN THE INFORMATION STRUCTURE OF ENGLISH TEXT 45
BİKƏXANIM QURBANOVA
AZƏRBAYCANDA MULTIKULTURALİZM VƏ DIL SİYASƏTİ 50
TƏRANƏ İSMAYILOVA
GÜNDƏLİK –MƏİŞƏT (DANIŞIQ) ÜSLUBU 55
NƏRGİZ ƏLƏKBƏROVA
MÜXTƏLİF SİSTEMLİ DİLLƏRDƏ TEZLİK LÜĞƏTLƏRİNİN STRUKTUR XÜSUSİYYƏTLƏRİ 60
İRADƏ BƏYLƏROVA
İNGILİS DİLİNDƏ OLAN BƏZİ MÜRƏKKƏB İSIMLƏRİN STRUKTUR-SEMANTİK XÜSUSİYYƏTLƏRİ 71
ВАФА ТАГИЗАДЕ
КЛАССИФИКАЦИЯ ТИПИЧНЫХ ПРОИЗНОСИТЕЛЬНЫХ ОШИБОК В РУССКОЙ РЕЧИ СТУДЕНТОВ - АЗЕРБАЙДЖАНЦЕВ 76
ФАНЬ ЦЗЯ ХАО
КЛАССИФИКАЦИЯ ОРФОГРАФИЧЕСКИХ ОШИБОК, ДОПУСКАЕМЫХ В РУССКОЙ ПИСЬМЕННОЙ РЕЧИ НЕРУССКИХ СТУДЕНТОВ 82
ДЖАВАИР ГУСЕЙНОВА
ПРИМЕНЕНИЕ СОПОСТАВИТЕЛЬНОГО АНАЛИЗА КАК СРЕДСТВА ИЗЛОЖЕНИЯ НОВОГО МАТЕРИАЛА В МЕТОДИКЕ ПРЕПОДАВАНИЯ РКИ 88
ŞƏHLA SÜLEYMANOVA
FRANSIZ DILINDƏ ONOMATOPIYALAR VƏ ONLARIN FORMALAŞMASI, TƏSNIFATI VƏ IŞLƏNMƏ ÇALARLARINA DAIR 94

CƏMİLƏ BƏHLULOVA
SEVİL TAĞIYEVA
İNGİLİS DİLİNDƏ SABİT SÖZ BİRLƏŞMƏLƏRİNİN LEKSİK-SEMANTİK
VƏ MORFOLOJİ XÜSUSİYYƏTLƏRİ 99
VÜSALƏ MƏMMƏDOVA
MORFOLOGIYANIN FƏAL INTERAKTIV TƏLIM METODLARI ILƏ TƏDRIS
METODIKASI 104
İRADƏ ƏLIYEVA
AZƏRBAYCAN VƏ İNGİLİS DİLİNDƏ ƏDATLARIN LEKSİK-SEMANTİK
XÜSUSİYYƏTLƏRİ 109
XOŞQƏDƏM HÜSEYNZADƏ
DIE BILDHAFTIGKEIT DER SPRICHWÖRTER UND IHRE AUSDRUCKSFORMEN 115
SALATIN AĞAYEVA
İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ TERMİN-SÖZ BİRLƏŞMƏLƏRİ VƏ
ONLARIN ƏSAS XÜSUSİYYƏTLƏRİ 121
TURANƏ QURBANOVA
MƏTNİN FORMALAŞMASINDA RETROSPEKSİYA
VƏ PROSPEKSİYANIN ƏHƏMİYYƏTİ 126
NARGİLƏ ABDULLAYEVA
MÜSTƏQİLLİK İLLƏRİNDƏ AZƏRBAYCAN LÜĞƏTŞÜNASLIĞININ
BƏZİ NAİLİYYƏTLƏRİ HAQQINDA QEYDLƏR 131

ƏDƏBİYYATŞÜNASLIQ

FƏRİDƏ VƏLİYEVA
XIII-XV ƏSRLƏR ANADİLLİ
TÜRK POEZİYASINDA TƏRİQƏTLƏR 137
LEYLA ABASOVA
KİTAB NƏŞRİNDƏ TƏLƏBAT VƏ TƏKLİF PROBLEMİNİN UYĞUNLAŞDIRILMASI 144
GÜLÇIN BABAYEVA
MƏHƏMMƏD FÜZULİ İRSİNİN
TƏDQİQ TARİXİNDƏN 153
НАИЛЯ ТАГИЕВА
Н.В.ХАНЫКОВ О ХАГАНИ ШИРВАНИ 159
QƏDİM QUBADOV
FÜZULİNİN ƏDƏBİ TƏSİRİ 164
CƏVAHİR QƏHRƏMANOVA
XX ƏSRIN ƏVVƏLƏRINDƏ AZƏRBAYCAN UŞAQ ƏDƏBİYYATI 170
GÜNEL XIDIRLI
XƏSTƏ HASAN LİRIKASINDA MƏZMUN ZƏNGINLİYİ 175
ŞAHNAZ ABDULLAYEVA
OSKAR UAYLDIN "BÜLBÜL VƏ QIZILGÜL" NAĞILINDA ŞƏRQ MOTİVLƏRİ 182
TAMARA ƏLİZADƏ
AZƏRBAYCANIN MILLI BAYRAMI - NOVRUZ 187
AYTƏN MUŞKIYEVA
AZƏRBAYCAN ƏDƏBİYYATININ DÖVRLƏŞDİRİLMƏSİ MƏSƏLƏLƏRİ 192
GÜNEL SAHIBLI
ƏDƏBİYYAT DƏRSLƏRİNDƏ BƏDİİ ƏSƏRLƏRİN MƏZMUNUNUN
MƏNİMSƏDİLMƏSİ YOLLARI 197
AYTAJ ABDULLAYEV
DIVERSITY OF WOMEN WRITINGS IN AMERICAN LITERATURE OF 20TH CENTURY
(Toni Morrison – Be loved) *202*
XƏYALƏ MÜRSƏLİYEVA
QAFQAZ TÜRK DASTANLARININ BEŞIYI KİMİ 207

İLAHƏ QAÇAYEVA
AŞIQ VƏ MƏŞUQ OBRAZLARININ TƏSƏVVÜFI-ÜRFANI SEMANTIKASI 212
ZÜMRÜD RƏSULZADƏ
QUSTAV FLOBERIN "MADAM BOVARI" VƏ "SADƏLÖVH" ƏSƏRLƏRINDƏ
QADININ MƏNƏVI-RUHI ALƏMININ TƏSVIRI 218
GÖZƏL ƏLƏKBƏRLI
İNGILIS ROMANTIZMINDƏ "GÖL MƏKTƏBI"NIN YERI VƏ ROLU 223
УСНИЯ АЛИЕВА
О ПЕРЕВОДЧЕСКОМ РЕШЕНИИ НАЦИОНАЛЬНО-КУЛЬТУРНЫХ РЕАЛИЙ 228
AYTƏN İSGƏNDƏRZADƏ
ƏDƏBİ MATERIALLARIN MƏNİMSƏNILMƏSİNDƏ FƏNLƏRARASI
ƏLAQƏLƏRIN ROLU 234
SAMIRA HACIYEVA
A VIEW TO HISTORY IN SHAKESPEARE'S HISTORICAL DRAMAS 240
ABBASƏLI HƏSƏN ƏHMƏDOĞLU
DƏDƏ QORQUD KİTABININ DREZDEN NÜSXƏSİ ƏLYAZMASININ OXUNUŞ
MƏSƏLƏLƏRİ 246
ZEYNƏB İBRAHIMOVA
XX ƏSR TÜRKİYƏ ƏDƏBİYYATINDA ÖZGƏLƏŞMƏ PROBLEMİ 251
ADİLƏ SADIXOVA
MEHMET AKIF BIR ICTIMAI XADİM KİMİ 257
GÜLNAR RZAYEVA
AMERIKA ƏDƏBI MÜHITINDƏ MƏNƏVI-ƏXLAQI PROBLEMLƏRIN TƏCƏSSÜM
XÜSUSIYYƏTLƏRI 263
TƏRANƏ RÜSTƏMOVA
TƏMSİL SEYİD ƏZİM YARADICILIĞININ BİR QOLU KİMİ 271
FƏXRƏDDİN EYLAZOV
ƏLYAZMA KİTABLARIN BƏDİİ TƏRTİBATI 277
FİRƏNGİZ RÜSTƏMOVA
XALQ TƏBABƏTİNİN İZİ İLƏ: AĞCAQAYIN, DAZIOTU, ƏNGİNAR, ƏRKÜDE 282
ÜLKƏR DADAŞOVA
İRAQ-TÜRKMAN LİRİK FOLKLORUNUN POETİKASI 289
LATIFA AHMADOVA
"ROBINSON CRUCOE" BY DANIEL DEFOEE AND
ITS LITERARY VALUE 294
SEVINC MƏHƏRRƏMOVA
ŞAH XƏTAİNİN YARADICILIĞINDA NƏFƏS JANRI 299
СЕВИНДЖ АЛИЕВА
СИМВОЛЫ И ИХ ЗНАЧЕНИЯ В ПЕРИОД АНТИЧНОСТИ 305
LƏMAN QURBANOVA
YAZIÇILAR İNTİHAR LABİRİNTİNDƏ 311
AYNUR ADIGÖZƏLOVA
LİRİK ƏSƏRLƏRİN TƏDRISI YOLLARI (V-IX SİNİFLƏR) 319
GÜLARƏ MƏMMƏDLİ
İSMAYIL ŞIXLI NƏSRİ MÜASİR TƏHLİLDƏ 324

«Elm və təhsil» **nəşriyyatının direktoru:**
professor **Nadir MƏMMƏDLİ**

Dizayn: **Kamran İbrahimov**
Texniki redaktor: **Yadigar Mirbagırzadə**

Çapa imzalanmış .18. 05 2019.
Şərti çap vərəqi 20,5 Sifariş № 7
Kağız formatı 70x100 1/16. Tiraj 300.

jurnal ***"Elm və təhsil"*** *nəşriyyat-poliqrafiya müəssisəsində*
elektron nüsxə əsasında çap olunmuşdur.
E-mail: elm. ve. tehsil@mail. ru
Tel: 497-16-32; 055 426 -72-27
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.